BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# YAXIN ŞƏRQDƏ ERMƏNİ DİASPORU

## Tarixi, dini, siyasi, mədəni, media, təhsil və sosial fəaliyyətləri

Lalə Xəlilzadə



BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# YAXIN ŞƏRQDƏ ERMƏNİ DİASPORU

## Tarixi, dini, siyasi, mədəni, media, təhsil və sosial fəaliyyətləri

Müəllif: Lalə Xəlilzadə

Bakı-2025

**Yaxın Şərqdə erməni diasporu**
**Tarixi, dini, siyasi, mədəni, media, təhsil və sosial fəaliyyətləri**

**Müəllif:** Lalə Xəlilzadə

**Layihə rəhbəri:** Fərid Şəfiyev
**Elmi redaktor:** Fərda Əsədov
**Redaktor:** Aqşin Məmmədov
**Dizayner:** İntiqam Məhəmmədli

BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

AZ 1100, Azərbaycan, Bakı, Mirzə İbrahimov 8
Telefon: (+994 12) 596-82-39, (+994 12) 596-82-41,
E-poçt: info@aircenter.az | www.aircenter.az

# MÜNDƏRİCAT

**GİRİŞ** ........ 5

**I FƏSİL**
**LİVANDA ERMƏNİ DİASPORU** ........ 7
Livanın erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət ........ 7
Livanda dini balans ........ 9
Livan ermənilərinin konfessional konfiqurasiyası ........ 14
Erməni icmasının Livanın siyasi həyatında fəaliyyəti ........ 18
Livanda fəaliyyət göstərən erməni partiyaları ........ 25
Livanda fəaliyyət göstərən erməni kütləvi informasiya vasitələri ........ 32
Livan ermənilərinin Ermənistandakı yatırımları ........ 34
Livan ermənilərinin sosial-mədəni fəaliyyətləri ........ 36
Məşhur Livan erməniləri ........ 40
İşğal dövründə Qarabağda yaşayan Livan erməniləri ........ 41
Nəticə ........ 42

**II FƏSİL**
**FƏLƏSTİNDƏ ERMƏNİ DİASPORU** ........ 46
Fələstinin erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət ........ 46
Fələstində dini balans ........ 48
Qüds ermənilərinin konfessional konfiqurasiyası ........ 50
Qüdsün dörd məhəlləsi ........ 55
Erməni icmasının Fələstinin siyasi həyatında fəaliyyəti ........ 59
Erməni icmasının Fələstin iqtisadiyyatında fəaliyyəti ........ 61
Erməni icmasının Fələstinin mədəni həyatında fəaliyyəti ........ 63
Fələstində erməni icmasına aid təhsil müəssisələri və təşkilatları (klublar) ........ 65
Fələstin-Ermənistan əlaqələri ........ 65
İkinci Qarabağ müharibəsində Qüds ermənilərinin fəaliyyətləri ........ 66
İsrail-Həmas müharibəsinin Fələstinin erməni icmasına təsirləri ........ 69
Nəticə ........ 71

**III FƏSİL**
**SURİYADA ERMƏNİ DİASPORU** ........ 74
Suriyanın erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət ........ 74
Suriyada dini balans ........ 76
Suriya ermənilərinin konfessional konfiqurasiyası ........ 79
Erməni icmasının Suriyanın siyasi həyatında fəaliyyəti ........ 83

Suriyada fəaliyyət göstərən erməni kütləvi informasiya vasitələri ........................87
Erməni icmasının Suriya iqtisadiyyatında fəaliyyəti ................................................89
Erməni icmasının Suriyanın mədəni həyatında fəaliyyəti ........................................90
Suriya-Ermənistan əlaqələri ....................................................................................92
Bəşər Əsəd dövründə Suriyanın antitürk mövqeyi ..................................................95
Suriyada vətəndaş müharibəsinin erməni icmasına təsirləri ..................................97
Suriyada Bəşər Əsəd hökumətinin devrilməsinin ölkənin erməni
icmasına təsirləri ......................................................................................................99
Nəticə ......................................................................................................................100

**IV FƏSİL**
**MİSİRDƏ ERMƏNİ DİASPORU** ............................................................................104
Misirin erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət ..........................104
Misirdə dini balans ..................................................................................................107
Misir ermənilərinin konfessional konfiqurasiyası ..................................................110
Erməni icmasının Misirin siyasi həyatında fəaliyyəti ............................................112
Misirdə fəaliyyət göstərən erməni partiyaları və mətbu orqanları .......................118
Erməni icmasının Misir iqtisadiyyatında fəaliyyəti ...............................................119
Erməni icmasının Misirin təhsil və sənaye sahələrində fəaliyyəti ........................120
Erməni icmasının Misirin mədəni həyatında fəaliyyəti ..........................................123
Misir-Ermənistan əlaqələri .....................................................................................124
Misir və Ermənistan arasında iqtisadi əlaqələr .......................................................127
Nəticə ......................................................................................................................130

**V FƏSİL**
**İORDANİYADA ERMƏNİ DİASPORU** ...................................................................133
İordaniyada erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət ................133
İordaniyada dini balans ...........................................................................................135
İordaniya ermənilərinin konfessional konfiqurasiyası ...........................................137
Erməni icmasının İordaniyanın siyasi həyatında fəaliyyəti ...................................139
İordaniyada fəaliyyət göstərən erməni təşkilatları ................................................140
Erməni icmasının İordaniya iqtisadiyyatında fəaliyyəti ........................................141
Erməni icmasının İordaniyanın təhsil sahəsində fəaliyyəti ...................................142
Erməni icmasının İordaniyanın mədəni həyatında fəaliyyəti .................................144
İordaniya-Ermənistan əlaqələri ..............................................................................145
İordaniya və Ermənistan arasında iqtisadi əlaqələr ...............................................147
İkitərəfli əlaqələr Azərbaycan kontekstində ...........................................................149
Nəticə ......................................................................................................................150

**ÜMUMİ NƏTİCƏ** ..................................................................................................153

# GİRİŞ

Beynəlxalq münasibətlər sistemində dövlətlərin daxili və xarici siyasətinə təsir edən mühüm amillərdən biri də müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor və etnik icmalardır. Onların lobbiçilik fəaliyyətləri, iqtisadi və siyasi təsir imkanları bir çox hallarda yerləşdikləri ölkələrin qərar qəbul etmə proseslərinə müdaxilə etməyə, həmçinin mənsub olduqları dövlətlərin siyasətinə istiqamət verməyə şərait yaradır. Məhz bu kontekstdə dünya üzrə geniş şəkildə təşkilatlanmış erməni diasporunun fəaliyyəti diqqəti cəlb edir. Bu diaspor strukturu uzun illərdir ki, təkcə Ermənistanın xarici siyasətinə deyil, eyni zamanda daxili siyasətinə də yönverici və bəzən manipulyativ təsir göstərən bir amil kimi çıxış etmiş və hazırda da çıxış etməkdə davam edir.

Erməni diasporunun ən geniş yayıldığı regionlardan biri də Yaxın Şərqdir. Sözügedən diasporun Yaxın Şərq ölkələrinə yayılması müxtəlif tarixi proseslər nəticəsində baş verən köçlərlə yanaşı, siyasi sabitlik və daha yaxşı iqtisadi imkanlar axtaran ermənilərin miqrasiyası ilə əlaqəli olmuşdur. Müxtəlif siyasi, dini və sosial təlatümlər fonunda formalaşan Yaxın Şərqdəki erməni icması bir tərəfdən öz mədəniyyət və adət-ənənələrini qoruyub saxlamış, digər tərəfdən məskunlaşdığı ölkələrin iqtisadi, təhsil, incəsənət və sosial həyatında fəal iştirak etmişdir. Zamanla bu icma regionun geosiyasi proseslərində də əhəmiyyətli rol oynamış və Ermənistan Respublikası ilə yanaşı, digər ölkələrdəki erməni icmaları ilə müxtəlif sahələrdə əlaqələr qurmuşdur.

Nəticədə, bu əlaqələr şəbəkəsi XX əsrdə Azərbaycan xalqına qarşı törədilən soyqırım, kütləvi qırğın və terror hadisələri barədə qərəzli və uydurma məlumatların yayılmasına, eləcə də beynəlxalq ictimai rəyə təsir göstərən saxta tarixi narrativləri sistemli şəkildə təşviq etməyə xidmət etmişdir.

Yaşadıqları ölkələrin sosial-siyasi mühitinə inteqrasiya olunmağa çalışan erməni icmaları eyni zamanda xarici ölkələrdəki diaspor qurumları ilə əsasən qondarma “erməni soyqırımı” iddiaları və bu hadisələrin guya səbəbkarı olan xalqlara və dövlətlərə qarşı düşmənçilik hissləri ilə birləşmişdir. Bu cür ideoloji özünüdərk yanaşması isə tez-tez Ermənistanın qonşu dövlətlərlə qarşılıqlı anlaşma, əməkdaşlıq və sabitlik siyasəti ilə ziddiyyət təşkil etmiş və nəticə etibarilə regionda

sülhə maneə yaradan ideoloji baryerlərin formalaşmasına səbəb olmuşdur.

Hazırda qloballaşma şəraitində erməni diasporu mədəni identikliyini qorumaq və digər erməni icmaları ilə əlaqələri gücləndirmək məqsədilə dövlət qurumları və beynəlxalq təşkilatlar arasında əməkdaşlığa əsaslanan müxtəlif inteqrasiya və inkişaf strategiyaları həyata keçirməkdə davam edir. Bununla yanaşı, Yaxın Şərqdə fəaliyyət göstərən erməni icmasının bəzi üzvləri bu ölkələrdə terror fəaliyyətləri ilə məşğul olaraq, regiondakı digər radikal təşkilatlarla qarşılıqlı əlaqələr qurmuş və Azərbaycan-Ermənistan müharibələri zamanı döyüş meydanlarında iştirak etmişlər. Bu cür fəaliyyətlər keçmiş Ermənistan-Azərbaycan münaqişəsi kontekstində region ölkələrinin Azərbaycanla münasibətlərinə mənfi təsir göstərməyə yönəlmişdir.

Bu araşdırmada Yaxın Şərqdə erməni icmasının ən geniş yayıldığı beş ölkə **– Livan, Fələstin, Suriya, Misir və İordaniya** – üzrə erməni diasporunun tarixi konteksti, əsas siyasi, ictimai və mədəni fəaliyyət istiqamətləri, təsir dairələri və potensial imkanları təhlil edilmiş, eləcə də müasir siyasi və sosial istiqamətdə perspektivləri və çağırışları araşdırılmışdır. Eyni zamanda, Yaxın Şərqdə fəaliyyət göstərən tanınmış erməni mənşəli ictimai və siyasi xadimlərin qısa bioqrafiyaları hazırlanmış, onların sosial və mədəni həyatda oynadıqları rol təhlil edilmişdir.

Araşdırmanın mühüm istiqamətlərindən biri də erməni diasporunun media fəaliyyətləri olmuşdur. Belə ki, adıçəkilən ölkələrdə yaşayan erməni icmasının nümayəndələrinin nəşr etdikləri kitablar, jurnal və qəzetlər, xüsusilə Qarabağ müharibəsi dövründə ərəbdilli auditoriyaya yönəlmiş təbliğat kampaniyaları və qondarma "erməni soyqırımı" ilə bağlı yaydıqları məlumatlar əhatəli şəkildə təhlil edilmişdir.

Bu məqsədlə araşdırmada yalnız ərəbdilli mənbələrlə kifayətlənilməmiş, eyni zamanda türk, ingilis, rus, erməni, alman və fransız dillərindəki mənbələrdən də istifadə edilmişdir. Bu yanaşma erməni diasporunun müxtəlif dillərdə və mədəniyyətlər müstəvisində apardığı fəaliyyətləri və təsir imkanlarını daha geniş miqyasda anlamağa şərait yaratmışdır.

# I Fəsil

# LİVANDA ERMƏNİ DİASPORU

## Livanın erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət

Livan Yaxın Şərqdəki ermənilərin ən geniş yayıldığı və icma kimi strukturlaşdığı ölkədir. Bəzi erməni və ərəb mənbələrinə əsasən, Yaxın Şərqdə, eləcə də Livanda yaşayan ermənilərin böyük əksəriyyəti Birinci Dünya müharibəsindən sonra bu ərazilərə yerləşmişdir. Həmin vaxt Livana 40 minə yaxın erməni köçmüşdür.

**Erməni yazıçısı Raffi Corciyan 2013-cü ildə fransız dilində[1] yazdığı "Livanda erməni kilsələri" kitabında[2]** ermənilərin Livanda məskunlaşması tarixinin daha əvvəlki əsrlərə gedib çıxdığını qeyd etmişdir. Belə ki, o, ermənilərin Livan sahillərinə səlibçilərlə birlikdə çatdığını (XI-XIII əsrlər) və Səlib şahzadələrinin Ermənistandan olan şahzadələrlə evləndiklərini bildirmişdir. Həmçinin o, əsrlər boyu erməni zəvvarların Qüdsə gedən yollarının Livandan keçdiyini qeyd etmişdir.

1923-cü ilin statistik göstəricilərinə görə, paytaxt Beyrutda 80 min erməni yaşamışdır. 1925-ci ildə isə ermənilər Beyrut əhalisinin 67 faizini təşkil etmişdilər. 1970-ci ilə qədər Livanda ermənilərin sayı 250-300 minə qədər artmış, lakin 1975-1990-cı illərdə çoxsaylı vətəndaş müharibələrindən sonra onların sayı 140-150 minədək azalmışdır.[3] [4]

1 تقديم وتوقيع كتاب "الكنائس الأرمنية في لبنان" لرافي جرجيان في معهد القديس غريغوريوس المنور للآباء اليسوعيين - (Rafi Corciyanın Müqəddəs Qriqori İnstitutunda Yezuit Ataları üçün təşkil edilmiş "Livandakı erməni kilsələri" kitabının təqdimatı və imzalanması), 15 may 2021, كنائس الأرمن في لبنان»: قصة طائفة»

2 كنائس الأرمن في لبنان»: قصة طائفة - ("Livandakı erməni kilsələri: bir təriqətin hekayəsi"), 23 iyul 2011, https://al-akhbar.com/Archive_Turath/94987 - "Les Églises Arméniennes du Liban" – "Livanda erməni kilsələri" https://www.goodreads.com/book/show/33404641-les-glises-arm-niennes-du-liban,

3 World Directory of Minorities and Indigenous Peoples, Updated June 2008, (Access date: 12 February 2025), https://web.archive.org/web/20140222064559/http://www.minorityrights.org/5058/lebanon/lebanon-overview.html

4 "What Is The Ethnic Composition Of Lebanon?", 29 August 2019, What Is The

Hazırda 6 milyona yaxın əhalisi olan[5] **Livanda 70 minə yaxın erməni yaşayır.**[6] Onlar ölkə əhalisinin təxminən 1 faizini təşkil edirlər. 2000-ci ilin statistik göstəricilərinə əsasən, bu rəqəm 6.8 faiz təşkil etmişdir[7]. Ermənistanın Diaspor Nazirliyinin yaydığı məlumatda 2015-ci ildə Livanda 230 min ermənının yaşadığı qeyd edilmişdir.[8] 2019-cu ildə isə ermənilər Livan əhalisinin 4 faizini təşkil edirdilər.[9] Rəqəmlərə nəzər saldıqda Livanda yaşayan ermənilərin sayının zamanla dəyişikliklərə məruz qaldığı, illər keçdikcə azaldığı müşahidə edilmişdir. Livan erməniləri əsasən ölkənin **Beyrut** və **Tripoli** şəhərlərində, **Burc-Həmmud, Əncar, Mətn** və **Zəhlə** bölgələrində məskunlaşıblar.[10]







**Şəkil 1. Livan ermənilərinin yaşadığı bölgələr**[12]

**Şəkil 2. Livanın etnik tərkibi**[11]

---

Ethnic Composition Of Lebanon? - WorldAtlas

5 لبنان.. أرض الأَرْز والحضارات الغابرة (Livan.. sirlər və qədim sivilizasiyalar məkanı), 06 avqust 2024, لبنان.. أرض الأَرْز والحضارات الغابرة | الموسوعة | الجزيرة نت,

6 Armenian Population by Country 2024, Armenian Population by Country 2024

7 Lebanon, Britannica, https://www.britannica.com/place/Lebanon/Climate

8 Armenian diaspora - The Guardian, 16 April 2015, https://www.theguardian.com/news/2015/apr/16/the-armenian-genocide-the-guardian-briefing

9 “What Is The Ethnic Composition Of Lebanon?”, 29 August 2019, https://www.worldatlas.com/articles/what-is-the-ethnic-composition-of-lebanon.html

10 Minorities and indigenous peoples, May 2020, Minorities and indigenous peoples | UNHCR

11 https://web.archive.org/web/20150901204159/http://f.hypotheses.org/wp-content/blogs.dir/269/files/2011/12/syrie-et-liban-1935-PO-9-8.jpg

12 Beirut Arab University, Research Center for Environment and Development, https://www.bau.edu.lb/BAUUpload/Publications/Attachments/Glance-at-the-Bloom-of-Debbieh-BAUPublicationsOffice.pdf

## Livanda dini balans

Livan Respublikasının Konstitusiyası dövlət siyasətinin əsas oyunçuları olan **18 dini icmanı** rəsmən tanıyır.[13] Bu icmaların hər biri siyasi və idarəetmə strukturlarında müəyyən rola malikdirlər. Livanın siyasi sistemində "konfessionalizm" adlanan yanaşma tətbiq edilir və bu, hər bir dini icmanın müəyyən hökumət vəzifələrində təmsil olunmasını təmin edir. Bu tanınma Livanın kimliyində və sosial strukturlarında dini mənsubiyyətin əhəmiyyətini vurğulayır. Məsələn, ölkənin baş naziri sünni müsəlmanlar, parlament sədri şiə müsəlmanlar, prezident isə maruni xristianlar arasından seçilir. Parlamentin vəzifələri də hər bir dini icmalar arasında bölünür və bu, ölkədəki müxtəlif qrupların siyasi güc balansını qorumağa kömək edir.

Livan əhalisinin 95 faizini ərəblər, 5 faizini isə digər etnik qruplar – ermənilər, assurlar, türklər, kürdlər və s. təşkil edir. Dini mənsubiyyət baxımından isə ölkə əhalisinin təxminən 60 faizi müsəlmanlardan, 30 faizi xristianlardan, qalan 10 faizi isə druzlar, yəhudilər, buddistlər, hinduistlər və başqa dini azlıqlardan təmsil olunub.[14]

### Livanda islam

Livan əhalisinin böyük hissəsini təşkil edən müsəlmanların təxminən 30 faizi sünni, 30 faizi şiə məzhəbinin nümayəndələridir. Sünni müsəlmanlar əsasən Beyrut və Tripoli kimi böyük şəhərlərdə, eləcə də Livanın şimalındakı şəhərlərdə yaşayırlar. Şiə müsəlmanları isə Cənubi Livan, Beka vadisi və Beyrutun cənub hissəsində cəmləşiblər.

2021-ci ilin statistik göstəricilərinə əsasən, ölkədə 1.502 məscid var. Onlardan 695-i şiə, 599-u sünni, 195-i druz, 13-ü ələvi məscidləridir.[15]

---

13 War risks reigniting tensions between Lebanon's kaleidoscope of communities. The constitution recognises and apportions power across 18 official faiths, 01 October 2024, https://www.theguardian.com/world/2024/oct/01/war-risks-reigniting-tensions-lebanon-kaleidoscope-of-communities?utm_source=chatgpt.com

14 Lübnan ülke profili, s.3, Mayıs 2019, https://ticaret.gov.tr/data/5b8a43345c7495406a226d0d/Lubnan_Ulke_Profili_2019.pdf?utm_source=chatgpt.com

15 بالأرقام: عدد الكنائس والجوامع والخلوات في لبنان وتوزّعها المذهبي - (Rəqəmlərlə: Livandakı kilsələrin, məscidlərin və sığınacaqların sayı və onların məzhəb bölgüsü), 01 aprel 2021, https://www.mtv.com.lb/news/محليات/7926711/بالأرقام--عدد-الكنائس-والجوامع-والخلوات-في-لبنان-وتوز-عها-المذهبي




**Şəkil 3. Livanın dini tərkibi (2008-ci il)**[16]

## Livanda xristianlıq

Livan əhalisinin təxminən 30 faizini təşkil edən xristianlar maruni, yunan pravoslav və yunan katoliklərindən ibarətdir. Maruni katolikləri ölkənin ən böyük xristian icmasıdır. Maruni kilsəsi Roma Katolik kilsəsi ilə əlaqədə olan Şərq katolik kilsəsidir və xüsusilə, Livanın dağlıq bölgəsində əhəmiyyətli say üstünlüyünə malikdir.

Roma Katolik kilsəsi ilə qədim əlaqələrə malik, lakin öz patriarxı, liturgiyası və adətləri olan marunilər ənənəvi olaraq Qərb dünyası, xüsusən də Fransa, Vatikan və Ermənistanla yaxşı əlaqələr qurublar. Marunilər ermənilərin Livana köç etdiyi vaxtda ölkədə xristianların sayını artırmaq üçün erməniləri istiqanlılıqla qarşılamış və onlara Livan vətəndaşlığı təklif etmişdilər.[17] İllər əvvəl olduğu kimi hal-hazırda da marunilər Livan hakimiyyətində üstün mövqeyə sahibdirlər. Qeyd edək ki, Livanın müstəqillik əldə etməsindən (1943-cü il) sonra qüvvədə olan konstitusiya maddələrindən daha güclü olan ənənəyə görə, **ölkə başçısı maruni xristianlarından seçilir**.[18] Livan dövlətinin

16 Pie Chart Showing Religions of Lebanon by Percentage of Population.png? https://commons.wikimedia.org/wiki/File:Pie_Chart_Showing_Religions_of_Lebanon_by_Percentage_of_Population.png

17 Lebanon overview, May 2020, https://minorityrights.org/country/lebanon/

18 الدستور اللبناني وكيفية انتخاب رئيس الجمهورية - (Livan konstitusiyası və ölkə başçısının seçilməsi), 21 sentyabr 2007, https://www.aljazeera.net/news/reportsandinterviews/2007/9/21/الدستور-اللبناني-وكيفية-انتخاب-رئيس

konstitusiyasında prezidentin normal və müstəsna hallarda necə seçilməsindən bəhs edilir.[19]

Kilsələrin sayına gəlincə, ölkədə ümumilikdə 2.405 kilsə var.[20] Kilsələrin 68 faizi maruni kilsələridir, onların sayı 1.647-dir. Digər 363 kilsə yunan pravoslav, 262 kilsə Roma katolik, 133 kilsə isə erməni və digər xristian məzhəblərinin nümayəndələrinə mənsubdur. Kilsələrin sayına görə, Kəsrəvan bölgəsi 353 kilsə (6 məscid) ilə birinci, Mətn bölgəsi isə 328 kilsə (1 məscid) ilə ikinci yerdədir.[21]




**Şəkil 4. Livanın konfessional tərkibinin 1932 və 2017-ci illər üzrə müqayisəsi**

19 2004, دستور لبنان الصادر عام 1926 شاملا تعديلاته لغاية عام - (Livanın 2004-cü il dəyişikliklərini ehtiva edən 1926-cı il konstitusiyası), Lebanon_2004.pdf

20 2,405 churches 1,502 mosques & hermitages 3,315 schools & universities in Lebanon, 19 May 2021, The Monthly Magazine | 2,405 churches 1,502 mosques & hermitages 3,315 schools & universities in Lebanon

21 بالأرقام.. عدد دور العبادة في لبنان يفوق عدد المدارس والجامعات (Rəqəmlərlə: Livanda ibadət yerlərinin sayı məktəb və universitetlərin sayından çoxdur), 05 May 2021, https://aliwaa.com.lb/أخبار-لبنان/سياسة/بالأرقام-عدد-دور-العبادة-في-لبنان-يفوق-عدد-المدارس-والجامعات/

## Livanda müsəlman-xristian, erməni-Hizbullah qarşıdurması

1950-ci illərdən etibarən müsəlman icma liderlərinin hakimiyyətdə daha üstün mövqe tələb etmələri 1958-ci ildə onlar arasında şiddətli qarşıdurmaya səbəb olmuş və bu, 1975-1990-cı illərdə vətəndaş müharibəsinin baş verməsinə gətirib çıxarmışdır. Həmin illərdə marunilər Livan hakimiyyətində üstün mövqeyə sahib idilər. Bir müddət sonra hakimiyyətdə konfessiyalararası balans yenidən müsəlmanların xeyrinə dəyişmiş, parlamentdə məcburi xristian-müsəlman təmsilçiliyi 6:5 nisbətindən 1:1 nisbətinə dəyişmişdir. Daha əvvəl üstün mövqeyə sahib sünni müsəlmanları bu dəfə şiə müsəlmanlar əvəz etmişdir.

Hazırda Livanda müsəlman və xristian qarşıdurması ölkədə mövcud erməni icması və **Hizbullah** Partiyası arasında müşahidə edilir. Bunu Livanın erməni siyasətçilərinin mövqelərindən daha aydın sezmək mümkündür.

Livanın məşhur siması, siyasətçi, keçmiş jurnalist və hazırda parlamentin erməni əsilli deputatı **Paula Yaqubyan**ın dəfələrlə Hizbullaha qarşı etdiyi çıxışlar həmin partiyanın dəstəkçiləri tərəfindən kəskin etirazlarla qarşılanmışdır. Belə ki, qeyd olunan videoda P.Yaqubyan İran İnqilabı Keşikçiləri Korpusunun (**SEPAH**) Hizbullah gənclərinə təlim keçməsindən bəhs edərək, bu partiyanın nə Livan ideologiyasına, nə də millətçiliyinə xidmət etdiyini bildirib: *“Hizbullah İsrail dövlətinə xidmət edir və gəncləri oraya gedərək, döyüşməyə, ölümə sövq edir”*.[22]

Fəaliyyəti ərzində dəfələrlə Hizbullaha qarşı mövqeyini bildirən P. Yaqubyanın bir müddət sonra, 2019-cu il martın 24-də Livanın Əl-Buzuriyyə kəndində Əcyal Əl-Mustəqbəl məktəbində keçirilən tədbirdə çıxışı zamanı **Hizbullah və onun lideri Həsən Nəsrullahı tərifləməsi** ölkədə təəccüb doğurmuş və o, ölkədə Hizbullah əleyhdarlarının qəzəbinə məruz qalmışdır.[23]

Paula Yaqubyanın 2022-ci ilin iyul ayında Hizbullahla bağlı verdiyi digər açıqlama ölkədə rezonansa səbəb olmuşdur. Belə ki, o, İranyönümlü qüvvələr tərəfindən İmam Mehdiyə xitabən yazılan və Livanda hizbullahçılar tərəfindən oxunan **“Salam fərmande”** himnində qadınların qara abaya geyimini (üzü örtən və başdan ayağadək qara

22 تفاعلكم | هل غيرت بولا يعقوبيان موقفها من حزب الله ؟ - (Paula Yaqubyan Hizbullahla bağlı mövqeyini dəyişibmi?), 24 mart 2019, https://www.youtube.com/watch?v=0RjIr-ZuUU_U

23 Yenə orada

rəngli qadın geyimi) tənqid etmiş və bunun Livan mədəniyyətinə zidd olduğunu bildirmişdir.[24]

Yaqubyanın bu çıxışı ölkədə Hizbullah tərəfdarları tərəfindən kəskin etirazla qarşılanmış və ona ölkəni tərk etmək, Ermənistana qayıtmaqla bağlı çağırışlar edilmişdir. P.Yaqubyana qarşı artan etirazlardan sonra o, efirdə açıqlama verərək, söylədiklərinin yalnız sosial adət-ənənə ilə bağlı olduğunu, dini mövqeyi nəzərdə tutmadığını bildirmişdir.[25]

Livan ermənilərinin Hizbullaha qarşı əks mövqelərini Livanın keçmiş sosial məsələlər üzrə naziri və hazırda Livan Qüvvələri Partiyasının xarici əlaqələr departamentinin müdiri **Riçard Kouyoumjyan**ın çıxışlarından da görmək mümkündür. O, rəsmi "Twitter" səhifəsində yaydığı açıqlamalarının birində bildirmişdir: "*İran ölkədə mövcud olduğu müddətdə Livan böhranının həlli yoxdur*".[26]

Livanın digər siyasətçisi, Livan Qüvvələri Partiyasının baş katibinin köməkçisi Jade Dimien rəsmi "Twitter" hesabında bildirmişdir: "*Livanda Həsən Nəsrulla və Hizbullah təsiri olduğu müddətdə ölkədə nə mədəniyyətə, nə də sevincə yer var*".[27]

Yazılan rəy və fikirlərdən belə qənaətə gəlmək olar ki, Livanda ermənilərlə yanaşı, əhalinin böyük əksəriyyəti Hizbullahın ölkədə mövcudluğundan narahatdır. Həmçinin son illərdə Hizbullahın Livanda mövqeyinin zəifləməsi müşahidə olunur. Bunu 2022-ci ildə Livanda keçirilən parlament seçkilərinin və 2025-ci ilin yanvar ayının 9-da keçirilən prezident seçkilərinin nəticələrindən də sezmək mümkündür. [28]

---

24 النائبة بولا يعقوبيان عن «سلام فرمانده»: ثقافة لا تشبه لبنان - (Paula Yaqubyan: Bu, Livana uyğun olmayan bir mədəniyyətdir). 06 iyul 2022, https://x.com/waqa2e3/status/1544733566805893121

25 يعقوبيان تعلن موقفها من «الزي الإسلامي» وتوجّه رسالة الى جمهور الحزب - (Yaqubyan «İslam geyimi» ilə bağlı mövqeyini açıqlayır və partiyanın üzvlərinə mesaj ünvanlayır), 28 avqust 2022, https://www.lebanondebate.com/news/568820

26 Richard Kouyoumjian в X: «عبثاً يحاول اللبنانيون إيجاد الحلول لمشاكلهم السياسية والاقتصادية والمعيشية، بظل واقع مرير أقوى من أوهام الخلاص وأحلام بناء دولة ووطن. المعادلة باتت واضحة: لا حلول لدولة بوجود دويلة ايران الباقي تفاصيل...وصوَر من وعد جهنم العهد يعلوها من وقت لآخر تهديد وصراخ وموت لبنان□□ ليس إلا» / X, 14 iyul 2022

27 Jade Dimien جاد دميان в X: «ب الله، لا مكان لثقافة الحياة والفرح والاحتفال. تهديدzمع نصرلله وح ووعيد وحروب تنتهي ب"لو كنت أعلم" رفاهية الانتظار والاختلاف حول سلاح الحزب، ثمنها باهظ وخطير. على الاحزاب السيادية والشخصيات المستقلة والجديدة التوحد حول هذه القضية المصيرية. بقاء لبنان الذي نراه ونريده، في خطر!» / X, 14 iyul 2022

28 "Is Hezbollah weakened as Lebanon shifts towards new governance?", 21 January 2025, https://www.aljazeera.com/news/2025/1/21/is-hezbollah-weakened-as-lebanon-shifts-towards-new-governance

Hizbullahın Livandakı rolunun zəifləməsi həm daxili, həm də xarici amillərlə birbaşa bağlı olmuşdur. Xüsusilə, son dövrlərdə Hizbullahın həm regional, həm də daxili siyasətdə daha çox tənqid edilən təşkilata çevrilməsi, İsrailin Hizbullahla qarşıdurmasında əldə etdiyi müəyyən uğurlar sayəsində təşkilatın nüfuzunun sarsılması, Həsən Nəsrullahın ölümündən sonra hərəkatın liderliyində yaranan boşluq, eyni zamanda son illərdə Livanın üzləşdiyi iqtisadi böhran təşkilatın daxili birliyini və fəaliyyətini zəifədən amillərdən idi.

## Livan ermənilərinin konfessional konfiqurasiyası

Livana köç edən ermənilər ilk dövrlərdə yoxsulluq içində yaşasalar da, qısa müddət ərzində ölkədə özlərinə mühüm yer qazandılar. Onlar yerli əhali ilə sıx əlaqələr quraraq tez bir zamanda inteqrasiya edə bildilər. Bu inteqrasiya nəticəsində, Beyrut və onun ətrafı erməni diasporunun əsas mərkəzinə çevrildi, həmçinin pravoslav, katolik və erməni protestant (evangelist) kilsələrinin iqamətgahı oldu.

Ermənilər Livanda yalnız öz hüquqlarını müdafiə etməklə kifayətlənməmiş, həm də ölkənin ümumi konfessiyalararası mübahisələrində vasitəçi rolu oynamağa başlamışlar. Hazırda Livanda yaşayan ermənilər təkcə öz dini və mədəni haqlarını deyil, həm də cəmiyyətin sosial və siyasi məsələlərində bərabərhüquqlu iştirakçı olaraq mövqelərini qorumaq hüququna malikdirlər.

Livanda erməni icmasının üç konfessional konfiqurasiyasını **pravoslav, katolik və protestantlar** təşkil edirlər.

**Erməni katoliklər:** Livanın ən böyük erməni icması erməni katoliklərdən ibarətdir.[29] Bu ermənilər maruni katolikləri ilə əlaqəli olan erməni katolikləridir. Ermənilər Livana köç etdikləri vaxtdan etibarən ölkədə xristian icmasının əsasını təşkil edən marunilər ilə sıx əlaqə saxlamış və bunun nəticəsində marunilərin dini olan katolik xristianlığını mənimsəmişlər.

Livanda Erməni Katolik kilsələrinin sayı 7-dir.[30] 1926-cı ildə Papa XI Pius tərəfindən qədim Şərq kilsələrinin tarixi, lakin sabit olmayan torpaqlarında – Yaxın Şərq, Şimali Şərqi Afrika, Hindistan və Şərqi Avropada yaradılan Yaxın Şərq Katolik Xeyriyyə Təşkilatının rəsmi səhifəsində ölkədəki

29 Armenian Church Catholicosate of Cilicia Antelias – Lebanon, https://www.armenianorthodoxchurch.org/en

30 الكنيسة الارمينية الكاتولوكية البطريركية (Livanda Erəmni Katolik kilsəsinin yeparxiyası), https://www.armeniancatholic.org/archives/inside33fc.html?lang=ar&page_id=31101

Erməni Katolik kilsəsinin tarixi 1742-ci ildən - Papa XIV Benediktin Hələb yepiskopu Abraham Pierre I Ardzivianın Sisdəki kafedrala erməni katoliklərinin patriarxı təyin etdiyi vaxtdan hesablanır. Livanın paytaxtı Beyrutun mərkəzində Erməni Katolik kilsəsinin Yeparxiyası mövcuddur. Bu, Ermənistan Kilikiya Patriarxlığının öz yeparxiyasıdır. 1929-cu ildə yaradılan Erməni Katolik kilsəsinin patriarxı Qreqori Peter XX Qabroyandır. Hazırda **erməni katoliklər Livan parlamentində bir deputatla (Jean Arşak Talozyan[31]) təmsil olunurlar.**

**Erməni pravoslavlar (qriqoryan):** Ölkənin ikinci ən böyük erməni icmasını erməni pravoslavlar təşkil edirlər. Livanda yerləşən erməni Pravoslav Kilsəsi ölkədə yerləşən dördüncü ən böyük xristian kilsəsidir.[32]

**Erməni protestantlar (evangelistlər):** Yaxın Şərq Erməni Evangelist Kilsələri İttifaqı Beyrutda yerləşdiyinə görə regionda erməni protestantizminin mərkəzi məhz bura hesab edilir. Livan erməni protestant icmasının lideri Yaxın Şərqdəki Erməni Protestant Kilsələri İttifaqının Mərkəzi Komitəsinin sədri keşiş Pol Haytostyandır. Livandakı erməni protestant icması kifayət qədər mütəşəkkil, eyni zamanda fəaldır və bu da ilk növbədə onun təşkilati strukturlarının fəaliyyətinə təsir göstərir.[33] **Livanda 7 erməni protestant kilsəsi mövcuddur.**




**Şəkil 5. Livanda yaşayan ermənilərin faiz nisbəti (2000-ci il)**

31 Parliamentary elections key results brochur, 2022, p.36
32 Религия в Ливане, Религия в Ливане — Рувики: Интернет-энциклопедия
33 «Армянская протестантская община Ливана» – Автор: Ваграм Овян, 18 апрель 2010, http://www.noravank.am/rus/articles/detail.php?ELEMENT_ID=١١#٤٦٣٠_b




**Şəkil 6. Livanda yaşayan ermənilərin sayı (2015-ci il)**[34]

## Kilsələrarası münasibətlər

Livanın protestant erməniləri katolik ermənilərdən və Erməni Pravoslav kilsəsinin tərəfdarlarından kəskin şəkildə ayrılmır, onlarla birlikdə üzvi bütövlük təşkil edirlər. Milli proqramların və mühüm vəzifələrin icrası məsələlərində katolik ermənilər və Erməni Apostol kilsəsinin tərəfdarları ilə əməkdaşlıq edirlər. Bunu bir sıra sahələrdə müşahidə etmək mümkündür:

***1. Təhsil sahəsində.*** Livanın erməni protestant təhsil müəssisələrində təkcə protestant ermənilər deyil, Erməni Katolik və Pravoslav kilsələrinin tərəfdarları da təhsil alırlar. Bu qurumlar arasında fəaliyyətdə təkcə Livanın erməni icması ilə məhdudlaşmayan Yaxın Şərqdə yerləşən

34 Number of Armenians living outside Armenia, 16 April 2015, https://www.theguardian.com/news/2015/apr/16/the-armenian-genocide-the-guardian-briefing

yeganə erməni ali təhsil müəssisəsi - **Haykazyan Universiteti** (Haigazian University[35]) xüsusi yer tutur. Beyrutda yerləşən bu universitet dini mənsubiyyətindən asılı olmayaraq hər il iyirmi ölkədən tələbələr qəbul edir.

***2. Siyasi müstəvidə.*** Siyasi müstəvidə konfessiyalararası əməkdaşlıq milli məsələlərdə özünü daha çox göstərir. Livanın erməni icması üzvlərinin hansı partiya və ya konfessiyaya mənsub olmasından asılı olmayaraq, qondarma "erməni soyqırımı"nın tanınması, "Hay-Dat", keçmiş Ermənistan-Azərbaycan münaqişəsi, türklərə qarşı çıxmaq və s. kimi məsələlərdə həmrəydir.

Livanın üç erməni dini icmasının siyasi məsələlərdə birliyinin təzahürü kimi 2006-cı ilin avqustunda atılan addımı göstərmək olar. Belə ki, 2006-cı ildə BMT Təhlükəsizlik Şurasının 1701 saylı qətnaməsinə uyğun olaraq, Livan (Hizbullah) - İsrail münaqişəsi ilə bağlı beynəlxalq sülhməramlı qüvvələr Livanın cənubuna yerləşdirilməli idi. Bir çox ölkələr kimi Türkiyə də Livandakı sülhməramlı missiyada iştirak etmək üçün müraciət etmişdi. **Buna qarşı çıxan Livanın erməni icmaları - Livan Erməni Pravoslav kilsəsinin yepiskopu Soqomon Kilakpyan, Livan Erməni Katolik kilsəsinin yepiskopu Vardan Aşqaryan, Erməni Protestant kilsəsinin Livan Yeparxiyasının rəhbəri yepiskop Qeqam Xaçeryan etirazlarını bildirən sənəd imzalamışdılar.**

Lakin etirazlar nəticə verməmişdir. Mənbədə qeyd edilir: "*Münaqişə bölgələrində davam edən gərginliyin qarşısının alınması məqsədilə BMT tərəfindən müşahidəçi-sülhməramlılar təyin edilir. BMT-nin qətnamələrinə uyğun olaraq, Kipr,* ***Livan*** *və Dominikan Respublikası kimi müxtəlif bölgələrdə təhlükəsizliyin təmin edilməsi üçün Türkiyənin sülhməramlı əməliyyatları davam edir. Bu çərçivədə Türkiyə Livandakı 86 üzvü ilə UNIFIL-ə (BMT-nin Livandakı Müvəqqəti Qüvvələri) daxil edilib*".[36]

2017-ci ildə Livanın Xarici İşlər Nazirliyi BMT-nin ölkənin cənubunda yerləşən sülhməramlı qüvvələrin vaxtının daha bir il uzadılması qərarını dəstəkləmişdir.[37]

---

35 Haigazian University, https://www.haigazian.edu.lb/ - universitetin rəsmi saytı

36 Türk dış politikasının bir süreklilik unsuru olarak barış operasyonlarının incelenmesi, 08 Haziran 2020, https://dergipark.org.tr/tr/download/article-file/988961

37 لبنان يطلب من الأمم المتحدة تجديد تفويض قوة حفظ السلام (Livan BMT-dən sülhməramlı qüvvələrin mandatını yeniləməyi xahiş edir), 29 avqust 2017, https://www.reuters.com/article/world/--idUSKCN1B91XW/

***3. Keçmiş Ermənistan-Azərbaycan münaqişəsində.*** 2021-ci ilin iyul ayında Vatikanda baş tutan xristian din adamlarının iclasında Livanda Ermənilərin Böyük Kilikiya Evinin katolikosu I Aram[38] İkinci Qarabağ müharibəsinin nəticələri və Azərbaycanda "qeyri-qanuni" saxlanıldıqları iddia edilən erməni ailələrin aqibəti barədə Roma Papası Fransisk ilə danışıqlar aparmışdır. O, Roma Papası Fransiskə iddia edilən əsirlərin geri qaytarılması ilə bağlı məsələyə toxunduğuna görə təşəkkürünü bildirmiş və ondan bu barədə kömək istəmişdir.[39]

2025-ci il fevral ayının 6-da Livanda Ermənilərin Böyük Kilikiya Evinin katolikosu I Aram ABŞ-nin yeni seçilən prezidenti Donald Trampa məktub göndərərək, onu Ağ Evə qayıtması münasibətilə təbrik etmiş və erməni xalqını narahat edən aktual məsələlərə, xüsusilə Azərbaycanda erməni "əsirlərinin qanunsuz həbsi"nə dərhal müdaxilə etməyə çağırmışdır.

Livanda Ermənilərin Böyük Kilikiya Evinin rəsmi internet ünvanında həmin məktuba əsasən qeyd edilir: "*I Aram Prezident D.Trampı qapalı məhkəmələrə məruz qalan keçmiş prezidentlər, baş nazirlər və "Artsax"ın "siyasi lider"ləri də daxil olmaqla erməni girovların dərhal və qeyd-şərtsiz azad edilməsini təmin etməyə çağırır. Habelə o, D.Trampı "Artsax"la bağlı seçkiqabağı mövqeyini təsdiqləməyə çağırmış, ermənilərin beynəlxalq təhlükəsizlik zəmanəti ilə öz vətənlərinə qayıtmaq hüququnu vurğulamışdır. Bundan əlavə, I Aram regional sülhün təmin edilməsində ABŞ-nin güclü rəhbərliyinə ehtiyac olduğunu vurğulayaraq, D.Trampın bu məsələlərlə məşğul olmasının onun qlobal sülhməramlı rolunu gücləndirəcəyini vurğulamışdır.*"

## Erməni icmasının Livanın siyasi həyatında fəaliyyəti

Livan erməniləri ölkədə önəmli vəzifələr tutmaqla yanaşı, həm də mühüm ictimai-siyasi mövqeyə sahibdirlər.

38 I Aram 1947-ci ildə Livanda doğulub. Livan, Suriya, İran, Körfəzi ölkələri, Yunanıstan, ABŞ, Kanada və Kipr erməni yeparxiyalarının ruhani keşişidir. 1998-ci ildə Fransanın qondarma "erməni soyqırımı" qanun layihəsini qəbul etməsindən sonra o, Britaniya hökumətinin eyni qanunu qəbul etməsinə çalışıb.

39 كاثوليكوس بيت كيليكيا الكبير للأرمن آرام الأول يناقش مع البابا فرنسيس قضية أسرى الحرب الأرمن في أذربيجان وضرورة عودتهم - (Ermənilərin Böyük Kilikiya Evinin katolikosu I Aram Roma Papası Fransisklə Azərbaycandakı erməni hərbi əsirlərin vəziyyəti və onların geri qaytarılmasının vacibliyini müzakirə ediblər), 03 iyul 2021, https://armenpress.am/ara/news/1057329/

## Nazirlər Kabineti

Hazırda Livan erməniləri ölkənin Nazirlər Kabinetində **bir** erməni nazir - **Nora Bayraktaryan** tərəfindən təmsil edilirlər. 2025-ci il fevralın 8-də Livanın Baş naziri Navaf Salamın 24 nazirdən ibarət yeni hökumətin yaradılması haqqında fərmanı imzalaması ilə[40] N.Bayraktaryan ölkənin gənclər və idman naziri təyin edilib. O, Daşnaksütyun Partiyasını təmsil edir.

Erməni əsilli livanlı professor N.Bayraktaryan həmçinin Livan Universitetinin hüquq və siyasi elmlər fakültəsinin beynəlxalq əlaqələr üzrə professoru və Beynəlxalq əlaqələr şöbəsinin müdiri, eyni zamanda Hüquq, siyasi elmlər, inzibati və iqtisadi elmlər fakültəsinin Elmi Şurasının üzvüdür.

O, eyni zamanda, ikinci müddətə Ermənilərin Böyük Kilikiya Evinin Mərkəzi Komitəsinin üzvüdür. Təsadüfi deyildir ki, o, nazir təyin edildikdən sonra ilk ziyarətini məhz Anteliasdakı Böyük Kilikiya Evinə etmişdir. Onun ziyarətinin məqsədi yeni vəzifələrinə başlamamışdan əvvəl katolikosun "ata xeyir-duası"nı almaq olmuşdur.[41]

N. Bayraktaryan bakalavr və magistr dərəcələrini Livan Universitetinin Hüquq və siyasi elmlər fakültəsində siyasi elmlər üzrə almışdır. Təhsildə yüksək nəticələrinə görə o, **Fransa Milli Elmi-Tədqiqat Mərkəzi**ndən aspirantura təhsili üçün təqaüd qazanmışdır. Dissertasiya mövzusu "Fələstin məsələsi: 242 saylı qətnamədən Qəzza-Əriha razılaşmasının bağlanmasına qədər" olmuş və bu mövzu ilə o, fakültədə ən yüksək nəticəni qazanmışdır. Doktorluq dərəcəsini beynəlxalq münasibətlər üzrə **Fransanın Sorbonna Universiteti**ndə əldə etmişdir.[42]

**Livanın keçmiş erməni nazirləri.** Livan erməniləri müxtəlif dövrlərdə və siyasi şəraitlərdə ölkənin Nazirlər Kabinetində davamlı təmsil olunublar:

**- Corc Buçikyan** (10.05.1965)**.** 2021-2025-ci illərdə Livanın sənaye naziri erməni əsilli Corc Buçikyan olmuşdur. 2021-ci ilin sentyabrında

---

40 الرئاسة اللبنانية تعلن تشكيل حكومة جديدة من 42 وزيرا | أخبار | الجزيرة نت (Livan hökuməti 24 nazirdən ibarət yeni hökuməti təsdiq etdi), 08 fevral 2025

41 Nora Bayrakdarian visits catholicos following appointment as lebanon's youth minister, 13 February 2025, https://armenianprelacy.org/2025/02/13/nora-bairakdarian-visits-catholicos-following-appointment-as-lebanons-sports-minister/?srsltid=AfmBOoppqoUi3QYC51-8sXzv4rlPs3e9yMB_9aLhemaZdRNbdqGtCgFF

42 Beirut News Center السيرة الذاتية لوزيرة الشباب والرياضة - (Gənclər və idman nazirinin tərcümeyi-halı), 08 fevral 2025

Daşnaksütyun Partiyasının namizədliyi ilə nazir vəzifəsinə seçilmişdir, Livanın Zəhlə bölgəsindən seçilən ilk nazir olmuşdur.[43]

C.Buçikyan 2022-ci ildə Livanda keçirilən parlament seçkilərində Daşnaksütyun Partiyasından millət vəkili seçilmişdir. Həmin ilin dekabr ayında Livanda Daşnaksütyun Partiyasının baş katibi Akop Pakradunyan C.Buçikyanı partiyanın qərarına qarşı çıxmaqda ittiham etmişdir. Azad Vətənpərvərlər Hərəkatının boykot elan edilməsinə və Daşnaksütyun Partiyasının müvəqqəti kabinetin iclasında iştirak etməmək qərarına rəğmən C. Buçikyan həmin iclasda iştirak etmiş və onun bu hərəkəti Pakradunyanı qəzəbləndirmişdir. O demişdir: *"Bu hərəkət nəticəsiz qalmaz"*.[44] Nəticədə, C.Buçikyan Daşnaksütyun Partiyasının sıralarından xaric edilmişdir.[45]

**- Vartine Ohanyan** (01.01.1984). **Livanın ilk erməni qadın naziridir.** 2020-2021-ci illər ərzində Livanın gənclər və idman naziri olmuşdur. O, bu vəzifəyə 2020-ci ilin yanvarın 20-də Daşnaksütyun Partiyası tərəfindən namizədliyi irəli sürülməklə seçilmişdir. Nazir vəzifəsinə gəlməmişdən əvvəl o, "Zvartsnov" adına ixtisaslaşmış mərkəzin direktoru vəzifəsində çalışmışdır.[46]

2021-ci ildə V.Ohanyan Livan Prezidentinin nümayəndəsi, Ermənistanın Livandakı səfiri Vahakn Atabekyan[47] və Livanın Ermənistandakı səfiri Maya Dağerin (Livanın Gürcüstandakı keçmiş səfiri) müşayiəti ilə qondarma "erməni soyqırımı" şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etmişdir. Daha sonra Livanda "Soyqırım" muzeyini ziyarət edən V.Ohanyan xatirə kitabına ürək sözlərini yazmışdır. O demişdir: *"Biz insanlıq adına böhtanı, həqiqəti dağıdıb ört-basdır etməyi rədd edir, Osmanlı imperatorluğunun varisi*

---

43 بوشيكيان: أناشد المغتربين القيام بمبادرات تشجيعيّة فرديّة خلال زيارتهم لبنان Buçikyan: "Əcnəbilərə müraciət edirəm ki, Livana səfərləri zamanı fərdi təşviqat işləri aparsınlar", 09 iyun 2022, http://www.industry.gov.lb/Media/News/-بوشيكيان-اناشد-المغتربين-القيام-بمبادرات-تشجيعية-ف,

44 Tashnag says Boujikian's move 'shall not pass' without consequences, 06 December 2022, https://www.naharnet.com/stories/en/294152-tashnag-says-boujikian-s-move-shall-not-pass-without-consequences,

45 Boujikian dismissed from Armenian bloc for attending Monday's session, 07 December 2022, https://web.archive.org/web/20221220053826/https://www.naharnet.com/stories/en/294182

46 وزيرة الشباب والرياضة السيدة فارتينيه اوهانيان (Gənclər və idman naziri xanım Vartine Ohanyan), http://www.pcm.gov.lb/Arabic/subpg.aspx?pageid=13717

47 Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Armenia to the Lebanese Republic https://lebanon.mfa.am/en/ambassador

*olan Türkiyənin törətdiyi "soyqırım"ı tanımasını, üzr istəməsini və təzminat ödəməsini tələb edirik".*[48]

**- Avedis Kitanyan** (1968). 2016-2021-ci illərdə Livanın turizm naziri A. Kitanyan olmuşdur. O, 1998-ci ildə Erməni İnqilabi Federasiyasının (Daşnaksütyun) Mərkəzi Komitəsinin üzvü seçilmiş, 2001-2005-ci illərdə rəhbəri olmuşdur. A. Kitanyan həmçinin 2009-2016-cı illərdə Livanda fəaliyyət göstərən "Vanın səsi" (Voice of Van)[49] erməni radiostansiyasının direktoru olmuşdur.

Livanın MTV televiziyasında "Hadis Əl-Bələd" (حديث البلد - talk of the town) verilişində qonaq olarkən Türkiyə ilə bağlı açıqlamaları və Livan-Ermənistan münasibətlərinə dair suallara verdiyi cavabları ölkədə kəskin etirazlara səbəb olmuşdur. Belə ki, Kitanyan çıxışında demişdir: "*Bu gün bəzi qonşu ölkələrdəki pis şəraitdən faydalanırıq. Türkiyənin hazırda problemləri var. Amma bu bizi narahat etmir. Çünki biz Türkiyəni sevmirik. Mən şəxsim olaraq qeyd edirəm ki, bu vəziyyətdən xoşbəxtəm*".

Aparıcının: "*Livanda türklərin turizm imkanları üçün təşəbbüs göstərirsinizmi?*" - sualına: "*Türkiyə üçün belə bir təşəbbüsə cəhd etməmişəm. Nə əvvəllər, nə də bundan sonra*", - deyə cavab vermişdir.

"*Hansını seçərdiniz - İsraili, yoxsa Türkiyəni?* – sualına: "*Heç birini*" - cavabını verib. Verilişin digər qonağı isə bu sualı "*Alkoqol, yoxsa siqar?*" bənzətməsi ilə ifadə edib.

"*Feyruz (Fairuz - Livan müğənnisi), yoxsa Edit Piyaf?*" – sualına isə: "*Edit Piyaf*" cavabını verməsi, Livan millətinin "anası" hesab edilən Feyruzu seçməməsi livanlıları qəzəbləndirmişdir.

Aparıcının: "*Livan, yoxsa Ermənistan?*" – sualına: "*Əlbəttə ki, Ermənistan*", - deməsi ölkədə böyük rezonansa səbəb olmuşdur. [50]

Verilişdəki bu açıqlamalarından sonra sosial şəbəkədə ona qarşı #Avidis_Kidanian_Apologize_or_Resign şüarı ilə "Ya üzr istə, ya da

48 أوهانيان من يريفان: الشهداء باقون في ضمائرنا - (İrəvanlı Ohanyan: Şəhidlər bizim yaddaşımızda qalacaqlar), 26 aprel 2022, https://www.al-binaa.com/archives/296115

49 https://voiceofvan.net/ - radiostansiyanın rəsmi internet səhifəsi

50 وزير السياحة اللبناني أواديس كيدانيان يكره لبنان ويشبه تركيا بإسرائل - (Livanın turizm naziri Avetis Kitanyan Livana nifrət edir və Türkiyəni İsraillə müqayisə edir), https://www.youtube.com/watch?v=0Z7K-x-PydA

istefa ver!" kampaniyası aparılmışdır. Livanlılar Livanda doğulub, böyüyən və həmin dövrdə nazir postunu tutan Kitanyanı xəyanətdə ittiham etmişdilər.[51]

Məsələyə kəskin münasibət bildirən Livan parlamentinin üzvü **İmad Əl-Ut** demişdir: "*Kitanyan Ermənistanın onun üçün Livandan daha üstün olduğunu bəyan etdi, həm də bizim üçün dost dövlət olan Türkiyəni incitdi. O, Livan xalqından üzr istəməli və hökuməti tərk etməlidir. İstənilən Livan vətəndaşı üçün ilk növbədə ölkəmiz birinci yerdə olmalıdır, xüsusilə ölkə naziri üçün. Hökumət üzvü necə belə bir söz deyə bilər?*".[52]

- **Riçard Kouyoumjyan.** 2019-2021-ci illərdə Livanın sosial məsələlər naziri olmuşdur. O, hazırda Livan Qüvvələri Partiyasının Xarici əlaqələr departamentinin müdiridir. Ölkədə İrana (Hizbullaha) qarşı mövqeyi və çoxsaylı çıxışları ilə seçilir.[53] [54] [55]

- **Artur Nazaryan** (1951). 1998-2000-ci illərdə Livanın keçmiş Prezidenti Emil Lahud dövründə ölkənin ətraf mühit (ekologiya) naziri, 2014-2016-cı illərdə, keçmiş Prezident Mişel Süleymanın dövründə ekologiya və su naziri vəzifələrini icra etmişdir.

- **Sebuh Hovnanyan**. 2000-2005-ci illərdə Livanın keçmiş prezidentləri - Rafiq Həriri və Ömər Kərəmi hökumətlərində gənclər və idman naziri olmuşdur.

- **Alen Taburyan.** 2004-2005-ci illərdə Ömər Kərəmin hökumətində dövlət naziri, 2005-ci ildə Nəcib Mikatinin ilk hökumətində telekommunikasiya naziri vəzifələrini icra etmişdir.

- **Jan Oqassabyan**. 2005-ci ildə Livanın dövlət naziri, ardınca 1 iyul 2005-11 iyul 2008-ci illərdə Livanın inzibati inkişaf məsələləri üzrə

---

51 وزير سياحة لبنان يفضل أرمينيا... والناشطون: استقل - (Livanın turizm naziri Ermənistanı üstün tutur), 31 mart 2017, وزير سياحة لبنان يفضل أرمينيا... والناشطون: استقل

52 Yenə orada

53 "The Lebanese don't want war with Israel. Does Hizbullah?", https://mondediplo.com/2024/08/02lebanon, August 2024

54 "Kouyoumjian Accuses Hezb of Creating Environment for Illegal Weapons", https://thisisbeirut.com.lb/articles/1272630/kouyoumjian-accuses-hezb-of-creating-environment-for-illegal-weapons, 19 August 2024

55 "LF official criticizes 'adulterous marriage' and 'political Shiism' angering Hezbollah", 03 March 2023, https://today.lorientlejour.com/article/1330226/lf-official-criticizes-adulterous-marriage-and-political-shiism-angering-hezbollah.html

naziri, 2016-cı ildə isə Qadın işləri üzrə dövlət naziri vəzifələrini icra etmişdir.

- **Abraham Dedejan**. 2009-2011-ci illərdə Saad Həriri hökumətində sənaye naziri vəzifəsini icra etmişdir.

- **Vrej Sabounjiyan.** 2011-ci ildə Nəcib Meqati hökumətində sənaye naziri təyin edilmişdir.

- **Panos Manjiyan**. 2011-ci ildə Nəcib Meqati hökumətində dövlət naziri təyin edilmişdir.

- **Avedis Kitanyan**. 2016-cı ildə Livanın turizm naziri seçilmişdir.

- **Vartin Ohanyan.** 2020-2021-ci illər ərzində Livanın gənclər və idman naziri olmuşdur.

- **Corc Buçikyan.** 2021-2025-ci illərdə Livanın sənaye naziri vəzifəsini icra etmişdir.

- **Adel Abdulla Osayran** (1969) və **Xaşik Diran Babikyan** (1980-1982). Müxtəlif dövrlərdə Livanın ədliyyə nazirləri olublar.

## Parlament

2022-ci ilin may ayında Livanda keçirilən parlament seçkilərində 6 erməni deputat Livan parlamentində (مجلس النواب – Nümayəndələr Palatası) mandat qazanmışdır. Parlamentdə təmsil olunan erməni əsilli deputatlardan 5-i erməni apostol, digər 1-i katolik icmasının nümayəndəsidir.

Livanda yaşayan protestantların əksəriyyətini ermənilər təşkil etdiyinə görə Livan parlementində protestantlar üçün ayrılan yeganə yer erməni deputat tərəfindən tutulur. Beləliklə, ermənilərin Livan parlamentində tutduqları yer yeddiyə çatır. Çünki katolik ermənilər və Erməni Apostol kilsəsinin tərəfdarları da ayrı-ayrı icmalardır və onların hər birinə deputat yerləri ayrılır (müvafiq olaraq 5 və 1).

Cədvəldə 2005-ci ildən 2026-cı ilə kimi Livan parlamentində təmsil olunan erməni millət vəkillərinin siyahısı, seçildikləri bölgələr, siyasi və dini mənsubiyyətləri qeyd olunub.

| **2005-2009-cu illərdə Livan parlamentində təmsil olunan ermənilər[56]** | | | |
|---|---|---|---|
| **Millət vəkili** | **Siyasi mənsubiyyəti** | **Seçildiyi bölgə** | **Dini mənsubiyyəti** |
| Akop Pakradouniyan | Daşnaksütyun | Mətn | Erməni pravoslav |
| Corc Qasarji | Popular Bloku (Popular Blok) | Zəhlə | Erməni pravoslav |
| Akop Kassargiyan | Ramqavar | Beyrut | Erməni pravoslav |
| Serge Torsarkisyan | Hınçak | Beyrut | Erməni katolik |
| Jan Ogasapyan | Gələcək Hərəkatı (Future Movement) | Beyrut | Erməni pravoslav |
| Yeğig Jerejiyan | Hınçak | Beyrut | Erməni pravoslav |
| **2009-2017-ci illərdə Livan parlamentində təmsil olunan ermənilər[57]** | | | |
| Serge Torsarkissiyan | Hınçak | Beyrut | Erməni katolik |
| Jan Ogassapiyan | Gələcək Hərəkatı (Future Movement) | Beyrut | Erməni pravoslav |
| Sebouh Kalpakiyan | Hınçak | Beyrut | Erməni pravoslav |
| Artur Nazariyan | Daşnaksütyun | Beyrut | Erməni pravoslav |
| Akop Pakradouniyan | Daşnaksütyun | Mətn | Erməni pravoslav |
| Sant Jinjiniyan | Livan Qüvvələri və Zəhlə Bloku | Zəhlə | Erməni pravoslav |
| **2018-2022-ci illərdə Livan parlamentində təmsil olunan ermənilər[58]** | | | |
| Aleksander Matossiyan | Daşnaksütyun | Beyrut | Erməni pravoslav |
| Eddi Boqos Demerjiyan | Müstəqil | Beka | Erməni pravoslav |
| Akop Mardrios Hambarsom Tereziyan | Daşnaksütyun | Beyrut | Erməni pravoslav |
| Akop Pakradoniyan | Daşnaksütyun | Livan dağı bölgəsi | Erməni pravoslav |

56 قائمة أعضاء مجلس النواب اللبناني 2005-2009 (2005-2009-cu illərdə Livan Parlamentinin üzvlərinin siyahısı), قائمة أعضاء مجلس النواب اللبناني 2005-2009 - ويكيبيديا

57 قائمة أعضاء مجلس النواب اللبناني 2009-2017 - (2009-2017-ci illərdə Livan parlamentinin üzvlərinin siyahısı), قائمة أعضاء مجلس النواب اللبناني 2009-2017 - ويكيبيديا

58 قائمة أعضاء مجلس النواب اللبناني 2018-2022 (2018-2022-ci illərdə Livan parlamentinin üzvlərinin siyahısı), https://ar.wikipedia.org/wiki/%D9%82%D8%A7%D8%A6%D9%85%D8%A9_%D9%86%D9%88%D8%A7%D8%A8_%D9%84%D8%A8%D9%86%D8%A7%D9%86_2018

| | | | |
|---|---|---|---|
| Jan Arşak Taloziyan | Livan Qüvvələri | Beyrut | Erməni katolik |
| Paula Sirakan Yaqubyan[59] (2020-ci ilin 8 avqust tarixində istefa verib) | Müstəqil | Beyrut | Erməni pravoslav |
| **2022-2026-ci illərdə Livan parlamentində təmsil olunan ermənilər[60]** | | | |
| Akop Tereziyan | Daşnaksütyun | Beyrut | Erməni pravoslav |
| Jihad Karim Pakraduni | Livan Qüvvələri (Lebanese Forces) | Beyrut | Erməni pravoslav |
| Jan Arşak Taloziyan | Müstəqil | Beyrut | Erməni katolik |
| Akop Pakradouniyan | Daşnaksütyun | Mətn | Erməni pravoslav |
| Paula Sirakan Yaqubyan | Milli Koalisiya (Tahalof Watani) | Beyrut | Erməni pravoslav |
| Corc Buçikyan | Daşnaksütyun (2022-ci ilin dekabr ayına kimi)Müstəqil (sonrakı dövr) | Zəhlə | Erməni pravoslav |

**Cədvəl 1. 2005- 2026-cı illərdə Livan parlamentində təmsil edilən erməni millət vəkillərinin siyahısı[61]**

## Livanda fəaliyyət göstərən erməni partiyaları

Hazırda Livanda fəaliyyət göstərən erməni partiyalarının sayı **üçdür**:

1. ***“Daşnaksütyun” – Erməni İnqilabi Federasiyası.*** 1920-ci ildən etibarən Livanda fəaliyyət göstərən rəsmi erməni siyasi partiyasıdır. Partiya nümayəndələrinin Livandakı təsirlərinin ən çox nüfuz etdiyi bölgələr Beyrut, Livan dağı və Beka vadisindəki Əncar ərazilərdir. Partiyanın hazırkı baş katibi **Akop Pakradunyan**dır. O, 2023-cü ildə 5-ci dəfə partiyanın baş katibi

59 **Paula Yaqubyan (1976).** Livan parlamentinin erməni (ikili vətəndaşlığı mövcuddur) qadın millət vəkilidir. İxtisasca jurnalist olan P.Yaqubyan 2018-ci ildən etibarən Livan parlamentində millət vəkildir. 2018-ci ildə o, əl-Mustaqbal TV-dən istefa verdikdən sonra Livanda parlament seçkilərində “Biz hamımız mənim ölkəm” şüarı ilə iştirak edərək, Beyrutdan mandat qazanmışdır.

60 Parliamentary Elections, 2022, https://www.undp.org/sites/g/files/zskgke326/files/2023-11/final_2022-parliamentary_elections_key_results_brochure_web.pdf

61 قائمة أعضاء مجلس النواب اللبناني - (Livan Parlamentinin üzvlərinin siyahısı 2022-2026), قائمة أعضاء مجلس النواب اللبناني 7102-9002 - ويكيبيديا

seçilmişdir.[62] Yerli partiya seçkilərindən sonra, həmin ilin noyabr ayının 2-də Kiprdə Daşnaksütyun Partiyasının Beynəlxalq toplantısı zamanı çıxış edən A. Pakradunyan demişdir: ***"Ən ümdə məsələ "Artsax"ın gələcək vəziyyətidir"***.[63]

1923-cü ildən 1958-ci ilə qədər Livanda diaspor nəzarəti və təşkilatlanması üçün mübarizə aparan üç ənənəvi erməni siyasi partiyası-"Daşnaksütyun" (Erməni İnqilabi Federasiyası), "Hınçak" (Ermənistan Sosial Demokrat Partiyası) və "Ramqavar" (Ermənistan Liberal Demokrat Partiyası)-arasında münaqişələr yaranmış və nəticədə "Daşnaksütyun" Partiyası önə çıxaraq ilk sırada qərarlaşmışdır. Hazırda Livandakı **"Daşnaksütyun" Partiyası Livan ermənilərinin ən böyük siyasi dəstəkçisi hesab edilir.**

2022-ci ilin may ayında Livanda keçirilən son parlament seçkilərində mandat qazanan 6 erməni deputatdan 3-ü "Daşnaksütyun" Partiyasının üzvüdür. Bunlar **Akop Pakradunyan, Akop Tereziyan** və **Corc Buçikyan**dır.[64] C. Buçikyan həmçinin 2021-ci ildən 2025-ci ilin fevral ayına kimi Livanın sənaye naziri olmuşdur.

1927-ci ildən etibarən Daşnaksütyun partiyasının Livanda rəsmi qəzeti **"Aztag"** nəşr edilir.[65] Partiyanın Beyrutda fəaliyyətə başladığı müddətdən etibarən nəşr olunan əsas ideya və fikirlərini əks etdirən ilk qəzeti isə **"Beyond"** olmuşdur.

2. ***"Hınçak" - Sosial Demokrat Partiyası.*** Livanda fəaliyyət göstərən solçu partiyadır. Həmtəsisçisi Məryəm Verdunyandır.[66] "Hınçak" adı tərcümədə "zəng", "çağırış" mənalarını ifadə edir. Ermənilərə görə, bu həm də erməni xalqının oyanışını və azadlıq üçün mübarizəsini simvollaşdıran bir termindir. Partiyanın devizi erməniləri azadlıq axtarışında, daim oyanış

---

62 "The General Conference of the Tashnak Party re-elected MP Hagop Pakradounian as Secretary-General of the party for the fifth time in a row", 30 October 2023, The General Conference of the Tashnak Party re-elected MP Hagop Pakradounian as Secretary-General of the party for the fifth time in a row - MTV Lebanon

63 بقرادونيان أمينا عاما لولاية خامسة: أتحمل وحدي مسؤولية الفشل - ("Pakradunyan - Beşinci Dövrün Baş Katibi: Uğursuzluğa görə məsuliyyəti yalnız mən daşıyıram"), 25 noyabr 2025, بقرادونيان أمينا عاما لولاية خامسة: أتحمل وحدي مسؤولية الفشل

64 نواب أرمن في البرلمان اللبناني الجديد حسب النتائج الأولية للانتخابات النيابية اللبنانية - (Livan parlament seçkilərinin ilkin nəticələrinə görə, Livan parlamentində 6 erməni deputat seçilib), 16 may 2022, https://armenpress.am/ara/news/1083288.html

65 *Mətbu orqan haqqında ətraflı məlumat KİV hissəsində yerləşdirilib.*

66 (*Livan Sosial Demokrat "Hınçak" Partiyası adına dərnək*) جمعية باسم حزب الهنشاك الاشتراكي الديمقراطي اللبناني -*7001/edon/gro.gdkl.www//:sptth*

vəziyyətində saxlamaq məqsədi daşıyır. Partiyanın sədri Fanik Daksiyandır. "Hınçak" Patriyasının Livanda mətbu orqanı **"Ararat "** qəzetidir.[67][68]

Beyrutda "Hınçak" Partiyasının rəsmi təşkilatı haqqında ilk məlumat 1913-cü ildə verilmişdir. Həmin ildə Rumıniyada keçirilən VII Baş Konfransda partiya nümayəndələri tərəfindən ünvanlanmış məktubda qeyd edilir: *"Yoldaşlar, **Osmanlı hakimiyyətinin həbsləri və təqibləri,** həmçinin səfər etmək imkanının olmaması səbəbindən iştirak etmədiyimizə görə üzr istəyirik".* Sənəddə həmçinin 1913-cü ildən bəri Tripoli, Dəməşq və Hələbdə partiya şöbələrinin mövcudluğu qeyd edilmişdir.[69]

**Partiyanın Livan siyasi arenasında ilk çıxışı 1934-cü ildə keçirilən parlament seçkiləri zamanı olmuşdur.** Həmin vaxt partiyanın namizədi Vahram Lilkiyan Livan parlament seçkiləri tarixində erməni pravoslavları üçün ilk parlament mandatını qazanmışdır.

Partiya Livanda baş vermiş vətəndaş müharibəsindən sonra 1992-ci il seçkilərində iştirak edərək, öz namizədini - Yeghia Corciyanı parlamentə təqdim edə bilmişdir. 1996, 2000 və 2005-ci il seçkilərində partiya baş nazir Rafiq Həririnin rəhbərlik etdiyi müddətdə ittifaq sayəsində Livan parlamentindəki yerini qoruyub saxlaya bilmişdir.[70] Hazırda "Hınçak" Partiyası Livan parlamentində təmsil olunmur.

2025-ci ilin fevralın 10-da Livanda "Hınçak" Sosial Demokrat Partiyasının 59-cu nümayəndələr konfransı keçirilmişdir. Partiyanın bəyanatına görə, konfransda partiyanın son dövrdəki fəaliyyəti müzakirə edilmiş, Livan dövlətinin qanunlarının ölkənin bütün ərazisində təhrif olunmadan tətbiq olunmasının vacibliyi vurğulanmışdır. Konfransda Livan Prezidenti Cozef Aunun ölkənin yeni prezidenti seçilməsi alqışlanmış, bu yeni dövrün Livan üçün yeni imkanlar gətirəcəyinə ümid edilmişdir.

Bəyanatda həmçinin son iki ildə ölkədəki ermənilərin qarşılaşdığı çətinliklərə toxunulmuş, konfrans iştirakçıları partiyanın erməni icmasında bu birliyi dəstəkləməyə davam edəcəklərini, digər partiya və təşkilatlarla əməkdaşlıq edərək, Livandakı ermənilərin rolunu gücləndirmək

---

67 صحيفة لبنانية أراراد – *(Livan qəzeti "Ararat"), https://areq.net/m/%D8%A3%D8%B1%D8%A7%D8%B1%D8%A7%D8%AF.html*
68 *Mətbu orqan haqqında ətraflı məlumat KİV bölməsində verilib*
69 حزب الهنشاك- (Hınçak" Partiyası), 5 حزب الهنشاك
70 Yenə orada

məqsədini müəyyən etmişdilər. Eyni zamanda, növbəti dövr üçün daxili və təşkilati məsələlər üzrə müvafiq qərarlar qəbul edilmişdir.

Yekun iclasda partiyanın Livandakı İcra Komitəsi seçilmiş, partiyanın sədri Vanik Dakesyan, sədr müavini Mardik Camkotşyan, katib Dikran Mehranyan, katib müavini Kivork Dağliyan təyin edilmişlər.

3. ***"Ramqavar" - Liberal Demokrat Partiyası***. "Ramqavar" Partiyası Livan ermənilərinin "Daşnaksütyun" və "Hınçak" partiyalarından sonra üçüncü təmsilçisidir. Partiya nümayəndələrinin ən çox nüfuz etdiyi bölgələr Beyrut və Livan dağı əraziləridir. Hazırda partiyanın sədri Avedis Dakesyandır.[71] Partiyanın Livanda rəsmi mətbu orqanı "Zartonk" qəzetidir.

Partiya 1921-ci ildə Konstantinopolda 3 siyasi partiyanın - Armenakan Partiyası, islahatçı hınçakların Liberal Partiyası və təsisçi Demokrat Partiyasının birləşməsi nəticəsində yaradılmışdır. Qeyd edək ki, **ilk erməni siyasi partiyası olan "Armenakan"** 1885-ci ildə **Mıkertiç Portuqalyan** tərəfindən Osmanlı imperiyasının Van vilayətində milli hərəkatın bir hissəsi olaraq yaradılmışdır.[72] Partiyanın yaradılmasında məqsəd Osmanlı hakimiyyəti ilə mübarizə aparmaq idi.

"Ramqavar" Partiyası 1990-cı illərin sonuna qədər Livan parlamentində təmsil olunmayıb. **Yalnız 2000-ci ildə Livanın keçmiş baş naziri Rafiq Həriri hərəkatının müttəfiqi olaraq, parlamentdə ilk mandatını qazanmışdır.** Hazırda partiya Livan parlamentində təmsil olunmur.

Partiyanın keçmiş sədri Sevak Okapyan dəfələrlə antitürk mövqeyi ilə çıxış etmişdir. 2021-ci ilin fevral ayında Okapyan Livanın Daxili Təhlükəsizlik Qüvvələrinin baş direktoru general-mayor İmad Osmana müraciət etmişdir: *"Türkiyə Livanda varlığını gündən-günə möhkəmləndirir və sizin bu mövqeyiniz bizi narahat edir. Daxili təhlükəsizlik qüvvələrini daha da inkişaf etdirmək və təcrübələri artırmaq üçün göstərdiyiniz səyləri yüksək qiymətləndiririk, lakin bu gün türk dilini bilmənin nə üçün vacib olması bizim üçün narahatlıq doğurur. Türkiyənin Yaxın Şərqdə, Liviyada, o cümlədən, Cənubi Qafqazda davam edən hərbi müdaxiləsi yaxın gələcəkdə Livan üçün də təhlükə törədəcəyi ehtimalını mümkün edir"*. O, Türkiyənin

71 A delegation from the ADL party (Ramgavar) in Lebanon visits Antelias, https://www.armenianorthodoxchurch.org/en/archives/43929-

72 Борис Николаевич Пономарёв. "История СССР с древнейших времен до наших дней". — Москва: "Наука", т. 5. — с. 417.

yaxın gələcəkdə Livanın milli təhlükəsizliyinə təhdid yaradacağını vurğulayaraq, Livan hökumətini türklərdən uzaq durmağa çağırmışdır.[73]

Okapyan İkinci Qarabağ müharibəsində Livan mediasını və xalqını Azərbaycanın “yalan” xəbərlərinə uymamağa və ermənilərin “haqlı” mövqeyini dəstəkləməyə çağırmışdır.[74]

## Partiyalararası münasibətlər

Livandakı erməni icmaları birgə maraqlar (ilk olaraq qondarma “erməni soyqırım”ı nəzərdə tutulur) üçün birləşsələr də, ölkədə hakimiyyət və üstünülük naminə bir-biriləri ilə rəqabət halındadırlar. Ölkədəki erməni partiyaları arasında siyasi rəqabətin mövzusu yeni deyil, tarixən eyni köklərə bağlıdır. Belə ki, Livan erməniləri arasında ilk və ən kəskin parçalanma 1958-ci il hadisələrində özünü göstərmişdir.[75] Həmin vaxt ermənilər Livan münaqişəsinin iki tərəfi arasında parçalanmışdılar. Belə ki, “Daşnaksütyun” Partiyası Prezident Kamil Şamun və “Bağdad paktı”nı dəstəklədiyi halda, digər iki erməni partiyası buna əks mövqedə dayanmışdı. Partiyalararası silahlı qarşıdurmalar ermənilərin çoxluq təşkil etdiyi Burc Həmmud və Korniş kimi ərazilərə yayılmış və baş verən bir neçə insidentdə **200-dən artıq erməni ölmüşdü.**[76]

Partiyalararası bu müxaliflik ötən əsrin 60-cı illərində nisbətən aradan qalxmışdır. Belə ki, 1965-ci ildə erməni partiyaları siyasi cəbhələrə və

---

73 رئيس حزب الرامغافار: قلقون من أن تشكل تركيا تهديدا للأمن لبنان القومي بالمستقبل القريب – (“Ramqavar” Partiyasının sədri: “Türkiyənin yaxın gələcəkdə Livanın milli təhlükəsizliyinə təhdid yaradacağından narahatıq”), 01 fevral 2021, https://www.elnashra.com/news/show/1480776/رئيس-حزب-الرامغافار-قلقون-تشكل-تركيا-تهديدا-للأمن,

74 “الرامغافار: العدوان من الجانب الأذربيجاني، كان متوقعاً خاصة بظل الدعاية المعادية لأرمينيا ” - (“Ramqavar”: “Xüsusilə anti-erməni təbliğatı fonunda Azərbaycan tərəfdən təcavüz gözlənilən idi”), 27 sentyabr 2020, https://www.elnashra.com/news/show/1449741/%D8%A7%D9%84%D8%B1%D8%A7%D9%85%D8%BA%D8%A7%D9%81%D8%A7%D8%B1

75 The Origin, success and failure of the Lebanese-Armenian “Third Force” during the intra-communal cold war (1956-1960) (By Yeghia Tashjian), 05 March 2018, https://www.neweasternpolitics.com/the-origin-success-and-failure-of-the-lebanese-armenian-third-force-during-the-intra-communal-cold-war-1956-1960-by-yeghia-tashjian/

76 The political future of the armenian community in a fractured lebanon, Yeghia Tashjian, American University of Beirut, Beirut, 2023, p. 4 https://www.aub.edu.lb/ifi/Documents/The-Political-Future-of-the-Armenian-Community-Yeghia-Tashjian.pdf

ittifaqlara paraçalanmamaq üçün ölkə prezidenti ətrafında toplaşmaq qərarı almışdılar. Həmin ildə erməni “soyqırımı”nın 50-ci ildönümünə qədər, “soyqırım”ı anmaq məqsədi ilə erməni siyasi partiyaları Kilikiya Müqəddəs Taxt-Tacının Katolikosluğunun rəhbərliyi altında bir komitə yaratmışdılar.[77]

“Daşnaksütyun” Partiyası vətəndaş müharibəsindən sonra ölkədə hakimiyyətini möhkəmləndirmişdir. Lakin 1994-cü ildə Livanın keçmiş Baş naziri Rəfiq Həririnin erməni cinahına daxil olaraq, “Daşnaksütyun”a qarşı mövqedə durması və digər iki partiyanın mövqeyini müdafiə etməsi vəziyyəti yenidən kritik həddə çatdırmışdır.

Hazırda fəal konfessiyalararası əməkdaşlıq göstərir ki, Livanda “Daşnaksütyun-Hınçak-Ramqavar” arasında əvvəlki kəskin mübarizə yoxdur. Livanın protestant erməniləri eyni zamanda bütün Livan erməniləri ilə sıx inteqrasiya edir və birlikdə vahid üzvi bütöv - Livan erməni icmasını təşkil edirlər. O cümlədən, hər il aprel ayının sonunda erməni “soyqırımı”nın ildönümünü qeyd etmək və erməni cəmiyyətinin varlığını qoruyub saxlamaq üçün toplaşırlar.[78]

## Livanda ASALA təşkilatı

ASALA - 1975-ci ildə Türkiyə hökumətinə qondarma “erməni soyqırımı”nı etiraf etdirmək üçün yaradılan “Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu” təşkilatıdır. Mərkəzi Beyrutda yerləşir. Təşkilatın qurucuları **Akop Akopyan və Kevork Acemyandır.**

1975-ci ilin sentyabr ayında ASALA tərəfindən Türkiyənin Beyrutdakı səfirliyinin raket atəşinə tutulması nəticəsində səfirliyə xeyli ziyan dəymişdir. Eyni zamanda müəyyən illərdə Türkiyədə hərbi və iqtisadi hədəflərə qarşı çoxsaylı təxribat hücumları törədilmişdir.[79]

Livanda erməni “soyqırımı”nın anılması ilə bağlı fərqli illərdə bir sıra təşəbbüslər edilmiş, tədbirlər keçirilmişdir:

- 1965-ci ildə Bikfayda erməni seminariyasının ərazisində Osmanlı imperiyasında törədilmiş erməni “soyqırımı” qurbanlarının xatirəsinə **abidə ucaldılmışdır. (şəkil 3)**

77 Yenə orada
78 أين الأرمن في لبنان؟ – (Livanda ermənilər haradadırlar?), 06 iyul 2022, https://www.independentarabia.com/node/348831/52%تحقيقات
79 Armenian Secret Army for the Liberation of Armenia, https://www.britannica.com/topic/Armenian-Secret-Army-for-the-Liberation-of-Armenia

- 1997-ci ilin aprelin 3-də Livan parlamenti hər il 24 aprel tarixini erməni "soyqırımı" qurbanlarının xatirəsini anmaq üçün rəsmi olaraq qeyd etməyə qərar vermişdir. Hər il həmin tarix Livanda anılır.
- 2007-ci ildə 10 min Livan ermənisi Osmanlı Türkiyəsində qondarma "erməni soyqırımı"nın tanınmasına dəstək və anma tədbirində iştirak etmişdir. **(şəkil 4)**
- 2019-cu ildə erməni "soyqırımı"nın 104 illiyi Livanda geniş şəkildə qeyd edilmişdir.[80]



**Şəkil 7. Bikfayda erməni "soyqırımı" abidəsi[81]**



**Şəkil 8. "Soyqırım"ın tanınmasına dəstək üçün mart yürüşü[82]**

80 104th anniversary of the armenian genocide in Lebanon, 25 April 2019, https://www.youtube.com/watch?v=hIxLfR7aPkc
81 The Armenian Genocide memorial in Bikfaya, File:The Armenian Genocide memorial in Bikfaya.JPG - Wikimedia Commons
82 Armenians in Lebanon, https://en.m.wikipedia.org/wiki/Armenians_in_Lebanon

## Livanda fəaliyyət göstərən erməni kütləvi informasiya vasitələri

Livan ermənilərinin mədəniyyət, dil və tarixlərini qorumaq adı altnda öz millətçilik düşüncələrini yaymaq məqsədilə ölkədə kütləvi informasiya vasitələri (KİV) fəaliyyət göstərir. Hal-hazırda Livanda bunların sayı üçdür:

1. **“Aztag”**. Livanda **ilk erməni qəzeti 1927-ci** ilin martın 5-də nəşr edilən “Aztag” qəzetidir. Qəzet hal-hazırda “Aztag Daily” adı altında fəaliyyətini davam etdirir. Həftənin 6 günü işıq üzü görən 10 səhifəlik qəzet dünya, Livan və Ermənistanda baş verən hadisələri erməni dilində təqdim edir.[83]
   Daşnaksütyun Partiyasının gündəlik rəsmi qəzetidir, baş redaktoru **Şaxan Kandaxaryandır.** Mətbu orqanın həmçinin **“Bediq-mediq”** uşaq jurnalı, **“Navasart”** idman dərgisi, “Aztag kraqan-Aztag arvesdi” mədəni-ədəbi jurnalı, **“Anahid”** səyahət jurnalı kimi nəşrləri var. Nəşr həmçinin erməni və ərəb dillərində onlayn xidmət də təqdim edir.

2. **“Ararat”**. 1937-ci il noyabrın 12-də Beyrutda təsis edilmişdir. Ermənilərin sosial demokrat “Hınçak” Partiyasının mətbu orqanıdır. Partiyanın aktivisti **Mihran Ağazaryan** 1933-cü ildə bu mətbu orqanı yaratmağı planlaşdırsa da, **iki gün sonra öldürülmüşdür.** İlk redaktoru **Armenak Eloyan** (1937-1939), sonrakı redaktoru **Aharun Şerdemyan** olub. Qəzet 2000-ci ilədək gündəlik, 2001-2007-ci illər ərzində həftəlik, 2007-ci ildən həftədə üç dəfə, hazırda isə gündəlik dərc edilir.[84]

3. **“Zartonk”**. 1937-ci il sentyabrın 28-də Mihran Damadyan və Parounaq Tovmasyan tərəfindən təsis edilmişdir. Gündəlik dərc edilən qəzetdir. Ermənistanın “Ramqavar” Partiyasının Beyrutda dərc edilən mətbu orqanıdır. Yaradıldığı vaxtdan indiyə kimi beş redaktoru aşağıdakı şəxslər olmuşdur:

- Vahan Tekeyan (1937-1948);
- Kersam Aharoniyan (1948-1981);
- Akop Avedikyan (1981-1991);
- Barouyr Ağbaşyan (1990-2008)
- Sevaq Akopyan (2015-ci ildən bu günə kimi)

83 https://www.aztagdaily.com/%d5%b4%d5%a5%d6%80-%d5%b4%d5%a1%d5%bd%d5%ab%d5%b6 – qəzetin internet ünvanı

84 Ararad Daily Newspaper – Արարատ Օրաթերթ – qəzetin internet ünvanı

Livanda ümumilikdə bu günə kimi dini, ədəbi-mədəni, elm və təhsil mövzularında 200-dən çox kitab nəşr edilmişdir. Jurnallara gəlincə, ölkədə protestant ermənilərinin nəşrləri olan **"Patanekan ardzaqank"**, **"Djanaser"** və rüblük **"Luys"** jurnallarını qeyd etmək olar. Bunların arasında əhəmiyyətinə görə 1970-ci ildən Haykazyan Universitetinin nəşr etdiyi **"Haykazyan"** ermənişünaslıq jurnalı xüsusilə seçilir.

**Livanda üç erməni radiostansiyası fəaliyyət göstərir:**

1. **"Radio sevan"[85] -** 2005-ci ildə yaradılmışdır. Ermənistanda və Azərbaycanın vaxtilə işğal edilmiş Qarabağ bölgəsində canlı yayımlanırdı. 2021-ci ildə fəaliyyəti dayandırılmışdır.
   "Facebook" ünvanı - https://www.facebook.com/radiosevan.lb/
   "Intagram" ünvanı - https://www.instagram.com/radiosevan/

2. **"Voice of Van"[86]** -
   Yerləşməsi - https://goo.gl/maps/yZD1c8tYv7yfhUw98
   "Facebook" ünvanı - https://www.facebook.com/voiceofvan/
   "Intagram" ünvanı – https://www.instagram.com/radiovoiceofvan/
   "Youtube" ünvanı - https://www.youtube.com/c/VoiceofVanVanatsayn
   2009-2016-cı illərdə **"Voice of Van"** (Vanın səsi) radiostansiyasının rəhbəri Livanın keçmiş turizm naziri Avedis Kitanyan olub.

3. **"Radio Avol"[87]**
   "Facebook" ünvanı - https://www.facebook.com/radioAVOL
   "Avol" adının açıqlaması – "Armenian Voice of Lebanon"dur. 2010-cu ildə yaradılmışdır.

Livanda vətəndaş müharibəsi illərində **"Radio Paradise" radiostansiyası** Ermənistanın eyni adlı radiostansiyası ilə aktiv əməkdaşlıq edirdi. Hazırda Livanın "Future Television" və "OTV" kimi kanallarında erməni dilində gündəlik xəbərlər yer almaqdadır.

85 https://www.radiosevan.com/ - radionun internet ünvanı
86 https://voiceofvan.net/- radionun internet ünvanı
87 http://www.radioavol.net/ - radionun internet ünvanı

## Livan ermənilərinin Ermənistandakı yatırımları

Livanlı erməni iş adamları Ermənistandakı investisiya mühiti üçün ən mənfəətli sahələri **kənd təsərrüfatı və turizm** hesab etdikləri üçün ən çox sərmayəni bu sahələrə yatırırlar.

2015-ci ildə **Livan şirkəti "Gardeni Lebanese Farms" MMC-nin təsisçisi Nikola Abu Faysal ilk dəfə olaraq geniş kənd təsərrüfatı proqramına start vermişdir.** Sahibkar Ermənistanın Gegard şəhərində 100 hektar torpaq sahəsi almış və 22 hektar ərazidə pekan (qoz növü) əkilmişdir. O bildirmişdir ki, 5 ildən sonra Ermənistan bu sahədə **ABŞ-dən sonra birinci yeri tutacaq.** Həmçinin Ermənistanda ilk dəfə pekan əkildiyini qeyd edən N.Faysal bir neçə ildən sonra başqa ölkələrə üç min ton qoz-fındıq ixrac ediləcəyinin gözlənildiyini bildirmişdir.[88]

Livanın Ermənistanla iqtisadi əməkdaşlığını dərinləşdirmək məqsədilə atdığı addımlardan biri maliyyə sektoru sahəsindəki əlaqələrin gücləndirilməsidir. Livanın erməni iş adamları tərəfindən Ermənistanda Livanın **"Byblos Bankı"**nın[89] filialı açılmış və hal-hazırda fəaliyyət göstərir. Digər sərmayədarlar tərəfindən Livanın **"Credit Bank"**ının[90] Ermənistanda filialı[91] açılmışdır. 2009-cu ildə Livanın "Credit Bank"ı Ermənistanın "IDBank[92]"ının (keçmiş adı "Anelik Bank") 51%-ni satın almışdır. "Credit Bank"ın Ermənistanın "Anelik Bank" QSC-nin kapitalına yatıracağı investisiya 9 milyard dram (1 ABŞ dolları = 361 dram) təşkil etmişdir. Bu strateji müttəfiqlik sayəsində "Anelik Bank"ın kapitalının 15 milyard dram səviyyəsinə yüksələcəyi bildirilmişdir.

"IDBank"ın keçmiş İdarə Heyətinin sədri Samvel Çzmaçyan[93] vurğulamışdır ki, bankın kapitalı 2,5 dəfədən çox artmış, nəticədə kapitalına görə Ermənistanın ilk beş bankının sırasına daxil olmuşdur. O bildirmişdir: "*Bundan əlavə, bu, Livan, Ermənistan və Rusiya arasında əlaqələrin daha yaxşı irəliləməsinə təkan verib. 1992-ci ildən etibarən bizim törəmə müəssisəmiz CB Anelik RU Moskvada fəaliyyət göstərir*

88 Посол: Основавшиеся в Армении сирийские предприниматели способствуют развитию армяно-ливанских торговых отношений, 04 февраль 2015, https://armenpress.am/ru/article/828306,
89 https://www.byblosbankarmenia.am/ - bankın internet ünvanı
90 https://www.creditbank.com/ – bankın internet ünvanı
91 www.acba.am - bankın internet ünvanı
92 https://idbank.am/en/ - bankın internet ünvanı
93 Samvel Çzmaçyan 2013-cü ildə tutduğu vəzifədən azad edilib. 2019-cu ildən bankın İdarə Heyətinin sədri Mher Abrahamiandır

*və bu, Ermənistan-Livan bank biznesinin inkişafı üçün kifayət qədər yaxşı imkanlara malikdir. Eyni zamanda, əminəm ki, bu tranzaksiya qlobal iqtisadi böhran zamanı uğurlu olacaq*".

Hazırda "Credit Bank" 1 milyard dollardan çox gəliri ilə Livanın aparıcı banklarından biridir. Ərəb Bankları İttifaqının (UBA) üzvüdür və ərəb ölkələri arasında maliyyə əlaqələrinin inkişafında fəal iştirak edir.[94]

Livan və Ermənistan arasında iqtisadi əlaqələr həmçinin kiçik və ortamiqyaslı layihələr üzərində əməkdaşlıq yolu ilə inkişaf etdirilir. Bu layihələr əsasən nəqliyyat vasitələri, ərzaq və tekstil məhsulları, həmçinin ehtiyat hissələrinin idxalı sahələrini əhatə edir. Livan ermənilərinin Ermənistana yatırdıqları sərmayələr nəticəsində bu əlaqələr daha da möhkəmlənir. Onların arasında **"Square one"** investor şəbəkəsi, Gümrüdəki **"İsuz"** oteli, yüngül sənaye sahəsində fəaliyyət göstərən bəzi kiçik və orta müəssisələr, turizm ofisləri, restoranlar, supermarketlər və univermaqlar vardır. Bundan əlavə, Livan ermənilərinin Qərbi Afrikanın Toqo şəhərində böyük un dəyirmanları, Mərkəzi Afrikada isə təyyarə xidmətləri kimi iri investisiyaları da mövcuddur.

Livanda fəaliyyət göstərən digər erməni şirkətləri:

- "Gleam tourism & services"[95]
- "Armenia Air Company"[96]
- "L & R Communications"[97]
- "I-AM.AM LLC" - Ermənistanın iqtisadi artımını dəstəkləmək məqsədi ilə yaradılıb.[98]
- "Mamig's" – təzə və dondurulmuş ərzaq məhsulları şirkətidir.[99]

Livan iqtisadiyyatının ən mühüm və əsas sektorlarından biri olan zərgərlik sahəsində ən məşhur zərgərlər ermənilər hesab edilir. İnnovativ dizaynlar Livanın qızıl bazarını mühüm və rəqabətli qlobal bazarlardan birinə çevirməyə kömək etmiş və bu sahədə Livanı Yaxın Şərq ölkələri arasında lider mövqeyə gətirib çıxarmışdır.

94 https://uabonline.org/members-banks/, UAB MEMBERS
95 https://gleamtourism.com/ - https://goo.gl/maps/2pwra7B9jLhJGuT1 - şirkətin yerləşdiyi ünvan
96 http://www.armenia-air.com - https://goo.gl/maps/6wDgvnh3FT9zE4sW7 - şirkətin yerləşdiyi ünvan
97 http://www.lr-me.com –internet ünvanı
98 Lebanon - I-AM.AM - Armenian Business Directory – internet ünvanı
99 https://www.mamigs.com/index.php/about-us/ - internet ünvanı

Zərgərlik və qızıl ixracı Livanın ümumi sənaye ixracının 30 faizdən çoxunu təşkil edir. Ərəb Körfəzi ölkələri Livan mənşəli qızıl və zərgərlik məmulatlarının ən mühüm idxal bazarlarıdır. Livanda zərgərlik sənayesinin tarixi ermənilərin Livana immiqrasiya etdikləri vaxtdan - XX əsrin ortalarından başlamışdır. Bu sənayedəki kuratorların fikrincə, zərgərlik sənayesinin Livan iqtisadiyyatına daxil edilməsində əsas və birinci rol ermənilərə məxsusdur.[100]

Livanın Burc Hammud bölgəsi zərgərlik sahəsində ermənilərin məskunlaşdığı və bu sənayenin inkişaf etdiyi yer kimi tanınır. Lakin 2005-ci ildə keçmiş Baş nazir Rəfiq Həririnin öldürülməsi ilə başlayan hadisələr bu biznes sahəsinə ciddi zərbə vurmuş, xüsusilə Körfəzdən gələn alıcıların sayının azalması ilə əlaqədar olaraq bu sahədə çətinliklər yaşanmışdır. Burc Hammudda fəaliyyət göstərən erməni iş adamı Barsoumiyanın **"Pegor Jewelry"** şirkəti də bu dəyişən şəraitdən mənfi təsirlənmişdir.[101]

Bundan əlavə, Livanda zərgərlik sənayesinin inkişafında İstanbuldan gələn erməni ustalarının ötən əsrin ortalarında yerli sənayeyə önəmli təsirləri omuşdur. Burc Hammudun digər məşhur erməni zərgərlərindən biri bu sahədə fəaliyyətə 13 yaşında başlayan 84 yaşlı **Akop Hamamjiyandır. O, 1940-1950-ci illərdə İstanbuldan gələn erməni ustalarının yerli sənayeyə böyük təsir göstərdiyini bildirmişdir**: "*Onlar yaradıcı idilər və yeni ideyalar gətirdilər. Onların burada olması mənim kimi insanlar üçün təkan və stimul idi*".

Lakin son illərdə Livanda qızıl və zərgərlik ticarəti regional hadisələr və Suriyada müharibənin başlaması ilə əhəmiyyətli dərəcədə zəifləmişdir.[102]

## Livan ermənilərinin sosial-mədəni fəaliyyətləri

Livanın protestant erməniləri qondarma soyqırımdan qaçaraq Livanda məskunlaşan digər ermənilərə yardım etmək məqsədilə müxtəlif

100 صناعة المجوهرات اللبنانية تنافس عالمياً (Livanın zərgərlik sənayesi beynəlxalq arena-da rəqabət aparır) 24dekabr 2014, https://www.alaraby.co.uk/صناعة-المجوهرات-اللبنانية-تنافس-عالمياً

101 Bourj Hammoud, the little Armenia in the heart of Beirut, 24 December 2014, https://thearabweekly.com/bourj-hammoud-little-armenia-heart-beirut,

102 Great Read: Armenians in Lebanon keep their culture, memory of heroic 1915 battle alive, 24 April 2015, https://www.latimes.com/world/great-reads/la-fg-c1-lebanon-anjar-20150424-story.html

ictimai strukturlar yaratmışdır. Bu strukturlar hazırda xeyriyyəçilik, təhsil, səhiyyə və digər sosial sahələrdə fəaliyyət göstərirlər. Livandakı erməni protestantlarının tanınmış sosial strukturlarına Erməni Evangelist Sosial Xidmətlər Mərkəzi, Erməni Milli Sağlamlıq Kurortu, Xristian İttifaqı Məzunları, Livan və Suriya erməni protestant kilsələrinin xristian ittifaqları daxildir.

### Təhsil

**Livanda ilk erməni təhsil müəssisəsi XVIII əsrdə erməni katolik monastırında təsis edilmiş Dprevank (ermənicə - Դպրեվանք lit. Seminariya) sayılır.** Məktəblərin sayı II Dünya müharibəsindən sonra artmağa başlamışdır. Qondarma “erməni soyqırımı”ndan sonra ailəsiz uşaqların məskunlaşması məqsədilə yaradılan uşaq evlərinin əksəriyyəti müharibədən sonra məktəblərə çevrilmişdir. Digər uşaq evləri isə kilsələrin nəzdində təşkil edilmişdir. Həmin dövrdə erməni həvari kilsəsinin 15, katolik kilsəsinin 8, protestant kilsəsinin 6 məktəbi fəaliyyət göstərirdi. 1966-cı ildə Livanda 66 məktəbdə 14 min tələbə təhsil alırdı.

Hazırda Livanda 7 erməni protestant məktəbi mövcududr. Bu məktəblər təkcə protestantlar arasında deyil, eyni zamanda digər Livan erməniləri arasında böyük nüfuza malikdir**. Ölkədəki Protestant (Evangelist) kolleci xristian qruplar arasında ən məşhurudur. Erməni protestant təhsil müəssisələri öz şagirdlərinə dini biliklərlə yanaşı, ermənişünaslığı da öyrədir.**

Dinlərin konfessiyası təhsildə də özünü göstərir. Belə ki, protestantlara məxsus Haykazyan Universitetinin professorları və idarə heyəti katolik və provaslovlardan ibarətdir. Böyük Kilikiya Evinin katolikosu I Aram müntəzəm olaraq universitetdə ermənişünaslıqdan mühazirələrlə çıxış edir. Erməni Katolik kilsəsinin tanınmış nümayəndəsi, “Haykazyan” ermənişünaslıq jurnalının baş redaktoru A.Kranyan da universitetdə dərs deyən müəllimlərdən biridir.

**Yaxın Şərqdə yerləşən yeganə erməni universiteti Livanda yerləşən erməni protestantların Haykazyan Universitetidir. Qərb təhsilinin “mayakı” hesab edilir. Əsası 1955-ci ildə qoyulmuşdur.** İlk dövrlərdə gimnaziya kimi fəaliyyət göstərmiş, 1966-cı ildə universitetə çevrilmişdir. Universitetin dörd fakültəsi var və burada dinlə yanaşı, elm və incəsənət fənləri tədris edilir. Universitetin rektoru Yaxın Şərqdəki

Erməni Evangelist Kilsələri İttifaqı Mərkəzi Komitəsinin sədri keşiş **Pol Haytosyan**dır. Haykazyan Universitetinin ermənişünaslıq fakültəsində erməni ədəbiyyatı, tarixi, siyasəti və mədəniyyəti öyrədilir və tədris edilir. Universitetdə həmçinin erməni diasporu üzrə araşdırma mərkəzi fəaliyyət göstərir. Mərkəzin direktoru Andranik Daqisyandır.[103]




**Şəkil 9. Livanda yerləşən erməni Haykazyan Universiteti[104]**

**Livanda fəaliyyət göstərən erməni təhsil müəssisələri:**

- Erməni Evangelist Kolleci (Armenian Evangelical College), (Beyrut)
- Erməni Evangelist Mərkəzi Liseyi (Armenian Evangelical Central High School), (Ashrafieh, Beyrut)
- Evangelist Şamliyan Tatigyan orta məktəbi (Armenian Evangelical Shamlian Tatigian Secondary School), (Burc Hammud)
- Yeqişe Manukyan Kolleci (Yeghishe Manoukian College), (Dəbbayə)
- Hamazkayin Melankton və Haig Arslanyan Djemaran məktəbi (Hamazkayin Melankton & Haig Arslanian Djemaran School, (Məzhər)
- Birləşmiş Erməni Kolleci (United Armenian College), (Burc Hammud)
- Mesrobiyan Kolleci (Mesrobian College), (Burc Hammud)

103 الأرمن في لبنان.. وجع التاريخ وهاجس الحفاظ على الهوية (Livandakı ermənilər...Tarixin acısı və şəxsiyyəti qoruyub-saxlamağın vəsvəsəsi), 29 iyun 2013, https://www.aljazeera.net/news/reportsandinterviews/2013/6/29/أرمن-لبنان-يحنون-لأرض-الأجداد

104 Global Ministries, https://www.globalministries.org/partner/haigazian_university/




**Şəkil 10. Livanda erməni məktəblərinin yerləşdiyi ərazi**

## Mədəniyyət

Livanın erməni icmaları bir-birilərinin mədəniyyət tədbirlərində fəal iştirak edirlər. Məsələn, Böyük Kilikiya Evi Patriarxlığının və İrəvan Matenadaranının Antiliasda keçirilən "Kilikiya Ermənistanının mədəniyyəti" mövzusunda birgə elmi konfransını göstərmək olar. Hər il bu tədbirdə Livan Erməni Katolik və Evangelist kilsələrinin nümayəndələri fəal iştirak edirlər.

Bundan əlavə, 2005-ci ildə Erməni Apostol və Katolik kilsələrinin təşkil etdiyi, Haykazyan Universitetinin 50 illik yubileyinə həsr olunmuş şənliklərdə də Livan Erməni Yeparxiyasının rəhbəri yepiskop Qeqam Xaçeryan və erməni katolik vikarı iştirak ediblər.

## Səhiyyə

Livan ermənilərinin konfessiyalararası əməkdaşlığında sosial sahə önəmli yer tutur. Bu əməkdaşlığın nümunələrindən biri 1923-cü ildə qurulmuş Livan Milli Xəstəxanasıdır. **Xəstəxananın yaradılması erməni "soyqırım"ı nəticəsində Livana köçmüş ermənilər arasında yayılmış xəstəliklərin (vərəmin) müalicəsi zərurətindən irəli gəlmişdir.** Böyük Kilikiya Evinin katolikosu Sahak Xapayan

və rahib Yenovk Xatiyan xəstəxananın təməlinin qoyulmasında mühüm rol oynamışdır. Hazırda Milli Xəstəxana Erməni Apostol və Protestant (evangelist) kilsələrinin mülkiyyətidir. Livanın aparıcı tibb müəssisələrindən biri olaraq fəaliyyətini davam etdirir. Xəstəxana səkkiz üzvdən - dörd AAC tərəfdarından və dörd evangelistdən ibarət Qəyyumlar Şurası tərəfindən idarə olunur. Nizamnaməyə əsasən, Qəyyumlar Şurasının rəhbəri vəzifəsini daimi olaraq Erməni Apostol kilsəsinin nümayəndəsi, müavin vəzifəsini isə Evangelist kilsəsinin nümayəndəsi tutur. Bu struktur dinlərarası əməkdaşlığın institusional şəkildə həyata keçirildiyini əks etdirir.

## Məşhur Livan erməniləri

**Rafi Haladciyan -** 1961-ci il iyunun 8-də Beyrutda anadan olmuşdur. Hazırda Fransada yaşayan R.Haladciyan “Sen.se”[105] şirkətinin sahibidir. O, “**Nabaztaq”[106] (ermənicə “dovşan”, նապաստակ) Violet şirkəti tərəfindən istehsal edilmiş dovşan formasında “Wi-Fi” ilə işləyən elektron cihazın ixtiraçısıdır.**[107]

R.Haladciyan Livanda yaşadığı dövrdə moda və paltar sənayesi ilə məşğul olmuşdur. Onun tərəfindən istehsal edilən paltarlar müxtəlif ərəb ölkələrinə ixrac edilmişdir. 1998-ci ildə Ermənistana gedərək burada öz biznesini daha da genişləndirməyə başlamışdır. İndiyə qədər o, İrəvanda yerləşən bir sıra məşhur şirkətlərlə əməkdaşlıq etmişdir. Bu şirkətlər arasında “VivaCell[108]” (Ermənistan MTS), “ACBA - Credit Agricole Bank[109]”, “Pernod Ricard Armenia[110]”, “İrəvan Brandy Company[111]”, “IDBank[112]” (Credit Bank-ın nəzdində fəaliyyət göstərir), “AmeriaBank[113]”, “Vallex Mining[114]”, “Nairi Insurance [115]” və “Noyan Juices” kimi tanınmış adlar vardır.

---

105 Sen.se - Crunchbase Company Profile & Funding – şirkət haqqında
106 https://en.wikipedia.org/wiki/Nabaztag - elektron cihaz haqqında məlumat
107 Internet of Things: it’s all coming together for a tech revolution, https://www.theguardian.com/technology/2014/jun/08/internet-of-things-coming-together-tech-revolution
108 https://www.viva.am/
109 https://www.acba.am/en/
110 https://www.pernod-ricard.com/en/brands/ararat
111 https://en.araratbrandy.com/
112 https://idbank.am/
113 https://ameriabank.am/
114 https://vallexgroup.am/en/
115 https://imnairi.am/en/customers/Renderforest

**Bayar Manuel Bağdadyan -** Livandakı siyasi vəziyyətə görə ölkəni səkkiz il əvvəl tərk etmiş və Ermənistana köçməyə qərar vermişdir. Ermənistanda ən nüfuzlu restoranlardan birinin sahibidir. Eyni zamanda şokolad sənayesi ilə məşğuldur. Onun hazırda Livanda biznes obyektləri var və mütəmadi olaraq oranı ziyarət edir.[116]

**Artur Nazaryan (1951)** – Livanlı iş adamı, eyni zamanda Livan parlamentinin keçmiş üzvüdür. O, Tammam Salamın dövründə energetika naziri, 1998-2000-ci illərdə ətraf mühit naziri, həmçinin turizm naziri vəzifələrində çalışmışdır. Hazırda Ümumerməni Xeyirxahlar İttifaqının üzvüdür.

**Karim Pakrdauni (1944) -** Livanlı siyasətçi, politoloq və vəkildir. Livan prezidentləri - İlyas Sarkis və Emil Laxudanın müşaviri vəzifəsində çalışmışdır. Vətəndaş müharibəsində provaslavlar tərəfindən çıxış edib. 2001-2007-ci illərdə Kataib Partiyasının sədri kimi fəaliyyət göstərmişdir. Livandakı xristian icmasının ərəb və suriyapərəst dairələrini təmsil edir.

**Zafin Quyumcayan (1970) -** Erməni yazıçısı, diktoru və Livan Universitetinin professorudur. Hazırda bir neçə radio və televiziya verilişləri var: “Buncurin”, “Nəfs cədid” və “Livan taunhal”.

**Bunlardan əlavə, məşhur skripkaçı Apa Malikyan,**[117] müğənnilər Maria Nalbandyan (1985), Serj Tankiyan (1967), şairlər Harut Berberyan, Ohans Babkiyan, Sarkis Guiragossyian, Krikor Baldyan, Xaçik Haqakyan (həm ərəb, həm erməni dillərində yazıblar), yazıçılar Kevork Ajamyan, Armin Anaryan, Ara Arzonyan, jurnalistlər Joil Mardunyan, Maguy Nanedjyan, rəssam Sita Manukyan, idmançılar Artur Koçaryan, Xorin Oqanisyan, Zafin Baduyan, Sergey Arzuramyan, Hamat Muxitaryan məşhur livan erməniləridir.

## İşğal dövründə Qarabağda yaşayan Livan erməniləri

Ermənistanda xeyli sayda Livandan gəlmə ermənilər yaşayır. Onların əksəriyyəti İrəvanda məskunlaşsa da, bir hissəsi vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində yerləşdirilmişdi. Ermənistanın Erməni diasporu ilə iş üzrə Ali Komissarı 2020-ci ildə

116 اللبنانيون في أرمينيا.. أكبر المستثمرين رجال الاعمال في أرمينيا - (Ermənistandakı livanlılar.. Ermənistanda iş adamları və böyük investrorlar) .xedni/moc.berathgumla//:ptth ٨٠٨=di&golb=tuoyal&yrogetac=weiv&tnetnoc_moc=noitpo?php

117 https://ufmsecretariat.org/med-voices-malikian/

Beyrut limanında baş vermiş partlayışdan sonra erməniəsilli 800 Livan vətəndaşının Ermənistana köçdüyünü bildirmişdir.[118] 2020-ci ilin statistik məlumatlarına əsasən, Laçında üç yüz livanlı yaşayırdı.[119]

Qarabağda Livan ermənilərinin icma rəhbəri **Andrani Çavuşyan olmuşdur.** O, Beyrutdan 2004-cü ildə gəlib. Dediyinə görə, onun əcdadları 1915-ci ildə Osmanlı imperiyasında qondarma “erməni soyqırımı”ndan sonra Türkiyədən Suriyaya qaçmışdır. Ailəsi isə 1994-cü ildə Livana gəlmişdir. Həmin ərazilərdə məskunlaşan Livan erməniləri Azərbaycan kəndinin o vaxt yaşadıqları əraziyə yaxın olduğunu, yaxınlıqdakı Laçın kəndində azərbaycanlı məzarlarının olduğunu və oranı ziyarət etdiklərini bildirmişdilər.[120]

İkinci Qarabağ müharibəsi zamanı Livan parlamentinin deputatı, Livandakı Daşnaksütyun Partiyasının lideri Akop Pakradunyan 20-yə yaxın Livan ermənisinin müharibədə iştirak etmək üçün qeydiyyatdan keçdiyini bildirmişdi.[121]

## Nəticə

Livan erməniləri ölkənin demoqrafik və konfessional strukturunda nisbətən az sayda olmalarına baxmayaraq, sosial, iqtisadi və siyasi sahələrdə disproporsional dərəcədə təsirli bir mövqe əldə edə biliblər. Bu təsirin formalaşmasında onların dini və mədəni təşkilatlanması ilə yanaşı, diaspor siyasətini fəal şəkildə yönləndirən ideoloji və siyasi şəbəkələrin də rolu olmuşdur. Livanda müxtəlif konfessiyalara mənsub olan erməni icmaları – katolik, pravoslav və protestantlar – daxili fərqliliklərə baxmayaraq, qondarma “erməni soyqırımı” iddialarının tanıdılmasına çalışıb və bu hadisələrin guya səbəbkarı olan xalqlara və dövlətlərə qarşı düşmənçilik mövqeyi sərgiləyiblər. Bu həmrəylik onların Livandakı mövcudluğunu sırf dini-etnik qrup olmaqdan çıxarmış,

118 أكثر من 800 أرمني-لبناني وصل لأرمينيا منذ تفجير بيروت ب٤ أغسطس-المفوض الأعلى لشؤون الشتات الأرمني - (Avqustun 4-də Beyrutda baş verən partlayışdan sonra Ermənistana 800-dən çox livanlı erməni gəlib - Erməni diasporu ilə iş üzrə Ali Komissar), 28 avqust 2020, https://armenpress.am/ara/news/1026175/

119 Как живут ливанские армяне в Карабахе и что думают о войне между Арменией и Азербайджаном, 23 октябрь 2020, https://www.bbc.com/russian/features-54659346

120 Yenə orada

121 Despite Lebanon’s woes, Armenians spring to action for Nagorno-Karabakh, 01 November 2020, https://www.reuters.com/article/world/despite-lebanons-woes-armenians-spring-to-action-for-nagorno-karabakh-idUSKBN27H156/

regional və beynəlxalq siyasətdə funksional aktora çevirmişdir.

İndiki dövrə nəzər saldıqda, hazırda 6 milyona yaxın əhalisi olan Livanın 70 minə yaxın erməni əhalisi var. Onlar əsasən Livanın paytaxtı Beyrut, ölkənin ən böyük ikinci şəhəri Trablis ilə yanaşı, Əncar, Mətn və Zəhlə bölgələrində məskunlaşıblar. Beyrutun Burc Həmmud məhəlləsi erməni məhələsi olaraq tanınır.

Livanda erməni icmasının üç konfessional konfiqurasiyasını katolik, pravoslav və protestant ermənilər təşkil edir. Ölkənin ən böyük erməni icması erməni katoliklərdən ibarətdir. Ermənilər Livana köç etdikləri vaxtdan etibarən ölkədə xristian icmasının əsasını təşkil edən marunilər ilə sıx əlaqə saxlayıb və bunun nəticəsində marunilərin dini olan katolik xristianlığı mənimsəyiblər. Ölkənin ikinci ən böyük erməni icmasını erməni pravoslavlar təşkil edir. Onlar əsasən Beyrutun Burc Həmmud və Əncar bölgələrində cəmləşibər.

Livan əhalisinin böyük hissəsini, yəni 61,1 faizini müsəlmanlar təşkil edir. 2020-ci ilin statistik göstəricilərinə görə, ölkədə 1.504 məscid, 2.405 kilsə var. Kilsələrin 68 faizi maruni kilsələridir. Onların sayı 1.647-dir. Digər 363 kilsə yunan pravoslav, 262 kilsə Roma katolik və 133 kilsə isə erməni və digər xristian məzhəblərinə məxsusdur. Kilsələrin sayına görə Kəsrəvan bölgəsi 353 kilsə (6 məscid) ilə birinci, Mətn bölgəsi isə 328 kilsə (1 məscid) ilə ikinci yerdə qərarlaşıb.

Rəqəmlər baxımından Livanda kilsələrin sayının məscidlərdən çox olması və xüsusilə maruni kilsələrinin dominantlığı formal olaraq Livanın müsəlman çoxluqlu ölkə olmasına baxmayaraq, xristian icmalarının dini məkanlar baxımından üstünlük təşkil etdiyini göstərir.

Livan erməniləri ölkə idarəçiliyində mühüm nüfuza sahibdirlər. Hazırda Livanın gənclər və idman naziri Nora Bayraktaryandır. O, 2025-ci ilin fevral ayında bu vəzifəyə təyin edilib. Bundan əvvəl Livan hökumətində 10-a yaxın erməni əsilli nazir olub.

Sonuncu, 2022-ci ildə keçirilən parlament seçkilərindən sonra ermənilər Livan parlamentində 6 erməni deputatla təmsil olunurlar. Parlamentdə 5 deputat erməni apostol, digər 1-i erməni katoliklərdən seçilir.

Livan ermənilərinin siyasi müstəvidə konfessiyalararası əməkdaşlığı milli məsələlərdə özünü daha çox göstərir. Livanın erməni icması üzvlərinin hansı partiya və ya konfessiyaya mənsub olmasından asılı olmayaraq, qondarma "erməni soyqırımı"nın tanınması, "Hay-Dat", keçmiş Qarabağ münaqişəsi, türklərə qarşı birgə mübarizə və s.

bu kimi məsələlərdə həmrəydirlər. Buna Livanın erməni icmalarının yepiskoplarının Türkiyənin Livanda sülhməramlı missiyada iştirak üçün müraciətlərinə qarşı çıxmaları və Livanda Ermənilərin Böyük Kilikiya Evinin katolikosu I Aramın İkinci Qarabağ müharibəsinin nəticələri və Azərbaycanda “qeyri-qanuni” saxlanılan erməni əsirlərinin aqibəti barədə Roma Papası Fransisk ilə danışıqları misal olaraq göstərilə bilər.

1975-ci ildə erməni siyasi çevrələri tərəfindən Türkiyə hökumətinin “1.5 milyon erməninin ölümünə səbəb olan qondarma “erməni soyqırımı”nı etiraf etməsi məqsədilə qurulan “Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu” (ASALA) təşkilatı həmin dövrdə erməni milli hərəkatının ən mühüm silahlı qollarından biri olmuşdur. ASALA, xüsusilə 1970-ci illərin ortalarından etibarən Livan daxilində fəaliyyət göstərən ən güclü erməni təşkilatlarından biri kimi tanınmışdır. Təşkilatın mərkəzi Beyrut şəhərində yerləşirdi və bu, onun Livanda erməni diasporunun siyasi və hərbi nüfuzunu nümayiş etdirən mühüm amil idi.

Ermənilərin 1915-ci ildə baş verdiyini iddia etdikləri “soyqırım”ın tanınması və beynəlxalq səviyyədə qəbul etdirilməsi məqsədini güdən ASALA, bu mövzuda Livan dövlətinin dəstəyini almışdır. Belə ki, Livan 1965-ci ildə “erməni soyqırımı” qurbanlarının xatirəsinə abidə ucaldılması qərarını qəbul etmişdir. Bu addım Livanın erməni diasporu ilə güclü əlaqələrini və bu məsələdəki siyasi mövqeyini nümayiş etdirirdi. Həmçinin, 1997-ci ildə Livan parlamentinin qəbul etdiyi qərara əsasən, hər il 24 aprel tarixində qondarma “erməni soyqırımı” qurbanlarının xatirəsi yad edilir. Bu qərar Livanın Ermənistanın ən mühüm siyasi dəstəkçilərindən biri olduğunu və bu ölkənin beynəlxalq diplomatik səhnədəki mövqeyini əks etdirir.

Bu kontekstdə, Livan dövləti yalnız erməni diasporunun mədəni və siyasi həyatında deyil, həm də “erməni soyqırımı” iddialarını beynəlxalq müstəvidə təşviq etməklə, Ermənistanın xarici siyasətinin önəmli bir müttəfiqi rolunu oynamışdır. Bu yanaşma həm Livan-Ermənistan münasibətlərində, həm də Cənubi Qafqazdakı siyasi dinamikada mühüm təsirə malikdir.

Livan erməniləri həmçinin ölkənin iqtisadi, sosial və mədəni həyatında da mühüm yerlərə sahib olublar. 2015-ci ilin statistik göstəricilərinə əsasən, Livan əhalisinin təxminən 10%-ni təşkil edən ermənilər ölkənin ümumi daxili məhsulunun təqribən 25%-ni təmin edirdilər. Bu yüksək göstərici erməni icmasının ölkə iqtisadiyyatının müxtəlif sahələrindəki fəal iştirakını və önəmli rolunu əks etdirir.

Bundan əlavə, Livan ermənilər təhsil, sosial və media sahələrində də əhəmiyyətli yerə sahibdirlər. Livanda ilk erməni qəzeti 1921-ci ildə nəşr edilib və hal-hazırda ölkədə üç erməni radiostansiyası ("Voice of Van", "Radio Avol", "Radio Sevan") və üç erməni mətbuat orqanı ("Ararat", "Zartonk", "Azdak") fəaliyyət göstərir.

Livanda yerləşən Haykazyan Universiteti isə Yaxın Şərqdə yeganə erməni univeristeti hesab edilir. Bunlardan əlavə, Livan ermənilər arasında məşhur musiqiçilər, aktyorlar, idmançılar və jurnalistləri də görmək mümükündür.

Nəticə olaraq, Livan ermənilərinin bu ölkədə məskunlaşma tarixindən başlayaraq bu günə kimi fəaliyyətləri, onların ölkədaxili dini-konfessional təbəqələşmədə tutduqları mövqe, eləcə də siyasi, sosial, iqtisadi və mədəni həyatdakı çoxşaxəli iştirakları göstərir ki, Livanın erməni icması say baxımından azlıq təşkil etsə də, ölkənin ictimai-siyasi sistemində gözləniləndən daha böyük təsir gücünə malikdir. Bunun miqyası təkcə daxili iştirakla məhdudlaşmır, həm də Livanın beynəlxalq münasibətlərinə, xüsusilə Ermənistanla əlaqələrinə və regiondakı geosiyasi balansa da əhəmiyyətli dərəcədə təsir göstərir.

# II FƏSİL

# FƏLƏSTİNDƏ ERMƏNİ DİASPORU

## Fələstinin erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət

Yaxın Şərqdə yaşayan etno-konfessional qruplar arasında Fələstinin erməni icması mühüm yer tutur. Fələstin Milli İnformasiya Agentliyinin məlumatına əsasən, ermənilərin Qüdsdə məskunlaşmaları min yeddi yüz il əvvələ, eramızın III əsrinə təsadüf edir. Bəzi mənbələrdə bu məskunlaşma tarixi eramızın IV əsri olaraq qeyd olunur. **Yaxın Şərqin ən qədim erməni icması hesab edilən Fələstinin erməni icması ölkədə xristian icmaları arasında** üçüncü ən böyük icma hesab edilir.[122]

Fələstinin erməni icması XX əsrdə Osmanlı dövlətinin tərkibinə etno-konfessional icma kimi daxil olmuşdur. XX əsrdən etibarən millət sistemi dağılmış, yeni tip erməni milli kimliyinin formalaşması prosesi başlamış, siyasi partiyalar və təşkilatlar meydana çıxmışdır. XX əsrin 40-cı illərinin sonunda erməni icması yenidən Qüdsün erməni məhəlləsində və Müqəddəs Yaqub monastırında təcrid olunmuş vəziyyətdə qalmışdır.

Tarixçi alim Dmitriy Sanoyan **“1908-1949-cu illərdə Qüds və Fələstinin erməni icması: modernləşmə və ənənə”** adlı dissertasiya işində Qüds ermənilərinin 1908-ci il “Gənc türklər” hərəkatından keçən 40 il ərzində üç dəfə vətəndaşlıqlarını dəyişdiklərini qeyd etmişdir:[123]

1. 1917-ci ilə qədər Osmanlı hakimiyyəti dövründə
2. Fələstində Böyük Britaniya mandatlığı dövründə;

---

122 الأرمن في فلسطين – (Fələstindəki ermənilər. Fələstinin İnformasiya və Xəbər Agentliyi) https://info.wafa.ps/ar_page.aspx?id=5049

123 Dmitriy Sanoyan – Armenian community in Jerusalem and Palestine in thre period of world war I and the genocide - https://cyberleninka.ru/article/n/armenian-community-in-jerusalem-and-palestine-in-the-period-of-world-war-i-and- the-genocide/viewer (2009)

3. Qüdsün İordaniya Haşimilər Krallığının tərkibində olduğu dövrdə; (Bu qərar BMT Baş Assambleyasının Qüdsü beynəlxalq nəzarət altında ayrıca ekstraterritorial vahid elan edən qərarına zidd olaraq qəbul edilmişdir. İordaniyanın Şərqi Qüdsü özünün ikinci rəsmi, sonra isə "mənəvi" paytaxtı elan etməsinə baxamayaraq, bu ölkənin qərb sahilində və Şərqi Qüds üzərində nəzarəti beynəlxalq ictimaiyyət tərəfindən faktiki olaraq tanınmamışdır.)[124]

D. Sanoyanın bu tədqiqatından belə qənaətə gəlmək olur ki, 1920-1930-cu illərin nəticələrindən biri cəmiyyətin demoqrafik tərkibində əhəmiyyətli dəyişikliklərin baş verməsi olmuşdur. Əgər Böyük Britaniya mandatlığı dövrünün birinci yarısında Fələstində erməni əhalisinin iki qrupunun - "Kahakatsi" və "Kaxatan" - birgə yaşayışından danışmaq mümkün olardısa, bu mandatın hakimiyyəti dövrünün ikinci yarısında Türkiyədən immiqrantların tədricən assimilyasiya prosesi müşahidə olunmuşdur. Bu prosesdə Qüds Erməni Patriarxlığı və Erməni Apostol kilsəsinin digər qurumları mühüm rol oynamışdır. Nəzərdən keçirilən dövrün sonunda erməni icması etnik və demoqrafik cəhətdən homogenləşmişdir və bu, birinci Ərəb-İsrail müharibəsi zamanı onun Qüdsdə qorunub saxlanılmasına kömək etmişdir.[125]




**Şəkil 1. Qüdsün "İçərişəhər" ərazisinin xəritəsi [126]**

124 Армянская община Иерусалима и Палестины 1908-1949 гг.: с. 3,4, 2010.
125 أرمن مصر .. أرمن فلسطين ... بعيداً عن السياسة – ("Misir erməniləri... Fələstin erməniləri... siyasətdən uzaq"), s. 3,4. https://books.google.az/books?id=htrmzQEACAAJ&printsec=frontcover&hl=ru&source=gbs_ge_summary_r&cad=0%23v%3Donepage&q&f=false#v=onepage&q&f=false
126 keghart.org, https://keghart.org/save-the-lands/

Fələstinin erməni icmasının Qüds şəhərində cəmləşən əhəmiyyətli hissəsi şəhərin mərkəzi hesab edilən "İçərişəhər"də yaşayır. 1967-ci ildə "Altı günlük müharibə" zamanı Qüdsün "İçərişəhər"i və orada yerləşən erməni məhəlləsi İsrailin nəzarətinə keçmiş, bundan sonra Qüds İsrail dövlətinin vahid və bölünməz paytaxtı elan edilmişdir. Nəticədə, Qüds erməniləri İsrailin suverenliyi altında qalmışdır. Bu vəziyyət bu günə qədər dəyişməz olaraq qalır.

**Qüdsdə Fələstinin erməni icmasının böyük əksəriyyəti, yəni 80 faizi cəmləşib**. 1893-cü ildə Osmanlı dövlətinin keçirdiyi siyahıyaalmaya əsasən, Qüds şəhərində 847 erməni qeydə alınmışdır. Ermənilərin digər hissəsi isə Yaffa, Hayfa, Ramla, Beytləhəm və Qəzza şəhərlərində məskunlaşmışdır. 1945-ci ildə Qüdsdə 5 min erməni yaşayırdı. 1967-ci il işğalından sonra Qüds ermənilərinin sayında əhəmiyyətli azalma müşahidə edilmişdir. 1974-cü ildə "İçərişəhər"də yaşayan ermənilərin ümumi sayı 2 mini keçmirdi. 1985-ci ildə onların sayı 1200 nəfərə qədər azalmışdır. Hazırda Qüdsdə 2 min, ölkənin cənub hissəsində 500, digər şəhərlərində isə ümumilikdə 500 erməni yaşayır.[127]

## Fələstində dini balans

### Fələstində islam

Fələstin və Cənubi Suriya Ərəbistan yarımadasında islamlaşmış qəbilələr tərəfindən fəth edilən ilk əraziləridir. Təsadüfi deyil ki, müasir Fələstin ləhcəsi ərəb dünyasının digər dialektlərindən islamın klassik dilinə daha yaxındır. İordan çayının qərb sahili (98,5 faiz) və Qəzza zolağı (99,5 faiz) əhalisinin böyük əksəriyyətini əhli-sünnə məzhəbinə mənsub müsəlmanlar təşkil edir. Onların əksəriyyəti əhli-sünnənin dörd qolundan biri olan və əsası VIII-IX əsrlərin sonunda qoyulmuş Şafii məzhəbinə mənsubdurlar. Miladi VIII əsrdə bu məzhəbin əsasını qoymuş İmam Məhəmməd Əş-Şafii məhz Fələstinin Qəzza şəhərində anadan olmuşdur. Sadəliyinə görə bu məzhəb tez bir zamanda Hənəfi məzhəbini sıxışdırıb çıxarmış, Suriya, İraq, Misir və bəzi digər müsəlman ölkələrinə yayılmışdır.

Ölkənin şiə mənsublu əhalisinin sayına gəlincə, bu rəqəm azlıq təşkil edir. Belə ki, fələstinlilərin yüzdə birindən azını, adətən, şiə islamında eklektik hərəkatlar kimi təsnif edilən Druz və Əhmədi icmaları təşkil edir.

127 الجالية الأرمنية ومساهمتها في الحياة الفلسطينية - (Erməni icması və onun Fələstin həyatına töhfəsi), 11 oktybar 2022, https://www.palestine- studies.org/ar/node/1653306

## Fələstində xristianlıq

Ölkənin xristian əhalisi mühacirət səbəbindən daim tənəzzüldədir. Hazırda Fələstində ərəbdilli xristianların sayı təxminən **yüz min nəfərdir.** Fələstinli xristianlar ölkə əhalisinin 10 faizindən azını təşkil edir. On il əvvəl bu rəqəm 35 faiz idi.[128]

Fələstin xristianlarının əksəriyyəti **Yunan Pravoslav** kilsəsinə mənsubdur. Qalanları katoliklər, yunan katolikləri, protestantlar, erməni monofizitləri, marunilər, koptlar, Suriya və Efiopiya Pravoslav kilsələrinin nümayəndələridir.

**Şərqi Qüds, Qəzza və İordan çayının qərb sahilində 30 ildən artıqdır ki, fəaliyyət göstərən Qüds Media Araşdırmaları Mərkəzinin (JMCC) 2017-ci ilin fevral ayında Fələstin sakinləri arasında keçirdiyi sorğunun nəticələrinə görə, respondentlərin əksəriyyəti, yəni 55 faizdən çoxu özlərini Fələstin xalqının nümayəndələri kimi, 21,7 faizi müsəlman və yalnız 5,3 faizi ərəb olaraq təqdim etmişdir.**[129]

Qüds şəhərində ümumilikdə **97 kilsə** var.[130] Onlardan ən məşhuru Qüdsün "İçərişəhər"inin dərinliklərində yerləşən "Diriliş" (Məsihin dirilişi) və ya digər adla Müqəddəs Qəbir kilsəsidir. Bu kilsə xristian ziyarətgahlarının ən müqəddəsi hesab olunur və onun yaxınlığında şəhərin ən məşhur kilsələri yerləşir. Bunlar İbrahim ata kilsəsi, Vəftizçi Yəhyanın kilsəsi və Məryəm kilsəsidir.

- **Məsihin dirilişi kilsəsi (Müqəddəs Məqbərə kilsəsi)**: Kral Konstantinin anası Kraliça Yelena tərəfindən eramızdan əvvəl 335-ci ildə xristian dininə görə Məsihin çarmıxa çəkildiyi xaçın tapıldığı yerdə tikilmişdir. Kilsənin çöl tərəfi iki böyük günbəzdən ibarətdir və bu iki günbəzin altında həcmi və forması ilə fərqlənən digər kilsələr var.

128 "What Is It Like to Be a Palestinian Christian?", https://www.beliefnet.com/faiths/christianity/2002/04/what-is-it-like-to-be-a-palestinian-christian.aspx
129 "Ислам в Палестине" – https://mgimo.ru/upload/iblock/cd6/islam-v- palestine.pdf?utm_source=google.com&utm_medium=organic&utm_campaign=google.com&utm_referrer=google. com
130 "List of Churches in Jerusalem", 23 January, 2025, https://rentechdigital.com/smartscraper/business-report-details/israel/jerusalem-district/list-of-churches-in-jerusalem?utm_source=chatgpt.com

- **İbrahim Ata kilsəsi**: Şərqdən cənuba doğru “Diriliş” kilsəsinin həyətində yerləşir.

- **Vəftizçi Yəhyanın kilsəsi:** Kilsə Sukikat Alun ilə xristian məhəlləsinə gedən küçə arasında yerləşir. Burada bir günbəz və iki kilsə var: biri eramızın 450-ci ilində, digəri isə eramızın 1048-ci ilində tikilmişdir.

- **Məryəm kilsəsi: “**Diriliş” kilsəsinin cənubunda yerləşən Müqəddəs Məryəm kilsəsi eramızın 494-cü ilində tikilmiş köhnə Bizans kilsəsidir.[131]




**Şəkil 2. Qüdsün “İçərişəhər” ərazisində yerləşən kilsələrin xəritəsi**[132]

## Qüds ermənilərinin konfessional konfiqurasiyası

1920-ci ildən Qüdsdə başlanan ikinci növ modernləşdirilmə erməni icmasının bütün sosial qrup və institutlarının, o cümlədən kilsənin fəal iştirakı ilə səciyyələnirdi. 1920-ci illərdə patriarxlar **Yeqişe Turyan** və **Torqom Quşamyan** erməni icmasının mədəni dirçəlişi

---

131 “فيديوغراف: أبرز كنائس القدس في عيد الفصح” – (“Qüdsün ən məşhur kilsələri”), 03 mart 2018, فيديوغراف: أبرز كنائس القدس في عيد الفصح | أخبار سياسة | الجزيرة نت (aljazeera.net)

132 https://bigthink.com/strange-maps/holy-sepulcher/?utm_source=-feedburner&utm_medium=feed&utm_campaign=Feed%3A+bigthink%2F-main+%28Big+Think+Main%29

və müasirləşməsi ideyalarını təbliğ edirdilər. Nəzərdən keçirilən dövr ərzində Qüds Erməni Patriarxlığı dünyəvi klublar və partiyalarla birlikdə erməni icmasında modernləşmə proseslərinin əsas dirijoruna çevrilmişdir. Fələstində Böyük Britaniya mandatlığı rejiminin qurulması və Britaniya hakimiyyətinin etnik azlıqlar üçün əlverişli siyasəti də erməni icmasının inkişafı üçün möhkəm zəmin yaratmışdı.

Fələstin ermənilərinin böyük əksəriyyəti erməni pravoslav xristianlardır**.** Digərləri erməni katoliklər və erməni evangelistlər olmaqla iki qrupa bölünürlər. İnstitusional olaraq yunan pravoslav və katolik xristianlarından ayrı olsalar da, ermənilər yaşadıqları ərazini xristian məhəlləsinin bir hissəsi hesab edirlər. VI əsrdə erməni zəvvarlar Şərqi Pravoslavlığa assimilyasiya olunmaqdan imtina etdikləri üçün Bizans imperiyası tərəfindən Qüdsdən qovulmuşdular. 1099-cu ildə səlibçilər Qüdsü fəth etdikdən sonra erməni xristianlar geri qayıtmağa başlamışdılar. Məmlüklərin Qüdsü səlibçilərdən geri almasından sonra ermənilərə Qüdsdəki məhəllələrinə qayıtmaq və yeni kilsələr, binalar tikmək üçün rəsmi icazə verilmişdir. Məmlüklər bu addımı daha irəli apararaq, ermənilərə ən yüksək azadlıq statusu verən, onları bütün vergilərdən tamamilə azad edən rəsmi fərman imzalamışdılar. **Beləliklə, erməni məhəlləsi inkişaf edərək indiki formasını almışdır.**[133]

Qüds Erməni Pravoslav Patriarxlığı[134] Qüds ermənilərinin dayağı, həmçinin Müqəddəs Yaqub Qardaşlığının evi hesab olunur. Erməni Patriarxlığı Qüdsün "İçərişəhər"ində, Müqəddəs Yaqub Erməni kilsəsinin (Cathedral of Saint James)[135] tərkibində yerləşir. Patriarxlığın nəzdində Müqəddəs Yaqub kilsəsi, Müqəddəs Mələklər kilsəsi, Tarkmançats məktəbi, Erməni İlahiyyat Seminariyası, Gülbenkyan kitabxanası, kitab mağazası, Erməni Muzeyi, Cinişyan Klinikası, Qüdsdə ən qədim və hələ də fəaliyyət göstərən mətbəə, Müqəddəs Məqbərə kilsəsi, Müqəddəs Xilaskar kilsəsi, Məryəm məzarı kilsəsi, Getsemaniya, Yaffadakı Müqəddəs Nikolay Erməni kilsəsi, Hayfadakı Müqəddəs Elias kilsəsi və Beytləhmdəki "Diriliş" kilsəsini qeyd etmək olar.[136]

133 الارمن في فلسطين جزء من النسيج الفلسطيني - (Fələstin erməniləri Fələstinin ayrılmaz hissəsidirlər), 10 oktyabr 2020, https://www.albayan.ae/expo/news/2022-03-11-1.4388871

134 Armenian Patriarchate of Jerusalem – Qüdsün Erməni Patriarxlığının rəsmi saytı, https://armenian- patriarchate.com/

135 Cathedral of St. James. 2010 World Monuments Watch, https://www.wmf.org/project/cathedral-st-james

136 Church of St James - https://www.seetheholyland.net/church-of-st-james/

Qüdsün erməni icmasına məxsus ən mühüm kilsə Müqəddəs Yaqub kilsəsidir (Cathedral of Saint James). Kilsə Qüdsün erməni məhəlləsinin yerləşdiyi “İçərişəhər” ərazisində yerləşir. XII əsrin ortalarında tikilmiş Müqəddəs Yaqub kilsəsi Qüds kilsəsinin ilk yepiskopu olan İsanın qardaşı Yaqubun şərəfinə adlandırılmışdır. Görünüşü ilə seçilən bu kilsənin günbəzli tavanı qızıl və gümüş lampalarla işıqlandırılıb. İsanın qardaşı Yaqubun burada dəfn olunduğu deyilir və kilsənin həmin hissəsi ziyarətgah olaraq fəaliyyət göstərir. Bu kilsədə həmçinin zəvvarların son min ildə qoyub getdikləri hədiyyələr saxlanılır.



**Şəkil 3. Müqəddəs Yaqub (Saint James) kilsəsi**[137]



**Şəkil 4. Müqəddəs Yaqub kilsəsində ayin**[138]

Qüdsün erməni patriarxı **Nurhan Manukyandır.**[139] O, bu vəzifəni 2013-cü ildən icra edir. 1948-ci ildə Suriyanın Hələb şəhərində anadan olan N.Manukyan 1971-ci ildən Qüdsdə keşiş, 1999-cu ildə

137 File:ISR-2015-Jerusalem-Dormition Abbey.jpg - Wikipedia

138 Jerusalem breaking news, 28 October 2021, https://keghart.org/jerusalem-breaking-news/

139 Armenian Patriarchate of Jerusalem, https://web.archive.org/web/20210413180123/https://armenian-patriarchate.com/about-us/

ümumermәni katolikosu II Qaregin tәrәfindәn kilsәnin eşikağası, 2009-cu ildә Qüds patriarxı II Torqom Manukyan tәrәfindәn patriarxal vikar tәyin edilmişdir.[140] Arxiyepiskop, **Qüdsün 96-cı patriarxı Torqom Manukyan 2012-ci ildә 93 yaşında vәfat etdikdәn sonra N.Manukyan onun yerinә seçilmişdir.**[141]



**Şәkil 5. 1990-cı il. T. Manukyanın patriarx seçilmәsi**



**Şәkil 6. Qüdsün hazırkı ermәni patriarxı Nurhan Manukyan**[142]

140 المطران مانوكيان: بطريركاً لكنيسة الأرمن الأرثوذكس في القدس - (Ermәni Pravoslav kilsәsinin Qüdsdәki patriarxı, yepiskopu Manukyan), 27 yanvar 2013, https://aztagarabic.com/archives/7859

141 وفاة بطريرك الأرمن الارثوذكس في القدس – (Qüdsün ermәni pravoslav patriarxı vәfat etdi), 13 oktyabr 2012, https://www.lebanese- forces.com/2012/10/13/245229/

142 Барет Ерецян (слева) и Патриарх Нурхан Манукян (в центре). Фото: arme-news.com Священнослужителя, сдавшего в аренду земли армянского квартала в Иерусалиме, лишили сана — Армянский музей Москвы и культуры наций

Qüds erməni patriarxlığının kansleri **Koryoun Bagdasaryan**dır. O, həm də Qüds Erməni İlahiyyat Seminariyasının dekanıdır.[143] K.Bagdasaryan keçmiş ABŞ Prezidenti Co Baydenlə görüşündən sonra yazmışdır: *"Cənab Bayden Beytləhmin Doğuş Bazilikasına səfəri zamanı mənə yaxınlaşdı, əl sıxdı və söhbət etmək imkanı verdi. Mən ona dedim ki, "erməni soyqırımı"ndan sağ çıxan Sasun mühacirlərinin nəvəsiyəm. "Erməni soyqırımı"nı tanıdığına görə ona öz adımdan təşəkkür etdim".*[144]

Koren Bagdasaryan digər açıqlamalarının birində demişdir: *"1948-ci ilə kimi Qüdsdə 25 min erməni yaşayırdı. 1948-ci ildə İsrail hərbçilərinin irəliləməsindən sonra evlərindən qovulan və ya qaçan fələstinlilərin ardınca minlərlə erməni İordaniya, Livan və Suriyaya qaçmışdır. Çoxları belə düşünür ki, İsrail heç vaxt onların geri qayıtmasına icazə verməyəcək. Hələ 1947-ci ildə ermənilərin bir qismi Sovet İttifaqının köçürmə siyasətindən istifadə edərək, könüllü olaraq bölgəni tərk etmişdir. 1967-ci ildə İsrail "Altı* günlük mühari*bə"nin sonunda Şərqi Qüdsü, İordan çayının qərb sahilini* ələ keçirdi. Qəzza zolağında *"Altı günlük müharibə"nin sonunda eyni köç senarisi yaşanmışdır. Bu gün Qüdsdə 2000-3000, İordan çayının qərb sahilində isə 800 erməni yaşayır"*.[145]




**Şəkil 7.Qüds Erməni Patriarxlığının loqosu**[146]

143 Armenian Patriarchate of Jerusalem – Qüdsün Erməni Patriarxlığının rəsmi saytı https://armenian-patriarchate.com/

144 Jerusalem Armenian Patriarchate chancellor on Biden: Greatness of leaders lies in their modesty, 18 July 2022, https://news.am/eng/news/712377.html

145 "Une grande gifle" : à Jérusalem, les Arméniens meurtris par le soutien d'Israël à l'Azerbaïdjan"- ("Üzə böyük sillə": Qüdsdəki ermənilər İsrailin Azərbaycana dəstəyindən əzildilər), 19 noyabr 2020, https://www.middleeasteye.net/fr/reportages/armeniens-jerusalem-armes-israel-azerbaidjan-haut- karabakh-palestine

146 Urgent Message from Armenian Patriarchate of Jerusalem, 18 November



**Şəkil 8. Ermәni Patriarxlığının girişindәki lövhә**[147]

## Qüdsün dörd məhəlləsi

Qüdsün "İçərişəhər" adlanan bölgəsinin dörd məhəlləsindən biri erməni məhəlləsidir. Digər üçü yuxarı sol xristian məhəlləsi, yuxarı sağ müsəlman məhəlləsi, aşağı mərkəz yəhudi məhəlləsidir. Erməni məhəlləsi sol alt ərazi olaraq bilinir. Bəzi mənbələrə görə, burada dörd deyil, beş məhəllə var. Beşincisi – dörd min ildir yəhudilərin tarixi məkanı olan Məbəd dağı və ya digər adla Moriah dağıdır.[148] **Qüdsün "İçərişəhər"i UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan abidələr sırasındadır.**[149]

***Erməni məhəlləsi*** - "İçərişəhər"in ən kiçik hissəsini əhatə edən erməni məhəlləsi bu ərazinin təxminən altıda birini təşkil edir. Beynəlxalq Sülh və Əməkdaşlıq Mərkəzinin 2007-ci ildə dərc etdiyi araşdırmaya görə, məhəllə 126 hektar ərazini əhatə edir və bu, "İçərişəhər"in ümumi ərazisinin 14 faizini təşkil edir. Erməni məhəlləsi şəhər daxilində şəhər hesab olunur. Divarlarla əhatə olunmuş ərazi Müqəddəs Yaqub kilsəsi başda olmaqla digər kilsələri, kitabxana və bir sıra mağazaları əhatə edir. **Məhəllədə yalnız bir erməni kilsəsi var. Burada erməni kilsəsi ilə yanaşı, digər dörd məzhəbin – Suriya Pravoslav, Maruni Katolik, Yunan Pravoslav və Anqlikan kilsələri var.**[150]

2023, https://www.indcatholicnews.com/news/48509

147 Армянский патриархат Иерусалима отстоял право на собственность, 17 сентябрь 2018, https://www.armmuseum.ru/news-blog/2018/9/17/--3

148 JERUSALEM: HISTORY, ARCHAEOLOGY AND APOLOGETIC PROOF OF SCRIPTURE (2010)

149 أرقام وحقائق عن البلدة القديمة بالقدس | الموسوعة | الجزيرة نت (aljazeera.net) (Qüdsün "İçərişəhər"i haqqında faktlar)

150 "Jerusalem: The Old City" – (Qüds: İçərişəhər) https://www.jewishvirtuallibrary.org/jerusalem-the-old-city

Erməni məhəlləsi tamamilə xristian ermənilərdən ibarətdir. Hazırda Fələstin ermənilərinin Qüdsdə ən sıx məskunlaşdıqları yer "İçərişəhər"dir. Burada onların sayının getdikcə azalması, yəhudilərin oraya məskunlaşması müşahidə edilir.[151]

Qeyd edək ki, ötən əsrin yetmişinci illərində ermənilər Fələstinin "İçərişəhər" üzərində nəzarət etməsi təklifini dəstəkləməyiblər. Baxmayaraq ki, **Kemp Devid Sammiti** zamanı erməni kilsəsinin rəhbərləri xristian və erməni məhəllələrinin ayrılmaz olduğunu israr edərək beynəlxalq təminatlara üstünlük verdiklərini bildirirdilər.





**Şəkil 9. Qüdsün erməni məhəlləsinin görüntüləri**[152]

**2023-cü ilin noyabr ayında Qüds Erməni Patriarxlığı Qüdsün erməni məhəlləsinin təxminən 25 faizində elit bina tikmək məqsədilə israilli inşaat şirkətinə 99 il müddətinə verilməsini nəzərdə tutan mübahisəli daşınmaz əmlak müqaviləsini ləğv etdiyini açıqlamışdır.**[153] Belə ki, Qüds Erməni Patriarxlığı 26 oktyabr 2023-cü il tarixində "Xana Gardens Ltd"yə məktub göndərildiyini, Patriarxlığın "Xana Gardens"a 7 avqust 2021-ci il tarixində "İçərişəhər"dəki "Erməni Bağları" ilə bağlı imzalanmış müqavilənin ləğvi barədə məlumat verdiyini bildirmişdir. Buna səbəb kimi investorun müvafiq qanuni kanallardan istifadə etmək əvəzinə "silahlı təxribatçıları işə götürdüyü"

151 Shrinking Armenian Community Fears Displacement After Land Deal in Jerusalem's Old City https://www.voanews.com/a/shrinking-armenian-community-fears-displacement-after-land-deal-in-jerusalem-s-old-city/7127065.html

152 Narrow street situated in Jerusalem / Al-Quds old town, Armenian christian quarter, https://www.alamy.com/stock-photo-narrow-street-situated-in-jerusalem-al-quds-old-town-armenian-christian-174109312.html

153 Jerusalem Patriarchate has canceled lease agreement for Xana Gardens estate, 01 November 2023, https://www.1lurer.am/en/2023/11/01/Jerusalem-Patriarchate-has-canceled-the-lease-agreement-for-the-Cow-Garden-estate/1022924

və bu şəxslərin park ərazilərinin girişini bağlayaraq söküntü prosesinə başlamaları əsas gətirildi.[154]

Mübahisəli müqavilə bir neçə il əvvəl Erməni Apostol kilsəsinin Qüds patriarxı **Nurhan Manukyan** tərəfindən imzalanmışdır.[155] **N.Manukyan ərazinin icarəsi haqqında müqavilə imzaladığını etiraf etmiş, amma bildirmişdi ki, öz tabeliyindəki şəxsin, yəni yerli kilsə keşişinin kələyinin qurbanı olmuşdur. Nəticədə həmin şəxs (Baret Yeretsyan) keşiş rütbəsindən məhrum edilmiş və rüsvayçılıqla məhəllədən qovulmuşdur. Onu erməni məhəlləsindən İsrail polisinin mühafizəsi ilə və "Satqın!" qışqırtıları altında çıxarmışdılar. Fələstin və İordaniya administrasiyaları mübahisəli daşınmaz əmlak sövdələşməsinə görə N.Manukyanı patriarx kimi tanımayacaqlarını bəyan etdikdən sonra Ermənistan Patriarxlığı da müqavilədən çıxdığını elan etmişdir.**

Qeyd edək ki, Qüdsdəki kilsələrin rəhbərləri və patriarxları birgə bəyanat yayaraq, Şərqi Qüdsdəki erməni məhəlləsində yəhudilərin məskunlaşdırılmasından narahat olduqlarını bildirmişdilər.[156] Eyni zamanda müqavilə orada yaşayan erməni icmasını da ciddi narahat etmiş və onlar bağlanan sövdələşmə nəticəsində bütün Qüds xristianlarının uduzmuş olacaqlarını bildirmişdilər. Açıqlamada qeyd edilmişdir ki: "Özlərini podratçı adlandıran şəxslərin bölgədəki erməni varlığını silmək üçün təxribatçı taktikalardan istifadə edərək törətdikləri qarışıqlıqlar müqəddəs torpaqlarda xristian varlığını zəiflədir".[157]

Qüdsdən qovulan keşiş **Baret Yeretsyan** mühacirət etdiyi ABŞ-də yerli jurnalistlərə verdiyi müsahibəsində tikinti aparacaq adamın (onun adı

---

154 صفقة عقارية غامضة "تهدد"وجود الأرمن في القدس – ("Müəmmalı daşınmaz əmlak sövdələşməsi ermənilərin Qüdsdə olmasını "təhdid edir)", 10 iyun 2023, صفقة عقارية غامضة «تهدد» وجود الأرمن في القدس - BBC News عربي

155 Армяне выступили против передачи земель армянского патриархата в Иерусалиме под строительство гостиницы 28 октябрь 2021, https://www.arm-museum.ru/news-blog/twelve-priests-condemn-patriarch-nourhans-illegal-contract

156 Statement on the recent events in the Armenian Quarter in Jerusalem, 19 November 2023, https://en.abouna.org/content/statement-recent-events-armenian-quarter-jerusalem

157 "Главы христианских церквей в Иерусалиме выступили в поддержку Армянской церкви и осудили провокацию Израиля по захвату территории ААЦ", 20 ноябрь 2023, https://dzen.ru/a/ZVsoT4l-lDm0H75O

bəzi sənədlərdə **Denni Rotman**, digərlərində isə **Daniel Rubinşteyn** kimi qeyd edilir) ideoloji motivləri rəhbər tutduğunu qətiyyətlə rədd etmiş, amma Fələstinin xristian liderləri bu sövdələşmənin istənilən halda siyasi nəticələrinin olacağını bildirmişdilər.

Öz növbəsində Qüdsün Milli Xristian Koalisiyasının rəhbəri Dmitri Diliani açıqlamasında bildirmişdir: "*Baret Yeretsyan Qüdsün mənsubluğu haqqında məsələnin siyasi yolla həlli fürsətini sarsıdır. Danışıqlar beynəlxalq hüquqa əsasən, məhz işğal olunmuş ərazidə aparılır. Bu, qanunsuz yəhudi köçkünlərin Fələstinə məxsus Şərqi Qüdsdə mövqelərini gücləndirir*".

***Xristian məhəlləsi* -** Əsasən xristianlardan ibarət olan bu məhəllə "İçərişəhər"in ən çox ziyarət edilən **yerlərindən biridir.** Burada xristianlar üçün 40-a yaxın müqəddəs ziyarətgah var. O cümlədən, yunan pravoslav, erməni pravoslav, Suriya pravoslav, koptlar və digər xristian təriqətlərinə aid olan məbədlər və müqəddəs yerlər mövcuddur. Səlib yürüşləri dövründə bu məhəllədəki Müqəddəs Məqbərə kilsəsi bütün dünya xristianları üçün mühüm ziyarətgah olmuşdur. Buna görə də həmin ərazilərdə dünyanın hər yerindən gəlmiş keşişləri və zəvvarları görmək mümkündür. Xristian turistlər üçün digər məşhur abidə isə **Vəftizçi Yəhya kilsəsidir**[158]

***Müsəlman məhəlləsi* -** Bu məhəllə "İçərişəhər"dəki dörd məhəllənin ərazisinə görə ən böyüyü və əhalinin ən çox məskunlaşdığı hissəsidir**.** Məhəllənin dar xiyabanları və məşhur As-Souq (bazar) adı ilə tanınan bazarı məşhurdur. Müsəlman məhəlləsinin əsas ziyarətgahı **Məbəd dağı** və ya **Əl-Əqsa məscidi**nin yerləşdiyi Haram Əş-Şərifdir. Qaya Qübbəsi isə müsəlmanların Məhəmməd Peyğəmbərin Hz. Cəbrayılın müşayiəti ilə Cənnətə yüksəldiyinə inandıqları yerdir. Burada həmçinin müsəlmanlar, yəhudilər və xristianlar üçün müqəddəs olan təməl daşı yerləşir.

Müsəlman məhəlləsi bu gün orta əsr islam memarlığının bəzi nümunələrini qoruyub saxlayır. Burada həmçinin xristian mədəniyyətinə də rast gəlmək mümkündür. Məhəllədə yerləşən Fransiskan kilsəsi Məsihin çarmıxa çəkilməzdən əvvəl Roma əsgərləri tərəfindən qamçılandığı yerdir. "İçərişəhər"də ilk yeddi stansiya müsəlman məhəlləsindən başlayır, sonuncu beş stansiya isə xristian məhəlləsindəki Müqəddəs

158 "The Four Quarters of the Old City" – 2022, https://www.generationword.com/jerusalem101/3b-four-quarters.html

Məbəd kilsəsinin içərisindədir. Nəticə olaraq, müsəlmanlara məxsus bir çox mağazada yalnız xristian suvenirləri satılır.[159]

## Erməni icmasının Fələstinin siyasi həyatında fəaliyyəti

Fələstin erməniləri erməni diasporunun ən qədim qollarından biri olmasına baxmayaraq, ötən əsrdə ölkənin siyasi həyatında geniş şəkildə təmsil olunmamışdılar. Lakin bu, onların təşkilati fəaliyyətlərdə iştiraklarına mane olmamışdır. 1947-ci ildə Qüds Erməni Patriarxlığı Fələstinin beynəlxalq səviyyədə bölünməsinə etiraz etmiş, 1948-ci ildə isə Ermənistan Mülki Qvardiyasının üzvləri Fələstində "Ən-Nəkbə" (النكبة) hadisəsində fəal iştirak etmişdilər.

Son illərdə isə Fələstin ermənilərinin ölkə təmsilçiliyində güclənməsi müşahidə edilir. Onların arasında aşağıdakı ictimai-siyasi xadimləri qeyd etmək olar:

**Varsen Ohanes Vartan Ağabekyan.** Fələstinin xarici işlər və diaspor naziridir. O, 2025-ci il iyunun 23-də Fələstin Prezidenti Mahmud Abbasın fərmanı ilə bu vəzifəyə təyin edilmişdir. V.Ağabekyan Fələstin hökumətində bu vəzifəyə təyin edilən ilk qadın və ilk erməni əsilli şəxsdir. O, 2024-cü ilin mart ayından etibarən Xarici İşlər Nazirliyində dövlət naziri vəzifəsini icra etmişdir.[160]

V. Ağabekyan həmçinin:

- 1988–2008-ci illərdə Əl-Qüds Universitetinin professoru kimi pedaqoji fəaliyyət göstərmişdir.

- 2009-cu ildə Fələstin Prezidentinin Ofisində institusional bina layihəsinin direktoru və "Ərəb Mədəniyyəti Paytaxtı" proqramının icraçı direktoru olmuşdur.

- 2016–2018-ci illərdə İnsan Hüquqları üzrə Müstəqil Komissiyanın baş komissarı vəzifəsində fəaliyyət göstərmişdir.

**Manuel Hassasiyan.** Qüds ermənisidir. 2020-2024-cü illərdə Fələstinin Danimarkadakı səfiri vəzifəsində çalışmışdır. Ondan əvvəl,

---

159 I. W. J. Hopkins. The Four Quarters of Jerusalem, 19 July 2013, https://www.tandfonline.com/doi/epdf/10.1179/peq.1971.103.2.68?needAccess=true

160 الرئيس الفلسطيني يعين وزير خارجية جديدا – (Fələstin prezidenti yeni naziri təyin etdi), 23 iyun 2025, الرئيس الفلسطيني يعين وزير خارجية جديدا | أخبار | الجزيرة نت

2018-2019-cu illərdə **Fələstinin Macarıstandakı** səfiri, 2005-2018-ci illərdə isə **Fələstinin Böyük Britaniyadakı** səfiri olaraq fəaliyyət göstərmişdir. Qüds şəhərində anadan olan M. Hassasiyan Beyrutda Amerika Universitetində siyasi elmlər üzrə namizədlik dərəcəsini aldıqdan sonra, Ohayo ştatının Toledo Universitetində müqayisəli siyasət üzrə doktorluq dərəcəsinə sahib olmuşdur.

M.Hassasiyan həmçinin:

- "Orient House Jerusalem"-də Qaçqınların Məskunlaşması üzrə Fələstin Danışıqlar Qrupunda çalışmışdır. (1997-1999)
- Danışıqlar Departamentində **Qüds** üzrə baş siyasi məsləhətçi vəzifəsini icra etmişdir. (1997-1999)
- **Ölkənin Planlaşdırma Nazirliyi**ndə fəaliyyət göstərmişdir. (1997-1998)
- **Kilsə İşləri üzrə Fələstin Ali Nazirlər Komitəsi**ndə işləmişdir. (1998-2001)
- **Bethlehem Universiteti**ndə siyasi elmlər üzrə professor olaraq dərs demişdir. (1982-1991)
- Həmin universitetdə ardıcıl olaraq **İncəsənət fakültəsinin dekanı** və **Humanitar Elmlər Departamentinin rəhbəri** vəzifələrində çalışmışdır. (1991-1996)
- Bethlehem Universitetinin icraçı vitse-prezidenti vəzifəsini icra etmişdir. (1996-2005)
- **Fələstin Təhsil Nazirliyi**nin Rektorlar Şurasının prezidenti və təhsildə Fələstin-Avropa-Amerika əməkdaşlıq proqramının prezidenti olmuşdur. (1999 – 2004)
- **Ali Təhsil Şurası**nın icraçı vitse-prezidenti və prezidenti, Ali Təhsil Nazirliyi yanında Ərəb Universitetləri Assosiasiyasının digər beynəlxalq akademik təşkilatlarda Bethlehem Universiteti-nin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. (1966-2005)
- Fransanın **Reyms Universiteti** tərəfindən Fəxri Doktor (Docteur Honoris Causa) dərəcəsi ilə təltif edilmişdir. (1996)
- **Merilend Universiteti**nin Beynəlxalq İnkişaf və Münaqişələrin İdarə Edilməsi Mərkəzi tərəfindən **"Gleitsman"** Yaxın Şərq mükafatına namizəd göstərilmişdir. (1998)

- **"Grass Roots Diplomacy"** tərəfindən ən yaxşı səfir mükafatını almışdır. (2015)
- Yaxın Şərqdə siyasi və vətəndaş cəmiyyəti problemləri, o cümlədən fələstinli qaçqınlar, Fələstin Milli Hərəkatı, Yaxın Şərq sülh prosesi və Fələstin vətəndaş cəmiyyətindəki inkişaf tendensiyaları, eləcə də Erməni Milli Hərəkatı haqqında geniş məqalələri dərc edilmişdir.[161]

**Albert Aqazaryan**. Fələstinin erməniəsilli tarixçisi və araşdırmaçısıdır. 1950-ci ildə Qüdsün erməni məhəlləsində anadan olmuşdur. 1970-ci ildə Fələstinin Birzeit şəhərində yerləşən eyniadlı universiteti bitirmişdir. 1979-cu ildən 2002-ci ilə kimi həmin universitetin İctimaiyyətlə əlaqələr departamentinə rəhbərlik etmişdir.[162]

Tarixçi A.Aqazaryan, xüsusilə Qüds, ümumən Fələstin məsələsinin beynəlxalq aləmdə izahı istiqamətində göstərdiyi xidmətlərə görə Belçika kralı **II Albert**dən yüksək dərəcəli medal almışdır. O, Belçika kralı tərəfindən medalla təltif edilən əlli şəxsdən biridir.[163]

A.Aqazaryan Bernard Sabella və Afif Safiyeh ilə birgə yazdığı **"Qüdsdən kənar: Müqəddəs torpaqdan gələn xristian səsləri"** kitabının üç müəllifindən biridir. 2020-ci ildə dünyasını dəyişən A.Aqazaryan yazıçı və tədqiqatçı[164] **Elis Aqazaryanın[165]** atasıdır.

## Erməni icmasının Fələstin iqtisadiyyatında fəaliyyəti

Qüdsün erməni icmasının üzvləri **Fələstində ilk dəfə fotoqrafiya emalatxanasını təsis edən, mətbəəni yaradan ikinci,** Britaniyanın mandatlığı **dövründə keramika fabrikinin əsasını qoyan ilk şəxslərdir.** Qüdsün erməni icmasını ölkədə məşhurlaşdıran fəaliyyət istiqamətləri **mətbəə, fotoqrafiya və keramika sənətləri** olmuşdur.

161 Ambassador Manuel Hassasiyan, H.E Ambassador Dr Manuel Hassassian - Cambridge Centre for Palestine Studies

162 Qüdsün erməniəsilli tarxiçisi Albert Ağazaryan, https://www.birzeit.edu/ar/biography/lbrt-gzryn

163 ألبرت أغازريان.. رحيل عن القدس التي أحب (alaraby.co.uk) -.. (Sevimli Qüds şəhərimdən gedişim..Ağazaryan Albert) – ألبرت أغازريان.. رحيل عن القدس التي أحب

164 Elise Aghazarian, https://thisweekinpalestine.com/author/elise-aghazarian/

165 الحصار مقلوباً.. الخوف من الفلسطيني المسالم - ...الحصار مقلوباً.. الخوف من الفلسطيني (alaraby.co.uk) المسالم

***1833***-cü ildə erməni icmasının nümayəndələri şəhərdə **ikinci mətbəəni** yaradıblar. IX əsrin 50-ci illərindən etibarən, fələstinli fotoqraflar arasında ermənilər üstünlük təşkil edirdi. Qüdsün ilk foto emalatxanası 1855-ci ildə erməni məhəlləsində açılmışdır. Bu sahənin məşhur mütəxəssisi Sankt-Peterburqda təhsil alan, 1864-1865-ci illərdə Qüdsün erməni patriarxı olacaq din xadimi **Esayee Qarabedyan** idi. O, həmçinin Müqəddəs Yaqub kilsəsində fotoqrafiya emalatxanası quran şəxs idi. Onun səyi nəticəsində sonralar Qüdsdə fotoqrafiya məktəbi yaradılmışdır.[166]



**Şəkil 10. 1833-cü ildə Erməni icmasının Qüdsdə yaratdığı ilk mətbəə[167]**

XIX əsrdə Qüdsdəki digər erməni fotoqrafları Qarabed Krikoryan, Kevork, J.H.Halladjiyan, M. Mardikiyan və Yusuf Tumayanın adlarını qeyd etmək olar. Bir neçə il sonra bu fotoqrafların sırasına **Hrant Nakaşiyan və Elia Kahveciyan** kimi digər şəxslər də qoşulmuşdur. Onlar həmçinin erməni diasporunun inkişafına böyük dəstək vermişdilər. Hrant Nakaşiyan (Əbu Saro) 1952-ci ilə qədər Qəzza düşərgələrində qaçqınların həyatını sənədləşdirən ilk şəxslərdən biri olub. Qüdsün erməni fotoqraflarının sayəsində bu diaspor media, mətbuat, kino, siyasət və incəsənət sahələrində dünyanın ən güclü monopoliyalarından birinə çevrilmişdir.

166 الجالية الأرمنية ومساهمتها في الحياة الفلسطينية - (Erməni icması və onun Fələstin həyatına töhfəsi) - https://regnum.ru/article/1400998

167 الأرمن.. جزء من فسيفساء المجتمع المقدسي - (Ermənilər Qüds cəmiyyətinin mozaikasının bir hissəsidir), 30 aprel 2016, الأرمن.. جزء من فسيفساء المجتمع المقدسي | أخبار سياسة | الجزيرة نت

**Qüds ermənilərinin fəal məşğul olduqları ikinci sahə keramika sənətidir.** Məhəlləyə daxil olarkən ilk qarşıya çıxan görüntü əl istehsalı olan keramikanın satıldığı erməni dükanlarıdır. **David Ohansyan** və onun həmkəndliləri - **Nişan Belyan** və **Makirdiç Karakaşyan** ötən əsrin 20-ci illərindən etibarən keramika istehsalı sahəsində mühüm yer tutmuşdular. Onlar erməni məhəlləsində ilk emalatxananı açan şəxslərdir. Sonralar onlar Nablusa gedən yolda "Fələki keramikası" adlanan böyük emalatxana və fabrik təsis ediblər. Həmin fabrikdə 75-ə yaxın rəssam fəaliyyət göstərirdi. Bu emalatxana 6 ildən artıq fəaliyyət göstərmiş və erməniləri bu sənəti öyrənməyə sövq etmişdir.

Fələstində yaşayan ermənilər tikinti və daşcılalama, həmçinin ənənəvi olaraq ayaqqabı sənayesi ilə də məşğul olurdular. Hazırda Qüdsdə yaşayan ermənilərin əksəriyyəti zinət əşyalarının istehsalı və satışı, mis qabların istehsalı və bəzədilməsi sahəsində fəaliyyət göstərirlər. Erməni məhəlləsində onların bir çoxunun turistlər üçün fəaliyyət göstərən hədiyyə dükanları mövcuddur.[168]

## Erməni icmasının Fələstinin mədəni həyatında fəaliyyəti

**Gülbenkyan kitabxanası.** Yaxın Şərqin ən böyük erməni kitabxanalarından biri olan Gülbenkyan kitabxanası Qüdsün "İçərişəhər" ərazisində, erməni məhəlləsində yerləşir.[169] Bu kitabxananın yaradılması 1879-cu ildə patriarx Yeqişe Turyanın keşiş təyin olunmasının 50 illiyi münasibətilə planlaşdırılmışdır. Kitabxana erməni əsilli iş adamı və neft maqnatı **Kaloust Gülbenkyan**, **Lissabonun Gülbenkyan Fondu, Londonun Saint Sarkis Trust Fondu**, eləcə də dünyanın bir çox yerindən cəlb edilən ermənilər və təşkilatlar tərəfindən maliyyələşdirilmişdir. Lakin maliyyənin böyük hissəsi Kaloust Gülbenkyan tərəfindən təmin edilmişdir.

**Yeqişe Turyan** bu kitabxananın açılmasına az müddət qalmış vəfat etmiş və kitabxananın açılışını görə bilməmişdir. Kitabxananın rəsmi açılış mərasimi **1932-ci ildə** baş tutmuşdur. Açılış mərasimi arxiyepiskop Torkom I Kuşaqyanın himayəsi altında rəsmi şəkildə keçirilmişdir. Açılış zamanı kitabxananın kolleksiyasına patriarx Turyanın 10.000-dən çox

168 الارمن في فلسطين - (Fələstindəki ermənilər. Fələstinin informasiya və xəbər agentliyi), https://info.wafa.ps/ar_page.aspx?id=5049
169 Institute for Palestine Studies - Armenians of Jerusalem, https://www.palestine-studies.org/en/node/78237

kitabdan ibarət şəxsi kolleksiyası daxil edilmişdir. Kolleksiyaya hər il daha 1000 kitabın əlavə edilməsi nəzərdə tutulurdu. Əvvəllər kilsənin oxu zalında olan kitablar, eləcə də bəzi rahiblərin şəxsi kolleksiyaları da Gülbenkyan kitabxanasına, eləcə də arxiyepiskop Torkomun böyük kolleksiyasına birləşdirilmişdir. Kitabxananda Patriarxlığın rəsmi dövri nəşri olan "Sion"un tam dəsti də daxil olmaqla erməni və digər dillərdə olan kitablar, dövri nəşrlər və qəzetlərin daim artan kolleksiyası mövcuddur. Kitabxana digər mədəni abidələr və təhsil ocaqları kimi kilsənin içərisindədir. Hazırda kitabxanada 100.000-dən çox kitab mövcuddur.[170]

**Edvard və Helen Mardigiyan muzeyi.** Muzeyin yenidən açılış mərasimi 23 oktyabr 2022-ci il tarixində olmuşdur. Açılış mərasimi Qüdsdə, erməni patriarxı **Nurhan Manukyan**ın iştirakı ilə təşkil olunmuşdur. Mərasimdə həmçinin Qüdsdə yerləşən kilsə nümayəndələri, rəsmi və mülki qurumların üzvləri, erməni seminariyasının tələbələri və dövlət xadimləri iştirak etmişlər.

Patriarx Nurhan Manukyan açılışda bildirmişdir: «*Bu muzeyin fəaliyyətə başlaması erməni xalqı üçün əhəmiyyət kəsb edir. Bu eksponatlar tariximizi qoruyur və gələcək nəsillərə ötürür. Bu gün biz müqəddəs şəhərdə ermənilərin mövcudluğunun yeni səhifəsinin başlamasını qeyd edirik. Muzeydə erməni incəsənəti və mədəniyyətinə məxsus əlyazmalar, keramika, naxışlı keşiş paltarları ilə yanaşı, 1915-ci il "soyqırımı" ilə bağlı eksponatlar və sənədlər var"*.[171]

Qüds və Fələstin bölgəsinin tarixini tədqiq etmək məqsədilə erməni tarxiçilərinin müəllifi olduğu kitablara rast gəlinir. Bu kitablar təkcə ermənilərin deyil, həm də regionun ümumi tarixini işıqlandırmaq məqsədi güdürdü. Onlardan biri erməni tarixçisi **Hovannisyan** 1890-cı ildə **"Qüdsün silsilə tarixi"** adlı əsərini nəşr etdirmişdir. Bu kitab Qüds şəhərinin müxtəlif dövrlərdəki inkişafını, şəhərdəki erməni icmasının rolunu və ümumilikdə şəhərin mədəni, dini və siyasi həyatını araşdırmışdır.

Digər kitab isə erməni tarixçisi **Safalanyan** tərəfindən yazılmışdır. Onun **"Qüdsün tarixi"** adlı əsəri 1931-ci ildə Qüdsdə nəşr olunmuşdur.

170 Church of St James, https://www.seetheholyland.net/tag/gulbenkian-library/

171 مكان للحفاظ على تاريخنا: إعادة افتتاح متحف الأرمن في القدس - ("Tariximizi qoruyub saxlayan yer": Qüdsdəki Erməni muzeyi yenidən açıldı), 24 oktyabr 2022, https://www.lpj.org/ar/blogs/a-place-to-preserve-our-history-inauguration-of-armenian- museum-in-the-old-city-of-jerusalem.html

Safalanyan bu kitabında Qüdsün tarixini daha geniş bir kontekstdə, şəhərin müxtəlif dövrlərdəki sosial və siyasi dəyişikliklərini, xüsusən də erməni icmasının bu proseslərdəki yerini araşdırmışdır.

## Fələstində erməni icmasına aid təhsil müəssisələri və təşkilatları (klublar)

Qüdsün erməni məhəlləsində erməni icmasına məxsus özəl məktəb sistemi mövcuddur. Bu məktəblərdən biri 1924-cü ildə tikilmiş və 120 şagirdlik ümumtəhsil müəssisəsi olan "Tarkmançats" məktəbidir. Məktəbin təsis edilməsi və fəaliyyət göstərməsində məqsəd erməni uşaqlarına erməni irsini aşılamaq və erməni dilini təbliğ etməkdir. Şagirdlər orta məktəb təhsillərini başa vurduqdan sonra universitet təhsilini ya Fələstin universitetlərində, ya da ölkədən kənarda tamamlayırlar. Həmçinin, erməni məhəlləsində rahiblik təlimi almaq məqsədilə fəaliyyət göstərən digər bir məktəb də mövcuddur.[172]

Fələstindəki ermənilər ana dilləri olan erməni dili ilə yanaşı, ərəb, ivrit, ingilis və türk dillərində də danışırlar. Lakin öz evlərində və ümumiyyətlə icma daxilində bir-biri ilə erməni dilində danışmağa üstünlük verirlər.

1935-ci ildə Qüdsdə Erməni Xeyriyyə Cəmiyyəti yaradılmışdır. Bu cəmiyyətin yaradılmasında əsas məqsəd erməni icmasının sosial və mədəni ehtiyaclarını qarşılamaq, eyni zamanda erməni irsini qorumaq və təbliğ etməkdir. Bununla yanaşı, erməni mədəniyyətini və dilini təbliğ edən bir çox təşkilat və klub da fəaliyyət göstərir. Bunlardan ən tanınmışları "Araks Katolik Klubu" və "Homenetmen" idman klubudur.

Erməni icması erməni kimliyini qorumaq məqsədilə əksər hallarda icma daxilində evliliklər təşkil edir, evliliklər nadir hallarda icma xaricində baş verir.

## Fələstin-Ermənistan əlaqələri

Bu gün Fələstin və Ermənistan arasında mövcud dostluq əlaqələri tarixi bağlara əsaslanır. Bu əlaqələr Fələstinin keçmiş lideri Yasir Ərəfatın

172 الأرمن أدخلوا التصوير والطباعة إلى فلسطين وهم جزء من هويتها - (Ermənilər Fələstinə fotoqrafiya və çapı gətirdilər. Bu, erməni kimliyinin bir hissəsidir), 24 oktyabr 2022, الأرمن أدخلوا التصوير والطباعة إلى فلسطين وهم جزء من ...

İrəvana etdiyi səfərlər və görüşlər müstəvisində yüksək səviyyəyə çatmışdır. Ermənilərə xitabən etdiyi çıxışlarda onlara “qardaşlarım” deyə müraciət edən Y.Ərəfat 2000-ci ildə “Kemp Devid” sammitində Qüdsün “İçərişəhər”inin demarkasiyası məsələsində təklif edilən plana görə erməni məhəlləsinin Fələstin dövlətinin bir hissəsi kimi qeyd olunmamasına diqqəti yönəldərək, ABŞ-nin təklifini rədd etmiş və bildirmişdi:

***“Erməni məhəlləsi bizə məxsusdur. Biz və ermənilər bir xalqıq. Mən erməni qardaşlarıma xəyanət etməyəcəyəm. Mənim adım Yasir Ərəfat yox, Yasir Ərafatyandır”.***[173]

İki ölkə rəsmiləri arasında baş tutan görüşlərdən biri **Zori Balayan** və **Yasir Ərəfat** arasında olmuşdur. Zori Balayan bu görüşün xatirələrini öz kitabında qeyd etmişdir.[174]

Dövlətlər səviyyəsində artan ikitərəfli əlaqələr eyni zamanda təşkilatlararası münasibətlərdə də müşahidə olunmuşdur. Belə ki, Ermənistanın terror təşkilatı **ASALA** (Armenian Secret Army for the Liberation of Armenia) 1970-ci illərin əvvəllərində Fələstin müqavimət qruplarına qoşulmuş Livan əsilli erməni **Akop Akopyan** tərəfindən 1975-ci ildə yaradılmışdır. Mənbələrə əsasən, Akopyanın Fələstinin Azadlıq Xalq Cəbhəsinin üzvü olduğu və AXCP-nin erməni qruplaşmasının maliyyələşdirməsinə yardım etdiyi iddia edilir. Fələstinin Azadlıq Xalq Cəbhəsi kimi ASALA-nın da ideologiya baxımından marksist olduğu bildirilir.[175]

## İkinci Qarabağ müharibəsində Qüds ermənilərinin fəaliyyətləri

İkinci Qarabağ müharibəsindən on gün əvvəl**, 17 sentyabr 2020-ci il tarixində Ermənistan rəhbərliyi Təl-Əvivdə səfirlik açdığını elan etmiş, səfir Armen Akopyan təyin edilmişdir.**[176] Müharibənin

173 أنا اسمي ياسر عرفتيان... الأرمن في المشرق العربي من سوريا إلى فلسطين - (“Mənim adım Yasir Ərəfatyandır”...), 03 iyul 2023, أنا اسمي ياسر عرفتيان“... الأرمن في المشرق العربي من سوريا إلى فلسطين - رصيف22

174 The Armenian weekly. A publication of the A.R.F. Central Committee. Eastern USA, https://tert.nla.am/archive/NLA%20TERT/Armenian%20weekly/1992/6.pdf

175 Armenian Secret Army for the Liberation of Armenia, https://www.britannica.com/topic/Armenian-Secret-Army- for-the-Liberation-of-Armenia

176 افتتاح سفارة أرمينيا بإسرائيل رسمياً في تل أبيب - (Ermənistan rəsmi olaraq Təl-Əvivdə səfirliyini açdı),18 sentyabr 2020, https://armenpress.am/ara/news/1028117.html

başlamasından sonra Ermənistan səfirini məsləhətləşmələr və İsrailin Azərbaycana silah satması məsələsini müzakirə etmək məqsədilə geri çağırmışdır.[177]

Qüdsdəki Erməni Milli Komitəsinin rəhbəri **Harut Baqamyan** Ermənistanın Təl-Əvivdə səfirliyinin açılmasının əleyhinə olduğunu dəfələrlə öz açıqlamalarında vurğulamışdır. Açıqlamalarından birində o demişdir: "Ermənistanın Təl-Əvivdə səfirlik açmasına heç də razı deyildim. Azərbaycanın İsrail ilə əlaqələrini nəzərə alsaq, bunu heç istəmirdim."

**Harut Baqamyan İsrail hökumətinin Azərbaycana silah satışını iddia edərək Qüds və Təl-Əvivdə nümayişlərin keçirilməsini birbaşa təşkil etmişdir.**

Erməni icmasının üzvləri 6 noyabr 2020-ci il tarixində Təl-Əvivdə İkinci Qarabağ müharibəsi zamanı İsrailin Azərbaycana silah satmasına qarşı etiraz aksiyası keçirmişdilər. Etirazlar müharibədən sonrakı dövrdə də davam etmişdir. 2021-ci ilin mart ayında Fələstinin erməni icması İsrailin Azərbaycana silah ixrac edən beynəlxalq "Electronics Elbit Systems" müdafiə şirkətinə etiraz olaraq nümayiş təşkil etmişdir.




**Şəkil 11. Qüdsdə İsrailin Azərbaycana silah satmasına qarşı keçirilən etiraz aksiyaları. 2020-2021-ci illər.**[178] [179]

177 انتقادات أرمينية لإسرائيل بسبب صفقات بيع الأسلحة لأذربيجان (Ermənistan Azərbaycana silah idxalına görə İsraili tənqid edir, Təl-Əviv isə əlavə sövdələşmələr axtarır), 05 oktyabr 2020, https://www.elnashra.com/news/show/1450985,

178 Члены армянской общины Израиля призвали правительство прекратить продажу оружия Азербайджану, 18 март 2021, https://ru.168.am/2021/03/18/27324.html

179 "Une grande gifle": à Jérusalem, les Arméniens meurtris par le soutien d'Israël à l'Azerbaïdjan – ("Üzə böyük sillə": Qüdsdəki ermənilər İsrailin Azərbaycana dəstəyindən əziyyət çəkirlər), 19 noyabr 2020, https://www.middleeasteye.net/fr/reportages/armeniens-jerusalem-armes-israel-azerbaidjan-haut-karabakh- palestine

Qüds Erməni Patriarxlığının kansleri Koren Bagdasaryan dərin hüznlə bildirir: *"Biz hədsiz dərəcədə kədərlənirik, yuxuya gedirik və "Artsax" xalqı ilə oyanırıq".*[180]

İsrail hökuməti barədə o əlavə edib: "*Biz şokdayıq, soyqırımdan sağ çıxan israillilərin ermənilərin qətliamında şərik olacaqlarını heç düşünməzdik*".

Həmçinin Qüdsün erməni icmasının patriarxı İsrailin baş nazirinə, prezidentinə və bəzi nazirlərinə, eləcə də ölkənin iki baş ravvininə Azərbaycana silah satışını dayandırmağı xahiş edən bir neçə məktub göndərsə də, onun bu cəhdləri nəticəsiz qalmışdır.

**İsrail indiyə kimi qondarma "erməni soyqırımı"nı tanımayan ölkələrdən biridir. Lakin qeyd etmək lazımdır ki, 2023-cü ilin mart ayında İsrailin üçüncü ən böyük şəhəri olan Hayfada "erməni soyqırım"ı xatirəsinə həsr olunmuş meydanın açılışı olmuşdur. Açılışda Hayfanın bələdiyyə sədri Einat Kaliş Rotem, şəhər şurasının üzvləri, Ermənistanın İsraildəki səfiri Armen Akopyan, Qüdsdəki Erməni Patriarxlığının nümayəndələri və üzvləri, İsraildəki erməni icması və Hayfanın müxtəlif konfessiyalarının nümayəndələri iştirak ediblər.**[181]




**Şəkil 12. İsrailin üçüncü ən böyük şəhəri olan Hayfada "erməni soyqırımı" xatirəsinə həsr olunmuş meydanın açılış mərasimi. 2023-cü il**[182]

180 Yenə orada

181 افتتاح ساحة مخصصة لذكرى الإبادة الجماعية ألأرمنية في إسرائيل - (İsraildə "erməni soyqırımı"nın xatirəsinə həsr olunmuş meydanın açılışı), 21 mart 2023, https://armenpress.am/ara/news/1106817/

182 Armenian National Committee of Jerusalem - הוועד הלאומי הארמני של ירושלים, "Armenian genocide" square inaugared in Haifa, Israel, 20 mart 2023, https://www.facebook.com/ANCJerusalem/

## İsrail-Həmas müharibəsinin Fələstinin erməni icmasına təsirləri

2023-cü ilin oktyabr ayında başlayan və Fələstində genişmiqyaslı humanitar böhrana, eləcə də ağır zərərlərə səbəb olan İsrail-Həmas müharibəsinin təsirləri təkcə ölkənin cənubu və Qəzza bölgəsi ilə məhdudlaşmadı. Fələstinin şimalında, xüsusilə Qüds şəhərində yerləşən erməni icması da zərər və təzyiqlərlə qarşılaşdı.

İsrailin Qəzza və işğal altındakı Qərbi Şəria bölgəsindəki hücumları və bu müharibənin sosial və siyasi gərginlikləri Qüdsdəki erməni icması üçün də ciddi təhlükələr yaratmışdır. Xüsusilə, erməni kilsəsi və onun ətrafındakı torpaq sahələri ilə bağlı yaşanan mübahisələr erməni icmasının öz mövqeyini qorumaq üçün verdiyi mübarizəni daha da gərginləşdirmişdir. Məsələn, 2021-ci ildə erməni kilsəsi tərəfindən gizli şəkildə «kirayə» verilmiş torpaq sahəsi uzunmüddətli renta müqaviləsi nəticəsində bir otelə çevrilmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdır. Bu torpaq sahəsi erməni icmasının mədəni və dini fəaliyyətlərini həyata keçirdiyi əsas məkanlardan biri hesab edilir.

Müharibə və ölkədəki siyasi vəziyyətin gərginləşməsi ilə əlaqədar erməni icmasının üzləşdiyi əsas narahatlıqlardan biri erməni kilsəsinin rəhbərliyi ilə icma arasında yaranan fikir ayrılığı idi. Kilsənin torpaq mülkiyyətini qorumağa və erməni icmasını müdafiə etməyə qadir olmaması ilə bağlı narahatlıqlar yaranmışdır. Bir çox icma üzvü kilsənin erməniləri qorumaq və bölgədəki artan təhdidlərə qarşı mübarizə aparmaqda kifayət qədər güclü olmadığını irəli sürürdü.

Fələstinə qarşı edilən hücumlar ölkənin erməni icmasının üzvlərindən yan keçmirdi. 2023-cü ildə erməni kilsəsi və icmasına qarşı iyirmiyə yaxın hücum qeydə alınmışdı. O cümlədən, erməni kilsələrinə hücumlar edilmiş, məhəllə divarlarına “Xristianlara ölüm!” yazılı qraffitilər çəkilmişdi.

Fələstindəki erməni icması həm müharibə nəticəsində yaranan humanitar böhranlardan, həm də Qüdsdəki siyasi və sosial gərginliklərdən ciddi şəkildə təsirlənmişdir. İcmanın ərazisinin ticarət və turizm layihələri üçün təhdid altında olması, həmçinin erməni kilsəsinin torpaqları ilə bağlı hüquqi mübahisələr vəziyyəti daha da mürəkkəbləşdirmişdir. Bu təzyiqlər icmanın sosial və mədəni varlığını qorumağa çalışan üzvləri üçün əlavə çətinliklər yaratmışdır[183].

183 Armenian Christians in Jerusalem’s Old City feel the walls closing in, 18 December 2024, https://www.aljazeera.com/gallery/2024/12/18/armenian-christians-in-jerusalems-old-city-feel-the-walls-closing-in

Hadisələrin Ermənistanın daxilində baş verənlərə və İsrail-Ermənistan münasibətlərinə də təsiri olmuşdur.

Fələstinin erməni məhəlləsində baş verən gərginliklərdən sonra Ermənistanda yeganə sinaqoqun yandırılması bu hadisənin təsadüfi olmadığını, geniş kontekstdə anti-İsrail hərəkatının təzahürü olduğunu göstərmişdi. Belə ki, 2023-cü ilin 7 oktyabr tarixində HƏMAS-ın İsrailə qarşı hücumundan sonra bəzi ölkələrdə anti-İsrail hadisələri artmağa başlamış, həmin hadisələrdən biri Ermənistanda yaşanmışdır. 2023-cü ilin noyabr ayının 15-də İrəvanda yerləşən Ermənistanın yeganə sinaqoqu hücuma məruz qalmış, qapıları yandırılmışdır.

Ermənistanın yəhudi icmasının prezidenti Rima Varjapetyan bu hadisənin ciddi narahatlıq doğurduğunu bildirmiş, hadisə zamanı sinaqoqda heç kimin olmaması və binanın ciddi zərər almamasına rəğmən qapılarının yandığını qeyd etmişdir. İrəvanda yəhudi icmasının daha öncə belə hadisə ilə qarşılaşmadığını vurğulayan R. Varjapetyan hadisə ilə bağlı açıqlamasında bildirmişdir*: "Biz dəhşət içərisindəyik, çünki yəhudilərin Ermənistanda heç vaxt problemləri olmayıb"*.

Hadisənin ardınca İsrailin Ermənistandakı qeyri-rezident səfiri Koel Lion sosial şəbəkə hesabında verdiyi açıqlamada hücumu pisləyərək bildirmişdir*: "Mən Ermənistan hökumətini yəhudi xalqı və dininə qarşı bütün mənfi hadisələri pisləməyə, bu cinayəti tam şəkildə araşdırmağa və günahkarları məsuliyyətə cəlb etməyə çağırıram."*

Bu hadisə Ermənistanda sayları çox az olan yəhudi icmasının yalnız öz təhlükəsizlik məsələlərini deyil, həm də ölkədəki digər dini və etnik azlıqların qarşılaşa biləcəkləri potensial təhdidləri və problemləri gündəmə gətirmişdi. Ermənistanda azlıq icmalarının üzləşə biləcəyi təhlükələr yalnız fiziki və mənəvi təhdidlərdən ibarət deyil, eyni zamanda dövlətin qoruyucu mexanizmlərinin zəifliyi və diskriminasiyaya qarşı hüquqi mexanizmlərin mövcud olmaması kimi struktural problemləri də əks etdirir. Bu cür vəziyyətlər Ermənistan cəmiyyətində dini və etnik müxtəlifliyin qorunub saxlanılmasının və azlıq icmalarının hüquqlarının təmin edilməsinin vacibliyini bir daha ön plana çıxarır. [184]

184 Armenia opens probe into arson attack on synagogue, 16 November 2023, /https://www.timesofisrael.com/armenia-opens-probe-into-arson-attack-on-synagogue/

## Nəticə

Yaxın Şərqdəki etno-konfessional qruplar arasında Fələstinin erməni icması ermənilərin ən qədim icmalarından biri hesab olunur. Fələstində erməni diasporunun gücünün araşdırılması bu ölkədə yaşayan ermənilərin tarixi, cəmiyyətdəki rolu, elmi, siyasi və mədəni fəaliyyətlərini ətraflı şəkildə ortaya qoymuşdur.

Yunan pravoslav və latın icmalarından sonra **Fələstinin xristian icmaları arasında üçüncü ən böyük icması hesab edilən erməni icması əsasən Qüds şəhərində məskunlaşmışdır. Şəhərdə Fələstinin erməni icmasının böyük əksəriyyəti, yəni 80 faizi cəmləşib.** Fələstinin erməni icmasının məskunlaşdığı digər şəhərlər arasında Yaffa, Hayfa, Ramla, Beytləhm və Qəzzanı qeyd etmək olar. Hazırda Qüdsdə təxminən iki min, ölkənin cənub hissəsində beş yüz nəfər erməni yaşayır. Qalan beş yüz nəfər isə İsrailin müxtəlif şəhərlərində məskunlaşıb.

Erməni icmasının əhəmiyyətli hissəsi Qüdsün mərkəzi hesab edilən “İçərişəhər”də yaşayır. **“İçərişəhər”in dörd məhəlləsindən biri erməni məhəlləsidir.** Buranın ən kiçik hissəsini əhatə edən erməni məhəlləsi “İçərişəhər” ərazisinin təxminən altıda birini təşkil edir. Erməni məhəlləsi şəhər daxilində ayrı bir şəhər hesab olunur. Divarlarla əhatə olunmuş bu ərazi Müqəddəs Yaqub kilsəsi başda olmaqla, digər kilsələri, kitabxana, məktəb və bir sıra mağazaları əhatə edir. Məhəllədə yalnız bir erməni kilsəsi var. Burada erməni kilsəsi ilə yanaşı, digər dörd məzhəbin – Suriya Pravoslav, Maruniha Katolik, Yunan Pravoslav və Anqlikan kilsələri də fəaliyyət göstərir.

Fələstin ermənilərinin böyük əksəriyyəti erməni pravoslav xristianlardır. Digərləri erməni katoliklər və erməni evangelistlər olmaqla iki qrupa bölünürlər. İnstitusional olaraq, yunan pravoslav və katolik xristianlarından ayrı olsalar da, ermənilər yaşadıqları ərazini xristian məhəlləsinin bir hissəsi hesab edirlər.

Erməni məhəlləsi tamamilə xristian ermənilərdən ibarətdir. Mənbələrdə yer alan məlumata görə, 1915-ci ildən başlayaraq, ermənilərin bir qismi Qüdsdə məskunlaşmışdır.

Qüds Erməni Pravoslav Patriarxlığı Qüds ermənilərinin dayağı, həmçinin Müqəddəs Yaqub Qardaşlığının evi hesab olunur. Erməni Patriarxlığı Qüdsün “İçərişəhər”ində, Müqəddəs Yaqub Erməni kilsəsinin (Cathedral of Saint James) tərkibində yerləşir. Patriarxlığın

nəzdində Müqəddəs Yaqub kilsəsi, "Müqəddəs Mələklər" kilsəsi, Tarkmançats məktəbi, Erməni İlahiyyat Seminariyası, Gülbenkiyan Kitabxanası, Erməni muzeyi, Cinişyan Klinikası, kitab mağazası və Müqəddəs Torpaqdakı ən qədim və hələ də fəaliyyət göstərən mətbəə, Müqəddəs Məbəd kilsəsi, Müqəddəs Xilaskar kilsəsi, Məryəm məzarı kilsəsi, Getsemaniya, Yaffadakı Müqəddəs Nikolay Erməni kilsəsi, Hayfadakı Müqəddəs Elias kilsəsi və Beythəlmdəki "Diriliş" kilsəsini qeyd etmək olar.

Erməni icması Fələstinin siyasi, iqtisadi və mədəni həyatında müəyyən rola malikdir. Fələstinin indiki xarici işlər və diaspor naziri erməniəsilli Vardin Ağabekyandır. O, bu vəzifəyə 2025-ci ilin iyun ayının 23-də Fələstin Prezidenti Mahmud Abbasın fərmanı ilə təyin edilmişdir. V.Ağabekyan Fələstin hökumətində bu vəzifəyə təyin edilən ilk qadın və ilk erməni əsilli şəxsdir. O, həmçinin 2024-cü ilin mart ayından etibarən Xarici İşlər Nazirliyində dövlət naziri vəzifəsini icra etmişdir. Digər Qüds ermənisi 2020-2024-cü illər ərzində Fələstinin Danimarkadakı səfiri vəzifəsini icra edən Manuel Hassasiyandır. O, 2018-2019-cu illərdə Fələstinin Macarıstandakı səfiri, ondan əvvəl 13 il Fələstinin Böyük Britaniyada səfiri vəzifəsində çalışmışdır.

Fələstinin məşhur erməni əsilli şəxslərindən biri tarixçi və araşdırmaçı Albert Aqazaryandır. O həm də yazıçı və tədqiqatçı Elis Aqazaryanın atasıdır. A.Aqazaryan Qüds, ümumən Fələstin məsələsinin beynəlxalq aləmdə izahı istiqamətində göstərdiyi xidmətlərə görə Belçika kralı II Albertdən yüksək medal almışdır. O, Belçika kralı tərəfindən medalla təltif edilən əlli şəxsdən biridir.

Qüdsün erməni icması Fələstində ilk dəfə fotoqrafiya emalatxanasını təsis edən, mətbəəni yaradan ikinci, Britaniya mandatlığı dövründə isə keramika fabrikinin əsasını qoyan ilk şəxslərdir. Qüdsün erməni icmasını məşhurlaşdıran fəaliyyət istiqamətləri mətbəə, fotoqrafiya və keramika sənətləri olmuşdur.

Həmçinin, Yaxın Şərqin ən böyük erməni kitabxanalarından biri olan Gülbenkiyan Fələstində yerləşir. Bu kitabxananın yaradılması 1879-cu ildə patriarx Yeqişe Turyanın keşiş təyin olunmasının 50 illiyi münasibətilə planlaşdırılmışdır. Kitabxana erməni əsilli iş adamı və neft maqnatı Kalust Gülbenkyan, Lissabonun Gülbenkian Fondu, Londonun Saint Sarkis Trust Fondu, eləcə də dünyanın bir çox yerindən cəlb edilən erməni əsilli şəxslər və təşkilatlar tərəfindən maliyyələşdirilmişdir.

Ölkənin erməni icmasına məxsus digər mədəniyyət nümunəsi Edvard və Helen Mardigiyan muzeyidir. Muzeyin açılış mərasimi 23 oktyabr 2022-ci il tarixində baş tutmuşdur. Mərasim Qüdsün erməni patriarxı Nurhan Manukyanın iştirakı ilə Qüdsdə yerləşən kilsələrin, rəsmi mülki təşkilatların nümayəndələrinin, erməni seminariyasının tələbələrinin və dövlət xadimlərinin iştirakı ilə keçirilmişdir.

**Fələstinin erməni icması barədə araşdırma onu göstərir ki, Yaxın Şərqin ən qədim erməni icmalarından biri olan Fələstin erməniləri öz adət və ənələlərinə sadiq qalaraq ölkənin dini, iqtisadi, mədəni və təhsil həyatına nüfuz edərək özlərinə mühüm yer tutmaqla yanaşı, fələstinlilər arasında nüfuz qazanmağa müvəffəq olmuşlar. Bununla belə, erməni icmasının varlığı Fələstinin Azərbaycanla münasibətlərinə mənfi təsir göstərə bilməmişdir.**

**Həm Azərbaycan, həm də Fələstin beynəlxalq təşkilatlarda bir-birinin dövlət suverenliyini dəstəkləyən ölkələrdir. Belə ki, 29 oktyabr 2011-ci il tarixində Azərbaycana ilk dəfə rəsmi səfər edən Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas Prezident İlham Əliyev ilə birgə keçirilən mətbuat konfransında bildirmişdir: *“Aramızda ümumi problemlər, Azərbaycanla Fələstinin oxşar problemləri var. Torpaqlarımız işğal altındadır”*.**

**Öz növbəsində, Prezident İlham Əliyevin bəyanatı Azərbaycanın Fələstinin dövlət müstəqilliyini tanıdığını bir daha təsdiq etmişdir: “*İslam Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində müzakirələr zamanı Azərbaycan həmişə Fələstinin yanındadır və bu, həmişə belə olacaq. Düşünürük ki, paytaxtı Şərqi Qüdsdə olan müstəqil və suveren Fələstin Dövləti tezliklə qurulmalıdır*”.**

# III Fəsil

# SURİYADA ERMƏNİ DİASPORU

## Suriyanın erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət

Yaxın Şərqin erməni icmaları tədricən erməni diasporunun mərkəzinə çevrilmişdir. Buna zəmin yaradan amil zaman keçdikcə erməni siyasi partiyalarının mərkəzi orqanlarının və ümumi diaspor institutlarının, o cümlədən erməni diasporunun mənəvi mərkəzlərinin məhz bu icmalardan yaranması idi. Buna görə də Suriya, Livan, Misir, Fələstin və İordaniyanın erməni icmaları bütün erməni diasporu üçün xüsusi əhəmiyyət kəsb etmiş və bu rollarını bu gün də davam etdirirlər.

**15 il bundan əvvələ kimi** Suriyanın erməni icması bütün dünya ermənilərinin **ən mütəşəkkil** icmalarından biri hesab edilirdi. Həmin dövrdə Suriyada təxminən **100 min**ə yaxın erməni yaşayırdı. 2011-ci ildən Suriyanın daxili müharibəsindən hazırkı günə kimi olan göstəricilərdə bu sayda kəskin azalma müşahidə edilməkdədir. Belə ki, 2020-ci ilin statistik məlumatlarına əsasən, son 10 il ərzində Suriya ermənilərinin sayı 100 min nəfərdən 25-30 min nəfərə enmişdir. **Ermənistanın Diaspor Nazirliyinin açıqlamasına görə, hazırda Suriyada 20 min erməni yaşamaqdadır.** Erməni icmasının Suriyada ən mütəşəkkil cəmləşdikləri bölgələr Hələb, Dəməşq, Cəzirə (Qamışlı, Hasicə, Tərik), Əl-Laziqiyyə və Kasabdır. Ərəb mənbələrində qədim erməni koloniyalarının məhz bu bölgələrdə yerləşdiyi qeyd edilir.

**Hələb Suriyada erməni icmasının mərkəzi hesab edilir.** Müharibədən əvvəl Hələbdə 40 minə yaxın erməni yaşayırdısa, bu gün onların sayı təxminən 12 min civarındadır. Erməni mənbələrinə əsasən, 1870-1890-cı illərdə Hələbdə yaşayan ermənilərin sayı 85 min nəfər olmuşdur.

**Dəməşq erməni icmasının ən sıx cəmləşdiyi ikinci Suriya şəhəridir.** Dəməşqdə müharibədən əvvəl 10 min erməni yaşayırdı. Hazırda bu say iki dəfə azalaraq, 5-6 min təşkil edir.

Bu azalma Suriyanın digər şəhərlərinə də sirayət etmişdir. Belə ki, Qamışlıda müharibədən əvvəl 8 min, hazırda 4 min, Kasab bölgəsində

əvvəl 2 min, hazırda min erməni yaşamaqdadır. Maraqlıdır ki, Əl-Laziqiyyə bölgəsinin erməni əhalisinin sayı **daxili miqrasiya hesabına** faktiki olaraq 5 mindən təxminən 7 minə qədər yüksəlmişdir.[185]




**Şəkil 1. Suriyanın etnik və dini tərkibinin coğrafi bölgüsü**[186]

Yaxın Şərq ölkələri üzrə tədqiqatçı, antropologiya üzrə professor **Con Ostin Şoup** 2018-ci ildə yazdığı "The history of Syria" ("Suriyanın tarixi") kitabında Suriyadakı erməni icmasının ölkənin ümumi əhalisinin **2 faizini** təşkil etdiyini və onların ölkədə **beşinci ən böyük etnik qrup** olduğunu qeyd etmişdir.[187]

Erməni müəllif Sarkis Burniziyan isə müəllifi olduğu kitabında Suriya və Ermənistan arasında ilk əlaqələrin e.ə. 55-95-ci illərdə İmperator II Tiqranın fəthlərini Şam regionu və Suriya sahillərinə qədər genişləndirdiyi dövrə təsadüf etdiyini bildirib. Müəllif həmçinin II Tiqranın Suriya xalqının tələbi ilə orada 18 il qaldığını qeyd edib. S.Burniziyan ermənilərin Suriyaya köçünü iki mərhələyə ayırır:

1-ci mərhələdə ilk dalğanın 539-cu ildən sonra, ikinci dalğanın 717-728-ci illərdə, üçüncü dalğanın 973-992-ci illərdə və dördüncü dalğanın 1045-ci ildə ermənilərin Bizans ordusu tərəfindən məğlub edilməsindən

185 Armenian in Syria, https://joshuaproject.net/people_groups/10429/sy
186 Armenians in Syria, 2020, https://www.geocurrents.info/blog/tag/armenians-in-syria/
187 "The history of Syria", 2018, https://search.worldcat.org/title/history-of-syria/oclc/1033552656

sonrakı dövrdə, beşinci dalğa olan növbəti köçün isə məmlüklərin Ermənistana - Kilikiyaya hücmumları ilə baş verdiyini qeyd edir.

2-ci mərhələyə gəlincə, bu, XIX əsrə - eramızın 1877-ci ilində Berlin konfransından sonrakı dövrə aid edilir. Kitabda yazılanlara əsasən, Şərq məsələsinin əsası sayılan erməni məsələsi yerli çərçivədən beynəlxalq çərçivəyə keçdiyi üçün Sultan II Əbdülhəmid guya erməniləri məhv etməyi qərara almış, nəticədə böyük köç baş vermişdir. Ən böyük mühacirət dalğası isə 1915-ci ildə qondarma “erməni soyqırımı”ndan sonra baş vermişdir.[188]

## Suriyada dini balans

Suriya dövləti 1949-cu ildən etibarən vəqflər və digər dini qurumlar üzərində dövlət nəzarətini həyata keçirir. Bu tədbir dini fəaliyyətlərin tənzimlənməsinə və müxtəlif dini qruplar arasında sabitliyin qorunmasına yönəlmişdir. Ümumiyyətlə, Suriya cəmiyyətində dini qruplar arasında birgəyaşayış dinc və harmonik xarakter daşıyır, lakin bəzi bölgələrdə müxtəlif dini icmaların daha sıx yerləşməsi müşahidə olunur. Belə hallarda kiçik dini azlıqlar bəzən regional çoxluq təşkil edə bilir.

Suriya əhalisinin əksəriyyəti müsəlmanlardan ibarətdir. 2022-ci ilin rəsmi statistikasına əsasən, ölkə əhalisinin 87 faizi müsəlmandır. Xristianlar isə əhalinin 10 faizini təşkil edir. Qalan 3 faiz isə druz dini inancına sahib olan insanlardan ibarətdir.[189]

Hazırda Suriyanın təxminən 74 faizi sünni müsəlmanlar, 11 faizi şiə və ələvilər, 10 faizi xristianlar, 3 faizi druzlar və 2 faizi digər müsəlmanlardan ibarətdir. Suriyada həmçinin əhalinin 9-15 faizini təşkil edən böyük bir kürd azlığı, eləcə də türkmənlər, assuriyalılar və ermənilər də daxil olmaqla digər kiçik etnik azlıqlar mövcuddur. “Human Rights Watch” təşkilatı 1960-cı illərdə vətəndaşlıq qanunlarına edilən dəyişikliklərə görə, Suriyada 300 000 kürdün vətəndaşlığı olmadığını təsbit etmişdir.[190]

---

188 أرمن دمشق لـ د سركيس بورنزسيان - (Sarkis Burnozisyanın “Dəməşq erməniləri” kitabı), nəşr ili – 1 yanvar 1970-ci il, https://www.noor-book.com/%D9%83%D8%AA%D8%A7%D8%A8-%D8%A3%D8%B1%D9%85%D9%86-%D8%AF%D9%85%D8%B4%D9%82-%D9%84%D9%80-

189 Explore All Countries – Syria, Page last updated: November 29, 2022, https://www.cia.gov/the-world-factbook/countries/syria/

190 Syria - Country of Concern, Updated 21 January 2015, Syria - Country of Concern - GOV.UK

Tarixən Suriyada müsəlmanlar və xristianlar arasında sosial-iqtisadi fərqlər mövcud olmuşdur. Xristianlar, xüsusən də burjuaziya və yuxarı təbəqəyə mənsub olanlar akademik və yüksək peşələrdə fəaliyyət göstərərək iqtisadi və sosial baxımdan üstün mövqe tutublar. Bununla yanaşı, xristianlar müsəlmanlara nisbətən daha çox şəhərlərdə yerləşmiş, bu isə onlara daha çox imtiyazlar qazandırmışdır.

## Suriyada islam

Ölkə müsəlmanlarının 74 faizini sünni ərəblər təşkil edir. Şəriətin hakim məzhəbi dörd sünni məzhəbindən biri hesab edilən **hənəfi** məzhəbidir**.**

**Suriyada 2024-cü ilin dekabr ayına, Bəşər Əsəd rejiminin devrilməsinə qədər ölkənin siyasi elitasının dini ələvilik olmuşdur.** Ələvilər əsasən Suriyanın 5-ci ən böyük şəhəri hesab edilən Əl-Laziqiyyə ətrafında cəmləşiblər.

İslamın yarandığı vaxtdan etibarən 1970-ci ilə kimi Suriyada **3 min** məscid mövcud olmuşdur. 1970-ci ildən 2011-ci ilə kimi Suriyada ümumi 13 min məscid tikilmişdir. 2011-ci ildən indiyə kimi isə ölkədə bir dənə də olsun məscid tikilməyib. Suriyanın vəqf naziri Vasim Mövlanə ötən əsrin 50-ci illərindən etibarən ölkədə hökumət tərəfindən heç bir məscid tikintisi üçün vəsait ayrılmadığını və məscidlərin hamısının vətəndaşların öz hesablarına tikildiyini bildirmişdir.[191]

Suriyanın İnsan Hüquqları üzrə Komitəsi tərəfindən verilən məlumata əsasən, 2011-2015-ci illər ərzində Suriyada rejim qüvvələri tərəfindən **1000-dən çox məscid** olmaqla, **2044 ibadət evi dağıdılmışdır.** Bunların arasında Hümsdəki Xalid bin Əl-Valid məscidi, Hələbdəki Əməvi məscidi, Əl-Kəməliyə, Əl-Səfəhiyyə və Əl-Ətruş məscidləri də var.[192]

## Suriyada xristianlıq

Suriyada islam dinindən sonra ikinci ən geniş yayılan din xristianlıqdır. Tarixi mənbələrdə Osmanlı dövründə Suriyadakı xristianların əhalinin təxminən 25%-ni təşkil etdiyi qeyd edilir. O dövrdə Dəməşq, Hüms, Əl-Laziqiyyə və Fərat adaları kimi bölgələrdə xristianların əhali içərisindəki faiz göstəricisi daha da yüksək olmuş, bəzən bu bölgələrdə xristianların

191 الأوقاف: المساجد في سوريا على نفقة المواطنين - (Vəqflər: Suriyada vətəndaşların hesabına tikilən məscidlər) https://www.enabbaladi.net/archives/339451, 01 yanvar 2019
192 Yenə orada

sayı ümumi əhalinin üçdə birini keçmişdir.

Lakin zaman keçdikcə xüsusən Suriya müharibəsi dövründə xristian əhalisinin sayı kəskin şəkildə azalmışdır. Bu azalma xristianların ölkə daxilində və xaricə böyük miqyasda köç etmələri ilə əlaqədar olmuşdur. Daxili müharibə, etnik və dini gərginliklər ilə bağlı təhlükəsizlik narahatlıqları, iqtisadi çətinliklər və digər sosial səbəblər nəticəsində xristianların Suriya ərazisindəki sayları əhəmiyyətli dərəcədə azalmışdır.

Suriyada xristian əhalisinin sıxlığı bölgələrə görə dəyişir. Xristian əhalisinin ən sıx yaşadığı bölgələrdən biri **Hələb** şəhəridir. Burada xristianlar əhalinin **təxminən 10 faizini** təşkil edir. **Fərat bölgəsinin xristian əhalisi 20 faiz**, **Sahil bölgəsinin** isə **15 faiz** təşkil edir.[193] Hüms bölgəsi də xristian əhalisinin çoxluğu ilə seçilir. Dünyanın ən qədim kilsələrindən biri hesab edilən Um Əl-Zünnar kilsəsi Hümsdə yerləşir. Hümslə yanaşı, Suriyanın Saydnaya, Maaloula, Sadad, Deir Simeon, Serjela kəndləri xristian kəndləri olaraq tanınır.

**Hələb Yaxın Şərqdə Qahirə və Beyrutdan sonra xristianlığın ən çox yayıldığı şəhərdir.** İncildə İsa peyğəmbərin Suriyanın cənubundakı bölgələrə səfər etdiyi və onun Banias Əl-Şam adlanan Filipi Qeysəriyyəsində olduğu haqqında yazılmışdır.[194]

Suriyanın xristian təbəqəsi bir neçə təriqətə bölünür. Onların əksəriyyəti ərəbcə ana dili kimi danışır. **Suriyadakı ilk ən böyük xristian məzhəbi Antioxiya Pravoslav kilsəsi tərəfindən təmsil olunan Yunan Pravoslav və Yunan Katolik kilsələridir.** Ölkədə yunan pravoslavları çoxluq təşkil edir. Onlar əsasən Suriyanın Vadi Əl-Nasarada bölgəsində (Suriyanın şimal-qərbində) sıx cəmləşiblər. Sıralamada növbəti yeri Suriya provaslavları və Roma katolikləri tutur. **Növbəti böyük icma Erməni Həvari (Apostol) kilsəsidir.**

Təkcə Hələb protestantların, marunilərin, assuriyalıların, xaldeylərin, katoliklərin və müxtəlif erməni qrupların iştirakı ilə 10 yeparxiyadan ibarətdir. Dəməşq isə bütün dünyada patriarxal mərkəz və üç kilsənin, Antakya Patriarxlığının mərkəzi hesab edilir.[195]

---

193 The struggle for Syria in 2011, December 2011, https://web.archive.org/web/20190430184640/http://www.understandingwar.org/sites/default/files/Struggle_For_Syria.pdf

194 2. Caesarea Philippi (Banias)—From The God Pan To The God-Man, https://bible.org/seriespage/2-caesarea-philippi-banias-god-pan-god-man

195 أرمن سورية يجدون في يريفان موطنا جديدا لهم - (Suriya ermənilərі İrəvanda özləri üçün yeni

Suriyanın xalkidon pravoslavları ümumi xristian əhalisinin təxminən 45,7 faizini təşkil edir. Süryani pravoslavlar təxminən 22,4 faiz, katoliklər (melkit Roma katolikləri, erməni katolikləri, Suriya katolikləri, marunilər, xaldeylər və latın katolikləri) təxminən 16,2 faiz, Erməni Apostol kilsəsinin davamçıları isə təxminən 10,9 faiz təşkil edirlər. Qalanını isə Şərqi Assur kilsəsinin davamçıları və daha kiçik xristian məzhəbləri təşkil edir.[196] Suriyanın xristian təriqət mənsublarının 1956-2000-ci illərlə müqayisədə statistik göstəricilərini aşağıdakı cədvəldə daha aydın görmək mümkündür:

| Təriqət | 1956-cı ilin statistikası | 2000-ci ilin statistikası |
|---|---|---|
| Yunan provaslavlar | 18.1750 nəfər | 54.5250 nəfər |
| Erməni provaslavlar | 11.4041 nəfər | 342.123 nəfər |
| Roma katoliklər | 60.124 nəfər | 180.372 nəfər |
| Süryani provaslavlar | 55.343 nəfər | 166.029 nəfər |
| Suriyalı katoliklər | 20.716 nəfər | 62.148 nəfər |
| Erməni katoliklər | 20.637 nəfər | 61.911 nəfər |
| Marunilər | 19.291 nəfər | 57.873 nəfər |
| Protestantlar | 12.535 nəfər | 37.605 nəfər |
| Assuriyalılar | 11.760 nəfər | 35.280 nəfər |
| Latınlar | 7.079 nəfər | 21.237 nəfər |
| Xaldey katoliklər | 5.723 nəfər | 17.169 nəfər |

**Cədvəl 1. 1956-2000-ci illərlə müqayisədə Suriya xristianlarının statistik göstəriciləri[197]**

## Suriya ermənilərinin konfessional konfiqurasiyası

Kilsə Suriya ermənilərinin birləşməsində əhəmiyyətli rol oynayır. Suriya və Livanda fəaliyyət göstərən Erməni Apostol kilsəsi Böyük Kilikiya Evinin katolikosunun rəhbərliyi altında fəaliyyət göstərir. Böyük Kilikiya

---

məskən tapırlar), 11 sentyabr 2022, https://orientxxi.info/magazine/article5831

196 Guide: Christians in the Middle East, 11 October 2011, https://www.bbc.com/news/world-middle-east-15239529

197 المسيحية في سوريا - (Suriyada xristianlıq), https://ar.wikipedia.org/wiki/%D8%A7%D9%84%D9%85%D8%B3%D9%8A%D8%AD%D9%8A%D8%A9_%D9%81%D9%8A_%D8%B3%D9%88%D8%B1%D9%8A%D8%A7#cite_ref-240

Evi Suriya ermənilərinin ən böyük mənəvi qurumlarından biridir. Bu kilsə regiondakı erməni icmalarının həm dini, həm də sosial həyatını tənzimləyir. Patriarxın rəhbərliyi altındakı Erməni Katolik kilsəsi və Erməni Evangelist kilsəsi də müxtəlif erməni icmalarına xidmət edir.

Suriya ermənilərinin əsas hissəsi Erməni Pravoslav kilsəsinin davamçılarıdır. Bu kilsə tarixi olaraq Şərqi Pravoslav kilsəsinin tərkibində olmuşdur və ortodoks erməni icmalarının dini həyatını təmsil edir. Pravoslav kilsələri, xüsusilə Hələb, Hüms, Dəməşq və Qamışlı kimi şəhərlərdə mövcuddur, erməni icmasının dini mərkəzləridir.

Erməni katolikləri və evangelistləri isə katolik və protestant kilsələrinin bir hissəsi olaraq, xristianlığın müxtəlif təlimlərinə və praktikalara inanır. Erməni Katolik kilsəsi Roma Papası ilə sıx əlaqələr saxlayır və Katolik kilsəsinin təlimlərinə əsaslanır. Erməni evangelistləri isə erməni dilində İncili tədris edən və xristian təlimlərinə dair öz təfsirlərini təqdim edən bir qrup təşkil edir.




**Şəkil 2. Suriyanın etno-konfessional tərkibi. 1976-cı il**[198]

198 Sectarianism and minorities in the Syrian civil war, https://en.wikipedia.org/wiki/Sectarianism_and_minorities_in_the_Syrian_civil_war#




**Şəkil 3. Suriyanın etno-konfessional tərkibi. 2000-ci il[199]**




**Şəkil 4. Suriyanın etno-konfessional tərkibi. 2012-ci il[200]**

199 Finance of Syria, Britannica, https://www.britannica.com/place/Syria/Finance

200 Syrian ethno-religious groups (Statistics derive from Nikolaos van Dam, The Struggle for Power in Syria: Politics and Society under Asad and the Ba'th Party (New York: I.B. Tauris & Co Ltd, 2011), corroborated by the US State Department), cited: Kendal 2012, https://www.researchgate.net/figure/Syrian-ethno-religious-groups-Statistics-derive-from-Nikolaos-van-Dam-The-Struggle-for_fig1_387727593




**Şəkil 5. Suriyanın etno-konfessional tərkibi. 2023-cü il**[201]

201 Syria's Sectarian Divides, 14 March 2025, https://www.statista.com/chart/31468/ethnic-religious-groups-and-areas-of-control-in-syria/




**Şəkil 6. Suriyanın etno-konfessional tərkibi. 2025-ci il**[202]

## Erməni icmasının Suriyanın siyasi həyatında fəaliyyəti

Suriya ermənilərini **XX əsrin əvvəllərindən etibarən** ölkənin siyasi həyatında görmək mümkün idi. Onlardan bəziləri haqqında aşağıda məlumatlar verilir:

202 Syria's New Rulers and Minorities: Clash or Compromise?, 13 March 2025, https://www.ispionline.it/en/publication/syrias-new-rulers-and-minorities-clash-or-compromise-202934

**Levon Ter-Petrosyan.** Suriya ermənisidir. 1945-ci ildə Hələbdə doğulmuşdur. Ermənistan Respublikasının birinci prezidenti olmuşdur. Atası **Akop Ter-Petrosyan** əvvəlcə Hınçak Partiyasının üzvü, sonra isə Suriya Kommunist Partiyasının qurucularından biri idi.[203]

**Aram Kara Manukyan.** Suriya ordusunu quran ilk zabitlərdən hesab olunur.[204] 1910-cu ildə Qaziantepdə (Türkiyə) doğulmuş, kiçik yaşlarından ailəsi ilə birlikdə Suriyaya köçmüşdür. 1940-1950-ci illərdə Suriya Ordusunun artilleriya komandiri olmuşdur. 32 il Suriya Ərəb Ordusunda xidmət etmişdir. Suriya əsilli ilk erməni zabit olmuşdur. 1961-ci ildə ordu quruculuğundakı roluna görə Hələbin Təsis Məclisinin nümayəndəsi seçilmişdir. 1996-cı ildə 86 yaşında Nyu-Yorkda vəfat etmişdir. Vəsiyyətinə əsasən, cənazəsinin bir hissəsi qardaşı Levonun yanında dəfn edilmək üçün İrəvana (Ermənistan), digər hissəsi isə Hələbdəki Erməni Pravoslav qəbiristanlığında dəfn olunmaq üçün Hələbə köçürülmüşdür.[205]

**Artin Boşgezenyan**. Konstitusiya dövründə 1908-1912-ci illərdə birinci dəfə, 1912-ci ildə ikinci dəfə və 1914-1918-ci illər arası üçüncü dəfə Osmanlı parlamentlərində Hələbin millət vəkili seçilmişdir.[206]

**Hrant Maloyan**. Muşdan olan erməni generalıdır. 1940-1950-ci illərdə Suriya Təhlükəsizlik Qüvvələrinin rəhbəri vəzifəsində çalışmışdır.[207]

## Nazirlər Kabineti

2012-ci ildə Suriyanın keçmiş Prezidenti Bəşər Əsədin təsdiq etdiyi on bir yeni nazirdən ibarət hökumətin tərkibinə erməni qadın nazir daxil edilmişdir. Ətraf mühitin mühafizəsi üzrə dövlət naziri təyin edilən Nəzirə Fərəh Sarkis[208] 1962-ci ildə Suriyada doğulan Hələb ermənisidir.[209]

---

203 Լեւոն Տեր-Պետրոսյանի լրացված կենսագրությունը - (Levon Ter-Petrosyanın tam tərcümeyi-halı), 13 mart 2015, https://web.archive.org/web/20201129110815/http://www.ilur.am/news/view/42415.html,

204 1946- اللواء ارام كارامانوكيان أحد مؤسسين الجيش السوري عام (General-mayor Aram Kara Manukyan, 1946-cı ildə Suriya Ordusunun qurucularından biri), http://kovorws.syrianhistory.com/ar/photos/2568

205 Suriyanın Ermənistandakı səfiri Nora Arissiyanın “Suriya Parlamentində emənilər” kitabına istinadən, https://web.archive.org/web/20171211133320/http://khabararmani.com/?p=8936

206 ‘Farklı bir mebus’: Artin Boşgezenyan, Tamar Nalcı and Emre Can Daglioglu, s. 15

207 Syrian modern history, التاريخ السوري المعاصر - هرانت مالويان

208 U.S. TREASURY DEPARTMENT OFFICE OF PUBLIC AFFAIRS, July 18, 2012, https://home.treasury.gov/system/files/136/archive-documents/Fact-Sheet.pdf

209 Armenian Minister in Syria’s new Government, August 28, 2012 https://armenpress.am/eng/news/774008.html

N.Sarkis 1999-2001-ci illərdə Əczaçılıq Kollecində müəllimlərin Həmkarlar İttifaqının rəhbəri olmuşdur. Hələb Universitetində kimya elmləri namizədi elmi dərəcəsi ilə dərs demiş, 2001-2006-cı illərdə "Analitik kimya" kafedrasının müdiri vəzifəsində çalışmışdır.[210]

2015-ci ildə Bəşər Əsədin himayəsi altında Dəməşqin "İçərişəhər" ərazisində qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsinə ucaldılacaq abidənin təməl daşının qoyulması mərasimində Antakyanın süryani pravoslav patriarxı İqnatius II Afram Kərim, Dəməşq Erməni kilsəsinin primatı yepiskop Armaş Nalbandyan, Dəməşqdəki bir sıra xristian konfessiyalarının rəhbərləri, millət vəkilləri ilə yanaşı, **Suriyada ətraf mühitin mühafizəsi üzrə dövlət naziri Nəzirə Sarkis** və Dəməşq qubernatoru Bişr Əl-Sabban da iştirak etmişdilər. [211]

Qeyd edək ki, Livan ermənilərindən fərqli olaraq Suriya erməniləri ölkənin Nazirlər Kabinetində geniş təmsil olunmayıblar.

### Parlament (Xalq Məclisi - مجلس الشعب)

**1928-2011-ci illər ərzində ermənilər Suriya parlamentində 21 millət vəkili ilə təmsil olunublar.** Bunlar: Mihran Puzantyan, Fathalla Asiyun, Nikolas Kancigyan, Movses Der Kalousdyan (daha sonra Livan parlamentində millət vəkili olub), Hraç Papazyan, Henri Hendieh (Balabanyan), Hrant Sulahyan, Bedros Milletbaşyan, Ardaşes Pohikyan, Nazaret Yaqubyan, Movses Salatyan, Dikran Tçeradjyan, Fred Arslanyan, Abdallah Fattal, Louis Hendi, Krikor Ebligatyan, Aram Karamanukyan, Roupen Diraryan, Levon Qazal, Simon İbrahim Libraryan və Sunbul Sunbulyan (2012-ci ilə kimi) olublar. Bu haqda Suriyanın erməni əsilli tarixçisi, **Suriya parlamentinin hazırkı millət vəkili və Suriyanın Ermənistandakı səfiri Nora Arisyan** "Suriya parlamentində erməni nümayəndələr: 1928-2011-ci illər" adlı kitabında qeyd etmişdir. Müəllif 347 səhifəlik bu kitabı Suriya ermənilərinin ölkə parlamentindəki və siyasi həyatlarındakı rolunu aydınlaşdırmaq məqsədi ilə yazmışdır. Həmçinin **bu sənədli kitab** Suriyadakı ermənilərin parlament həyatlarını öyrənmək üçün atılan **ilk addım** hesab edilir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Suriya Assosiasiyasının prezidenti və Xalq Assambleyasının keçmiş deputatı

210 وزيرة الدّولة لشؤون البيئة الدّكتورة نظيرة فرح سركيس (Suriyada ətraf mühitin mühafizəsi üzrə dövlət naziri Nəzirə Fərəh Sarkis)

211 Armenian religious and community figures gather to commemorate the 100 year anniversary of the Armenian genocide, April 28, 2015, https://syrianobserver.com/news/30278/cornerstone_armenian_victims_memorial_laid_old_damascus.html

Corc Cabbour bu kitabın[212] Suriya ədəbiyyatına dəyərli əlavə olduğunu bildirmiş və milli birliyin möhkəmləndirilməsi yolunda uğurlu addım olduğunu qeyd etmişdir. [213]

**Krikor Abliqatin.** Suriya parlamentinə ən çox (8 dəfə) seçilən millət vəkillərindən biridir. Qeyd edək ki, Fətullah Asyon dörd dəfə, Nikolas Cansi, Moses Der Kaloustiyan və Tiqran Giraqiyan isə üç dəfə Suriya parlamentində təmsil olunublar.

**Aram Karamanukyan.** Suriya parlamentinin üzvü olmaqla yanaşı, Suriya ordusunun general-leytenantı olmuşdur. Bir neçə kitabın müəllifidir. Alim və hərbi qulluqçu fəaliyyətlərinə görə Misir, Ermənistan, Livan, Suriya və Fransadan mükafat və medallar almışdır.[214] 1948-ci il Ərəb-İsrail müharibəsinin iştirakçısı olmuşdur.

**2016-cı il**də Suriyada keçirilən parlament seçkilərində erməni icmasının iki nümayəndəsi - Hələbdən Jirayr Reisyan və Dəməşqdən Nora Arisyan - millət vəkili seçilmişdilər.[215] Bununla Nora Arisyan Suriya parlamentinə seçilən **ilk qadın millət vəkili** olmuşdur.

**2020-ci ildə keçirilən** parlament seçkilərində 250 yerlik Suriya parlamentində **üç nəfər erməni əsilli millət vəkili seçilmişdir.** Bunlar ikinci dəfə Suriya parlamentinə seçilən Jirayr Reisyan, Nora Arisyan və yeni seçilən millət vəkili Hələbdən Lusi İskenyan olmuşdur. Lusi İskenyan erməni apostol kilsəsinin nümayəndəsidir.

Hazırda erməni icmasını Suriyanın qanunvericilik orqanında Erməni Yeparxiyasının mətbuat katibi **Berio Jirayr Reisyan** və tarixçi, yazıçı, Suriya Yazıçılar Birliyinin üzvü **Nora Arisyan** təmsil edirlər**. Qeyd edildiyi kimi, Nora Arisyan həmçinin Suriyanın Ermənistandakı səfiridir.** O, bu vəzifəyə 2022-ci ilin may ayında təyin edimişdir. Həmin ilin iyul ayında Ermənistanın Baş naziri Nikol Paşinyan Nora Arisyanla görüşündə ölkəsinin Suriya ilə əməkdaşlığa və iki ölkə

---

212 1928-2011 – :كتاب النواب الأرمن في المجالس النيابية السورية "Suriya parlamentinin millət vəkilləri" kitabı), 09 noyabr 2017. - https://sitainstitute.com/?p=494,

213 Armenians of Syria | باحثة سورية تبرز دور النواب الأرمن في المجالس النيابية السورية | Facebook- (Suriyalı tədqiqatçı erməni millət vəkillərinin Suriya parlamentlərindəki rolunu vurğulayır), 12 may 2012

214 في عيد تأسيس الجيش الضباط القادة الأرمن في الجيش العربي السوري – ملحق أزتاك العربي للشؤون الأرمنية *(aztagarabic.com) -* (Suriya Ərəb Ordusunun erməni zabitləri ordunun yaranmasının ildönümündə), 01 avqust 2012

215 اثنان من الأرمن في برلمان سوريا الجديد - (Suriya parlamentinə iki nəfər Suriya ermənisi seçilib 71,) aprel 2016, اثنان من الأرمن في برلمان سوريا الجديد | الديار

arasında tarixi əlaqələrin genişləndirilməsinə böyük önəm verdiyini vurğulamışdır. Görüş əsnasında Nikol Paşinyan demişdir: "*Biz dost Suriyada baş verənləri izləyirik və ümid edirik ki, bu böhrandan tez zamanda çıxacaq*".[216]

**Suriyada erməni siyasi partiyaları**

Suriyada üç ənənəvi erməni partiyası fəaliyyət göstərir:

1. Erməni İnqilabçı Daşnaksütyun Partiyası (ARFD)
2. Hınçak Sosial Demokrat Partiyası (SPD)
3. Ramqavar Azatakan Partiyası (PRA)

**Suriyada birpartiyalı sistem tətbiq olunduğu vaxtdan etibarən milli siyasi partiyaların fəaliyyətinə qadağa qoyulmuşdur.** Bu səbəbdən erməni milli partiyalar ölkədə fəaliyyətlərini ictimai, mədəniyyət, gənclər və idman təşkilatları, xeyriyyə birlikləri və klublar adı altında davam etdirməyə məcbur olublar. Erməni təşkilatlarının əksəriyyəti Hələb şəhərində yerləşir.

## Suriyada fəaliyyət göstərən erməni kütləvi informasiya vasitələri

**Ərəb jurnalistikasının banilərindən hesab edilən Rizkallah bin Nimallah Hassoun əslən Suriya ermənisidir.**[217] 1825-ci ildə Hələbdə erməni ailəsində doğulan Rizkallah bin Nimallah erməni katoliklərinin Bzommar monastırında təhsil almışdır. **O, 1855-ci ildə Astanada həftəlik "Mirrat Əl-Əhval" qəzetini təsis etmişdir. Bu qəzet bütün dünyada ilk qeyri-rəsmi ərəb qəzeti hesab edilir.** Daha sonra o, 1872-ci ildə **Londonda türkləri təhqir edən və onların siyasətini tənqid edən həftəlik siyasi qəzet olan "Al Sam**"ı nəşr etmişdir. 1876-cı il oktyabrın 19-da Londonda "Mirat Əl-Əhval" adı ilə həftəlik siyasi və etik qəzetini yenidən dərc etməyə başlamışdır. Bu dəfə o,

216 We attach great importance to cooperation with Syria, Armenian Prime Minister says, We attach great importance to cooperation with Syria, Armenian Prime Minister says – Syrian Arab News Agency, July 12, 2022

217 رزق الله حسون - Rizkallah bin Nimallah https://almoqtabas.com/ar/biographies/view/25965344409518633

qəzetdə ədəbi məqalələrini və mühüm xəbərləri ingilis dilinə tərcümə edərək nəşr etdirmişdir.[218]

1950-1960-cı illərin yeni siyasi ab-havası, 1951-ci ildə “İkinci Şişəkli” (General Ədib Şişəkli) çevrilişi, 1953-cü il etirazları, 1954 və 1961-ci il çevrilişləri erməni sənətçiləri və yazıçıları ilə bərabər jurnalistlərin də ölkəni tərk etmələrinə səbəb olmuşdur. 1950-ci illərin əvvəllərində Suriya erməni ədəbi dairələrinin Antranik Zarukyan, Vahe Vahiyan, Simon Simoniyan, Zareh Melkonyan, Karniq Attaryan kimi əksər aparıcı simaları Livana köçmüşdülər. Xüsusilə Suriyanın erməni icması üçün yeni ab-hava gətirən gündəlik siyasi qəzetlər bir-birinin ardınca sıradan çıxarılmışdır. **Onlardan sonuncusu olan Daşnaksütyun Partiyasının “Arevelk” qəzeti 1963-cü ilin martında, BƏƏS inqilabının bütün mövcud qəzetləri və dərgiləri sıxışdırdığı zaman qəfil bağlanmışdır.**

Hazırda Suriyada fəaliyyət göstərən **yeganə erməni media orqanı** “**Kantsasar”dır.**[219] 2011-ci ildən etibarən fəaliyyət göstərən bu mətbu orqanın adı **Azərbaycanın Ağdərə rayonunun Vəngli kəndində yerləşən Gəncəsər** (**Kantsasar) monastırının adından götürülmüşdür.** XIII əsrdə Qafqaz Albaniyası dövründə inşa edilən, habelə dini və mədəni mərkəz hesab edilən monastırı işğal zamanı ermənilər öz adlarına keçirmiş və Suriyada fəaliyyət göstərən mətbu orqanlarını bu adla adlandırmışdılar. “Kantsasar”ın baş redaktoru **Zarmik Pohikyan** adlı qadındır.

Monastırın divarlarında abidənin Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu Həsən Cəlaldövlə və anası Xorişah xatun tərəfindən 1216-1238-ci illərdə inşa edildiyi qeyd edilir.[220] 2012-ci ildə ermənilər bərpa adı ilə bu tarix-memarlıq abidəsinin divarlarının üzərini mərmər daşlarla bağlamağa başlamışdılar. Təmir işlərinin əsl məqsədi monastırın divarlarının üzərindəki yazıları bağlamaq və tarixi itirmək idi. Monastırın həyətində aparılan tikinti işləri isə tarixi abidənin əzəli görkəminə zərər vurmuşdur.[221]

---

218 الموسوعة التاريخية لأعلام حلب - (Hələbin tanınmış simalarının tarixi ensiklopediyası), 23 sentyabr 2018

219 Գանձասար – Armenian Weekly News (kantsasar.com) – mətbu orqanın internet ünvanı

220 Qarabağın dövlət əhəmiyyətli abidələrinin elektron xəritəsi (virtualkarabakh.az)

221 Erməni vandalizminin qurbanı olan Gəncəsər monastırı (copat.gov.az)

## Erməni icmasının Suriya iqtisadiyyatında fəaliyyəti

Suriya xristianları icması XX əsrin əvvəllərindən geniş torpaq sahibləri və iqtisadi investorlar olmuşdular. XX əsrin ortalarında isə xarici ticarət agentliklərinin 75 faizi xristianların nəzarətində cəmləşmişdi. Lakin 8 mart inqilabından sonra siyasət sosialist xəttinə yönəlmiş, bu da sahibkarların şəxsi mülkiyyətlərinin əllərindən alınması və bazarda fərdi təşəbbüslərə son qoyulması ilə nəticələnmişdir. Bu dəyişikliklər ölkənin sahibkar təbəqəsinin mühacirət etməsinə səbəb olmuş və onların ilk üz tutduqları ölkə Livan olmuşdur.

Suriyanın erməni icması 2011-ci il müharibəsindən əvvəl ölkədə ciddi iqtisadi potensiala malik idilər. Müharibə dövründə şəhərlərin infrastrukturunun, zavodların, kiçik və orta iaşə obyektlərinin dağıdılması iqtisadi fəallığın qarşısını almış, kiçik və iri sahibkarların işlərinin iflasa uğramasına səbəb olmuşdur.

Ölkədaxili müharibədən sonra Suriyadan Ermənistana 22 mindən çox miqrant gəlmişdir. Bu miqrantların əksəriyyəti yeni mühitdə öz bizneslərini quraraq, xüsusilə restoran və kafe sektorunda fəaliyyət göstərmiş, bir qismi isə geyim sənayesi ilə məşğul olmuşdur. Hələbdə həmçinin onların istehsal etdikləri geyim məhsullarını satışa çıxarmaq üçün bazar fəaliyyətə başlamışdı.

**Aleksan Karadanyan** köçdən əvvəl Hələbdə çap işləri ilə məşğul olmuşdur. Ermənistana gəldikdən sonra isə «Sona-Print LLC» şirkətinin direktoru kimi fəaliyyətini davam etdirmişdir.

Digər Hələb erməniləri - Aoniq Qarjiqian və Yeran Balmanukyan isə İrəvanın mərkəzində restoran biznesi qurublar.[222]

Lakin Ermənistanda özlərinə yaxşı şərait quran Suriya ermənilərinin sayları çoxluq təşkil etmir. Onların əksəriyyəti Ermənistandakı həyatlarının Suriyaya nisbətdə təhlükəsiz olduğunu desələr də, maddi sıxıntılarla üz-üzə qaldıqlarını açıq şəkildə bildirirlər: *"Suriyada bu qədər səy göstərsəydik, artıq milyonçu olardıq və hər şeyimiz olardı. Suriyada yaşasaydıq sərvət qazanardıq, burada isə sadəcə sağ qalmaq üçün çalışırıq".*[223]

222 The boom of Syrian-Armenian business - the stories of four immigrants in Armenia, The boom of Syrian-Armenian business - the stories of four immigrants in Armenia - JAMnews, January 12, 2019
223 Yenə orada

2016-cı ildə Ermənistanda təşkil edilmiş yarmarkada Suriyadan olan etnik erməni qaçqınları tərəfindən yaradılmış onlarla firma öz məhsul və xidmətlərini nümayiş etdirmişdir. Sərgi Suriya ermənilərinin və Ermənistandakı digər şirkətlərin Suriya erməni biznesləri üçün aktual olan mövcud müəssisələrinin məhsul və xidmətlərini tanıtmağa kömək məqsədi daşıyırdı. Sərginin açılış mərasimində Ermənistanın ozamankı Prezidenti Serj Sarkisyan iştirak edərək, Suriya ermənilərinə məxsus 60-a yaxın kiçik şirkətin nümayiş etdirdiyi məhsullarla tanış olmuşdu.

Ermənistan hökuməti həmçinin biznes dəstəyi məqsədi ilə yerli kommersiya banklarının Suriya ermənilərinə verdiyi biznes kreditlərini subsidiyalaşdırmaqla sahibkarlığı təşviq etmək üçün bir sıra dəstək tədbirləri həyata keçirmişdir. Bu dəstək çərçivəsində Suriya ermənilərinə verilən kreditlərə güzəştli dörd faiz dərəcəsi tətbiq olunmuşdur. Bundan əlavə, digər bank müştərilərinin əksəriyyətindən fərqli olaraq, Suriya ermənilərinə girov təqdim etmək məcburiyyəti qoyulmamışdır.

Ermənistan hökuməti suriyalı qaçqınlara hər cür imtiyazın verildiyini və gəlmək istəyən qaçqınların yaşamaq üçün yerlə təmin ediləcəyini bəyan etmişdir. Lakin Ermənistana yerləşmiş Suriya qaçqınlarının yaşam və iş şəraitinin çətinlikləri ilə bağlı narazılıqları davam etməkdədir. Bu, hökumətin təqdim etdiyi dəstək tədbirlərinin real həyat şəraitində qaçqınların qarşılaşdıqları çətinlikləri tamamilə həll etmədiyini göstərmişdir. Hraç Apujiyan adlı Suriya ermənisi “Azadlıq” radiosuna müsahibəsində (Azatutyun.am) bildirmişdir: *“Suriyada hər şeyə sahib idik, kirayə pulu ödəməli deyildik. Burada isə yer icarəyə götürməliyik, kommunal xidmətlər üçün daha çox pul ödəməliyik. Ona görə də burada işlər daha çətindir”*.

## Erməni icmasının Suriyanın mədəni həyatında fəaliyyəti

Qeyd edildiyi kimi, erməni təşkilatlarının və mədəniyyət ocaqlarının əksəriyyəti Hələb şəhərində yerləşir. Bu təşkilatlar mədəniyyət, idman, gənclər və ya xeyriyyə birlikləri şəklində fəaliyyət göstərir. Suriya ermənilərinin ölkədə mədəniyyət sahəsindəki fəaliyyətlərinin bir parçası olaraq, “soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə” bir neçə abidə inşa edilmişdir:

- 1990-cı ildə Suriyanın Deyr Əz-Zor bölgəsində inşa edilmiş **“Erməni Soyqırımı Memorial Kompleksi”;**

- 1991-ci ildə Hələbdə inşa edilmiş **"Qırx şəhidlər" kafedralının həyətində divara bərkidilmiş abidə.** Abidə üzərindəki yazı ərəb və erməni dillərindədir; [224]
- 1999-cu ildə Margadeh kəndində tikilən **"Müqəddəs diriliş" kilsəsi**

Suriyada kifayət qədər yaxşı reputasiyaya sahib olan ermənilər ölkə mədəniyyətinin inkişafında mühüm rol oynayıblar. Ərəb peşəkar teatrının yaradıcılarından biri olan və ərəb publisistikasının banilərindən hesab edilən **Ədib İsak** (1856-1882) və **Rizkallah Qasunun** (1823-1880) adlarını məşhur Suriya erməniləri arasında xüsusi qeyd etmək olar.

Suriya Simfonik Orkestrinin dirijoru və Suriya Milli Simfonik Orkestrinin rəhbəri **Misak Baqbudaryan** Suriya ermənisidir. O, Türkiyə daxil olmaqla, Livan, İordaniya, BƏƏ, Oman Sultanlığı, İtaliya və Bəhreyndə konsertlər vermişdir. Həmin konsertlərdə onunla birgə digər həmvətənləri olan Armin Babaxaniyan, Daniyel Giorgi, Bassam Naşavati, Gloria Skalki, Rikardo Sandiford, Muslim Rahal, Firas Şaristan, Məhəmməd Otman, Labana Kuntar və Talar Dakarmanjyan çıxış etmişdilər.

**Misak Baqbudaryan 2010-cu ildə İtaliya Respublikasının Prezidenti tərəfindən ölkənin ən yüksək mükafatlarından hesab edilən İtaliya Respublikasının dövlət mükafatına - "İtalyan Həmrəyliyi Ulduzu" ordeninə layiq görülmüşdür.**[225]

M.Baqbudaryan Livanda fəaliyyət göstərən erməni mətbu orqanı olan "Aztag Arabic"ə verdiyi müsahibədə demişdir: *"Erməni musiqisi qanun, buzuq və zurna kimi bəzi xalq çalğı alətlərindən istifadə etməklə digər Qafqaz xalqları ilə birgə iştirak edir.* ***Erməni musiqisi ərik ağacından hazırlanmış nəfəs aləti olan duduka xasdır*** *və ifaçı qoşa mizraqdan istifadə edir. Digər nəfəs alətləri Qafqaz xalqlarının birgə musiqi alətləri olsa da, duduk ermənilərə məxsusdur".*[226]

---

224 Armenian Genocide Monument in Aleppo, Syria, Armenian Genocide Memorial Monuments - United Armenian Council for the Commemoration of the Armenian Genocide - Los Angeles (uacla.com)

225 ضيف العدد الموسيقار السوري ميساك باغبودريان – (Suriya musiqiçisi Misak Baqbudaryan), 09 iyul 2010, ضيف العدد الموسيقار السوري ميساك باغبودريان | ملحق أزتاك العربي للشؤون الأرمني (archive.org)

226 ضيف العدد الموسيقار السوري ميساك باغبودريان - (Bu buraxılışın qonağı suriyalı musiqiçi Misak Bagbudaryandır), https://aztagarabic.com/archives/1237

Suriya erməniləri ölkədə ədəbiyyat sahəsində də fəaliyyətlərini davam etdirirlər. Hazırda Suriya Yazıçılar Birliyinin üç erməni üzvü var: Nora Arisyan, Aleksandr Keşişyan, Qraç Kalsahakyan.

## Suriya-Ermənistan əlaqələri

Suriya və Ermənistan dövlət başçıları arasında siyasi təmaslar ötən əsrin 70-ci illərinə təsadüf edir. Həmin dövrdə Suriyanın ozamankı Prezidenti Hafiz Əsəd Ermənistana rəsmi səfər etmiş və səfər çərçivəsində verdiyi açıqlamada: "***Suriya ermənilərin ikinci vətənidir"*** – ifadəsi ilə əlaqələrə xüsusi məna yüklənmişdir.[227]

Ermənistan 1991-ci il sentyabrın 21-də müstəqilliyini elan etdikdən sonra, 1991-ci il dekabrın 28-də Suriya tərəfindən rəsmi olaraq tanınmışdır. Bunun ardınca, 1992-ci il martın 6-da Dəməşqdə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına dair müqavilə imzalanmışdır. Bu tarixdən etibarən Suriya və Ermənistan arasında əməkdaşlığın müxtəlif sahələrini əhatə edən **40-dan çox anlaşma memorandumu** imzalanmışdır. Eyni zamanda, Suriya qondarma "erməni soyqırımı"nı tanıyan iki ərəb ölkəsindən biridir.[228]

Münasibətlərin inkişafı fonunda, 2000-ci ildə Ermənistanın sabiq Prezidenti Robert Köçəryan və bütün ermənilərin katolikosu II Qareginin dəstəyi və himayəsi ilə İrəvan gölünün sahilində abidə kompleksi ucaldılmışdır. Bu abidə kompleksi erməniləri öz vətənlərində isti qarşıladıqlarına görə Hələb əhalisinə minnətdarlıq əlaməti olaraq inşa edilmişdir. Kompleksin açılış mərasimində Dəməşqin erməni icmasının rəhbəri Qnel Ceredjyan Suriya xalqına müraciət edərək bildirmişdir: *"1915-ci ildə ermənilərin qırğına məruz qaldıqları zaman Suriyaya gələrək, burada şəhər və qəsəbələrdə məskunlaşmaları ilk növbədə səxavətli Suriya xalqının dəstəyi ilə bağlı olmuşdur. O zaman Hələb ayaqyalın ermənilərin keçid məntəqəsi olaraq məskunlaşdıqları məntəqə idi. Əgər həmin vaxt ermənilər Suriyaya sığınmasaydılar, onların sağ qalmalarını təsəvvür etmək çətin olardı. Dirçələn və ayağa qalxan erməni xalqı ərəb ölkələrinin köməyini yüksək qiymətləndirir və bunu heç vaxt unutmayacaq"*.

227 Пресс-конференция Президента Сержа Саргсяна и Президента Сирии Башара Аль-Асада, 17 июнь 2009, https://www.president.am/ru/interviews-and-press-conferences/item/2009/06/17/news-29/
228 Syria parliament recognises Armenian genocide, February 13, 2020, https://www.france24.com/en/20200213-syria-parliament-recognises-armenian-genocide

İki ölkə arasında ənənəvi siyasi əlaqələr Suriyanın devrilmiş Prezidenti Bəşər Əsədin dövründə yüksək səviyyəyə çatmışdır. Bu dövr ərzində iki ölkə arasında qarşılıqlı təmaslar və diplomatik münasibətlər dərinləşmişdir. Ermənistan Suriyada vətəndaş müharibəsinin alovlandığı dövrdə belə B.Əsədin rejimi ilə diplomatik əlaqələri kəsməyən azsaylı ölkələrdən biri olmuş, Dəməşq və Hələbdə diplomatik nümayəndəlikləri fəaliyyətlərini davam etdirmişdir.

Suriya və Ermənistan dövlət başçıları arasında növbəti görüşlərdən biri 2009-cu ildə B.Əsədin Ermənistana rəsmi səfəri əsnasında baş tutmuşdur. Həmin görüşün diqqətçəkən məqamlarından biri Bəşər Əsədin Ermənistana Türkiyə ilə əlaqələrin tənzimlənməsinə dair vasitəçilik etməyə hazır olduğunu bildirməsi idi. O zaman B.Əsəd Türkiyə-Ermənistan münasibətlərində vasitəçi rolunu təklif etmiş, Türkiyənin ozamankı xarici siyasət doktrinası olan ***“qonşularla sıfır problem”*** konsepsiyasına istinad etmişdir.[229] Serj Sarkisyan isə cavabında bildirmişdir: ***“Siz türkləri yaxşı tanımırsınız. Vaxt gələcək və biz nəticələrə görə hökm verəcəyik”***.

Bu haqda 2008-ci ildən Ermənistan prezidentinin mətbuat katibi işləmiş Samvel Farmanyan öz müsahibəsində qeyd etmişdir. 2014-cü ildə Suriyada vətəndaş müharibəsi və siyasi xaosun davam etdiyi vaxtda Ermənistan parlamentinin üzvü kimi Dəməşqə səfər edən nümayəndə heyətinə rəhbərlik edən S.Farmanyan B.Əsədlə görüşmüşdür. Görüş çərçivəsində B.Əsəd 5 il öncəki səfərə qayıdaraq demişdir: ***“İrəvandakı söhbətimizi çox yaxşı xatırlayıram. Cənab prezidentə deyin ki, o, haqlı idi, biz türkləri yaxşı tanımırdıq”***.[230]

Bu müsahibəsini 2024-cü il dekabrın 8-də verən S.Farmanyan Suriyada B.Əsəd rejiminin dağılmasını on il öncə ilə müqayisə edərək hər iki böhranda Türkiyənin rolunun olduğunu bildirmişdir.[231]

İkitərəfli əlaqələr xüsusən B.Əsəd və Ermənistanın Baş naziri Nikol Paşinyan arasındakı dostluq münasibətləri fonunda yeni bir mərhələyə daxil olmuşdur. Bu yaxınlaşma Suriya Xalq Məclisinin 2020-ci ildə qondarma “erməni soyqırımı”nı rəsmən tanıması ilə daha da dərinləşmişdir. 2022-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin

229 Yenə orada

230 Самвел Фарманян: «Серж Саргсян был прав, Асад ошибся», 11 июнь 2025, https://www.armenianreport.com/ru/pubs/404630/

231 Assad Naively Trusted Erdogan Until he Got Stabbed in the Back — By Harut Sassounian, December 16, 2025, https://www.thecaliforniacourier.com/assad-naively-trusted-erdogan-until-he-got-stabbed-in-the-back-by-harut-sassounian/

qurulmasının 30 illiyi münasibətilə genişmiqyaslı tədbirlərin təşkili də bu münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini nümayiş etdirmişdir. N.Paşinyan və B.Əsəd arasında formalaşan intensiv siyasi dialoq hərbi və humanitar sahələrdə atılan konkret addımlarla da müşayiət olunmuşdur. Belə ki, 2019-cu ildə Ermənistan 83 nəfərdən ibarət hərbi kontingenti "humanitar missiya" adı altında Suriyanın Hələb şəhərinə göndərmişdir. Bu təşəbbüs əsasən Rusiyanın təşviqi ilə həyata keçirilmiş, missiya çərçivəsində İrəvandan minatəmizləmə mütəxəssisləri, hərbi tibb heyəti və onların təhlükəsizliyini təmin edən hərbçilər bölgəyə ezam olunmuşdur. Ermənistan Respublikası Müdafiə Nazirliyinin verdiyi rəsmi məlumata görə, missiyanın məqsədi Hələb şəhərində minalardan təmizləmə işləri aparmaq və humanitar yardıma ehtiyac duyan əhaliyə dəstək göstərmək olmuşdur. Bu "humanitar" missiya 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı və ondan sonrakı dövrdə belə fəaliyyətini dayandırmamışdır. [232]

Lakin 2024-cü ilin noyabr ayında Suriyada müxalif qüvvələrin ölkənin şimal istiqamətinə irəliləyişi və şəhərə daxil olmalarından sonra erməni hərbçilərdən ibarət kontingent şəhərdən geri çəkməyə başlamışdır. Bu haqda Ermənistanın Müdafiə Nazirliyinin 30 noyabr tarixli bəyanatında deyilir: *"Son günlər Suriya Ərəb Respublikasının bir sıra bölgələrində əməliyyat şəraiti əhəmiyyətli dərəcədə pisləşmiş və bunun nəticəsində fəal hərbi əməliyyatlar başlamışdır. Bu gərginlik 2019-cu ildən bəri Hələb bölgəsində fəaliyyət göstərən Ermənistanın humanitar minatəmizləmə və tibbi yardım qrupunun öz missiyasını davam etdirməsini qeyri-mümkün etmişdir. Baş verən hadisələri nəzərə alaraq, Hələb şəhərində qrupun fəaliyyətinin müvəqqəti dayandırılması barədə qərar qəbul edilmişdir. Noyabrın 29-da gecə saatlarında humanitar minatəmizləmə və tibbi yardım qrupunun bütün heyəti Ermənistan Respublikasının Müdafiə Nazirliyinə məxsus hərbi-nəqliyyat təyyarəsi ilə Ermənistana qayıtmışdır."*[233]

Lakin qeyd etmək lazımdır ki, N.Paşinyanın keçmiş B.Əsəd rejiminə göstərdiyi dəstək onun demokratiya və insan hüquqları sahəsindəki ritorikası ilə ciddi ziddiyyət təşkil edirdi. Belə ki, 2021-ci ildə Suriyada keçirilən prezident seçkilərinin dünyada çoxsaylı ölkələr tərəfindən legitimliyinin tanınmadığı bir dövrdə N.Paşinyan B.Əsədin ölkə prezidenti seçilməsini təbrik etmişdir.

---

232 Armenia Evacuates Military Personnel From Syria, November 30, 2024, https://www.azatutyun.am/a/33221605.html

233 The entire personnel of the humanitarian demining and medical team has returned to Armenia, November 30, 2024, https://www.mil.am/en/news/12511

2018-ci ildə hakimiyyətə gələndən sonra N.Paşinyan demokratiya, insan hüquqları və Avropa ilə yaxınlaşma istiqamətində islahatlar vəd etsə də, Suriyada minlərlə insanın ölümünə, humanitar böhrana və milyonlarla insanın qaçqın vəziyyətinə düşməsinə səbəb olan Əsəd rejiminə dəstəyi bu prinsiplərlə üst-üstə düşməmişdir.

## Bəşər Əsəd dövründə Suriyanın antitürk mövqeyi

2014-cü il oktyabrın 9-da Dəməşqdəki Müqəddəs Sarkis kilsəsində Dəməşq Erməni Yeparxiyasının primatının himayəsi və Dəməşqin 100-cü Orqanının təşəbbüsü ilə **“2015: “Erməni soyqırım”ının 100-cü ildönümü”** kitabının təqdimatı keçirilmişdir.

Təqdimatda Ermənistanın Suriyadakı keçmiş səfiri Arşak Poladyan[234] da iştirak etmiş və ərəb yazıçısının gördüyü işləri dəyərləndirərək demişdir: “*Samir Arpaş bu kitabı nəşr etməklə indi də inkar edilən ədalətli məsələ ilə bağlı böyük insani iş görüb. Bu məsələ ən prioritet məsələdir.*”[235]

2015-ci ildə Suriya parlamentinin qondarma “erməni soyqırımı”nın 100 illik yubileyinə həsr olunmuş xüsusi iclası keçirilmişdir. İclası açıq elan edən Suriya Xalq Şurasının sədri demişdir: “*Bu günlər Osmanlının dost erməni xalqına qarşı törətdiyi “erməni soyqırım”ının 100-cü ildönümünə təsadüf edir. Bununla bağlı biz dost erməni xalqımızla, eləcə də 100 il əvvəl Osmanlı hakimiyyət orqanları tərəfindən dəhşətli soyqırıma məruz qalmış soydaşlarımız olan Suriya erməniləri ilə tam həmrəy olduğumuzu bildiririk. Bu gün biz tarixə məlum olan ən dəhşətli və faciəvi xatirəni yad edirik. Biz beynəlxalq ictimaiyyəti və bütün dünya xalqlarını bəşəriyyətə, sivilizasiyaya və tarixə qarşı törədilən digər cinayətlərin qarşısını almaq üçün Yaxın Şərqi təhdid edən qatillərə, cəlladlara və terrorizmə qarşı toplanmağa çağırırıq*”.[236]

---

234 1950-ci ildə Suriyada dünyaya gələn Arşak Poladyan 2007-2018-ci illərdə Ermənistanın Suriyadakı səfiri olub. 2019-cu ilin noyabrın 13-də Ermənistanın Tunisdə, noyabrın 29-da həmçinin Mərakeş Krallığındakı səfiri təyin edilib. Poladyan 2002-2007-ci illərdə Ermənistanın Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və Bəhreyndəki səfiri vəzifəsində çalışıb.

235 Арабский писатель издал книгу «2015: 100-летие Геноцида армян» | Центр поддержки русско-армянских стратегических и общественных инициатив (russia-armenia.info) 23 октябрь, 2014

236 В парламенте Сирии почтили память жертв Геноцида армян в Османской Турции — EADaily, (18 марта 2015) — Новости политики, Новости Большого Кавказа

2018-ci ildə Dəməşqin “Four Seasons” otelində Ermənistan Respublikasının Dəməşqdəki səfiri Arşak Poladyanla Suriya Ərəb Respublikasında səfir vəzifəsinin başa çatması münasibətilə vida mərasimi keçirilmişdir. Mərasimdə A. Poladyan iki dost ölkə arasında əlaqələrə verdiyi töhfəyə görə ölkənin keçmiş Prezidenti Bəşər Əsəd tərəfindən Suriyanın “Əla dərəcəli xidmətə görə” ordeni ilə təltif edilmişdir.[237]

A.Poladyandan sonra, 2018-ci ilin dekabr ayından 2024-cü ilin oktyabr ayına kimi Ermənistanın Dəməşqdəki səfiri vəzifəsini Tiqran Kevorkyan icra etmişdir. Xələfi kimi T.Kevorkyan da səlahiyyət müddətinin başa çatması münasibətilə 2024-cü il oktyabrın 27-də B.Əsəd tərəfindən Suriyanın “Əla dərəcəli xidmətə görə” ordeni ilə təltif edilmişdir.[238] T.Kevorkyan 2025-ci ilin yanvar ayından etibarən Ermənistanın Qətərdə səfiridir.[239]

Ermənistanın Suriyadakı keçmiş səfiri Arşak Poladyan 2018-ci ildə qondarma "erməni soyqırımı"nın ildönümü ilə bağlı verdiyi müsahibəsində tarixin təkrarlandığını və türklərin bu gün də Suriya xalqına qarşı törətdikləri “amansızlığın” onların keçmişdə erməni xalqına qarşı törətdiklərinin davamı olduğunu qeyd etmişdir. O, “erməni soyqırımı”ndan 103 il keçməsinə baxmayaraq, erməni xalqının hələ də öz hüquqlarını və “oğurlanmış” ərazilərini bərpa etmək üçün mübarizə apardığını qeyd etmiş və ermənilərlə bağlı məsələnin beynəlxalq forumlarda təqdim olunduğunu, erməni xalqının məruz qaldığı “soyqırım”ın tanınması, eləcə də pislənməsi istiqamətində israrın davam etdiyini bildimişdir.

A.Poladyan erməni “faciə”sinin Anadoludan Asiyanın ən şərq hissəsinə qədər genişlənmək istəyən türk imperiyası qurma meylinin nəticəsi olaraq, bir xalqın tamamilə məhv edilməsini, onun irsinin və sivilizasiyasının silinməsini cinayət kimi dəyərləndirmişdir.

---

237 سورية تودع السفير الأرميني وتمنحه وسام الاستحقاق السوري من الدرجة الممتازة - (Suriya Ermənistan səfiri ilə vidalaşıb və onu Suriyanın “Əla dərəcəli xidmətlərinə görə” ordeni ilə təltif edib), 15 noyabr 2018, https://aztagarabic.com/archives/25754

238 الرئيس الأسد يمنح سفير أرمينيا في سورية وسام الاستحقاق من الدرجة الممتازة - (Prezident Əsəd Ermənistanın Suriyadakı səfirini “Əla dərəcəli xidmətlərinə görə” ordeni ilə təltif edib), 27 oktyabr 2025, https://www.sana.sy/?p=2157990

239 السفير الأرميني ديكران كيفوركيان يقدم أوراق اعتماده إلى أمير دولة قطر - (Ermənistanın səfiri Tikran Kevorkyan etimadnaməsini Qətər əmirinə təqdim edib), https://ar.armradio.am/2025/01/30/%D8%A7%D9%84%D8%B3%D9%81%D9%8A%D8%B1-%D8%A7%D9%84%D8%A3%D8%B1%D9%85%D9%8A%D9%86%D9%8A-%D8%AF%D9%8A%D9%83%D8%B1%D8%A7%D9%86-%D9%83%D9%8A%D9%81%D9%88%D8%B1%D9%83%D9%8A%D8%A7%D9%86-%D9%8A%D9%82%D8%AF/

Qeyd edək ki, A.Poladyan həmçinin "Osmanlı imperiyasında törədilən "erməni soyqırımı"na Qərb şahidliyi"[240], Ermənistanın müstəqillik qazanmasının 25-ci ildönümünə həsr edilmiş "Ermənistanın keçmişi və bu günü"[241] və "VII əsrdən X əsrə kimi kürdlər"[242] kitablarının müəllifidir.

## Suriyada vətəndaş müharibəsinin erməni icmasına təsirləri

Suriya böhranı ərzində ən çox itkini Hələbin erməni icması vermişdir. Böhrandan əvvəl Hələbin erməni əhalisinin sayı 50 min nəfərə yaxın olmuş, şəhərin azad edilməsindən sonra onların sayı 8-10 minə kimi aşağı düşmüşdür. 2016-cı ilin dekabrında Hələbin azad edilməsindən sonra Suriya erməniləri üçün böhranın ən qaynar mərhələsi başa çatmış, müharibənin fəsadlarının aradan qaldırılması dövrü başlamışdır.

Suriya müharibəsindən sonrakı dövrün çətinliklərini aradan qaldırmaqda Hələb ermənilərinə Ermənistan və digər diaspor icmaları köməklik göstərmişdir. Xüsusilə, Hələbin azad edilməsindən sonra Ermənistan Respublikası Suriyaya bir neçə dəfə humanitar yardım göndərmiş və onun bir hissəsi erməni icmasına yönəlmişdir. Bu yardımlar ərzaq, geyim, dərman və digər zəruri malları əhatə etmişdir.

Diasporun Hələb ermənilərinə göstərdiyi dəstək baxımından ABŞ-də yaradılmış Suriya Ermənilərinə Yardım Fondunun fəaliyyətləri xüsusi əhəmiyyət daşımışdır. 2022-ci ilin yanvarında Fond Suriya ermənilərinə 175 min ABŞ dolları məbləğində dəstək vermişdir. Bu, əsasən Ermənistanın sahibkarlıq subyektləri institutlarının (emalatxanaların və s.) bərpasına və təhsil problemlərinin həllinə yönəlmişdir. Ermənistandan gələn yardım Suriya ermənilərinin ilkin ehtiyaclarını ödəmək məqsədi daşımış, diasporun yardımı isə əsasən erməni icmasının infrastrukturunun bərpasına yönəlmişdir.

Suriya böhranından təsirlənən erməni icmalarının ən çox sıxlaşdığı bölgələrdən biri 2014-cü ilin martında hücuma məruz qalan Kasab bölgəsi idi. Hücum nəticəsində erməni əhalisi şəhəri tamamilə tərk

---

240 شهادات غربية عن الإبادة الأرمنية ... أرشاك بولاديان يكشف التآمر الدولي على قضية الأرمن ويسجل كفاح شعبه (alazmenah.com) - ("Erməni soyqırımı"na Qərbin şahidliyi), 08 iyun 2016

241 أرمينيا ماضياً وحاضراً ... كتاب يؤرخ للعلاقات العربية الأرمنية لأرشاك بولاديان – S A N A - ( Keçmiş və indiki Ermənistan... Arşak Poladyanın ərəb-erməni münasibətlərini əks etdirən kitabı), 03 oktyabr 2016

242 كوردييێديا - كوردیپیدیا بەرفرەهترین ژێدەرێ زانیارییێن كوردییە! (kurdipedia.org) - "VII əsrdən X əsrə kimi kürdlər" kitabı (nəşr ili 2013)

etməyə məcbur olmuşdu. Üç aydan sonra Suriya hökumət qüvvələri şəhəri azad etməyə müvəffəq olmuş, şəhəri tərk edən ermənilər tədricən geri qayıtmağa başlamışdılar.

Suriyanın erməni icmasının daha sıx yaşadığı bölgələrdən biri olan **Deyr Əz-Zor** vilayətinin işğalından və Erməni Müqəddəs Şəhidlər kilsəsinin bombalanmasından sonra demək olar ki, bütün yerli ermənilər buranı tərk etmişdilər. Ərazi sonradan azad edilsə də, ermənilərin buraya qayıtmaları barədə heç bir məlumat verilməmiş, kilsə isə bərpa edilməmişdir.

Suriya ermənilərinin sıx məskunlaşdıqları Dəməşq, Hüms, Əl-Laziqiyyə, Əl-Qamışlı şəhərləri ağır və uzun sürən hərbi əməliyyatların şahidi olmamış, buna görə də bu bölgələrin erməni icması ciddi zərərlər görməmişdir. Eyni zamanda, Suriya müharibəsinin ağır təsirləri qarşısında ölkədəki erməni icmasının təşkilati strukturları (kilsə, partiya, informasiya, təhsil, idman, mədəniyyət və digər qurumlar) öz fəaliyyətlərini davam etdirmişdilər.

**Suriya erməniləri dövlət tərəfindən ayrı icma və ya milli azlıq statusunda saxlanılmaqdadır.** Bunu ermənilərin Suriyanın qanunverici orqanına ayrıca icmanın nümayəndələri kimi cəlb edilmələrində, eləcə də mərkəzi və rayon hakimiyyət orqanlarının aparıcı icma strukturları ilə təmaslarında görmək olar.

Suriya ermənilərinin marağında olan digər məsələ müharibədən sonrakı dövrdə **Suriya dövlətinin qurulması prosesində iştirak etmək idi.** Belə ki, 2018-ci ilin yanvar ayında Soçidə Suriya forumunda erməni icmasının on nəfərə yaxın nümayəndəsi və din xadimi iştirak etmişdir. Bu həm də Suriyanın keçmiş hökumətinin ölkənin daxilindəki erməni icmasına göstərdiyi diqqətin sübutu idi. Forumun əsas məqsədi Suriyanın yeni konstitusiyasının müzakirəsi idi. Bu faktor təkcə erməni icmasının siyasi faktoruna dəlalət etməmiş, həm də onun ayrı bir icma və ya milli azlıq kimi qəbul edilməsini göstərmişdir. Suriyanın keçmiş hökumətinin digər dəstəyini **Türkiyənin Əfrindəki hərbi əməliyyatlarına qarşı 2018-ci ildə "Hay dat" komissiyası tərəfindən təşkil edilən etiraz aksiyalarından sezmək olardı.** Belə ki, həmin etiraz aksiyalarında Suriya erməniləri ilə birgə digər millətlərin nümayəndələri - ərəblər, assuriyalılar və yunanlar da iştirak etmişdilər.

Qeyd edək ki, 24 aprel 2019-cu il tarixində Suriyada YPG, PYD və PKK terror qruplaşmaları tərəfindən yaradılan Suriya Demokratik Qüvvələrinin tərkibində **ilk erməni silahlı batalyonu da var idi.** Briqada

İŞİD-ə qarşı döyüşlərdə öldürülən YPG komandiri Nubar Ozanyanın (Orhan Bakirciyan) adını daşıyır. Həmçinin **briqadanın yaradılması aprelin 24-də qondarma qondarma "erməni soyqırım"ının başlanmasının 104-cü ildönümündə elan olunmuşdur.**

## Suriyada Bəşər Əsəd hökumətinin devrilməsinin ölkənin erməni icmasına təsirləri

2024-cü il dekabrın 8-də Bəşər Əsəd hökumətinin devrilməsindən sonra ölkədəki erməni icması iki mühüm sual qarşısında qaldı: birincisi, icmanın təhlükəsizliyinin təminatı; ikincisi, yeni yaradılan hökumətin ölkənin erməni icmasının həm dini, həm də mədəni hüquqlarına necə yanaşacağı məsələsi idi.

Hökumətin devrilməsindən 2 gün sonra Suriyada fəaliyyət göstərən "Kantsasar" (Gəncəsər) həftəlik erməni qəzetinin redaktoru Zarmik Pohikyan erməni icmasının vəziyyəti haqqında açıqlama vermişdir. O, Hələb şəhərində vəziyyətin sabit olduğunu və ölkədə keçid hökumətinin qurulmasının gözləntisində olduqlarını bildirmişdir. Lakin o, ölkədəki ən böyük çətinliyin iqtisadi vəziyyətlə bağlı olduğunu və erməni icmasının rifahını təmin etmək üçün müxtəlif icma liderləri və təşkilatları ilə əməkdaşlıq etdiklərini qeyd etmişdir.

Z. Pohikyan 2024-cü ilin dekabr ayının əvvəlində Latakiya şəhərində qeyri-sabit vəziyyət səbəbindən 30 ailənin şəxsi avtomobilləri ilə Latakiyadan Hələbə qayıtdığını bildirmişdir. Dəməşqə gəlincə, hökumətin devrilməsinin ilk günlərində ölkədə idarəolunmaz vəziyyət mövcud olsa da, sonradan şəhərdə sakitliyin təmin edildiyini qeyd etmişdir. [243]

Suriyada hökumətin devrilməsindən 3 ay sonra, 2025-ci ilin mart ayında amerikalı jurnalist Taker Karlsonun yaydığı açıqlama diqqət çəkdi. Jurnalist "X" sosial şəbəkəsi üzərindən yaydığı açıqlamada Suriyada B.Əsəd rejiminin devrilməsindən sonra ölkə xristianlarının təhlükə altında olduğunu bildirdi. O, Əsədin vətəndaş müharibəsi dövründə Suriyadakı dini azlıqları, o cümlədən xristianları qorumaqda mühüm rol oynadığını vurğulamışdır. Suriyada xristian əhalisinin sayının onilliklər ərzində ciddi şəkildə azalmasına rəğmən, Əsədin bu icmaların təhlükəsizliyini təmin etməkdə rolunun böyük olduğunu əlavə etmişdir. T.Karlson açıqlamasında bildirmişdir: *"Qərbdəki neokonlar*

243 https://ok.ru/hgghthfdghrhbv/topic/157479104292212, December 08, 2024

*Əsədə qarşı müharibəni dəstəklədikləri illər ərzində Suriyadakı xristianların sayı on faizdən iki faizə düşdü. İndi Əsəd hakimiyyətdən devrilib, qalan suriyalı xristianların çoxu kütləvi şəkildə qətlə yetirilir və onların müqəddəs yerləri təhqir olunur”.*[244]

2011-ci ildə Suriyada başlayan daxili müharibə ərəfəsində ölkədə təxminən 109 min erməni yaşayırdı. Həmin illər ərzində Ermənistan Suriya erməni icmalarına dəstəyini davam etdirərək, onların qorunmasını təmin etməyə çalışmışdır. Bu dəstək yalnız hərbi və humanitar yardımlarla məhdudlaşmırdı. Eyni zamanda, Ermənistanın siyasi elitası, xüsusən də Paşinyan hökuməti Bəşər Əsəd rejimi ilə dostluq əlaqələri qurmuş və bu münasibətlər hər iki ölkə üçün strateji səviyyəyə yüksəlmişdir. Bu ikitərəfli əlaqələr Ermənistanın daxili siyasəti ilə yanaşı, bölgədə güclü siyasi əlaqələrin yaradılmasında mühüm rol oynamışdır.

Əsas strateji müttəfiqlərindən biri olan Əsəd rejiminin süqutu Ermənistanın bu bölgədəki mövqeyinin zəiflədiyini deməyə əsas verir. Ermənistanın Suriya erməni icması ilə olan əlaqələri, xüsusilə “Daşnaksütyun” və “Hınçak” partiyaları ilə sıx bağlar qurması bu icmaların Suriya daxilindəki gücünü və mövqeyini təsir altına almışdır. Bu partiyalar Əsəd rejimi ilə sıx əməkdaşlıq etməklə yanaşı, Suriyadakı erməni icmasında təsirli rola sahib olmuşdular. Beləliklə, Əsəd rejiminin devrilməsi ilə Ermənistanın öz yaxın müttəfiqini, Suriyada yaşayan erməni icmasının isə öz “müdafiəçi”sini itirdiyini söyləmək olar.

## Nəticə

Suriyada yaşayan erməni icması uzun illər ərzində həm sosial, həm də siyasi sahədə ölkənin ən təşkilatlanmış azlıqlarından biri hesab edilirdi. Xüsusilə XX əsrin əvvəllərindən etibarən Suriya erməniləri ölkənin ictimai-siyasi həyatında fəal rol oynamış, ölkə parlamentində təmsil olunmuş, hökumətdə və mədəniyyət sahələrində müəyyən mövqelər qazanmışdılar. Bu mövqe həm yerli hökumətlərin erməni icmasına loyal münasibəti, həm də diasporun mütəşəkkil fəaliyyəti ilə sıx bağlı olmuşdur.

Suriyada indiyədək nazir səviyyəsində vəzifə tutmuş yeganə erməni əsilli şəxs 2012–2016-cı illər ərzində ətraf mühitin mühafizəsi üzrə dövlət naziri vəzifəsini icra etmiş Nəzirə Fərəh Sarkis olmuşdur.

244 Tucker Carlson, March 08, 2025, https://x.com/tuckercarlson/status/1898135864523252219?s=46&t=IMxfQSPwuG9kMq_Vg7TlbA

Parlament səviyyəsində isə ermənilər 1928-2011-ci illər ərzində ümumilikdə 21 deputatla təmsil olunublar. Bu, onların ölkə siyasətində davamlı iştirakını nümayiş etdirmişdir. 2016-cı il parlament seçkilərində Hələbdən Jirayr Reisyan və Dəməşqdən Nora Arisyan, 2020-ci ildə isə Hələbdən Lusi İskenyan seçilmiş və ümumilikdə üç erməni əsilli deputat parlamentdə yer almışdır. Xüsusilə, Lusi İskenyanın Erməni Apostol kilsəsinin nümayəndəsi olaraq parlamentə daxil olması siyasi və dini identikliklərin üst-üstə düşdüyü bir təmsilçilik nümunəsi kimi diqqət çəkmişdir.

Suriya erməniləri eyni zamanda mədəniyyət və informasiya sahəsində müəyyən mövqeyə sahib olmuşlar. Qeyd edilməlidir ki, ərəb jurnalistikasının banisi hesab edilən Rizkallah bin Nimallah Hassoun əslən Suriya ermənisidir. Hazırda isə informasiya sahəsində Suriyada yeganə erməni mətbu orqanı olan “Kantsasar” qəzeti fəaliyyət göstərir. 2011-ci ildən etibarən çap edilən bu qəzet adını Azərbaycanın Kəlbəcər rayonundakı tarixi Gəncəsər (Kandsasar) monastırından götürmüşdür. Qəzetin baş redaktoru Zarmik Pohikyan adlı qadındır.

Digər sahələrdə olduğu kimi mədəniyyət sahəsində də Suriya erməniləri kifayət qədər məşhurlaşıblar. Belə ki, həmin məşhurlar içərisində Suriya Simfonik Orkestrinin dirijoru və Suriya Milli Simfonik Orkestrinin rəhbəri olan Misak Baqbudaryanı misal göstərmək olar. O, 2010-cu ildə İtaliya Respublikasının Prezidenti tərəfindən ölkənin ən yüksək mükafatlarından hesab edilən İtaliya Respublikasının dövlət mükafatına - “İtalyan Həmrəyliyi Ulduzu” ordeninə layiq görülmüşdür.

Bununla belə, Suriyada ermənilərin mədəni və ictimai fəallıqlarına baxmayaraq, icma zaman keçdikcə struktur və strateji zəifliklər səbəbindən sosial və iqtisadi mövqeyini qorumaqda çətinliklərlə üzləşmişdir. 2011-ci ildə başlayan müharibəyə qədər iqtisadi baxımdan güclü olan Suriya erməniləri müharibə nəticəsində şəhər infrastrukturunun, sənaye müəssisələrinin, kiçik və orta sahibkarlıq obyektlərinin dağıdılması ilə ciddi zərər görmüş, iqtisadi fəallıq nəzərəçarpacaq dərəcədə azalmışdır. Bu proses çoxsaylı sahibkarların fəaliyyətini dayandırmasına və icmanın ümumi zəifləməsinə səbəb olmuşdur. Suriya daxilində uzun illər qorunmuş çoxmillətli və çoxkonfessiyalı harmoniya modeli də müharibə ilə dərin şəkildə sarsılmışdır. Nəticədə, 2011-ci il müharibəsindən əvvəl Suriyada 80–100 min arasında erməni yaşayırdısa, 2020-ci ilə dair statistik məlumatlara əsasən, bu rəqəm 20–30 min nəfərə qədər azalmışdır.

Erməni icmasının Suriyada nisbətən mütəşəkkil şəkildə mövcud olduğu bölgələr Hələb, Dəməşq, Cəzirə (Qamışlı, Hasicə, Tərik), Əl-Laziqiyyə və Kasabdır. Müharibədən əvvəl Hələbdə 40 minə yaxın erməni yaşayırdısa, hazırda bu rəqəm 12–15 min arasındadır. Oxşar vəziyyət Dəməşqdə də müşahidə olunur: əvvəllər burada 10 min erməni yaşayırdısa, hazırda onların sayı 4–5 min civarındadır.

2024-cü ilin sonlarına doğru Suriyada müxalif qrupların, xüsusilə də Heyət Təhrir Əş-Şam (HTŞ) təşkilatının ölkənin cənub istiqamətində irəliləməsi və genişmiqyaslı hərbi əməliyyatların başlaması ölkədə yaşayan erməni icmasında təhlükəsizliklə bağlı narahatlıqları daha da artırmışdır. Martın 9-da HTŞ-nin Latakiyada keçirdiyi əməliyyatlar zamanı erməni icmasının iki üzvü — ata və oğul — həyatını itirmişdir. Bu hadisə nəticəsində əsasən Hələb, Dəməşq, Qamışlı və Kasab bölgələrində yaşayan ermənilər ölkəni tərk etməyə məcbur olmuşdular.

Həmin hadisələr fonunda suriyalı erməni jurnalist Kevork Almassyan verdiyi müsahibədə tarixən ermənilərin məskunlaşdığı Kasab şəhərindəki icmanın təhlükəsizlik qorxusu ilə qaçmağa başladığını bildirmişdir. Onun sözlərinə görə, bir çox erməni ailəsi artıq ölkəni tərk etmiş, qalanlar isə gələcək haqqında ciddi narahatlıqlar içərisindədir. Almassyan vaxtilə Suriyada 50-yə yaxın ailə üzvünün yaşadığını, hazırda isə onların sayının sıfıra endiyini qeyd etmişdir. O, həmçinin vurğulamışdır ki, Suriyadakı ermənilər üçün beynəlxalq erməni diasporu tərəfindən kifayət qədər dəstəyin göstərilməməsi onların vəziyyətini daha da çətinləşdirmişdir. Bəzi şəxslər fərdi səviyyədə yardım ala bilsələr də, Suriyada qalanlara dəstək göstərmək məqsədilə hər hansı təşkilatlanmış və davamlı beynəlxalq yardım təşəbbüsü müşahidə olunmamışdır.

Qeyd edilməlidir ki, əsrin əvvəllərində, xüsusilə Bəşər Əsədin hakimiyyəti dövründə Suriya hökuməti erməni icmasına qarşı ümumilikdə müsbət və loyal siyasət yürütmüşdür. Xüsusi imtiyazlar təqdim edilməsə də, icmanın ehtiyacları rejimlə birbaşa əlaqə kanalları vasitəsilə həll edilirdi. Əsəd tez-tez erməniləri öz mədəniyyəti və dilini qoruyaraq Suriya cəmiyyətinə inteqrasiya edə bilən vətənpərvər icma nümunəsi kimi təqdim edirdi. Bu dövrdə ermənilərin Xalq Məclisində təmsil olunmasına dolayı zəmanət verilir və onların səsi hökumət dairələrində müəyyən dərəcədə eşidilirdi. Bununla belə, Baas Partiyasının avtoritar təbiəti səbəbindən erməni icmasının siyasi azadlıqları məhdud çərçivədə qalmışdır.

Nəticə etibarilə, aparılmış bu araşdırma göstərir ki, Suriya ilə Ermənistan arasında uzun illər boyunca qarşılıqlı maraqlara əsaslanan münasibətlər qurulsa da, bu əlaqələrin təməl sütunlarından biri olan Suriyadakı erməni diasporu tədricən əvvəlki strateji mövqeyini və funksional rolunu itirməkdədir. Bu dəyişiklik əsasən Suriyanın daxili siyasi düzənində və sosial dinamikasında baş verən dərin dəyişikliklərlə izah oluna bilər.

# IV Fəsil

# MİSİRDƏ ERMƏNİ DİASPORU

## Misirin erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət

Erməni diasporunun tarixən geniş yayıldığı və hazırda azlıq təşkil etdiyi Yaxın Şərq ölkələrindən biri Misirdir. Tarixçilər ermənilərin Misirə köçünün Bizans hakimiyyəti dövrünə qədər uzandığını, ikinci köçün tarixin müasir dövründə, XIX əsrin əvvəllərində başladığını qeyd edirlər. Misir XX əsrin əvvəllərində erməni diasporunun ən böyük icmalarından birinə ev sahibliyi etmişdir.

Misirin Damanhur Universitetinin müasir tarix üzrə professoru Məhəmməd Rəfaat XI əsrdə Fatimilər xilafətinin vəziri və dövlət xadimi olmuş Bədr Əl-Camalinin dövründə (XI yüzilliyin ikinci yarısında) Misirdə ermənilərin sayının 30 min olduğunu bildirmişdir. Onun sözlərinə görə, Misirin erməni icması ölkənin Osmanlı valisi və onun de-fakto hökmdarı olmuş Məhəmməd Əli Paşanın dövründə mühüm nüfuza sahib idi. Məhəmməd Rəfaat bildirirdi ki, Məhəmməd Əlinin dövrü ermənilər üçün "qızıl dövr" hesab olunur və onlar iqtisadi, sosial, siyasi və inzibati cəhətdən müasir Misirin qurulmasına töhfə vermişdilər.[245]

Misir mətbuatına görə, erməni icmasının əsas hissəsi 1915-ci il və ondan sonrakı illərdə buraya gəlib məskunlaşanlardır. Misir erməniləri bu köçü **"məcburi köç"** adlandırırlar. 1927-ci ilin siyahıyaalmasına görə, Misir ermənilərinin sayı **1917-ci illə müqayisədə 12 mindən 17 minə, 40-cı illərdə 40 minə, 50-ci illərdə isə 45 minə yüksələrək** pik həddə çatmışdır.[246]

XX əsrin 60-cı illərindən etibarən Misirin keçmiş Prezidenti Camal Əbdül Naserin hakimiyyəti dövründə ölkədə iqtisadi-maliyyə proqramları tətbiq

245 How Armenians in Egypt are preserving their heritage, March 06, 2023, https://www.middleeasteye.net/discover/how-armenians-egypt-are-preserving-their-heritage

246 How the Armenian Community made Egypt a home, August 08, 2022 https://egyptianstreets.com/2022/06/08/how-the-armenian-community-made-egypt-a-home/

edilmiş və hakim elitanın sosialist qanunlar paketini qanuniləşdirməsi nəticəsində Misirdə şəxsi mülkiyyətin milliləşdirilməsinə başlanılmışdır. Yeni proqramın tətbiq edilməsi ölkədə öz fərdi biznesləri olan şəxslərin əksəriyyətini Avropa ölkələri və ya ABŞ-yə getməyə sövq etmişdir. Həmin siyasi qanunvericilik və ticarət-kommersiya fəaliyyətlərinin inhisara alınması nəticəsində biznes və ticarət obyektlərini itirən Misir ermənilərinin əksər hissəsi Qərbə köçməyi seçmiş, erməni icmasının gənc nəslinin nümayəndələri xaricdə iş imkanları axtarmağa məcbur olmuşdular.

Hal-hazırda Misirdə ermənilərin sayı ötən əsrin 50-60-cı illəri ilə müqayisədə azlıq təşkil edir.[247] Belə ki, 2010-cu ilin göstəricilərinə əsasən, Misirdə ermənilərin sayı **7-8** min arası dəyişirdi. **Hazırda Misir ermənilərinin ümumi sayı 5 mindən çox deyil.[248] Bu gün Misirdəki erməni institutları icma arasında birliyi qorumaq problemi ilə üz-üzədirlər. Bunun əsas səbəbi qeyri-ermənilərlə nikahların artması və gənc ermənilərin xaricdəki imkanlara cəlb olunmalarıdır.**

Misirin erməni icmasının nümayəndələri əsasən paytaxt Qahirənin mərkəzində və ölkənin ikinci ən böyük şəhəri hesab edilən İsgəndəriyyədə məskunlaşıblar. Ermənilərin Qahirəyə məskunlaşdıqları ilk vaxtlarda öz məhəllələri olmamış və onlar erməni kilsələrinə yaxın olan bəzi ərazilərdə məskunlaşmışdılar. Marmina kilsəsi, Beyt-Əldəki Erməni Pravoslav və Katolik kilsələrinin ətrafı, əsasən Qahirənin "**Haret Kenisset Əl-Ərmən"[249]** (Erməni kilsəsinin yerləşdiyi ərazi) məhəlləsi erməni icmasının əsas məskunlaşdığı məhəllə idi. Bu məhəllə Qahirə şəhərinin mərkəzindəki yaşayış məskəni və yüzlərlə erməni ailəsinin yaşadığı ərazi idi.

Bəzi mənbələrə görə, XIX əsrin 40-cı illərinədək İsgəndəriyyədə ermənilərə rast gəlinməmişdir. Ermənilərin ruhani atası hesab edilən Boqos Yusifyan Misirin ilk xarici işlər naziri seçildikdən sonra Misir erməniləri İsgəndəriyyə ilə yanaşı, Zaqazıq, Mənsurə, Tanta, Kəfr Əz-Zəyat və Əsyut kimi şəhərlərə yayılmağa başlayıblar. 1950-ci illərdə bir çox erməni ailəsi Heliopolisə köçürülmüş və sonralar bu şəhər onların icma və təşkilatlarının mərkəzinə çevrilmişdir. Hazırda ermənilər xristianların yaşadığı Heliopolis, Noja, Maadi, Əlvan ərazilərində, həmçinin Bein Əs-Sureyin, Darbel Ganeyin bölgələrində cəmləşiblər.[250]

247 Government and society, https://www.britannica.com/place/Egypt/Government-and-society

248 Yenə orada

249 Şəkil 1.

250 مقال مصوّر: الأرمن في مصر – (Foto-məqalə: Misir erməniləri), 05 sentyabr, 2015 https://carnegieendowment.org/sada/61408




**Şəkil 1. Misirin erməni icmasının yaşadığı "Haret Kenisset Əl-Ərmən" məhəlləsi[251]**



**Şəkil 2. Qahirənin Moski məhəlləsində vaxtilə yüzlərlə erməni ailəsinin yaşadığı kiçik küçə**

Misirin erməni icmasına Qahirə və İsgəndəriyyə şəhərləri ilə yanaşı, Luksor, Asvan, eləcə də Süveyş və Port Səid şəhərlərində yaşayan

251 How the Armenian Community Made Egypt a Home, June 08, 2022 https://egyptianstreets.com/2022/06/08/how-the-armenian-community-made-egypt-a-home/

erməni-kopt ailələrinin üzvləri daxildir. Ermənilərin bu hissəsi əsasən ərəbdillidir. **Misir erməniləri ölkənin vətəndaşı kimi Misirin şəxsiyyət vəsiqəsini daşıyır və orduda xidmət edirlər.**

## Misirdə dini balans

### Misirdə islam

Misir ərəb dünyasında əhalisinin sayına görə ən böyük ölkədir.[252] 2003-cü ilin siyahıyaalmasına görə, "Nil ölkəsi"ndə yaşayan misirlilərin sayı 70 milyonu keçirdisə, 22 il sonra, yəni 2025-ci ilin göstəricilərinə görə, bu rəqəm **117,769,620 milyon** təşkil edir.[253] Misir əhalisinin 90 faizdən çoxu müsəlmandır. Ölkə müsəlmanlarının əksəriyyəti əhli-sünnə məzhəbinə aiddir.

Misir beynəlxalq ictimaiyyətə, ölkənin hökumət və sosial strukturuna əhəmiyyətli dərəcədə təsir edən güclü müsəlman ənənələrinə malik ölkədir. Misir müsəlman ilahiyyatının ən böyük mərkəzlərindən biri hesab olunur. Qahirədə dünyanın ən məşhur və nüfuzlu müsəlman ilahiyyat ali təhsil müəssisələrindən biri olan **Əl-Əzhər Universiteti** yerləşir. Əl-Əzhər Universitetinin təsisi edilməsi Fatimilər sülaləsinin paytaxt Qahirənin əsasını qoyduğu eyni dövrə - X əsrə təsadüf edir.

Universitetin xaricdəki fəaliyyəti nəticəsində Misir müsəlman dünyasında öz nüfuzunu qoruyub saxlayır. Bu universitetin diplomu bütün müsəlman dünyasında yüksək qiymətləndirilir. Əl-Əzhər bir çox ölkələr üçün üləma (ilahiyyatçılar) və vaizlər hazırlayır. Bu gün rəhbərlik dünyanın bir çox ölkəsində Əl-Əzhər Universitetinin filiallarının açılmasını qarşısına məqsəd qoyub. Universitet islam dinini qəbul edənlərin faizinin müntəzəm olaraq artdığı Afrika regionunda aktiv missionerlik fəaliyyəti aparır. Hər il universitetin təqaüdlərinin əksəriyyətini afrikalılar alır. 2022-ci ilin avqust ayından etibarən bu universitetin rektoru **Sələmə Davuddur**.[254]

---

252 Arab Countries / Arab League Countries 2024, https://www.studycountry.com/wiki/what-is-the-largest-arab-country-by-population

253 Egypt Population (LIVE), January 12, 2024, Egypt Population (2025) - Worldometer

254 جامعة الأزهر تستقبل الدكتور سلامة داود القائم بأعمال رئيس الجامعة - (Əl-Əzhər Universiteti bu universitetin yeni prezidenti vəzifəsini icra edən Dr.Salama Davudu salamlayır) 11 avqust, 2022, جامعة الأزهر تستقبل الدكتور سلامة داود القائم بأعمال رئيس الجامعة - اليوم السابع




**Şəkil 3. Misirin etnik tərkibi. 2000-ci il**[255]




**Şəkil 4. Misirin etnik tərkibi. 2007-ci il**

255 World Data ethnic composition pie chart, Egypt. (Photo by: Encyclopaedia Britannica/Universal Images Group via Getty Images), World Data ethnic composition pie chart, Egypt. News Photo - Getty Images




**Şəkil 5. Misirin etnik tərkibi. 2015-ci il**

## Misirdə xristianlıq

Misir bütün Ərəb Şərqində ən böyük xristian icmasından birinə ev sahibliyi edir. Ölkə əhalisinin təxminən beş faizini[256] xristian dininin müxtəlif qollarının ardıcılları - kopt pravoslav, erməni apostol, katolik, maruni, pravoslav və anqlikanlar - təşkil edirlər. Ölkədə məscidlərlə yanaşı, çox sayda xristian dini mərkəzlərinə və ziyarətgahlarına rast gəlmək mümkündür. Bu, Misirə eyni zamanda həm müsəlman, həm də xristian dünyasının mərkəzlərindən biri olmaq imkanı verir. **Müsəlman faktoru, şübhəsiz, əhəmiyyətinə baxmayaraq, Misirin daxili və xarici siyasətində yeganə faktor deyil.**

Ölkənin xristian icmasının böyük əksəriyyətini koptlar təşkil edirlər. Misirdəki koptların sayı ilə bağlı məlumatlar əhəmiyyətli dərəcədə dəyişir. Belə ki, rəsmi məlumata görə, hazırda Misirin kopt əhalisinin sayı 3 milyondur. Lakin bəzi mənbələrə görə, bu rəqəm 5-10 milyon arasında dəyişir. Bəzi rus alimlərinin fikrincə, xristian koptları Misir əhalisinin **onda birini**, yəni təxminən **7 milyon nəfəri** təşkil edir. Kopt xristianlarının əksəriyyəti **Yuxarı və Orta Misir** şəhərlərində yaşayır. Misirdən kənarda yaşayan böyük kopt icmaları **ABŞ** və **Kanadadadır**.

256 Cədvəl 1.

| İl | Müsəlmanlar | Xristianlar | Yerli dinlər | Digər dinlər |
|---|---|---|---|---|
| 2020 | 95.3% | 4.7% | <1% | <1% |
| 2030 | 95.7% | 4.3% | <1% | <1% |
| 2040 | 96.0% | 4.0% | <1% | <1% |
| 2050 | 96.3% | 3.7% | <1% | <1% |

**Cədvəl 1. Misirin dini demoqrafik proqnozu (2020-2050)**[257]

Rəsmi Qahirə Misirdə yaşayan müxtəlif dini qrupların nümayəndələrinə qarşı tolerantlıq nümayiş etdirərək, ölkədə dinlərarası gərginliyi azaltmağa cəhd edir. **Hakimiyyət ölkənin xristian əhalisinin müsəlman əksəriyyəti ilə eyni hüquqlara malik olduğunu göstərmək və bu siyasəti gücləndirmək üçün 2003-cü ildən etibarən hər il yanvarın 7-də Milad bayramını milli bayram və istirahət günü elan edib.** Kopt Pravoslav kilsəsinin rəhbəri, İsgəndəriyyə Papası, III Mark Şenuda taxtının patriarxı keçmiş Misir Prezidenti Hüsnü Mübarəkin (keçmiş Misir hakimiyyətinin) bu qərarını **"cəsur və müdrik"** adlandırmışdır.[258]

## Misir ermənilərinin konfessional konfiqurasiyası

Erməni kilsəsi Misirdəki ermənilərin birləşməsində əhəmiyyətli rola malikdir. Misir erməniləri ya **Erməni Pravoslav**, ya da **Erməni Katolik kilsəsinin** üzvləridir. Misirdə 6 erməni kilsəsi fəaliyyət göstərir. Bunlardan üçü paytaxt Qahirədə, digər üçü İsgəndəriyyə şəhərində yerləşir.

- Erməni Patriarxlığı və Müqəddəs Qriqori Nurçu Erməni Apostol kilsəsi (Qahirə)
- Erməni Katolik Patriarxlığı və Aspsiya kilsəsi (Qahirə)

257 Egypt Population 2025 and Religious Demographics: Trends & Insights, 2025, https://www.findeasy.in/population-of-egypt/

258 Е.А. КРИВЕЦ, кандидат исторических наук, научный сотрудник Института востоковедения РАН, «Исторические реалии и перспективы взаимоотношения церкви и государства в египте», с.61

- Müqəddəs Tereza Erməni Katolik kilsəsi (Qahirə)
- Erməni Patriarxlıq, Müqəddəs Pyotr və Paul Erməni Apostol kilsəsi (İsgəndəriyyə)
- Məryəmin qüsursuz konsepsiyası, Erməni Katolik kilsəsi (İsgəndəriyyə)
- İsgəndəriyyə Erməni Evangelist kilsəsi (İsgəndəriyyə)

Misirdəki Erməni Apostol kilsəsinin yeparxiyası xeyriyyə vəqfləri, kənd təsərrüfatı təyinatlı torpaqlar şəklində daşınmaz əmlak və digər icma əmlakının əsas qəyyumudur.[259] Misirdə ilk erməni dini məktəbi 1828-ci ildə Bin Əl-Sureyndə açılmış **Yeqiazaryan** dini məktəbi idi.



**Şəkil 6. Qahirədə Erməni Katolik kilsəsində "soyqırım" abidəsi. Memar-Qaro Baliyan.**



**Şəkil 7. Qahirədə Erməni Pravoslav kilsəsində "soyqırımın ildönümü" abidəsi.[260] Memar-Vahan Talbiyan**

Həm erməni Pravoslav, həm də erməni Katolik Patriarxlığının mərkəzi paytaxt Qahirədə yerləşir:

1. **Erməni Pravoslav Patriarxlığı** və Müqəddəs Qriqori kilsəsi paytaxt Qahirənin Əz-Zaher rayonunda yerləşir. Kilsə eramızın 1924-1927-ci illəri arasında tikilib və 1928-ci ildə rəsmi açılış mərasimi olub.[261]

259 Armenians in Egypt, https://egypt.mfa.am/en/community-overview-eg/

260 Egypt's Armenians, 13 october 2015, https://abakanews.org/community/other-community/egypts-armenians/

261 Armenian Orthodox Patriarchate, Cairo https://archiqoo.com/locations/saint_gregory_illuminator_cathedral_cairo.php

2. **Ermənі Katolik Patriarxlığı** da Qahirədə yerləşir.[262] Həm də "Fərziyyə kilsəsi" kimi tanınan Erməni Katolik kilsəsi 1926-cı ildə tikilib və paytaxtın mərkəzində kiçik, lakin dərin kök salmış erməni katolik icmasına xidmət edir»[263]



**Şəkil 8. Qahirənin mərkəzindəki Erməni Katolik kilsəsi[264]**




**Şəkil 9. Böyük Kilikiya Evinin katolikosu I Aram və Misir koptlarının dini lideri II Şenuda[265]**

## Erməni icmasının Misirin siyasi həyatında fəaliyyəti

Misir ermənisi Sona Zeitliyan müəllifi olduğu 268 səhifəlik **"Misir erməniləri: orta əsrlər və müasir Misirə töhfələr"[266]** adlı kitabında ermənilərin XI-XII əsrlərdə Misirin siyasi, hərbi, iqtisadi və mədəni həyatında iştirakının təsvirini verib. Kitab 2006-cı ildə Ermənistanın Qahirədəki səfirliyi tərəfindən Los Ancelesdə ingilis dilində nəşr edilib. Ermənistanın Qahirədəki keçmiş səfiri **Ruben Karapetyan** bu kitabın misirlilər və ermənilər arasında uzun, lakin az öyrənilmiş zəngin tarixin sənədləşdirilməsinə əlamətdar töhfə olduğunu qeyd etmişdir. Bu kitab həm də ölkənin xristian erməni azlığının Misirin mədəni və iqtisadi təkamülünə və modernləşməsinə verdiyi töhfəni təsvir edən geniş araşdırma hesab olunur.

Kitabın ikinci hissəsində müəllif XIX-XX əsrlərdə ermənilərin Misirin rəhbər vəzifələrində nailiyyətlərini sənədləşdirmiş və onların bu fəaliyyətlərinin

262 "Армянский облик Египта", май 2010, https://noev-kovcheg.ru/mag/2010-05/2054.html

263 مقال مصوّر: الأرمن في مصر - (Foto-məqalə: Misir erməniləri), 5 sentyabr 2015, https://carnegieendowment.org/sada/61408

264 Yenə orada

265 Армянский облик Египта,10 май 2010, https://noev-kovcheg.ru/mag/2010-05/2054.html

266 Sona Zeitlian's new book: Armenians in Egypt12 , May 2006, https://www.azad-hye.com/news/sona-zeitlians-new-book-armenians-in-egypt/

ölkənin siyasi həyatında önəmli töhfə olduğunu qeyd etmişdir. Sona Zeitliyan Misirin erməni siyasətçiləri arasında ölkənin ilk Baş naziri Nübar Paşa Nübaryan, xarici işlər nairi Boqos Yusifyan, Misirin doqquzuncu xarici işlər naziri Tiqran Paşa Dabro, saray katibi, yazıçı və Misirin Maarif Nazirliyinin işçisisi Yaqub Artin Çerakiyanın adlarını qeyd edib.

**Boqos Yusifyan.**[267] **Misirin ilk xarici işlər naziri olmuşdur.** 1768-1844-cü illərdə yaşayan Boqos Yusifyan Misirdə bəy titulu alan ilk xristiandır.[268] O, Osmanlı imperatorluğunun Misirdəki hakimi Məhəmməd Əli Paşanın hakimiyyəti dövründə maliyyə, ticarət və xarici məsələlər üzrə katib və onun ən yaxın adamlarından biri olmuşdur. Məhəmməd Əli Paşa 1818-ci ildə B.Yusifyanı "bəy" rütbəsi ilə mükafatlandırmış, 1826-cı ildə onu Misirin Ticarət və Avropa İşləri İdarəsinin rəisi, sonra xarici işlər naziri təyin etmişdir. B.Yusifyan erməni, türk, yunan, italyan və fransız dillərində sərbəst danışa bilmişdir.[269]

2014-cü ildə Erməni Patriarxlığı və Ermənistanın Qahirədəki səfirliyi tərəfindən Boqos Yusifyanın vəfatının 170 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Misirin ilk xarici işlər naziri yad edilmiş, həmçinin bir qrup professorun Misirdəki erməni yazıları və kitabələri ilə bağlı tədqiqat işlərini təqdim etdikləri sessiya keçirilmişdir. Professor Məhəmməd Rəfaat Əl-İmam tərəfindən Misir ermənilərinin tarixlərinin yazılar vasitəsilə panoramik təqdimatı, erməni tərcüməçiləri və onların müasir Misirdə dili və ədəbiyyatının yayılmasında rolları, *"Nübar Paşanın xatirələrində Boqos bəy və tarixi yazılar vasitəsilə Süveyş kanalının tarixi"* əsərləri təqdim olunmuşdur.[270]

Qeyd edək ki, Misirə ilk dəfə naringi meyvəsi 1832-ci ildə Boqos Yusifyan tərəfindən gətirilmişdir. Bu səbəbdən həmin meyvə ərəb ölkələrində "Yusufi" və ya "Yusuf Əfəndi" adlandırılır.[271]

---

267 Şəkil 10.

268 Boghos Bey Youssefian and his impact on Egyptian politics (1775-1844), December 20, 2022, https://jcoart.uobaghdad.edu.iq/index.php/2075-3047/article/view/286

269 تراجم مشاهير الشرق في القرن التاسع عشر (الجزء الأول) - (XIX əsrdə yaşamış Şərqin məşhur şəxslərinin tərcümeyi-halı), https://www.hindawi.org/books/49464279/26/

270 Bibliotheca Alexandrina. Boghos Bek Yousefian through Historical Writings, March 16, 2014, https://www.bibalex.org/en/events/eventdetails?id=20593

271 أسرار وحكايات الجالية الأرمينية في مصر.. كيف عاشت واستقرت هنا منذ 1300 عام؟ - ("Misirin erməni icmasının sirləri və hekayələri... 1300 il əvvəl burada necə yaşayıb məskunlaşıblar?"), 15 iyun 2022, https://www.dostor.org/4109559

**Nübar bəy Nübaryan.**[272] **<u>Misirin ilk Baş naziri olmuşdur.</u>**[273] O, Misirin ilk xarici işlər naziri **Boqos Yusifyanın** bacısı oğludur. 1825-ci ildə Smirna (indiki İzmir) şəhərində anadan olmuş, 1899-cu ildə Fransada vəfat etmişdir. Cenevrədə təhsil almış Nübaryanı Misirə gətirən dayısı **B.Yusifyan** olmuşdur. 1847-ci ildə Məhəmməd Əli Paşanın oğlunun tərcüməçisi olmuş Nübaryan üç dəfə Misirin Baş naziri vəzifəsini icra etmişdir:[274]

1-ci dövr: 28.08.1878 – 23.02.1879;
2-ci dövr: 10.01.1884 – 09.01.1888;
3-cü dövr: 15.04.1894 – 12.11.1895.

Nübar Paşa 1866-cı ildə Misirin xarici işlər naziri, 1875-ci ildə maliyyə naziri vəzifələrində çalışmışdır.[275] O, fransız, ingilis, yunan və türk dillərini mükəmməl bilsə də, ərəb dilini zəif bilirdi.[276]

**<u>Tarixi faktlara görə, Nübar Paşa hakimiyyətdə olduğu müddətdə bir neçə dəfə aşkar şəkildə korrupsiyada ittiham edilmiş və mətbuatı tamamilə susdurmağa müvəffəq olmuşdur. Özünü hədəf alan tənqidləri boğmaq üçün Nübaryan o vaxta qədər heç vaxt fəaliyyəti dayandırılmayan "Əl-Əhram" qəzetinin (1884) fəaliyyətini dayandırmışdır.</u>**[277]

---

272 Şəkil 11.
273 من أبرز الشخصيات المصرية الأرمينية . . بوجوس نوبار باشا | المصريين الأرمن – (Misir ermənilərinin ən görkəmli simalarından biri Boqos Nübar Paşa) https://www.youtube.com/watch?v=NKFVuAbejIA
274 Nūbār Pasha - prime minister of Egypt, https://www.britannica.com/biography/Nubar-Pasha?utm_source=chatgpt.com
275 نوبار باشا فى مشروع حكاية شارع.. أول رئيس وزراء لمصر – ("Küçə hekayəsi" layihəsində Nübar Paşa... Misirin ilk Baş naziri), 04 aprel 2024, https://www.youm7.com/story/2024/1/4/3565346/نوبار-باشا-فى-مشروع-حكاية-شارع-أول-رئيس-وزراء-لمصر
276 شـــارع نـوبـــار - (Nübar küçəsi), 07 yanvar 2017, https://www.al-watan.com/article/50977/DONIA/
277 نوبار باشا : الترجمان الذي أفلس الخديو إسماعيل و شوّه القائد إبراهيم- ("Xədiv İsmayılı müflis edən və komandir İbrahimə ləkə yaxan tərcüməçi), 22 sentyabr 2019, نوبار باشا : الترجمان الذي أفلس الخديو إسماعيل و شوّه القائد إبراهيم – موقع الدكتور محمد الجوادي | أبو التاريخ



**Şəkil 10. Boqos Yusifyan**[278]



**Şəkil 11. Nübar Nübaryan**[279]



**Şəkil 12.Tiqran Paşa**[280]




**Şəkil 13. Boqos N. Nubaryan**[281]

Paytaxt Qahirədə və İsgəndəriyyədə N.Nübaryanın adını daşıyan küçə[282], İsgəndəriyyədəki Qahirə Opera Evinin qarşısında heykəli var. Heykəl 1901-ci ildə II Xediv Abbas Hilmi dövründə Parisdə edam edilmiş fransız rəssam Buşe tərəfindən dizayn edilmişdir. Nübar Paşanın heykəli İsgəndəriyyə Opera Evinin bərpası və açılmasınadək, yəni 1965-ci ildən 2005-ci ilə kimi 40 il müddətində anbarda kilidli şəkildə qalmışdır. 2020-ci ildə Misir təşkilatlarından biri bəyanat yazaraq, ölkənin keçmiş mədəniyyət naziri Enas Abdel Dayemdən İsgəndəriyyədəki Qahirə Opera Evinin ətrafında bir sıra sənət adamlarının və ziyalıların heykəlləri arasından

278 Armenians in Egypt, Embassy of Armenia to Egypt, Armenians in Egypt - Embassy of Armenia to Egypt
279 Yenə orada
280 Yenə orada
281 Yenə orada
282 شارع نوبار نوبارين باشا – (Nübar Paşa küçəsi), https://streetstory.gov.eg/اسماء-الشوارع/نوبار-نوبارين-باشا/

Nübar Paşanın heykəlinin götürülməsini tələb etmişdilər. Heykəlin sahibinin mədəniyyət və incəsənət sahəsi ilə heç bir əlaqəsinin olmamasını səbəb gətirən təşkilat nümayəndələri və sakinlər onun yerinə Şeyx Seyid Dərvişin heykəlini uclatmağı tələb etmişdilər. Keçmiş mədəniyyət naziri Şeyx Seyid Dərvişin heykəlinin hazırda təmirdə olduğunu bildirsə də, Nübar Paşanın heykəlinin Opera Evinin qarşısından götürülməsinin mümkünlüyü ilə bağlı heç bir fikir bildirməmişdir. [283]






**Şəkil 14. Nübar Paşanın Opera Evinin qarşısındakı heykəli (İsgəndəriyyə)[284]**
**Şəkil 15. Qahirədə Nübar Paşanın adını daşıyan küçə[285]**

**Tiqran Paşa[286]** - 1891-1894-cü illərdə **Misirin doqquzuncu xarici işlər naziri olmuşdur.** O, Misirin ilk Baş naziri Nübar bəy Nübaryanın kürəkənidir. Tiqran Paşa 1878-ci ildə N.Nübaryanın Baş nazir olduğu müddətdə Nazirlər Şurasının baş katibi işləmişdir. O, fransız dilini səlis, ərəb və türk dillərini çox zəif bilmişdir.[287]

---

283 تمثال نوبار باشا.. نصف قرن من الجدل لماذا يغضب منه مثقفو الإسكندرية؟ – (Yarım əsrdir mübahisəli tarixi olan Nübar Paşanın heykəli. İsgəndəriyyə ziyalıları ona niyə qəzəblənir?) 14avqust 2020, https://www.youm7.com/story/2020/8/14/تمثال-نوبار-باشا-نصف-قرن-من-الجدل-لماذا-يغضب-منه/9528294

284 “Мост через Нил имени Нубара Паши – Первого премьер-министра Египта”, 1 декабрь 2018, https://vstrokax.net/tag/most-cherez-nil-imeni-nubara-pashi/

285 “إلغاء قانون الإيجار القديم ورفع الإيجارات 2000 جنيه شهريا.. اعرف التفاصيل” – (Köhnə kirayə qanununun ləğvi və ayda 2000 lirə kirayə artımı),

286 Şəkil 12.

287 Projekt Gutenberg. Ägypten (Kairo). Wir hatten ganz früh die Visite von Tigrane Pasha, https://www.projekt-gutenberg.org/heyking/tagebuec/chap006.html

**Boqos Nübar Paşa Nübaryan[288] - <u>Misirin ilk Baş naziri Nübar bəy Nübaryanın oğludur.</u>** 1851-1930-cu illərdə yaşayan Boqos Nübar Misirin İsgəndəriyyə şəhərində dəmiryolu sisitemində islahatların aparılması və paytaxt Qahirədə geniş suvarma layihələrinin icrası ilə məşhurdur. 1915-ci ildən sonra Misirə gələn ermənilərin iş yerləri ilə təmin edilməsində, təhsil və xeyriyyə cəmiyyətlərinin yaradılmasında onun adı xüsusilə qeyd edilir. Həmçinin Misirin erməniəsilli iş adamı olaraq tanınan B. Nübar 1906-cı il aprelin 15-də Erməni Xeyirxahları Baş Assambleyasını yaratmış və onun ilk prezidenti olmuşdur.

**Ad və simalarının oxşarlığına görə Boqos Nübar Paşa Nübaryan və onun atası Nübar Paşa Nübaryan tez-tez səhv salınmış, hətta eyni şəxs olaraq bilinmişdilər.** Onun atasının yerinə səhv salınaraq korrupsioner olaraq bilinməsi yaxınlarının narahatlığına səbəb olmuşdur. Belə ki, Boqos Nübarın nəvəsi Emili Van Arşot 2017-ci ildə Misirin məşhur "Əl-Əhram" qəzetinə verdiyi müsahibəsində babasının adının Nübar Nübaryan deyil, Boqos Nübaryan olduğunu vurğulayaraq, onun korrupsioner olmadığını və bu işlərdə adının hallanmasının əleyhinə olduğunu bildirmişdir. Emili Van Arşot ulu babası, Misirin ilk Baş naziri Nübar Nübaryanın da korrupsiyada əli olmadığını və həyatının sonuna kimi Misir naminə çalışdığını qeyd etmişdir. Misirdə iqtisadi tənəzzülün onun ulu babası ilə heç bir əlaqəsi olmadığını qeyd edən Emili Van Arşot bu tənəzzülə səbəbin İngiltərə işğalı olduğunu bildirmişdir.[289]

Son onilliklər ərzində Misirin miqrasiya əhval-ruhiyyəsi ölkənin erməni icmasına da təsirsiz ötüşməyib. ABŞ, Kanada, Avstraliya ermənilərin Misirdən köçdükləri və anqlo-sakson mühitinə assimilyasiya olunduqları ölkələrdir. Araşdırılan mənbələr əsasında məlum olmuşdur ki, bir vaxtlar Misirdə ermənilər üçün insan kapitalı və resursları kimi bütün ilkin şərtlərin olmamasına baxmayaraq, onların ölkənin siyasi həyatında geniş təmsil oluna bilməmələrinə əsas səbəb məhz miqrasiya olmuşdur.

Misirin erməni icması Livanın erməni icmasından fərqli olaraq, ölkənin siyasi həyatında nadir hallarda iştirak edir. Livan ermənilərindən fərqli olaraq onlar ölkənin Nümayəndələr Palatasında təmsil olunmurlar.

---

288 Şəkil 13.

289 "حفيدة نوبار باشا « لـ»بوابة الأهرام»: جدي لم يكن فاسدًا.. و»مصر الجديدة» حيّ تراثيّ عالمي | صور" – ("Nübar Paşanın nəvəsi "Bəvvabə Əl-Əhram"qəzetinə müsahibəsində demişdir: Mənim babam korrupsioner olmayıb. "Heliopolis" dünya irsi məhəlləsidir."), 03 sentyabr 2017, https://gate.ahram.org.eg/News/1650036.aspx

## Misirdə fəaliyyət göstərən erməni partiyaları və mətbu orqanları

Misirdə ənənəvi üç erməni partiyası - **“ARF-Daşnaksütyun”, “Ramqavar-Azatakan Armenakan”** və **“Hınçakyan”** Sosial Demokrat Partiyası fəaliyyət göstərir. İdeoloji fərqliliklərinə baxmayaraq, bu üç partiya ölkənin erməni icmasının mənafeyi naminə birgə fəaliyyət göstərir. Hər birinin öz mətbu orqanı mövcuddur. Hazırda Daşnaksütyun Partiyasına məxsus **“Husaber”** qəzeti, “Ramqavar” Partiyasına məxsus **“Aref”** qəzeti və “Hınçak” Partiyasına məxus **“Jaakir”** qəzeti Misirdə erməni icmasının informasiya mübadiləsini təmin edən əsas nəşrlərdir.

Misirdə ilk erməni qəzeti 1865-ci ilə nəşr edilən **«Armavini»** olmuş, daha sonra qəzetlərin sayı artaraq 140-a çatmışdır. Hal-hazırda Misirdə erməni dilində iki gündəlik qəzet və bir həftəlik dərgi nəşr olunur. Erməni yeparxiyasının rəhbərinin sözlərinə görə, milli radioda gündəlik (bir saat) erməni dilində verilişlərin yayımlanması, o cümlədən erməni musiqisinin səsləndirilməsi Misirdə erməni kimliyinin qorunub saxlanılmasına xidmət edir.[290]

**“Husaber”.** 1913-cü ildən etibarən Misirdə erməni dilində nəşr olunan gündəlik qəzetdir. Erməni dilində mənası “ümid mənbəyi” olan bu qəzet 1922-ci ildə həftədə üç dəfə, 1923-cü ildən etibarən bazar günü istisna olmaqla gündəlik nəşr olunurdu. Arminaj Mutimidyan qəzetin təsisçisi, Soren Partevyan ilk baş redaktoru olmuşdur. 1944-cü ildə **“Husaber”** mədəni cəmiyyəti təsis edilmiş və bu cəmiyyət **“Husaber”** qəzetinin maliyyələşməsini öz üzərinə götürmüşdür.

2013-ü il dekabrın 14-də Misirdə Erməni Mədəniyyəti Dərnəyi qəzetin yüz illik yubileyi münasibətilə tədbir təşkil etmişdir. Misir Ərəb Respublikasının Erməni Pravoslav kilsəsinin yepiskopu Aşod Mnatsakanyanın birbaşa göstərişi ilə keçirilən tədbirdə fəxri qonaq qismində Ermənistanın Misirdəki keçmiş səfiri Armen Melkonyan iştirak etmişdir. Qeyd edilmişdir ki, 100 il ərzində 12 baş redaktoru olan bu qəzet Misirdə erməni irsinin və dilinin qoruyucusudur.[291]

---

290 “من بينهم أول رئيس وزراء مصري، حكاية الجالية الأرمنية في مصر” – (Onların arasında Misirin ilk Baş naziri də var. Misirin erməni icmasının hekayəsi), 27 sentyabr 2018, https://www.bbc.com/arabic/middleeast-45533589

291 باعثة الأمل وحافظة التراث واللغة الأرمنية.. جريدة ”الهوسابير“ تحتفل بمرور 110 عام على تأسيسها -(Ümid mənbəyi, erməni irsinin və dilinin himayədarı olan “Husaber” qəzetinin yaranmasının 110 illiyi qeyd edilir) 13 dekabr 2013, https://aztagarabic.com/archives/11000

**“Aref”.** 1915-ci ildən Misirdə nəşr edilən erməni qəzetidir. Qəzetin ilk baş redaktoru Vaan Nikiyan olub. O, ermənilərin nəzərində “poeziya şahzadəsi” sayılmışdır. Nikiyan Misirə köçmüş ermənilərin birinci nəslindən hesab olunur. **“Aref”** ilk illərdə iki gündən bir, 1922-ci ilin sonundan etibarən isə gündəlik nəşr edilən **siyasi qəzet** idi.[292] Misirdə fəaliyyət göstərən və erməni icmasını ətrafına toplayan “Husaber” və “Aref” qəzetləri bir-birinə rəqib olmuş, ideoloji cəhətdən ziddiyyət təşkil etmişdir. [293]

**“Jaakir”.** “Hınçak” Partiyasına məxsus **“Jaakir”** qəzeti erməni dilindən tərcümədə “məşəldar” mənasını verir. Misirdə həftəlik nəşr edilən qəzetlər arasında fəaliyyətini saxlamaq üçün mübarizə aparan yeganə qəzetdir. 1948-ci ildə Heyk Jamkotçiyan tərəfindən təsis edilmiş və həftəlik nəşr olunan müstəqil qəzet olmuşdur. 1956-cı ildən etibarən qəzet aylıq nəşr edilməyə başlamışdır.


TCHAHAKIR

**Şəkil 16. Qahirədə nəşr edilən “Jaakir” erməni qəzeti (1987-ci il)[294]**

## Erməni icmasının Misir iqtisadiyyatında fəaliyyəti

Misir erməniləri ölkədə mətbəə, gəmiqayırma, toxuculuq, tikmə sənəti, tütün istehsalı, zərgərlik, kənd təsərrüfatı kimi sənaye sahələrinin inkişafına əhəmiyyətli töhfə veriblər. Onlar iqtisadiyyatın müxtəlif sahələrində möhkəmləndikcə, daşınmaz əmlaklar alaraq

292 آريف قصبيان: نسعى إلى إعادة إحياء ثقافتنا – (Arif qəzeti: Biz mədəniyyəti dirçəltməyə çalışırıq), 16 mart 2021, https://www.facebook.com/sociallllllllll/posts/140728337940148/?paipv=0&eav=AfaWCCLTxb8kj2ANOriiGy85CZG9QzUWzxybewFATU41hQN-T3nMNdmNxeosuf8ui_Q&_rdr

293 رئيس تحرير مجلة «آريف» الأرمنية: نتزوج من الطائفة للحفاظ على الهوية - (“Arif” qəzetinin baş redaktoru: Biz kimliyimizi qorumaq üçün müəyyən qruplar ilə ailə qururuq) https://www.albawabhnews.com/3716158

294 Internet archive, https://archive.org/details/tchahagir198711111121

daha dəbdəbəli məhəllələrə köçüblər. Məsələn, çəkməçi Krikor Papazyan kral ailəsinə və elit dairələrə xidmət edirdi, Sukiassyan şirkəti isə topdansatış bazarı üçün dəri emalı və ayaqqabı istehsalı üzrə ixtisaslaşmışdı. Məhəmməd Əlinin dərzisi Hacı Qarabəd adlı erməni idi. Kral I Fuadın dövründə Arsen Sarafyan saray dərzisi olub. Sosial rifahın hökumət subsidiyaları ilə məhdudlaşdığı dövrdə Misirdə ermənilər məktəbləri, mətbu orqanları, xeyriyyə cəmiyyətləri, kilsə şəbəkələri vasitəsilə öz kimliklərini qorumağa çalışırdılar.[295]

Misirdə ən böyük tütün fabriki Matuşin qardaşları tərəfindən qurulmuşdu. 1895-1896-cı illər arasında Misirin siqaret istehsalının 90 faizini təmin edən Matuşin tütün fabriklərində 70.000 erməni işçi çalışırdı. XX əsrin birinci rübündə erməni tütün sənayesi sürətlə genişlənərək, Misir və Sudan bazarlarına hakim olmuş, Əddis-Əbəbə və Efiopiyanın digər şəhərlərinin əsas təchizatçısına çevrilmişdi.

## Erməni icmasının Misirin təhsil və sənaye sahələrində fəaliyyəti

Misirdə ilk erməni məktəbi 1818-ci ildə yaradılmış **Yegizariyan** dini məktəbi olmuşdur. 1854-cü ildə bu məktəb Misirin Darb Əl-Geneina məhəlləsinə köçürülmüş və adı erməni tarixçisi **Movses Xorenatsinin**[296] şərəfinə "Xorenyan" olaraq dəyişdirilmişdir. Məktəb 1904-cü ildə erməni Boqos Nübar Paşa Nubariyan tərəfindən Misirin Bulaq məhəlləsinə köçürülmüş və 1907-ci ildə Qahirənin mərkəzində Qala məhəlləsində uşaq bağçasının da daxil olduğu Kalosdiyan Varjan Erməni məktəbi qurulmuşdur.

1906-cı ildə Qahirədə Misirin bir qrup tanınmış şəxsləri və iş adamlarından ibarət Erməni Xeyriyyə Cəmiyyəti buraya gələn erməni uşaqlar üçün məktəb yaratmış, digər sosial və mədəni yardımlar göstərmişdir. **Cəmiyyətin məqsədi Misirə yeni gələn ermənilərin qayğısına qalmaq və onların inteqrasiyasında mühüm rol oynamaq olmuşdur.** Hazırda Erməni Xeyriyyə Cəmiyyətinin Misir şöbəsi təhsil təqaüdləri verir, qocalar evlərinə yardım edir, tibbi, pensiya və sosial rifah xidmətlərini təmin edir. 2006-cı ildə bu cəmiyyətə **Viken Cizmijiyan**

295 How Armenians in Egypt are preserving their heritage, 06 March 2023, https://www.middleeasteye.net/discover/how-armenians-egypt-are-preserving-their-heritage

296 Movses Khorenatsi, 02 March 2018, https://www.worldhistory.org/Movses_Khorenatsi/

rəhbər təyin edilmişdir. O, çıxışlarının birində demişdir: *“Misir ermənilələri burada öz varlıqlarını yaratmaqda uzun tarixə malikdirlər və onlar bu qurumu qlobal miqyasda fəaliyyət göstərmək üçün yaradıblar. Bu illər ərzində erməni icması arasında həmrəylik ruhu onun mütəşəkkilliyini və birliyini qoruyub saxlamağa öz töhfəsini verib.”*.

2013-cü ildə şagirdlərin sayının azalması nəticəsində Qahirənin mərkəzində yerləşən erməni məktəbi fəaliyyətini dayandırmağa və qonşu Heliopolisdəki məktəblə birləşməyə məcbur olmuşdur.[297] İndi Misirdə üç erməni məktəbi var:

1. Heliopolisdə Nubaryan-Kalousdyan məktəbi; [298]
2. Heliopolisdə Katolik Bacılar məktəbi;
3. İsgəndəriyyədə Boqosyan məktəbi.

Misirdə yaşayan erməni icması ilə misirlilər arasında nikahların genişlənməsi Misir-erməni ailələrinə mənsub olan şagirdlərin sayının artmasına səbəb olmuşdur. Misir ermənilərinin əksəriyyəti hələ də onlara məxsus müəssisələrdə, kilsə tədbirlərində və mərasimlərdə bir-biri ilə erməni dilində danışır. Bu dildə danışmaq onların şəxsiyyətini qoruyan əsas amil hesab olunur. Misir ermənisi **Gezimjiyan** deyir: “*Dil biz, yəni Yaxın Şərqdəki ermənilər üçün əsas qayğıdır. Buna görə də bizim Erməni İctimai Xeyriyyə Assosiasiyasının Kollecində erməni dili dərslərini təklif edirik”.*[299]

Misirin erməni icmasının şurası 8 ildən bir seçilir. Onlar həmçinin hər dörd ildən bir Erməni Patriarxlığının təsisatlarını, onun məktəblərini, kilsələrini, qəbiristanlıqlarını, mülklərini və xeyriyyə fondlarını idarə etmək üçün icra orqanı seçirlər. Erməni icması iki xeyriyyə təşkilatını - Erməni Qırmızı Xaç Federasiyası, Erməni Xeyirxahlar İttifaqını və Hosapir Mədəniyyət Birliyi olmalqa bir mədəniyyət müəssisəsini idarə edir. İcmanın üç idman növü daxil olmaqla, Qahirədə dörd, İsgəndəriyyədə isə iki sosial klubu var. İcma tərəfindən böyüklər üçün sığınacaq, uşaqlar üçün “Zankzur” adlı rəqs qrupu, “Zivartnots adlı xor və “Dzagjsdan” adlı uşaq xoru fəaliyyət göstərir.[300]

---

297 “أسرار وحكايات الجالية الأرمينية في مصر.. كيف عاشت واستقرت هنا منذ 1300 عام؟“, - (“Misirin erməni icmasının sirləri və hekayələri.. 1300 il əvvəl burada necə məskunlaşıb, yaşayıblar?”), 15 mart 2022, https://www.dostor.org/4109559

298 Kalousdian Nubarian Armenian School, https://www.bayt.com/en/company/kalousdian-nubarian-armenian-school-1959854/

299 “مقال مصوّر: الأرمن في مصر” – (Foto məqalə: Misirdə ermənilər), 05 sentyabr, https://carnegieendowment.org/sada/61408

300 “Misir erməniləri”, 24 aprel 2015, الأرمن في مصر – وطنى (wataninet.com)




**Şəkil 17. Heliopolisdə Katolik Bacılar məktəbi**[301]



**Şəkil 18. Heliopolisdə Nubaryan-Kalousdyan məktəbi**[302]

301 “Impacts of the internal and external displacement waves on the Egyptian Cities”, July 28, 2019, https://igsda.org/waves-of-displacement-in-egypt/
302 “Армянская община в Египте.” Часть 2, 17 август 2022, https://www.armmuseum.ru/news-blog/2024/egyptian-schools

## Erməni icmasının Misirin mədəni həyatında fəaliyyəti

2015-ci ildə misirli rejissor və redaktor Vahid Sahbi tərəfindən **“Biz Misir erməniləriyik”** adlı sənədli film çəkilmişdir. Film 1915-ci ildə Osmanlı imperiyasının ermənilərə qarşı törətdiyi iddia edilən qondarma “soyqırım” hadisələri barədə çəkilib. 52 dəqiqəlik bu sənədli filmdə Misir ermənilərin ikinci ana vətəni kimi təqdim edilir.[303]

Vahid Sahbi ilk sənədli filmi olan “Biz Misir erməniləriyik” sənədli filminin həm prodüseri, həm də montaj işlərinin icraçısı olmuşdur. O, 2002-ci ildə rejissor assistenti kimi fəaliyyətə başlamış və 2009-cu ildə Misirin ONTV kanalında işləmişdir. Filmin ssenari müəllifləri erməni əsilli Misir yazıçısı Yeva Dadriyan və Hanan Ezzatdır. **Yeva Dadriyan “Emmi” mükafatı laureatıdır.** Hanan Ezzat isə misirli fotoqraf və rejissordur. O, öz iş fəaliyyətinə məhz bu filmin çəkilişi ilə başlamışdır.

Sənədli film 2016-cı ildə Beynəlxalq Qahirə Film Festivalında, Karama İordaniya Film Festivalında, IDFA Film Festivalında, Afrika Film Festivalında laureat olub. 2018-ci ildə Misirin İmmiqrasiya Nazirliyi “Misir-Ermənistan ictimai həftəsi”nin başlanması ilə əlaqədar “Biz Misir erməniləriyik” haştaqını istifadəyə vermişdir.

Misir əsilli erməni **Ohan Haqub Yustiniyan** Qahirədə və İsgəndəriyyədə film istehsal edən kameraların ilk istehsalçısı olmuşdur.

2022-ci ilin iyun ayında misirli jurnalist və yazıçı **Fərəh Rafikin “Erməni icması Misiri necə evə çevirdi”** başlıqlı araşdırma yazısında Misir ermənisi Arto Belekdaniyan bildirmişdir: «*Mətbəx mədəniyyəti müxtəlif mədəniyyətlərin fərqli bir füsunkarlığıdır və onun özünəməxsus xüsusiyyətləri var. Erməni mətbəxinin məşhur* ***kabab*** *(ət) yeməyi vardır ki, biz buna* ***xorovat*** *deyirik. Onu* ***lavaş*** *adlı xüsusi* ***erməni çörəyi*** *ilə yeyirik. Bu erməni çörəyi hətta UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib*».

Qeyd edək ki, lavaş 2014-cü ilin 26 noyabr tarixində UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 9-cu iclasında Ermənistanın təqdim etdiyi **“Lavaş: hazırlanması, mahiyyəti və Ermənistanda ənənəvi çörəyin mədəni təzahürləri”** adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.[304]

---

303 وثائقي| احنا المصريين الأرمن – (Biz Misir erməniləriyik), 05 may 2017, وثائقي| احنا# المصريين الأرمن | By قناة الغد Alghad TV | Facebook

304 «Lavash, the preparation, meaning and appearance of traditional bread as an expression of culture in Armenia» , 2014, Lavash, the preparation, meaning and appearance of traditional bread as an expression of culture in Armenia - intangible heritage - Culture Sector - UNESCO




**Şəkil 19. “Biz Misir erməniləriyik” sənədli filminin posterləri[305]**

## Misir-Ermənistan əlaqələri

Misir-Ermənistan əlaqələri tarixi spesifiklik, xüsusilə Misirdəki erməni icmasını nəzərə alaraq sıx əməkdaşlıq əlaqələri ilə səciyyələnir. Misir Ermənistanın etibarlı tərəfdaşlarından biridir. İkitərəfli əlaqələrin təməli vaxtilə Misirdə sayları çoxluq təşkil edən erməni icmasının nüfuzlu üzvləri tərəfindən qoyulub. İki ölkə arasında siyasi münasibətlərin ən mühüm üç müstəvisini qeyd etmək olar:

1. **Ermənistanın Misirin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı neytral mövqeyini təqdir etməsi;**
2. **Misirin ermənilərə qarşı törədilmiş “soyqırım”dan qaçanlara ev sahibliyi etməsi;**
3. **Ermənilərin Misir cəmiyyətinə inteqrasiya prosesi.**

Misir Ermənistanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Diplomatik əlaqələrin qurulması haqqında saziş 1992-ci ildə imzalanmışdır. Həmin ilin mart ayında Qahirədə Ermənistan səfirliyi, 1993-cü ilin may ayında İrəvanda Misir səfirliyi açılmışdır.[306] Bu mərhələ iki ölkə arasında siyasi dialoqun başlanmasını və növbəti illərdə Misir və Ermənistan arasında müəyyən siyasi yaxınlaşmanın formalaşmasını təmin etmişdir.

305 “We Are Egyptian Armenians” – (“Biz Misir ermənilərıyik”), https://www.imdb.com/title/tt11513790/

306 Cairo University Establishes a Center for Armenian Studies, October 30, 2014, Cairo University Establishes a Center for Armenian Studies - Cairo University

**Belə ki, 2000-ci ildə BMT Baş Assambleyasının BMT və ATƏT arasında əməkdaşlığa dair qətnaməsinin səsverməsi zamanı Ermənistan-Azərbaycan münaqişəsinə aid olan düzəlişə Misir Azərbaycana dəstək verməmiş, "bitərəf" qalmış və Ermənistanın mövqeyini əks etdirən bəyanatla çıxış etmişdir.**

2007-ci ilin aprelində Ermənistanın keçmiş Prezidenti Robert Köçəryanın Qahirəyə səfərindən sonra Misir-Ermənistan münasibətləri inkişafa doğru əhəmiyyətli təkan almışdır. Həmin səfər çərçivəsində R.Köçəryan Misirin keçmiş Prezidenti Hüsnü Mübarək, Xalq Məclisinin sədri, Baş nazir və yüksək vəzifəli şəxslərlə görüşmüşdür. Səfər zamanı iki ölkə arasında bir çox sahəni əhatə edən **8 əməkdaşlıq sazişi** imzalanmışdır.[307]

Növbəti illərdə Misir-Ermənistan əlaqələri yalnız rəsmi dairələrlə məhdudlaşmamış, diaspor və dini institutlar səviyyəsində də qarşılıqlı təmaslar güclənmişdir. **Belə ki, Misirdə yaşayan erməni icması ölkədə qondarma "erməni soyqırımı"nın unudulmaması və tanıdılması məqsədilə mütəmadi fəaliyyətini davam etdirmişdir.** Bu istiqamətdə, 2015-ci ilin aprel ayında İsgəndəriyyə Papası və Mark Taxt-tacının Patriarxı Papa II Tevadrosun rəhbərlik etdiyi nümayəndə heyəti Ermənistana səfər etmişdir. Səfər çərçivəsində o, Üçmüədzin kilsəsində iddia edilən "soyqırım" ın yüz illiyini və qurbanların xatirəsini yad etmişdir.[308]

Həmin fəaliyyətin davamı kimi, 25 aprel 2018-ci il tarixində Misirin Ermənistandakı keçmiş səfiri Tarek Maati və Misirin bəzi dövlət nümayəndələri qondarma "erməni soyqırımı"nın 103-cü ildönümü ilə əlaqədar dövlət tərəfindən keçirilən tədbirlərdə iştirak etmişdir. Tədbirdə həmçinin Qahirədəki Erməni Milli Aparatının prezidenti Armen Mazlumyan da iştirak etmiş və bu, erməni diasporunun prosesdə aktiv yer aldığını göstərmişdir.

**Misir Prezidenti Əbdülfəttah Əs-Sisi 2019-cu ildə keçirilən Münhen Təhlükəsizlik Konfransında çıxışında ermənilərin yüz il əvvəl məruz qaldıqları qırğınlardan sonra ölkəsinin onlara ev sahibliyi etdiyini bildirmişdir. Lakin o, "soyqırım" ifadəsini işlətməmiş, həmçinin bu qırğının kim tərəfindən törədildiyini və səbəbini**

---

307 «Президенты Армении и Египта Роберт Кочарян и Хосни Мубарак обсудили вопросы двустороннего, регионального и международного сотрудничества, а также сферу экономических отношений», 16 апрель 2007, https://armenpress.am/ru/article/556345,

308 مصر و ارمينيا – (Misir və Ermənistan), 20 mart 2022, مصر و ارمينيا-الهيئة العامة للإستعلامات

**dilə gətirməmişdir.[309] Misirdəki Erməni Milli Komitəsi Sisinin bu bəyanatını "erməni soyqırımı"nın tanınması istiqamətində atılan "ilk addım" kimi qiymətləndirmişdir. Qeyd edək ki, Misir qondarma "erməni soyqırım"ını rəsmi şəkildə tanımayan dövlətlərdən biridir.**

Misirin Ermənistanda hal-hazırkı səfiri Süleyman Cəmildir. O, 2022-ci ilin dekabr ayından etibarən bu vəzifəni icra edir. Səfir 2023-cü ilin dekabr ayında Misirdə keçirilən prezident seçkiləri ərəfəsində Ermənistanda yaşayan misirlilərin prezident seçkilərində səs verməkdə maraqlı olduqlarını və onların ölkənin hər yerindən paytaxt İrəvandakı diplomatik missiyanın mənzil-qərargahında səs vermək üçün gəldiklərini təsdiq etmişdir. S.Cəmil seçkilər üçün səsvermənin üç gün ərzində müntəzəm, asan və heç bir maneə olmadan davam etdiyini əlavə edərək, üçüncü və sonuncu gün böyük axının şahidi olduqlarını əlavə etmişdir. [310]

İkitərəfli əlaqələr son illərdə artan xətt üzrə inkişaf edir. 2023-cü ilin yanvar ayında Misirin Prezidenti Əbdülfəttah Əs-Sisi Ermənistana səfər etmişdir. Beləliklə, Ə.Sisi 1992-ci ildən, yəni iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından etibarən Ermənistana səfər edən ilk Misir prezidenti olmuşdur.[311] Əvvəlcə Misir Prezidenti Ə.Sisi və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilmişdir.[312] Ardınca Ermənistan Prezidenti Vaaqn Xaçaturyanla əvvəl ikitərəfli, sonra nümayəndə heyətlərinin iştirakı ilə görüş baş tutmuşdur. **Səfər iki ölkə arasında iqtisadi, mədəni və hərbi sahələrdə əlaqələri maksimuma çatdırmaq və bu sahədə əməkdaşlığı gücləndirmək məqsədi daşımışdır.** [313]

---

309 "بمؤتمر ميونيخ للأمن.. السيسي يدعو الغرب لمراقبة المساجد ويعرّض بتركيا" – (Əs-Sisi Münhen Təhlükəsizlik Konfransında Qərbi məscidlərə nəzarətə və Türkiyəni ifşa etməyə çağırdı), 16 fevral 2023, بمؤتمر ميونيخ للأمن.. السيسي يدعو الغرب لمراقبة المساجد ويعرّض بتركيا | أخبار سياسة | الجزيرة نت (aljazeera.net)

310 سفيرة مصر بأرمينيا ل(أ ش أ): تصويت الجالية في الانتخابات عكس وعيًا بأهمية المشاركة الإيجابية لصالح الوطن - (Misirin Ermənistandakı səfiri: Erməni icmasının seçkilərdə səs verməsi millətin rifahı üçün müsbət və vacib addımdır), 03 dekabr 2023, https://www.mena.org.eg/news/dbcall/table/textnews/id/10472799

311 Səfir Mohamed Abdel Hakam: Prezident Sisinin Ermənistana səfəri iki ölkə arasındakı münasibətləri dəstəkləyir, 29 yanvar 2023, السفير محمد عبد الحكم: زيارة الرئيس السيسى لأرمينيا تدعم العلاقات بين البلدين - اليوم السابع (youm7.com)

312 "الرئيس السيسي يعقد مباحثات مع رئيس وزراء أرمينيا" – (Prezident Sisi Ermənistanın Baş naziri ilə danışıqlar aparır), 29 yanvar 2023, https://www.mena.org.eg/ar/news/dbcall/table/webnews/id/9991914

313 مصر و ارمينيا – (Misir və Ermənistan), 20 mart 2022, مصر و ارمينيا-الهيئة العامة للإستعلامات

Misir-Ermənistan əlaqələrində inkişaf son illərdə artan xətt üzrə davam etmişdir. 2023-cü ilin yanvar ayında Misir Prezidenti Əbdülfəttah Əs-Sisi Ermənistana, həmin ilin mart ayında Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Qahirəyə, 2024-cü ilin mart ayının 5-də isə Ermənistanın Baş naziri Nikol Paşinyan Misirə rəsmi səfərlər etmişlər.

Ermənistanın Baş naziri Nikol Paşinyan Misirə səfəri əsnasında Prezident Əbdül Fəttah Əs-Sisi ilə görüşündə Misirin Yaxın Şərqdə əsas tərəfdaşlarından biri olduğunu qeyd etmişdir. N. Paşinyan iki ölkənin ali siyasi rəhbərliyi arasında təmasların tezliyi və qarşılıqlı faydalı çoxşaxəli əməkdaşlığın ölkələr arasındakı isti münasibətlərin sübutu olması ilə yanaşı, həm də gələcəyə ümumi baxışdan xəbər verdiyini bildirmişdir. Həmçinin hazırda Ermənistan və Misirin siyasi, iqtisadi, elm, yüksək texnologiyalar, təhsil, mədəniyyət, turizm və digər sahələrdə səmərəli əməkdaşlıq etdiklərini vurğulamışdır. Görüş zamanı Paşinyan Ermənistanın Misirlə ticari-iqtisadi əlaqələrini genişləndirmək istəyini ifadə etmiş, iqtisadiyyat, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlıq sazişləri imzalanmışdır.

Misir və Ermənistan arasında sıx əlaqələr həmçinin müəyyən müddət ərzində Misir-Türkiyə əlaqələrinin pozulması ilə səciyyələnə bilər. Belə ki, son illərdə, xüsusən 2020-ci ilin sonlarından etibarən Misir və Türkiyə arasında siyasi və diplomatik gərginlik artmağa başlamışdır. Şərqi Aralıq dənizindəki enerji resursları, Liviyada baş verən münaqişə, həmçinin Türkiyənin “Müsəlman Qardaşları" hərəkatına dəstək verməsi Misir hökuməti ilə münasibətlərini gərginləşdirmişdir. Bu vəziyyət həmin dövrdə Ermənistan-Misir əlaqələrinin gücləndirilməsi üçün əlverişli mühit yaratmışdır. Misir və Ermənistan arasındakı sıx əlaqələr, bir tərəfdən, Türkiyə ilə münasibətlərin gərginləşməsi, digər tərəfdən isə Ermənistanın regional sabitlik və təhlükəsizlik məsələlərinə olan marağı ilə möhkəmlənmişdir. Bu əməkdaşlıq təkcə iqtisadi və siyasi sahələrdə deyil, həm də regional və beynəlxalq arenada Ermənistanın və Misirin mövqelərini gücləndirməyə kömək etmişdir.

## Misir və Ermənistan arasında iqtisadi əlaqələr

2017-ci ilin sentyabr ayında Misir-Ermənistan birgə İqtisadi, Elmi və Texniki Əməkdaşlıq Komitəsinin beşinci iclasının yekunlaşmasından sonra iki ölkə arasında bir neçə mühüm əməkdaşlıq sazişi imzalanmışdır:

- İki ölkə arasında siyasi məsləhətləşmələr haqqında protokol;
- Diplomatik, xüsusi pasport sahiblərinin giriş vizalarından azad edilməsi haqqında saziş;
- İki ölkə arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş;
- Dəniz nəqliyyatı sahəsində saziş;
- Hava nəqliyyatı sahəsində saziş;
- İki ölkə arasında ticarət sazişi;
- İki ölkə arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında saziş;
- Misir Kitab və Arxiv İdarəsi ilə Ermənistan Milli Kitabxanası arasında əməkdaşlıq memorandumu;
- Cinayət işləri üzrə qarşılıqlı məhkəmə yardımı haqqında Konvensiya;
- İki ölkənin rəsmi xəbər agentlikləri arasında əməkdaşlıq haqqında saziş;
- Gömrük əməkdaşlığı və qarşılıqlı yardım sahəsində saziş;
- Cinayətkarların ekstradisiyasına dair Konvensiya;
- Mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında saziş;
- Hüquq sahəsində əməkdaşlıq haqqında saziş;
- Turizm əməkdaşlığı üzrə icra proqramı;
- Qahirə Tibb Kolleci ilə İrəvan Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsi;
- İş Adamları İttifaqı, Misir Sənaye Palatası və Ermənistan İş Adamları İttifaqı arasında birgə Misir-Ermənistan Biznes Şurasının yaradılması haqqında saziş;
- İsgəndəriyyə və Poti limanları arasında anlaşma memorandumu;
- Birgə ticarət palatasının yaradılması haqqında saziş;
- İkiqat vergitutmanın qarşısının alınması haqqında saziş.[314]

2022-ci ilin sentyabr ayında Misirin xarici işlər naziri Samih Sükri BMT Baş Assambleyasının 77-ci sessiyası çərçivəsində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla görüşmüşdür. Görüşdə ikitərəfli əməkdaşlığın davamlı inkişafı, iqtisadi və ticarət əlaqələrinin dərinləşdirilməsi yolları müzakirə edilmişdir. İki ölkə arasında ticarət və investisiya sahələrində əməkdaşlığın irəliləməsində iş adamları forumunun oynadığı rol təqdir edilmişdir.

İki ölkə arasında iqtisadi münasibətlərdə ən mühüm addımlardan biri 2023-cü ilin mart ayında atılmışdır. Belə ki, həmin tarixdə Ermənistanın

314 "مصر و ارمينيا" – (Misir və Ermənistan), 20 mart 2022, مصر و ارمينيا-الهيئة العامة للاستعلامات

xarici işlər naziri Ararat Mirzoyan Misirə səfər etmişdir. Samih Şükri ilə görüş zamanı Qahirədə İqtisadi, Elmi və Texniki Əməkdaşlıq üzrə Birgə Komitənin VI raundunun keçirilməsinin vacibliyi vurğulanmışdır. Misirin beynəlxalq əməkdaşlıq naziri və Ermənistanın iqtisadiyyat nazirinin sədrliyi ilə iki tərəf arasında dialoqun institusional mexanizmi kimi komitənin rolu nəzərə alınmış və bu rolun artırılmasının yolları müzakirə edilmişdir. Bu kontekstdə nazir Samih Sükri komitənin fəaliyyəti çərçivəsində iş adamları forumunun keçirilməsi təklifini irəli sürmüşdür. Həmçinin iki ölkə arasında əməkdaşlığın təkmilləşdirilməsi üçün birgə biznes şurasının yaradılması müzakirə edilmişdir. Hər iki nazir xüsusilə, dərman vasitələri sahəsində iqtisadi əməkdaşlıq və ticarət mübadiləsinin artırılmasının vacibliyi barədə razılığa gəlmiş, turist axınının artırılması və asanlaşdırılması işinə töhfə vermək üçün iki ölkə arasında birbaşa uçuşların başlanması təklifi müzakirə edilmişdir.

2023-cü ilin mart ayında Misirin immiqrasiya və işlər üzrə dövlət naziri Soha Gendi Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində Kaliforniyada yaşayan erməni icmasının “elit” qrupu ilə görüşmüşdür. Görüşdə Misirin Los-Ancelesdəki baş konsulu səfir Əhməd Şahin, Kaliforniya ştatının Qlendeyl şəhərinin meri Ardaşz Kasakyan, Burbank Şəhər Şurasının üzvü Zisetta Mallins, Krescenta Vellei Şəhər Şurasının sədri Harri Lyons, Erməni Ədalət və İnsan Haqları Mərkəzinin prezidenti və bir qrup ABŞ-də yaşayan Misir əsilli erməni investor iştirak etmişdir. Görüşün əvvəlində **səfir Soha Gendi bu görüşdən məmnunluğunu ifadə etmiş, Misir-Ermənistan münasibətlərinin tarixi köklərə malik möhkəm əlaqələrə dayandığını vurğulamışdır. O, ermənilərin Misir cəmiyyətinin tərkib hissəsi olduğunu və hazırda bu vəziyyətin davam etdiyini bildirərək, əlavə edib: «*ABŞ-yə hazırkı səfərimdə buradakı erməni icması ilə tanış olmaq istəyim var idi. Mən Misirdə uşaq bağçasından orta məktəbə qədər Heliopolisdəki Erməni Katolik Bacıları məktəbində təhsil almışam. Mənim təhsil aldığım müddətdə bir neçə erməni dostum olub və indi də var. Onlarla gözəl xatirələrim var*”.**[315]

Qlendeyl şəhərinin meri Ardaşz Kasakiyan Misirə olan sevgisini belə ifadə etmişdir: “*Bizim Misir cəmiyyətində dərin tariximiz var və biz Misirə olan sevgimizi bir çox icmaları əhatə edən xalqımızın qəlbinə*

315 وزيرة الهجرة تدعو الجالية الأرمنية في أمريكا للتعرف على فرص الاستثمار بمصر - (İmmiqrasiya naziri Amerikadakı erməni icmasını Misirdəki investisiya imkanları ilə tanış olmağa dəvət edir), 23 mart 2023, وزيرة الهجرة تدعو الجالية الأرمنية في أمريكا للتعرف على فرص الاستثمار بمصر | الأخبار | بيزنس لايف

*aşılayırıq."* A. Kasakyan həmçinin Misirin neft və təbii qaz sektorlarındakı uğurlarına, inzibati paytaxtın tikintisi kimi yeni şəhərlərin tikintisinə, eləcə də Misirin incəsənət, mədəniyyət, kino, musiqi, aviasiya, turizm və böyük arxeoloji abidələrin bərpasına toxunaraq, tezliklə Böyük Misir Muzeyinin açılışını təşkil edəcəklərini qeyd etmişdir.[316]

## Nəticə

Misirin erməni icmasının hazırkı ümumi sayının 5 min civarında olmasına baxmayaraq, onların ölkə üzərindəki təsiri geniş şəkildə hiss olunur. Bu təsir xüsusən XVIII əsrdə ermənilərə yüksək dəyərin verilməsi və onların Misir hakimiyyətində yüksək vəzifələrə yüksəldilməsi ilə artmışdır. Misirin ilk Baş naziri və xarici işlər nazirinin erməniəsilli olması Misirdə erməni təsirinin yaranmasında mühüm amillərdən olmuşdur.

Misirin Damanhour Universitetinin müasir tarix üzrə professoru Məhəmməd Rəfaat Fatimilər xilafətinin vəziri və dövlət xadimi Bədr Əl-Camalın dövründə, XI əsrdə Misirdə ermənilərin sayının 30 min olduğunu qeyd etmişdir. Onun sözlərinə görə, erməni icması Misirin Osmanlı valisi və onun de-fakto hökmdarı olmuş Məhəmməd Əli Paşanın dövründə daha öndə və nüfuz sahibi olmuşdur. Məhəmməd Refaat həmçinin bildirmişdir ki, Məhəmməd Əlinin dövrü ermənilər üçün "qızıl dövr" sayılır. İcma üzvlərinin sayı 2 min civarında olsa da, onlar iqtisadi, sosial, siyasi və inzibati cəhətdən müasir Misirin qurulmasına töhfə verə bilmişdilər.

Hazırda Misir erməni icmasının azlıq təşkil etdiyi Yaxın Şərq ölkələrindən biridir. Bəzi tarixçilər ermənilərin Misirə köçünün Bizans dövrünə qədər uzandığını bildirirlər. Tarixin müasir dövründə baş verən köç isə XIX əsrin əvvəllərində başlamışdır. **Misir XX əsrin əvvəllərində erməni diasporunun ən böyük icmalarından birinə ev sahibliyi etmişdir.** Əsasən paytaxt Qahirədə və İsgəndəriyyə şəhərlərində məskunlaşan ermənilərin əksər hissəsi Qahirənin "**Haret Kənisset Əl-Ərmən**" (Erməni kilsəsinin mövcud olduğu yer) məhəlləsində toplaşmışdır.

Misir erməniləri ya erməni provaslav, ya da katolik kilsəsinin üzvləridir. Hazırda Misirdə 6 erməni kilsəsi fəaliyyət göstərir. Bunlardan üçü

316 وزيرة الهجرة تلتقي نخبة من أبناء الجالية الأرمينية من المستثمرين ذوي الأصول المصرية – (İmmiqrasiya naziri erməni icmasının bir qrup üzvü, o cümlədən Misir əsilli investorlarla görüşdü), 23 mart 2023, وزيرة الهجرة تلتقي نخبة من أبناء الجالية الأرمينية من المستثمرين ذوي الأصول المصرية-الهيئة العامة للإستعلامات (sis.gov.eg)

paytaxt Qahirədə, digər üçü İsgəndəriyyə şəhərində yerləşir. Həm Erməni Pravoslav, həm də Erməni Katolik Patriarxlığının mərkəzi paytaxt Qahirədədir.

Ermənilər Misirdə rəhbər vəzifələrdə əldə etdikləri nailiyyətlərlə diqqət çəkmiş və onların bu fəaliyyətləri ölkənin siyasi həyatında önəmli töhfə olaraq qiymətləndirilmişdir. Belə ki, Misirin ilk xarici işlər naziri **Boqos Yusifyan**, ilk Baş naziri **Nübar bəy Nübaryan**, digər dövlət xadimləri **Tiqran Paşa** və Nübar bəy Nübaryanın oğlu **Boqos Nübar Paşa Nübaryan** erməni əsilli siyasətçilər olmuşdular. Nübar bəy Nübaryan önəmli dövlət xadimi olması ilə yanaşı, adı korrupsiya fəaliyyətlərində çəkilmiş və onun İsgəndəriyyədə yerləşən Opera Evinin qarşısında qoyulan heykəlinin sökülməsi tələb edilmişdir.

Misir-Ermənistan əlaqələri tarixi spesifiklik daşıyır, xüsusilə Misirdəki erməni icmasını nəzərə alaraq sıx və konstruktiv əməkdaşlıq əlaqələri ilə səciyyələnir. Misir Ermənistanın etibarlı tərəfdaşlarından, Ermənistanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Diplomatik əlaqələrin qurulması haqqında saziş 1992-ci ildə imzalanmışdır. 1992-ci ilin mart ayında Qahirədə Ermənistan səfirliyi, 1993-cü ilin may ayında İrəvanda Misir səfirliyi açılmışdır.

Prezident Əbdülfəttah Əs-Sisi 2019-cu ildə Münhen Təhlükəsizlik Konfransında çıxışında ermənilərin yüz il əvvəl məruz qaldıqları qırğınlardan sonra ölkəsinin onlara ev sahibliyi etdiyini bildirmişdir. Lakin o, “soyqırım” ifadəsini işlətməmiş, həmçinin bu qırğının kim tərəfindən törədildiyini dilə gətirməmişdir. Misirdəki Erməni Milli Komitəsi Sisinin bəyanatını qondarma “erməni soyqırımı”nın tanınması istiqamətində atılan “ilk addım” kimi qiymətləndirmişdir. Qeyd edək ki, Misir “erməni soyqırımı”nı rəsmi şəkildə tanımayan dövlətlərdən biridir.

Misir erməniləri ölkədə mətbəə, gəmiqayırma, toxuculuq, tikmə sənəti, tütün istehsalı kimi bir sıra sənaye sahələrinin inkişafına töhfə veriblər. Sosial rifahın hökumət subsidiyaları ilə məhdudlaşdığı ölkədə ermənilər məktəbləri, mətbu orqanları, xeyriyyə cəmiyyətləri, kilsə şəbəkələri vasitəsilə öz kimliklərini qorumağa çalışıblar.

Misirdə ilk erməni məktəbi 1818-ci ildə yaradılmış Yegiazariyan dini məktəbi olmuşdur. 1854-cü ildə bu məktəb Misirin Darb Əl-Geneina məhəlləsinə köçürülmüş və adı erməni tarixçisi Movses Xorenatsinin şərəfinə “Xorenyan” olaraq dəyişdirilmişdir. Məktəb 1904-cü ildə erməni Boqos Nübar Paşa Nubaryan tərəfindən Misirin Bulaq məhəlləsinə köçürülmüşdür. 1907-ci ildə Qahirənin mərkəzində

Qala məhəlləsində uşaq bağçası da daxil olmaqla Kalosdiyan Varjan Erməni Məktəbi açılmışdır. Lakin 2013-cü ildə şagirdlərin sayının azalması nəticəsində Qahirənin mərkəzində yerləşən erməni məktəbi fəaliyyətini dayandırmağa və qonşu Heliopolisdəki məktəblə birləşməyə məcbur olmuşdur. Hazırda Misirdə üç erməni məktəbi fəaliyyət göstərir.

Misir erməniləri mədəniyyət sahəsində də özlərinə önəmli yer etməyə və qondarma "erməni soyqırımı"nı təbliğ etməyə çalışıblar. 2015-ci ildə misirli rejissor və redaktor Vahid Sahbi tərəfindən çəkilən “Biz Misir erməniləriyik” adlı sənədli film ermənilərin 1915-ci ildə Osmanlı imperiyasının törətdiyi iddia edilən “soyqrım” əsasında çəkilmişdir. 52 dəqiqədən ibarət filmdə Misir ermənilərin ikinci ana vətəni kimi qeyd edilmişdir.

Vahid Sahbi “Biz Misir erməniləriyik” adlı ilk sənədli filminin həm prodüseri olmuş, həm də montaj işlərini həyata keçirmişdir. Filmin ssenari müəllifləri erməniəsilli misir yazıçısı Yeva Dadriyan və Hanan Ezzatdır. Yeva Dadriyan “Emmi” mükafatı laureatıdır.

**Yaxın Şərqin digər ölkələrində olduğu kimi, Misirdə yaşayan ermənilər də ölkənin müxtəlif sahələrində özlərinə mühüm yer tutmağa müvəffəq olublar. Misirin siyasi həyatından başlayan bu nüfuz tarixin müəyyən dövrlərində tədricən digər sahələrdə də özünü göstərmişdir.**

**Misir İkinci Qarabağ müharibəsində neytral mövqe tutmuş, münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu qeyd etmişdir. Lakin daha sonra Misir və Azərbaycan arasında daha sıx əlaqələr müşahidə olunmuşdur. 2023-cü ilin yanvar ayının 28-də Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana ilk rəsmi səfəri onun Azərbaycan dövlətinə və siyasi diskursuna olan hörmət və rəğbətinin göstəricisi olmuşdur. Onun bu cümləsi qeyd edilənlərə daha bir sübutdur:** ***“Cənab Prezident, görüşümüz zamanı bütün sahələrdə özünü büruzə verən qarşılıqlı anlayış, istər siyasi, istər iqtisadi, istərsə digər sahələrdə əməkdaşlığın inkişafı istiqamətində hər iki tərəfin siyasi iradəsinin mövcudluğu bu əlaqələrin tez bir zamanda daha da gücləndiriləcəyinə məndə əminlik yaradır”.***

# V FƏSİL

# İORDANİYADA ERMƏNİ DİASPORU

## İordaniyada erməni icması: tarixi yerləşmə, inkişaf və indiki vəziyyət

Erməni diasporunun mərkəzinə çevrilən Yaxın Şərq ölkələrindən biri İordaniyadır. Hal-hazırda **İordaniyada yaşayan ermənilərin sayı təxminən 3 min** nəfərdir. İordaniya erməniləri haqqında bəhs edilən mənbələrdə ölkənin hazırkı erməni icmasının 1915-ci ildə formalaşdığı, Osmanlıdan Suriyaya, oradan da İordaniyaya köçdükləri qeyd olunur.

Ölkənin əsas erməni icması paytaxt Əmmanda məskunlaşıb. İcmanın mərkəzi Əmmandakı Əl-Əşrəfiyyə məhəlləsi hesab edilir. Paytaxtdan sonra ermənilərin mütəşəkkil olduqları digər şəhərlər İondaniyanın ən böyük dördüncü şəhəri sayılan Ruseyfə və İordaniyanın ən qədim şəhəri hesab edilən Mədəbədir. Həmçinin, erməni icmasının məskunlaşdığı digər ərazilər arasında Şubak, Kərək, Maan və İrbidi də qeyd edilə bilər.

Müəllifi Arda Fəric Derkrabdiyan olan və 2005-ci ildə dərc edilən **"İordaniya erməniləri" kitabı** ölkə ermənilərinin sosial, mədəni, demoqrafik və iqtisadi həyatlarını əks etdirən, onlar haqqında geniş məlumatlarla çıxış edən ilk araşdırma hesab edilir. Bu kitab İordaniyanın **Milli Bankı** tərəfindən çap edilmişdir.[317]

Kitabda yazılanlara istinadən, ölkədə ilk ermənilərin məskunlaşması prosesi Birinci Dünya müharibəsindən sonraya təsadüf edir. Belə ki, İordaniyanın hazırkı erməni icması 1915-ci ildə formalaşmış, iddia edilən "soyqırım"dan sonra "Gənc Türklər" tərəfindən "zorla deportasiya" edilən qərbi ermənilərin bir hissəsi Böyük Britaniya mandatı altında Fələstində məskunlaşmış və 1922-ci ildə Trans-İordaniya ayrıca dövlət qurumu kimi oradan ayrılmışdır.[318]

---

317 رابطة الكتاب والدائرة الثقافية في البنك الاهلي تنظمان حفلا باصدار ثلاثة كتب (Yazıçlar Birliyi və Milli Bankın Mədəniyyət Departamenti üç kitabın nəşri ilə bağlı mərasim təşkil edib), 12 iyul 2005, رابطة الكتاب والدائرة الثقافية في البنك الاهلي تنظمان حفلا باصدار ثلاثة كتب

318 الارمن الاردنيون - (İordaniya erməniləri), 01 iyul 2005, الهيئة الوطنية الارمنية - الشرق الاوسط (ancme.net),

1930-1946-cı illər arasında İordaniyada 6 minə yaxın erməni yaşayırdı. 1948-ci ildə Ərəb-İsrail müharibəsindən sonra Fələstindən yeni mühacir dalğası İordaniyaya gələrək ermənilərin sayını 10.000-ə çatdırmış, lakin 1950-ci illərdən başlayaraq, xüsusilə də "Altıgünlük müharibə"dən sonra çoxlu sayda erməni Avstraliya, Kanada və ABŞ-yə mühacirət etməyə başlamışdır. Bunun nəticəsində ölkə ermənilərinin sayı 3 minə enmişdir.

1948-ci ildə baş vermiş ilk Ərəb-İsrail müharibəsi zamanı İordaniya ordusu İsrail ordusunu Şərqi Qüds ərazisindən çıxarmış bu əraziyə erməni məhəlləsi "Harat Əl-Ərmən" daxil edilmişdir. Kral Hüseynin qərarı ilə bu ərazidəki erməni əhalisinə İordaniya vətəndaşlığı verilmişdir. 1967-ci ildə Şərqi Qüdsün İsrail tərəfindən ələ keçirilməsindən sonra Fələstin erməniləri çətinliklərlə üz-üzə qalmışdır. Hazırda erməni məhəlləsində yaşayan ermənilər üçün əsas maneə onların İordaniya vətəndaşlığıdır, çünki İsrail hökuməti onları fələstinlilər kimi **"daimi sakinlər"** statusunda hesab edir.[319]

Erməni-xristian məsələsi İordaniya kralının maraq dairəsində olan məsələlərdən biridir. Məsələnin sonuncu dəfə gündəmə gəlməsi 2022-ci ilin iyul ayında baş vermişdir. Həmin vaxt İordaniya kralı II Abdullah Nyu-Yorkda BMT Baş Assambleyasının 77-ci illik iclasındakı çıxışında demişdir: *"Biz Qüdsün müsəlman və xristian müqəddəs yerlərinin qəyyumları olaraq tarixi və hüquqi status-kvonu, onların təhlükəsizliyini və gələcəyini qorumağa sadiqik".* Kral II Abdullah Qüdsdəki kilsələrin hüquqlarının «təhdid altında» olduğunu və bu statusun «davam edə bilməyəcəyini» bildirmiş, dünya liderlərinə üz tutaraq demişdir: *"Xristianlıq regionumuzun və Müqəddəs Torpağın keçmişi və bu günü üçün həyati əhəmiyyət kəsb edir"*. Kralın bu çıxışı Qüdsün xristian liderləri tərəfindən alqışla qarşılanmışdır. **Qüds Erməni Patriarxlığının kansleri Koryun Bağdasaryan** son illərdə ruhanilərə qarşı fiziki hücumların kəskin şəkildə artması fonunda İordaniya kralının bu çıxışının onlar üçün böyük dəstək ifadə etdiyini bildirmişdir.[320]

---

319 Армяне в арабских странах. Вторая жизнь изгнанных, 19 сентябрь 2025, Армяне в арабских странах. Вторая жизнь изгнанных. | ВКонтакте

320 Jerusalem's Christian leaders laud Jordan's king for defending them, July 10, 2022, Jerusalem's Christian leaders laud Jordan's king for defending them (aleteia.org)

# İordaniyada dini balans

## İordaniyada islam

Yaxın Şərq regionunda, Aralıq dənizinin şərq sahilində və Ərəbistan yarımadasının şimal hissəsində yerləşən İordaniya islamın tarixi və mədəni mərkəzində yer alıb. Müsəlmanlar ölkə əhalisinin əksəriyyətini təşkil edir. Onların çoxu sünni müsəlmanlardır. İordaniya dövlətinin rəsmi dini islamdır. Ölkədəki ictimai həyatın əksər sahələrində islamın təsiri güclüdür.




**Şəkil 1. İordaniyada dini-etnik bölgü. 2002-ci il[321]**

İordaniyada islam dini **1980-ci illərdən etibarən** cəmiyyətdə daha güclü və təsirli qüvvəyə çevrilmişdir. Bunun əsas səbəblərindən biri müsəlman dünyasında baş verən dini canlanma ilə yanaşı, həm də İordaniyada fəaliyyət göstərən "Müsəlman Qardaşları" təşkilatının artan təsiri olmuşdur. Həmin dövrdə bu təşkilat İordaniya hakimiyyətinin razılığı ilə fəaliyyət göstərməyə başlamışdır. Bu isə təşkilatın fəaliyyətləri və təbliğatı nəticəsində ölkədə dini həyatın daha çox islamçı yönümlü olmasına təkan vermişdir.[322] Həmin dövrdə ölkədə

321 Global Connections. The Middle East, 2000, https://www.pbs.org/wgbh/global-connections/mideast/maps/demotext.html

322 "Müsəlman Qardaşları" təşkilatı 1945-ci ildə İordaniyada yaradılmışdır. Ölkədə ciddi təsirə malik olan bu təşkilatın əsas məqsədi İordaniyada islam dininin güclü mövqeyə sahib olması idi. 1956-cı ildə parlament seçikilərində iştirak edən təşkilatın 6 namizədindən 4-ü uğur qazanmışdır. 80-ci illərdən etibarən ölkədə islam axınının sürətlənməsində təşkilatın rolu olmuşdur. Hazırda ölkədə kifayət qədər nüfuza sahib olan bu təşkilatın ayrıca saytı fəaliyyət göstərir.

niqabın (yalnız gözləri görünə bilən qapalı qadın geyim) qadınlar üçün əsl islam geyimi olması ilə bağlı yayılan yanlış məlumatlar səbəbindən ölkədə qadınlar arasında niqabdan istifadə kəskin şəkildə artmışdır.[323]




**Şəkil 2. İordaniyada dini-etnik bölgü. 2022-ci il**[324]

2015-ci ilin rəsmi statistik göstəricilərinə görə, İordaniya əhalisinin 69.3 faizi iordaniyalı, 13.3 faizi suriyalı, 6.7 faizi fələstinli, 6.7 faizi misirli, 1.4 faizi iraqlı, **2 faizi** erməni və digər xristian mənsublarının nümayəndələridir.[325]

İordaniya həmçinin xarici müsəlman mühacir və qaçqın icmalarını da qəbul edən ölkədir. 2023-cü ilin ortalarında ölkədə 731 minə yaxın qaçqın və mühacir qeydə alınmışdır. Onların əksəriyyəti suriyalı, iraqlı və yəmənli müsəlmanlardır. Bu mühacir və qaçqınlar ölkənin sünni müsəlman əhalisi ilə dini və mədəni oxşarlıqları paylaşırlar.

2025-ci ilin siyahıyaalınmasına görə, İordaniya əhalisinin sayı 11,530,931-dir. Müsəlmanlar ölkə əhalisinin **98 faizini** təşkil edir. Ölkə müsəlmanlarının **95 faizi** sünni, **1 faizdən az qismi** isə şiədir.[326]

323 Jordan / Religions - LookLex Encyclopaedia (archive.org)
324 The challenges faced by primary school students in Jordan in learning Islamic education online, figure 1, 2022, file:///C:/Users/lala.khalilzadeh/Downloads/challenges_faced_by_primary_school_students_in_Jor.pdf
325 Гарегин II: Проводимая Азербайджаном политика не соответствует духу ислама и должна быть решительно осуждена исламским миром, 22 апрель 2022, https://russia-armenia.info/node/82546,
326 2023 Report on International Religious Freedom: Jordan, 2023, https://www.state.gov/reports/2023-report-on-international-religious-freedom/jordan/

### İordaniyada xristianlıq

İordaniyada xristianlar tarixən ölkənin sosial və mədəni həyatının əhəmiyyətli hissəsini təşkil ediblər. **1950-ci illərdə** onların ölkə əhalisinin tərkibində payı **10-15 faiz** olub. Lakin xristianların ümumi əhali tərkibində nisbəti zamanla azalmışdır. 2023-cü ilin ortalarında hökumətin təqdim etdiyi rəsmi statistik göstəricilərə görə, xristianlar İordaniya əhalisinin 2.1 faizini təşkil edir.

İordaniyanın tarixində mühüm rol oynayan icmalardan hesab edilən xristianlar tarixi məkanlar və dini abidələr baxımından zəngin olan bu ölkədə öz dini ənənələrini qoruyub saxlaya biliblər. Məsələn, İordaniya İsa peyğəmbərin doğulduğu ərazilərdən biri hesab edilən Bəthlehemə yaxın olması səbəbindən xristian ziyarətçiləri üçün mühüm bir yerdir. Bu həm də İordaniyanın xristian turizmi və dini fəaliyyətləri üçün əhəmiyyətli bir məqamdır.

Hazırda ölkənin xristian icması kiçik olsa da, burada müxtəlif xristian məzhəblərini təmsil edən kilsələr və dini təşkilatlar mövcuddur. İordaniya xristianlarının əksəriyyəti yunan pravoslav, yunan və Roma katoliklər, Suriya ortodoks, erməni pravoslav və protestant məzhəblərinin nümayəndələridir. Ölkə əhalisinin qalan hissəsini buddist (0,4%), hindu (0,1%) və yəhudilər təşkil edir.

2023-cü ilin statistik göstəricilərinə görə, hazırda xristianlar ölkə əhalisinin **2,1 faizini** təşkil edirlər.[327]

## İordaniya ermənilərinin konfessional konfiqurasiyası

İordaniyanın kiçik icmalarını erməni və çərkəzlər təşkil edir. Bəhai və druzlar isə kiçik icmalarla məhdudlaşan ümumi cəmiyyətə az təsir göstərirlər. Ermənilər, druzlar və bəhailər həm dini, həm də etnik icmalardır. Ermənilərə İordaniyada fəaliyyət göstərən azlıq kimi Milli Şurada hüquq verilib.

İordaniya erməniləri əsasən **Erməni Apostol kilsəsinin** davamçılarıdır. Bu kilsənin yerli mərkəzi **Cəbəl Əl-Əşrəfiyyə** məhəlləsində yerləşən **Müqəddəs Thaddeus kilsəsidir** (yerli adı ilə **Surb Tadevos**). **Qüds Erməni Patriarxlığı**na tabe olan bu kilsə İordaniya erməniləri üçün həm dini, həm də mədəni həyatın mərkəzidir.

327 Yenə orada

Qüds patriarxı İordaniya Yeparxiyasının yepiskopunu təyin edir. İordaniyanın 3 min nəfərlik erməni icmasının **2.500-ü Erməni Apostol** (həvari) kilsəsinin nümayəndəsidir. Ölkə ermənilərinin kiçik bir azlığı Erməni Katolik kilsəsinə mənsubdur.[328] Kilsələrdə bazar günü məktəbləri fəaliyyət göstərir.

İordaniyada **3 erməni kilsəsi** mövcuddur:

1. Müqəddəs Thaddeus Erməni Apostol kilsəsi (Əmman)[329]
2. Müqəddəs Karapet (Hyasdanyayts Arakelagan) Erməni Apostol kilsəsi (İordan çayının sahilində müqəddəs vəftiz yeri)[330]
3. Müqəddəs Sahaq və Mesrob Erməni Katolik kilsəsi



**Şəkil 3.Müqəddəs Thaddeus Erməni Apostol klsəsi**

328 https://www.britannica.com/place/Jordan/Settlement-patterns
329 Şəkil 3
330 Şəkil 4



**Şəkil 4. Müqəddəs Karapet Erməni Apostol kilsəsi**




**Şəkil 5. Müqəddəs Sahaq və Mesrob Erməni Katolik kilsəsi**[331]

## Erməni icmasının İordaniyanın siyasi həyatında fəaliyyəti

Erməni icmasının mütəşəkkil yayıldığı digər Yaxın Şərq ölkələrindən fərqli olaraq, İordaniya hökumətində erməni icmasının nümayəndələri təmsil olunmurlar.

2011-2018-ci illərdə Ermənistanın İordaniyadakı qeyri-rezident səfiri vəzifəsini icra edən Arşak Poladyan 1950-ci ildə Suriyada dünyaya gəlmişdir. 2003-2007-ci illərdə Ermənistanın Birləşmiş Ərəb Əmirlikləri,

331 https://www.facebook.com/ArmeniansinJordan/posts/ABst-sahag-and-mesrob-armenian-ca/974754911345427/

Küveyt və Bəhreyndəki səfiri vəzifəsində çalışmışdır. 2007-2018-ci illərdə Ermənistanın Suriyadakı səfiri olmuşdur. A. Poladyan 2019-cu il noyabrın 13-də Ermənistanın Tunisdə, 2022-ci il noyabrın 29-da Mərakeş Krallığında səfiri təyin edilmişdir.[332]

2019-cu ildə Ermənistan prezidentinin sərəncamı ilə **Tiqran Gevorqyan** Ermənistanın İordaniyada yeni səfiri təyin edilmişdir. Tiqran Gevorqyan eyni zamanda Ermənistanın Suriyadakı səfiri vəzifəsini də icra edir.[333]

## İordaniyada fəaliyyət göstərən erməni təşkilatları

İordaniyanın erməni icması müxtəlif sahələrdə fəaliyyət göstərən və milli mədəniyyətini yaymağa yönəlmiş bir sıra təşkilat və birliklərə malikdir. Bu təşkilatların fəaliyyətləri təhsil, dini xidmətlər, mədəniyyət və incəsənət, idman, rəqs, gənclər və xeyriyyə və s. ilə yanaşı, milli tədbirlərin təşkilinə yönəlmişdir. Həmçinin, bu təşkilatlar erməni icmasının üzvləri üçün toplaşma və bir araya gəlmə yeri kimi fəaliyyət göstərir. Təşkilatların əksəriyyəti Əmmanın Cəbəl Əl-Əşrəfiyyə rayonunda, erməni məhəlləsində (ərəbcə: حي الأرمن- Hayy Əl-Ərmən) yerləşir.[334]

İordaniyanın erməni icması kiçik olsa da, onlar müxtəlif dövrlərdə ölkədə fərqli ictimai-siyasi, mədəni, idman birlikləri təşkil ediblər:

1. **Milli İdman Klubu (Watani Sports Club).** 1955-ci ildə yaradılmışdır. “Ramqavar-Azatakan” (RAK) Partiyasının himayəsi altında fəaliyyət göstərən idman birliyidir. Klubun hazırkı qərargahı Əl-Əşrəfiyyədə yerləşir. İdman birliyinin binası 1974-cü ildə tikilmişdir.
2. **Erməni Ümumi İdman Birliyi.** 1936-cı ildə Əmmanda yaradılmışdır. Erməni İnqilabi Federasiyasının (ARFD) - Daşnaksütyun Partiyasının himayəsi altında fəaliyyət göstərir.

332 Ambassador Arshak Poladyan discussed situation in South Caucasus during meeting with Moroccan Foreign Minister, February 02, 2024, https://www.1lurer.am/en/2024/02/02/Ambassador-Arshak-Poladyan-discussed-situation-in-South-Caucasus-during-meeting-with-Moroccan-Forei/1071417

333 Tigran Gevorgyan has been appointed Armenia’s Ambassador to Jordan, May 25, 2019, https://armenpress.am/eng/news/976063#:~:text=YEREVAN%2C%20MAY%2024%2C%20ARMENPRESS.,as%20Armenia’s%20Ambassador%20to%20Syria, March 24, 2019

334 В Иордании проживает около 3 тысяч армян – ( İordaniyada 3 min erməni yaşayır), 21 июнь 2016, https://armenpress.am/rus/news/851573/v-iordanii-prozhivaet-okolo-3-tiysyach-armyan.html

3. **Homenetmen**. Erməni idman və skaut klubudur. 1945-ci ildə İordaniya Gənclər Ali Şurasının protokollarına əsasən yaradılmışdır. Klubun hazırkı qərargahı 1967-ci ildə tikilən Əl-Əşrəfiyədə yerləşən binadadır.
4. **Ermənilərə Yardım Cəmiyyəti**. İordaniya Xeyriyyə Təşkilatları Ümumi Federasiyasının məlumatına görə, bu cəmiyyət 1965-ci ildə yaradılmışdır. Qərargahı Əl-Əşrəfiyyədə yerləşir.[335]

İordaniya erməniləri ölkənin tanınmış idman klubları olan "Homenetmen" və "Watany Sporting Club" (WSC) tərəfindən təşkil olunan bir çox milli liqa və idman turnirlərində fəal şəkildə iştirak edirlər.

Hər iki idman klubunun **ən vacib fəaliyyəti basketboldur.** Bu klubların önəmli basketbol komandaları 1950-1990-cı illərdə birinci və ikinci divizionlarda İordaniyanın rəsmi Basketbol Liqasında oynayıblar. WSC 1963-cü ildə İordaniya Basketbol Liqası turnirinin qalibi olub. Klubun prezidenti **Netranik Libejiyandır.**

WSC hazırda şahmat komandasına da malikdir və bu komanda İordaniya Liqası turnirlərində fəal iştirak edir. Klub son on ildə İordaniya Kralı II Abdullanın ad gününü və İordaniyanın Müstəqillik Gününü qeyd etmək üçün bir çox turnirlər təşkil etmişdir.

## Erməni icmasının İordaniya iqtisadiyyatında fəaliyyəti

İordaniyaya gələn ilk ermənilər əsasən tacir və sənətkarlardan ibarət olmuşdur. Bu icmanın üzvləri İordaniyaya köçdükləri ilk illərdən etibarən fotoqrafiya, moda, avtomexanika, peşəkar biznes və kiçik ticarətlə məşğul olmağa başlamışlar. Hazırda da ölkənin erməni icması bu sahələrdə fəaliyyət göstərir. OnlarIn bir çoxu tanınmış fotoqraf, zərgər və saat ustası kimi fəaliyyətini davam etdirir.

Hazırda Kirakosyan ailəsi kralın şəxsi fotoqrafları olmasalar da, Aqaba şəhərində kral və ailəsinin fotoşəkillərini çəkmək üçün lisenziya və hüquqlara sahibdir. Bununla yanaşı, Kirakosyan ailəsinin Aqabanın aerofotoqrafiyasını, limanını, otellərini və fabriklərini çəkmək üçün hüquqları mövcuddur.[336]

---

335 مع الباحثة الأردنية الأرمنية الأستاذة مارال نرسيسيان – (İordaniyalı erməni tədqiqatçı, professor Maral Nersesyanla), 03 mart 2022, https://www.ahewar.org/debat/show.art.asp?aid=748756

336 Личный фотограф короля, или как армянин открыл успешный бизнес в Иордании, 03 февраль 2019, https://am.sputniknews.ru/20190203/atele-kirakosyana---kak-v-iordanskoj-akabe-poyavilas-ulica-imeni-armyanskogo-fotografa-17092709.html, (yenilənib: 26.02.2022)

Akop Kirakosyan 1915-ci ildə Osmanlıda anadan olmuşdur. Erkən yaşlarında Livandakı uşaq evinə düşən Akop 15 yaşında Beyrutda "Kodak" mağazasında şagird kimi işə başlamışdır. Bir müddət sonra Livanı tərk edən Akop İraqa, İrana daha sonra İordaniyaya gələrək burada məskunlaşmışdır. 1949-cu ildə erməni qızla ailə quran Akopun ailəsi həmin dövrdə Aqabada yeganə erməni ailə olmasına baxmayaq, öz adət-ənənələrini qoruyub saxlamağı bacarmışdır.

70 ilə yaxındır ki, erməni Kirakosyan ailəsinə məxsus fotostudiyanın fəaliyyət göstərdiyi İordaniyanın cənubundakı Aqaba şəhərində Əl-Zaharan küçəsi yerli əhali arasında **"Foto Akop"** küçəsi kimi tanınır. 1950-ci ildə Akop Kirakosyan tərəfindən açılan fotoatelyenin sahibləri hazırda onun nəvələri Akop və Raffi qardaşları və onların əmisi oğlu Levondur. Akopun 27 yaşlı nəvəsi Raffi müsahibəsində demişdir: «***Aqabada erməni məktəbi və ya erməni kilsəsi olmasa da, ailələrimiz evdə öz ana dilimizdə danışmağımıza və öz kimliyimizi qorumaq üçün erməni xalqının tarixini və mədəniyyətini öyrənməyimizə kömək oldular***».[337]

## Erməni icmasının İordaniyanın təhsil sahəsində fəaliyyəti

İordaniya Konstitusiyasının 19-cu maddəsinə görə, ölkədəki etnik qruplar qanunda nəzərdə tutulmuş ümumi müddəalara riayət etmək, eləcə də  proqran və ixtisas istiqamətlərini müəyyənləşdirmək məsələlərində dövlət nəzarətini təmin etmək şərti ilə öz üzvlərini öyrətmək üçün məktəblərini yaratmaq və fəaliyyət göstərmək hüququna malikdirlər.[338]

İordaniyada ilk erməni məktəbi paytaxt Əmmanda Cəbəl Əl-Nətifdə yaradılmışdır. Məktəb "Hetoumyan Azkayeen Varjaran" adı altında 1930-cu illərdə fəaliyyət göstərmişdir. Digər erməni məktəbi Ruseyfədə fəaliyət göstərən Samuel Ağa Serpekiyanın əsasını qoyduğu məktəb idi.

Paytaxt Əmmanda iki erməni ibtidai məktəb fəaliyət göstərib:

1. **Ümumerməni Xeyriyyə Birliyi "Yuzbaşyan-Gulbenkyan" məktəbi** – 1962-ci ildə yaradılan milli gimnaziya Əmmanın Əl-

337 Yenə orada

338 العدد 30 أردني - (30-cu buraxılış – iordaniyalılar), 12 iyun 2008, http://www.al-sijill.com/sijill_items/sitem2495.htm

Əşrəfiyyə rayonunda yerləşmişdir. Gimnaziya uşaq bağçası kimi fəaliyyət göstərməklə yanaşı, burada altıncı sinfə qədər şagirdlər təhsil almışdır. Məktəbdə İordaniya Təhsil Nazirliyinin müəyyən etdiyi ümumi təhsil proqramına əlavə olaraq, erməni ədəbiyyatı, tarixi və dini erməni dilində tədris edilmişdir. 2008-ci ilin göstəricilərinə görə, 110 şagirdin təhsil aldığı məktəbdə 17 nəfər müəllim dərs demişdir. Əmmanda yeganə məktəb olan "Yüzbaşyan-Gulbenkyan" 2020-ci ildə fəaliyyətini dayandırmışdır. Məktəbin getdikcə azalan şagird sayı həmin ilin tədris ilində 32 nəfər təşkil etmişdir. 2018-ci ildə kütləvi informasiya vasitələrində məktəbin fəaliyyətini dayandırması ilə bağlı məlumatlar yayılsa da, Erməni Pravoslav Yeparxiyası onun saxlanılması üçün çalışaraq buna müvəffəq olmuş, lakin ikinci dəfə məktəbin fəaliyyətini davam etdirməsinə nail ola bilməmişdir. [339]

2. **Saak Məsrob adına Erməni Katolik Məktəbi** - Paytaxt Əmmanın Əl-Əşrəfiyyə rayonunda yerləşmişdir. 1951-ci ildə kilsənin nəzdində yaradılan məktəb uzun illərdir fəaliyyət göstərmir.

Son illərdir Haykazyan Universiteti[340] erməni diasporunun müxtəlif mərkəzləri ilə bağlı silsilə tədbirlər təşkil edir. Burada erməni və xarici tədqiqatçılar, həmçinin erməni icmalarının nümayəndələri iştirak edirlər. Bu konfranslardan biri 2016-cı ildə keçirilmişdir. Konfransda Ermənistanı ərəbşünas, Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun elmi işçisi **Araks Paşayan** və İrəvan Dövlət Universitetinin Diasporologiya şöbəsinin elmi işçisi, fəlsəfə doktoru **Xratsin Vardanyan** təmsil etmişlər. Konfransda çıxış edən Araks Paşayan bildirmişdir: "***İordaniyadakı ermənilər bu ölkənin tamhüquqlu vətəndaşlarıdır, dinlərinə sərbəst şəkildə etiqad edirlər. Həm cəmiyyətin, həm də kral ailəsinin dəstəyi və rəğbətini qazanıblar. Dövlət onları rəsmi olaraq dini azlıq kimi tanıyır***".[341]

339 Facebook - Armenians Of Syria السوريون الأرمن Սուրիահայեր, 2020

340 Haykazyan Universiteti Yaxın Şərqdə yeganə erməni universitetidir. Livan ermənilərindən ibarət olan universitet rəhbərliyi artıq bir neçə ildir ki, erməni diasporunun müxtəlif mərkəzləri ilə bağlı tədbirlər silsiləsi keçirir, burada erməni və xarici tədqiqatçılar, erməni icmalarının nümayəndələri iştirak edirlər.

341 В Иордании проживает около 3 тысяч армян, 21 июнь 2016, https://armenpress.am/rus/news/851573/v-iordanii-prozhivaet-okolo-3-tiysyach-armyan.html

## Erməni icmasının İordaniyanın mədəni həyatında fəaliyyəti

İordaniyada erməni icması tərəfindən və ya onların iştirakı ilə mütəmadi olaraq mədəni tədbirlər və festivallar təşkil edilir. 2011-ci ildə paytaxt Əmmanda erməni mədəniyyəti günü çərçivəsində keçirilən festivalda bədii rəhbər Anna Şahinyan tərəfindən qurulmuş **rəqs nümunəsində ermənilərin "oğurlanmış hüquqları"nın bərpası və müdafiəsi uğrunda mübarizəsindən bəhs edilmişdir.**

Digər tədbir 2017-ci ildə İordaniyanın mədəniyyət naziri Nəbih Şüqamın, iordaniyalı diplomatların və bu ölkədəki erməni icması nümayəndələrinin iştirakı ilə Milli İdman Klubunun Mədəniyyət Komitəsi və Ermənistan Respublikasındakı Derian Mədəniyyət Mərkəzi ilə birgə keçirilmişdir.[342]

Növbəti tədbir 2021-ci ildə İordaniyanın Mədəniyyət Nazirliyinin dəstəyi ilə Erməni Pravoslav İcması Şurası tərəfindən təşkil edilmişdir. Paytaxt Əmmanda Kral Mədəniyyət Mərkəzində dövlətin yüz illiyinə həsr olunmuş tədbirdə **İordaniyanın mədəniyyət naziri bu dövlətin formalaşmasında erməni icmasının rolunu qeyd edərək, erməni icmasının İordaniya rəhbərliyinə sədaqətini, eləcə də göstərdikləri xidmətləri ifadə edən bir sıra məsələləri vurğulamışdır.**[343]

Həmin ilin dekabr ayının 14-də İordaniyanın mədəniyyət naziri Hayfaa Əl-Nəccar və Ermənistan Respublikasının İordaniyaya akreditə olunmuş səfiri Tiqran Gevorkyan iki ölkə arasında mədəni icra proqramı sazişini imzalamışlar. **İordaniyalı nazir ölkədəki ermənilərin onilliklər ərzində nümunəvi İordaniya vətəndaşı olduqlarını ifadə etməklə yanaşı, öz yaradıcılıqlarını, dillərini və irslərini qorumağı bacararaq erməni mədəniyyətini yerli mədəniyyətlə uzlaşdırdıqlarını və İordaniya cəmiyyətinin bir parçası olduqlarını söyləmişdir. Eləcə də, İordaniya ermənilərinin ölkədə mədəni və iqtisadi səviyyədə əldə etdikləri nailiyyətləri qeyd etmişdir.**[344]

342 https://www.sayidaty.net/node/631811/أسرة-ومجتمع/فعاليات-ومناسبات/التراث-والأزياء/الأرمنية-في-عرض-للأزياء-الشعبية-في-الأردن-, 30 iyun 2012

343 Депортированные армяне из Иордании выступили на культурном мероприятии, 15 сентябрь 2021, https://westernarmeniatv.com/ru/104141/депортированные-армяне-из-иордании-в

344 وزيرة الثقافة وسفير أرمينيا يوقعان اتفاقية البرنامج التنفيذي الثقافي بين البلدين – (Mədəniyyət naziri və Ermənistanın səfiri iki ölkə arasında mədəni icra proqramı sazişini imzalayıblar), 14 dekabr 2021, https://petra.gov.jo/Include/InnerPage.jsp?ID=198094&lang=ar&name=news

**Qeyd edək ki, İordaniya və Ermənistan arasında ilk saziş məhz mədəniyyət sahəsində olub.** Belə ki, 2012-ci il iyunun 30-da İordaniya və Ermənistan arasında İordaniyanın mədəniyyət naziri Salah Cərar və erməni həmkarı Hamsik Poqosyanın iştirakı ilə mədəni əməkdaşlıq haqqında saziş imzalanmışdır. Sazişdə hər iki ölkənin mədəniyyət sahəsində əməkdaşlıq və təcrübə mübadiləsinin bütün formalarını inkişaf etdirmək, musiqi və mədəniyyət kollektivləri üçün bədii tamaşaların, bədii və sənədli filmlərin nümayişi, mədəniyyət sahəsində mütəxəssis mübadiləsi kimi məsələlər əksini tapmışdır.[345]

Hal-hazırda paytaxt Əmmanda **iki erməni rəqs qrupu** fəaliyyət göstərir. Bunlar Ermənilərə Yardım Cəmiyyətinin nəzdində fəaliyyət göstərən “Araz” rəqs qrupu və Milli İdman Klubu (Watani Sports Club) tərəfindən idarə edilən “Spitak” folklor rəqs ansamblıdır.



**Şəkil 6. İordaniyada erməni məhəlləsi**[346]

## İordaniya-Ermənistan əlaqələri

İordaniya və Ermənistan arasında diplomatik əlaqələr **1996-cı ildə** qurulub. 2014-cü ildə iki ölkənin paytaxtları – **İrəvan və Əmmanın “qardaşlaşmış şəhərlər” elan edilməsinə dair** iki şəhərin meri **Taron Marqaryan və Akel Biltac saziş imzalayıblar**. Sazişdə iki ölkənin

345 تم توقيع اتفاقية تعاون ثقافي بين الأردن وأرمينيا - (İordaniya və Ermənistan arasında mədəni əməkdaşlıq haqqında saziş imzalanıb), 14 dekabr 2021, https://www.addustour.com/articles/449040-توقيع-اتفاقية-للتعاون-الثقافي-بين-الأردن-وأرمينيا&desktop=1

346 Армянская община Иордании, 03 февраль, 2019, https://am.sputniknews.ru/20190203/atele-kirakosyana---kak-v-iordanskoj-akabe-poyavilas-ulica-imeni-armyanskogo-fotografa-17092709.html

paytaxtlarının yerli və bələdiyyə idarəetməsi, o cümlədən tullantıların və suların idarə edilməsi, həmçinin iqtisadiyyatın bir sıra sahələrində qarşılıqlı faydalı əməkdaşlığa başlamaqla təcrübə mübadiləsi aparacaqları nəzərdə tutulmuşdur. Akel Biltac yeni dostluq və davamlı əməkdaşlığın rəmzi olaraq Əmman şəhərinin açarını İrəvan merinə təqdim etmişdir. [347]

Ermənistanın müstəqillik qazanmasından sonra rəsmilər müstəvisində ilk səfər 2014-cü ildə baş tutmuşdur. Ermənistanın keçmiş Prezidenti Serj Sarkisyanın həmin ilin oktyabr ayında İordaniyaya səfəri 32 saat çəkmişdir.[348] İordaniya Kralı ilə görüşən S.Sarkisyan demişdir: "***1917-ci ildə bölgədəki erməni qaçqınlarına göstərdikləri böyük dəstəyə və qayğıya görə babanız Əl-Hüseyn bin Əliyə, onun oğulları Əlahəzrət Şahzadə Feysələ və Əlahəzrət Şahzadə Abdullaha xüsusi təşəkkürümü bildirmək istəyirəm"***. Görüş çərçivəsində iki ölkə arasında diplomatik pasportlara malik olan şəxslərin vizadan azad edilməsi, nüvə enerjisindən dinc məqsədlərlə istifadə, iqtisadi əməkdaşlıq, turizm, kənd təsərrüfatı, səhiyyə kimi məsələlər müzakirə edilmişdir. İki ölkənin Sənaye və Ticarət Palataları arasında İordaniya-Ermənistan birgə biznes şurasının yaradılması nəzərdə tutulmuşdur. [349]

2019-cu ilin aprel ayında Ermənistan Respublikasının Prezidenti Armen Sarkisyanın İordaniya Haşimilər Krallığında İordaniyanın erməni icması ilə görüşü baş tutmuşdur. A. Sarkisyan görüşdə dünyada erməni icmasının önəmini vurğulayaraq demişdir: ***"Dünyanın dörd bir yanına səpələnmiş halda yaşamağımız bizim üçün çatışmazlıq yox, üstünlükdür. Çünki biz dünyanın kiçik ölkələrindən biri olaraq rahat şəkildə deyə bilərik ki, biz kiçik ölkə, lakin dünya xalqıyıq!".***

İordaniyanın erməni icmasının ölkənin həyatına tam inteqrasiya etdiyini fəxrlə qeyd edən Armen Sarkisyan demişdir: ***"Bu, çox vacibdir. Dünyanın dörd bir tərəfində yaşayan icma nümayəndələrimiz "Mən 100 faiz erməni, 100 faiz fransızam" deyən dahi şair, müğənni və bəstəkar Şarl Aznavurdan nümunə götürməlidirlər. 100 faiz iordaniyalı olmaqla, bu ölkənin siyasi, iqtisadi, mədəni***

---

347 https://asbarez.com/yerevan-amman-become-sister-cities/, December 14, 2021

348 صحيفة الرأي تحاور الرئيس الارمني قبل بدأ زيارته الرسمية الى الاردن | جفرا نيوز (jfranews.com.jo) ("Ər-Rai" qəzeti Ermənistan prezidentinin İordaniyaya rəsmi səfərindən əvvəl ondan müsahibə alır), 29 oktyabr 2014

349 İordaniya-Ermənistan birgə biznes şurasının yaradılması haqqında mətbuatda heç bir məlumat yoxdur.

***həyatında tam iştirak edən eyni zamanda 100 faiz ermənidir. Bu, uğurun formuludur"***.[350]

İki ölkə arasında turizm sahəsinin inkişafı istiqamətində aşağıda qeyd olunan bir sıra görüşələr keçirilmişdir:

2020-ci ilin fevral ayında Ermənistanın iqtisadiyyat naziri Tiqran Xaçaturyan və İordaniyanın sənaye, ticarət və təchizat naziri Tarik Ammuri arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Görüşdə İordaniya tərəfinin Ermənistanın kənd təsərrüfatı məhsullarına marağı və turizm potensialı müzakirə edilmişdir. İki ölkə arasında turizm əlaqələrinə gəlincə, **2019-cu ildə Ermənistana gələn 1,9 milyon turistdən cəmi 2 mini iordaniyalı olub.[351]**

2021-ci ilin avqust ayında Ermənistanın Turizm Komitəsi ilə İordaniya Turizm Assosiasiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.[352] Turizm sahəsində ikitərəfli əlaqələrin inkişafındakı problemlər sırasında birbaşa aviareyslərin olmamasına diqqət çəkilmiş, bu istiqamətdə işlərin və danışıqların aparıldığı vurğulanmışdır. [353]

**Qeyd:** İki ölkə arasında birbaşa hava reyslərinin açılması ilə bağlı bir neçə dəfə görüş keçirilsə də, bu məsələ hələ də həllini tapmamışdır.

## İordaniya və Ermənistan arasında iqtisadi əlaqələr

Fərqli illərdə Ermənistan və İordaniya arasında iqtisadi sferada müxtəlif təmaslar müşahidə edilmişdir. 2020-ci il fevralın 10-da İordaniya Haşimilər Krallığının Kralı II Abdullahın İrəvana səfəri çərçivəsində Ermənistan-İordaniya biznes forumu keçirilmişdir. Biznes forum

350 https://www.president.am/ru/press-release/item/2019/04/06/President-Armen-Sarkissian-met-with-Armenian-community/, 06 aprel 2019

351 Армения предлагает туризм, Иордания интересуется химией: страны подписали меморандум, 10 февраль 2020, https://am.sputniknews.ru/20200210/Armeniya-predlagaet-turizm-Iordaniya-interesuetsya-khimiey-strany-podpisali-memorandum-22003340.html

352 أرمينيا والأردن تسعيان لتطوير العلاقات في مجال السياحة ( Ermənistan və İordaniya turizm sahəsində əlaqələri inkişaf etdirməyə çalışır), 02 avqust, 2021, https://ar.armradio.am/2021/08/02/أرمينيا-والأردن-تسعيان-لتطوير-العلاق/?doing_wp_cron=1672216605.2913539409637451171875

353 Армения и Иордания будут сотрудничать в сфере туризма, планируются ознакомительные туры, 30 июнь 2021, https://newsarmenia.am/news/society/armeniya-i-iordaniya-budut-sotrudnichat-v-sfere-turizma-planiruyutsya-oznakomitelnye-tury/

çərçivəsində İordaniyanın özəl sektorunun nümayəndələri erməni tərəfdaşları ilə turizm, kənd təsərrüfatı, enerji və bir sıra digər sahələrdə əməkdaşlığın perspektivlərini müzakirə etmişlər. Ermənistanın keçmiş iqtisadiyyat naziri Tiqran Xaçaturyan demişdir: ***“Biz bu biznes forumu ona görə təşkil etdik ki, biznes nümayəndələri bir-birini tanısınlar, həm Ermənistanda, həm də İordaniyada mövcud olan iqtisadi imkanları öyrənsinlər, daha sıx əməkdaşlıq etsinlər. Nəticədə ticarət-iqtisadi və birgə investisiya proqramlarının həyata keçirilməsi üçün təşəbbüslər müəyyənləşdirsinlər”***.[354]

2021-ci il martın 30-da Ermənistan baş nazirinin keçmiş müavini Ambarcum Matevosyan Birləşmiş Ərəb Əmirliklərindəki səfəri çərçivəsində İordaniya Haşimilər Krallığının investisiya naziri Xeyri Amri ilə görüşmüşdür. Bu görüş iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı və qarşılıqlı investisiya imkanlarının genişləndirilməsi məqsədini güdürdü. Görüş zamanı hər iki ölkənin investisiya mühitinə dair məlumatlar təqdim edilmişdir. Həm Ermənistan, həm də İordaniya nümayəndələri investisiya üçün əlverişli şəraitin yaradılması istiqamətində müxtəlif mexanizmləri müzakirə etmişlər. [355]

İordaniya və Ermənistan arasında iqtisadi göstəricilərin həcmi çox azdır. Həm idxal, həm də ixrac kifayət qədər kiçik rəqəmlərlə ifadə olunur. Belə ki, Ermənistan Dövlət Gəlirləri Komitəsinin rəsmi statistik göstəricilərinə əsasən, 2018-ci ildə Ermənistandan İordaniyaya ixracın həcmi 19,7 min dollar, idxal isə 169,2 min dollar təşkil etmişdir. 2019-cu ilin birinci yarısında Ermənistandan İordaniyaya cəmi 400 ABŞ dolları dəyərində mal ixrac edilmiş, 54,5 min dollarlıq mal idxal edilmişdir.[356] Eyni ilin yanvar-noyabr aylarında İordaniyanın Ermənistana ixracı 40 faiz azalaraq 57,3 min dollar, idxalı isə 27,6 min dollar təşkil etmişdir.[357] Son illərdə ikitərəfli iqtisadi göstəricilər barədə məlumata rast gəlinməmişdir.

---

354 رجال الأعمال من أرمينيا والأردن يقومون بتعزيز العلاقات الثنائية – (Ermənistan və İordaniya biznesmenləri ikitərəfli əlaqələri gücləndirirlər), 10 fevral 2020, https://ar.armradio.am/2020/02/10/رجال-الأعمال-من-أرمينيا-والأردن-يقومو/

355 Амбарцум Матевосян и министр инвестиций Иордании представили особенности инвестиционной среды Армении и Иордании, 31 март 2022, Амбарцум Матевосян и министр инвестиций Иордании представили особенности инвестиционной среды Армении и Иордании,

356 Армения предлагает туризм, Иордания интересуется химией: страны подписали меморандум, 10 февраль 2020 https://am.sputniknews.ru/20200210/Armeniya-predlagaet-turizm-Iordaniya-interesuetsya-khimiey-strany-podpisali-memorandum-22003340.html

357 انعقاد منتدى الأعمال الأردني الأرميني – هلا اخبار (hala.jo) İordaniya-Ermənistan Biznes Forumu, 11 fevral 2020

## İkitərəfli əlaqələr Azərbaycan kontekstində

Azərbaycan və Ermənistan arasında **2020-ci ilin 10 noyabr tarixində üçtərəfli bəyannamənin imzalanmasından sonra Ermənistan Prezidentini ölkəsinə dəvət edən ilk xarici ölkə başçısı İordaniya Kralı II Abdullah olmuşdur.** (Bu səfərdən əvvəl 15 noyabr tarixində Ermənistan Prezidenti Armen Sarkisyanın Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) qısamüddətli (bir neçə saatlıq) işgüzar səfəri baş tutmuşdur).[358] 23 noyabr tarixində İordaniya kralı II Abdullah ilə görüşən Armen Sarkisyan demişdir: ***"Bu dəvət onu göstərir ki, Ermənistan üçün ən çətin məqamda İordaniya ölkəmizə əl uzadır, bütün dünyaya, xüsusən də İslam dünyasına Ermənistanın tək olmadığını göstərir. Bu, onu göstərir ki, bu müharibə heç vaxt dini müharibə kimi qiymətləndirilə bilməz. Əksinə, İslam dünyasının lideri bizə ilk əlini uzadanlardandır"***.

Öz növbəsində İordaniya Kralı II Abdullah Ermənistan Prezidenti Armen Sarkisyanla görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin BMT-nin qətnamələri və beynəlxalq legitimliyə uyğun olaraq, təhlükəsizliyi təmin edəcək şəkildə həlli istiqamətində səylərin davam etdirilməsinin vacibliyini vurğulamışdır.[359]

**2022-ci ilin oktyabr ayında İordaniya və Ermənistan arasında gərginlik müşahidə edilmişdir.** Belə ki, İordaniyanın Ermənistana silah tədarükündən imtina etməsindən sonra **Ermənistanın Müdafiə Nazirliyi İordaniya şirkəti ilə imzaladığı müqaviləni ləğv etmişdir.**

2021-ci ilin avqust ayının 6-da Ermənistanın Müdafiə Nazirliyi ilə İordaniyanın "Jadara Equipment & Defense Systems Co" şirkəti arasında imzalanan müqaviləyə uyğun olaraq, həmin il ərzində sifarişi yerinə yetirməli olan İordaniya şirkəti bundan imtina etmişdir. Nəticədə oktyabrın 10-da Ermənistanın Müdafiə Nazirliyi tərəfindən müqaviləyə birtərəfli qaydada xitam verilmişdir.

**Ermənistan tərəfi silah tədarükündən imtina etməsini 2022-ci ilin sentyabr ayında İordaniyanın Azərbaycanla əməkdaşlıq sazişi imzalaması ilə əlaqələndirmişdir.**[360]

358 رئيس أرمينيا يبحث في أبو ظبي اتفاق قره باغ – (Ermənistan prezidenti Əbu-Dabidə "Qarabağ" sazişini müzakirə edir), 16 noyabr 2020, https://www.aa.com.tr/ar/دولي/رئيس-أرمينيا-يبحث-في-أبو-ظبي-اتفاق-قره-باغ/9694402

359 العاهل الأردني يلتقي الرئيس الأرميني: تأكيد ضرورة حل نزاع كاراباخ – (İordaniya kralı Ermənistan prezidenti ilə görüşüb: Qarabağ münaqişəsinin həllinin vacibliyini vurğulanıb), 23 noyabr 2020, العاهل الأردني يلتقي رئيس أرمينيا: تأكيد ضرورة حل نزاع كاراباخ

360 Армения не получила у Иордании заказанное оружие и требует штраф,

## Nəticə

İordaniyanın erməni icması Yaxın Şərq bölgəsindəki digər ölkələrə nisbətən kiçik olsa da, öz yerini tapmış və cəmiyyətdə əhəmiyyətli bir nüfuza sahib olmuşdur. Hazırda İordaniya ermənilərinin sayı təxminən **3 min nəfərdir.** Onlar əsasən paytaxt Əmmanda məskunlaşmışdır. Həmçinin ölkənin digər böyük şəhərləri olan Russeyfa, Mədəbə, Şubak, Kərək, Maan və İrbiddə də erməni icmalarına rast gəlmək mümkündür. İordaniya ermənilərinin mədəni və sosial mərkəzi isə Əmmanın Əl-Əşrəfiyyə məhəlləsində yerləşir.

İordaniyaya erməni mühacirlərinin gəlişi Birinci Dünya müharibəsinin baş verdiyi vaxta təsadüf edir. Həmin dövrdə burada ermənilərin sayı 5-6 min arasında dəyişirdi. 1948-ci ildəki İsrail-Fələstin müharibəsindən sonra, İordaniyaya yeni mühacir axını başlamışdır. Bu da ermənilərin sayını 10 minə çatdırmışdır. 1967-ci ildə baş vermiş "Altıgünlük müharibə"dən sonra İordaniyadan çoxlu sayda erməni **Avstraliya, Kanada və ABŞ-yə mühacirət etmiş**, bu tendensiya 1970-ci illərə qədər davam etmişdir. Nəticədə, icmanın sayı **iki dəfə** azalmışdır.

İordaniyada xristianlar əhalinin **2,1 faizini** təşkil edirlər. Onların əksəriyyəti **yunan pravoslav, yunan və Roma katoliklər, Suriya ortodoks, erməni pravoslav və protestant** məzhəblərinin nümayəndələridir.

Erməni icması İordaniyada müxtəlif dövrlərdə əhəmiyyətli ictimai-siyasi, mədəni və idman təşkilatları təsis edə bilib. Bu sırada 1955-ci ildə yaradılan "Ramqavar-Azatakan" (RAK) Partiyasının himayəsi altında fəaliyyət göstərən **Milli İdman Birliyinin (Watani Sports Club),** 1936-cı ildə yaradılan və Daşnaksütyun Erməni İnqilabi Federasiyasının (ARFD) himayəsi altında fəaliyyət göstərən **Ümumerməni İdman Birliyinin**, 1945-cı ildə yaradılan "**Homenetmen" erməni idman və skaut klubunun və** 1965-ci ildə yaradılan **Ermənilərə Yardım Cəmiyyətinin adını qeyd etmək olar**.

İordaniyada **ilk erməni məktəbi Əmmanda Cəbəl Əl-Nətifdə** yaradılmışdır. Məktəb "Hetoumyan Azkayeen Varjaran" adı ilə **1930-cu illərdə** fəaliyyət göstərmişdir. Hal-hazırda Əmmanda iki erməni ibtidai məktəbi fəaliyyət göstərir. Birincisi Ümumerməni Xeyriyyə Birliyinin **"Yüzbaşyan-Gulbenkyan"** məktəbidir. (1962-ci ildə yaradılan milli gimnaziyadır). Paytaxt Əmmanın əl-Əşrəfiyyə rayonunda yerləşir.

02 февраль 2022, https://ru.armeniasputnik.am/20221102/armeniya-ne-poluchila-u-iordanii-zakazannoe-oruzhie-i-trebuet-shtraf-50781063.html

Burada İordaniya Təhsil Nazirliyinin müəyyən etdiyi ümumi təhsil proqramına əlavə olaraq erməni ədəbiyyatı, tarixi və dini erməni dilində tədris olunur. Digəri **Saak Məsrob adına Erməni Katolik Məktəbidir.** Bu məktəb də paytaxt Əmmanın Əl-Əşrəfiyyə rayonunda yerləşir.

İordaniyanın ilk erməniləri **tacir və sənətkarlar** olublar. Burada məskunlaşdıqları ilk illərdən etibarən əsasən fotoqrafiya, moda, avtomexanika, peşəkar biznes və xırda ticarətlə məşğul olan ermənilərin hazırkı fəaliyyətləri bundan kəskin şəkildə fərqlənmir. Həmçinin ölkənin erməni icması arasında məşhur **saat ustalarını, zərgərləri və fotoqrafları** misal göstərmək olar. İordaniyanın erməni icmasının məşhur fotoqrafı **Akop Kirakosyan** hazırkı Kral II Abdullahın atası Hüseyn ibn Talalın şəxsi fotoqrafı olmuşdur. Hazırda Kirakosyanlar kralın şəxsi fotoqrafı olmasalar da, ailənin Aqabə səfəri zamanı Əlahəzrətin şəklini çəkmək üçün lisenziyası və hüququ olan şəxslərdir.

Paytaxt Əmmanda iki erməni rəqs qrupu da var. Bunlar Ermənilərə Yardım Cəmiyyətinin nəzdində fəaliyyət göstərən "**Araz" rəqs qrupu** və **Milli İdman Birliyi (Watani Sports Club)** tərəfindən idarə edilən "**Spitak" folklor rəqs ansamblıdır**. İcmanın mədəniyyət birlikləri mütəmadi olaraq təşkil edilən tədbirlərdə və festivallarda fəal şəkildə iştirak edir. İordaniya və Ermənistan arasında **ilk imzalanan saziş** məhz mədəniyyət sahəsində olmuşdur.

İordaniya və Ermənistan arasında diplomatik əlaqələr **1996-cı ildə** qurulmuşdur. 2014-cü ildə iki ölkənin paytaxtları – **İrəvan və Əmmanın "qardaşlaşmış şəhərlər"** elan edilməsinə dair saziş imzalanmışdır.

Ermənistan Dövlət Gəlirləri Komitəsinin rəsmi statistik göstəricilərinə əsasən, 2018-ci ildə Ermənistandan İordaniyaya ixracın həcmi 19,7 min dollar, idxal isə 169,2 min dollar təşkil etmişdir. 2019-cu ilin birinci yarısında Ermənistandan İordaniyaya cəmi 400 ABŞ dolları dəyərində mal ixrac edilmiş, 54,5 min dollarlıq mal isə idxal edilmişdir.

2021-ci ilin avqust ayında Ermənistanın Turizm Komitəsi ilə İordaniya Turizm Assosiasiyası arasında əməkdaşlıq memorandumu imzalanmışdır. İki ölkə arasında turizmin inkişafındakı problemlər sırasında birbaşa aviareyslərin olmamasına diqqət çəkilmiş, bu istiqamətdə işlərin və danışıqların aparıldığı vurğulanmışdır.

**Qeyd:** İki ölkə arasında birbaşa hava reyslərinin açılması ilə bağlı bir neçə dəfə görüş keçirilsə də, bu məsələ hələ də həllini tapmayıb.

**İordaniyanın erməni icması ilə bağlı apardığımız araşdırma nəticəsində məlum oldu ki, saylarının az olmasına baxmayaraq, ermənilər mühüm sahələrdə yer tutmağı bacarıblar. Lakin erməni icması İordaniyanın Azərbaycanla münasibətlərinə ciddi təsir göstərmək imkanına malik deyil. İordaniya Azərbaycanla ikitərəfli yaxın münasibətlər qurmuş və Qarabağ məsələsinin BMT Təhlükəsizlik Şurasının qərarları çərçivəsində həllini dəstəkləmişdir.**

# ÜMUMİ NƏTİCƏ

"Yaxın Şərqdə erməni diasporu" mövzusunda aparılan araşdırma regionda erməni icmalarının uzun illər ərzində **əhəmiyyətli təsirə malik olduğunu, bölgənin siyasi, iqtisadi, sosial və mədəni sahələrində vacib rol oynadığını göstərdi. Bu icmalar öz adət-ənənələrinə sadiq qalmaqla yanaşı, həmin ölkələrin həyatında müəyyən mövqelər tutmuş və bu ölkələrin xalqları arasında öz təsirlərini yaratmağa müvəffəq olmuşlar. Lakin erməni diasporunun təsirləri həm müsbət, həm də mənfi aspektlərdə dəyişikliklərə uğramış, son dövrlərdə regionda baş verən böhranlar və müharibələr nəticəsində onların qarşılaşdıqları çətinliklər artmışdır.**

Bu tədqiqatın ölkələr üzrə bölmələrindən biri erməni diasporunun Yaxın Şərqdəki siyasi mənzərəyə təsirini və siyasi prosesləri necə formalaşdırdığını izah edir. Eyni zamanda, diasporun diplomatik fəaliyyətləri və siyasi nüfuzunun bölgədəki siyasi və diplomatik münasibətləri necə formalaşdırdığını aydınlaşdırır.

Yaxın Şərqdə erməni diasporunun siyasi sahədəki təsiri xüsusilə Misir, Livan, Suriya, Fələstin və İordaniya kimi ölkələrdə özünü göstərir. Misirdə tarixən erməni əsilli şəxslərin yüksək vəzifələr tutmaları və onların bu fəaliyyətlərinin ölkənin siyasi həyatında önəmli töhfə olaraq qiymətləndirilməsi əhəmiyyətli bir faktordur. Misirin ilk xarici işlər naziri Boqos Yusifyan, ilk baş naziri Nübar bəy Nübaryan, digər dövlət xadimləri - Tiqran Paşa və Nübar bəy Nübaryanın oğlu Boqos Nübar Paşa Nübaryan erməni əsilli siyasətçilər olublar. Lakin bu gün Misir erməniləri siyasi proseslərdə o qədər də fəal iştirak etmirlər. Bu isə yalnız erməni icmasının sayının azalması ilə bağlı deyil, həmçinin Misirdəki ümumi siyasi dəyişikliklərlə əlaqədardır. Bu, erməni diasporunun regiondakı təsirinin zamanla azaldığını və bunun müasir dövrün mürəkkəb geosiyasi şərtləri ilə əlaqəli olduğunu deməyə əsas verir.

Misirdən fərqli olaraq hazırda Fələstin və Livan erməni diasporunun siyasi təsirini qorumağa davam edir. Belə ki, son illərdə Fələstin ermənilərinin ölkənin siyasi həyatında iştirakında artım müşahidə olunur. Bu nümunələrdən biri Varsen Ohanes Vartan Ağabekyanla bağlıdır. O, 2025-ci il iyunun 23-də Fələstin Prezidenti Mahmud Abbasın sərəncamı ilə xarici işlər və diaspor naziri təyin olunmuşdur. V. Ağabekyan həm bu vəzifəyə gətirilən ilk qadın, həm də ilk erməni əsilli şəxsdir.

Livana gəlincə, ölkə parlamentində erməni təmsilçiliyi, xüsusilə Daşnaksütyun Partiyasının təsiri ilə hələ də əhəmiyyətli yer tutmaqda davam edir. Livan parlamentində altı erməni deputatın mövcudluğu və digər siyasi mülahizələr erməni icmasının Livanda nəinki siyasi, həm də mədəni təsir gücünü davam etdirməyə çalışdığını göstərir.

Digər iki ölkəyə gəlincə, Suriya İordaniyadakı erməni icmalarının siyasi fəaliyyətləri daha məhduddur. Suriya daxilində ermənilər parlamentdə uzun illər təmsil olunsalar da, son dövrlərdə bu təmsilçilik həm ölkə daxilindəki, həm də regiondakı siyasi dəyişikliklər nəticəsində azalmışdır.

Tədqiqatın digər bölmələri erməni diasporunun müvafiq olaraq ölkələr üzrə sosial, mədəni, iqtisadi və digər sahələrdəki mövqelərini əks etdirir. Araşdırılan məlumatlar və aşkar edilən faktlar onların Yaxın Şərqdəki böyük şəhərlərdə və icmalarda fəaliyyətlərini daha açıq şəkildə anlamağa imkan verir. Araşdırma sayəsində Livan, Misir, Fələstin, Suriya və İordaniyada ermənilərin öz mədəniyyətlərini qorumağa və yaymağa davam etdikləri, həmçinin yerli mətbuat və təhsil sahələrində apardıqları təbliğatları və fəaliyyətləri aşkar oldu. Məsələn, Livanda fəaliyyət göstərən Haykazyan Universiteti regiondakı yeganə erməni universiteti olaraq, erməni mədəniyyətini və təhsilini dəstəkləyir. Bununla yanaşı, Misirdə ermənilərin qondarma "soyqırımı"nı təbliğ edən mədəni fəaliyyətləri, xüsusilə sənədli filmlər və digər mədəniyyət tədbirləri onların identikliklərini qorumağa yönəlmiş strateji addımlar olaraq diqqət çəkir.

Eyni zamanda, araşdırma nəticəsində Yaxın Şərqin erməni icmasının qarşılaşdığı problemlərin də az olmadığı bəlli oldu. Onların qarşılaşdıqları ən böyük çətinliklərdən biri Yaxın Şərqdəki sosial və siyasi dəyişikliklərə uğramaqlarıdır. Bundan əlavə, erməni icmalarının üzləşdiyi demoqrafik dəyişikliklər, xüsusilə məskunlaşdıqları ölkələrdəki azalmış əhali sayları onların gələcəkdə daha az təsirli olmalarına səbəb ola biləcək amillərdəndir.

Nəticələr əsasında həmçinin məlum oldu ki, bu gün Yaxın Şərqin bəzi ölkələrində erməni diasporunun son iyirmi illə müqayisədə zəifləməsinə baxmayaraq, onlar hələ də öz adət-ənənələrinə sadiq qalaraq regionda siyasi, sosial-mədəni və iqtisadi fəaliyyətlərini davam etdirməyə çalışırlar.

Yaxın Şərqdəki erməni diasporunun müəyyən dövrlərdə bölgədə müstəqil və təsirli aktor olduğu, eyni zamanda həmin ölkələrin əhə-

miyyətli dinamikalarının formalaşmasında mühüm rola malik olduğu məlum oldu. Bununla yanaşı, gələcəkdə diasporun qarşılaşacağı müxtəlif çətinliklər və perspektivlər də təhlil edildi. Bu nəticələr erməni diasporunun Yaxın Şərqdəki siyasi və mədəni səhnədə rol oynamaqda potensialının olduğunu göstərməklə yanaşı, mövcud problemlərin **həllinə dair irad və təkliflərə zəmin yaradır.**

**Qeyd edək ki, Yaxın Şərqin erməni icmasının region ölkələrinin müxtəlif sahələrinə nüfuz edərək, güc sahibi olmaları bəzən Azərbaycanla həmin ölkələr arasında ikitərəfli əlaqələrə müəyyən dərəcədə mənfi təsir göstərsə də, bu, ciddi təsir imkanına malik olmamışdır. Həmçinin, qeyd edilməlidir ki, hazırda Azərbaycanın əksər ərəb ölkələri ilə əlaqələri artan xətt üzrə inkişaf etməkdədir.**

# ƏDƏBİYYAT SİYAHISI


1. Encyclopædia Britannica. (n.d.). *Lebanon:* https://www.britannica.com/place/Lebanon/Climate

2. تقديم كتاب «الكنائس الأرمنية في لبنان»، ر. جرجيان. - (“Livandakı erməni kilsələri” kitabının təqdimatı, Cociyan R.15 may, 2021)

3. Türkiye Cumhuriyeti Ticaret Bakanlığı. (Mayıs, 2019). Lübnan ülke profili (s. 3) - https://ticaret.gov.tr/data/5b8a43345c7495406a226d0d/Lubnan_Ulke_Profili_2019.pdf

4. Beirut Arab University, Research Center for Environment and Development. (n.d.). A glance at the bloom of Debbieh - https://www.bau.edu.lb/BAUUpload/Publications/Attachments/Glance-at-the-Bloom-of-Debbieh-BAUPublicationsOffice.pdf

5. لبنان..أرض الأرز الحضارات والغابرة - (Livan – sirlər və qədim sivilizasiyalar məkanı). (6 avqust 2024). Al Jazeera - https://www.aljazeera.net/encyclopedia/2024/8/6/لبنان-أرض-الأرز-والحضارات-الغابرة

6. تفاعلكم | هل غيرت بولا يعقوبيان موقفها من حزب الله ؟ - (Paula Yaqubyan Hizbullahla bağlı mövqeyini dəyişibmi?) (24 mart, 2019). Al Arabiya – YouTube kanalı - https://www.youtube.com/watch?v=0RjIrZuUU_U

7. دستور لبنان الصادر عام 1926 شاملا تعديلاته لغاية عام 2004 - (Livanın 2004-cü il dəyişikliklərini ehtiva edən 1926-cı il konstitusiyası) - Lebanon_2004.pdf

8. Republic of Lebanon. (2022). Parliamentary elections: Key results brochure (p. 36).

9. Beirut Arab University, Research Center for Environment and Development. (n.d.). A glance at the bloom of Debbieh - https://www.bau.edu.lb/BAUUpload/Publications/Attachments/Glance-at-the-Bloom-of-Debbieh-BAUPublicationsOffice.pdf

10. Овян В. (8 апреля 2010). Армянская протестантская община Ливана, Noravank Foundation - http://www.noravank.am/rus/articles/detail.php?ELEMENT_ID=4630#11_b

11. The Guardian. (16 April 2015). Number of Armenians living outside Armenia - https://www.theguardian.com/news/2015/apr/16/the-armenian-genocide-the-guardian-briefing

12. United Nations Development Programme (UNDP). (2022). Parliamentary elections: Key results brochure - https://www.undp.org/sites/g/files/zskgke326/files/2023-11/final_2022-parliamentary_elections_key_results_brochure_web.pdf

13. Пономарёв, Б. Н. (n.d.). История СССР с древнейших времен до наших дней (Т. 5, с. 417). Наука.

14. Armenian Orthodox Church. (n.d.). A delegation from the ADL party (Ramgavar) in Lebanon visits Antelias - https://www.armenianorthodoxchurch.org/en/archives/43929-

15. Tashjian, Y. (2023). The political future of the Armenian community in a fractured Lebanon (p. 4). American University of Beirut - https://www.aub.edu.lb/ifi/Documents/The-Political-Future-of-the-Armenian-Community-Yeghia-Tashjian.pdf

16. Tashjian, Y. (5 March 2018). The origin, success and failure of the Lebanese-Armenian “Third Force” during the intra-communal cold war (1956–1960). New Eastern Politics - https://www.neweasternpolitics.com/the-origin-success-and-failure-of-the-lebanese-armenian-third-force-during-the-intra-communal-cold-war-1956-1960-by-yeghia-tashjian/

17. Encyclopædia Britannica. (n.d.). Armenian Secret Army for the Liberation of Armenia - https://www.britannica.com/topic/Armenian-Secret-Army-for-the-Liberation-of-Armenia
18. الجالية الأرمنية ومساهمتها في الحياة الفلسطينية - ("Erməni icması və onun Fələstin həyatına töhfəsi"), (11 oktyabr 2022) - https://www.palestine-studies.org/ar/node/1653306
19. The Guardian. (8 June 2014). Internet of Things: It's all coming together for a tech revolution - https://www.theguardian.com/technology/2014/jun/08/internet-of-things-coming-together-tech-revolution
20. Sanoyan, D. (2009). Armenian community in Jerusalem and Palestine in the period of World War I and the Genocide - https://cyberleninka.ru/article/n/armenian-community-in-jerusalem-and-palestine-in-the-period-of-world-war-i-and-the-genocide
21. ارمن فلسطين..أرمن مصر.. بعيدا عن السياسة . - (Misir erməniləri.. Fələstin erməniləri...Siyasətdən uzaq) (pp. 3–4). https://books.google.az/books?id=htrmzQEACAAJ
22. MGIMO. (n.d.). Ислам в Палестине - (Fələstində İslam) - https://mgimo.ru/upload/iblock/cd6/islam-v-palestine.pdf
23. Middle East Eye. (19 November 2020). "Une grande gifle": À Jérusalem, les Arméniens meurtris par le soutien d'Israël à l'Azerbaïdjan ["Üzə böyük sillə": Qüdsdəki ermənilər İsrailin Azərbaycana dəstəyindən əzildilər] - https://www.middleeasteye.net/fr/reportages/armeniens-jerusalem-armes-israel-azerbaidjan-haut-karabakh-palestine
24. Армянский музей Москвы и культуры наций. (n.d.). Священнослужителя, сдавшего в аренду земли армянского квартала в Иерусалиме, лишили сана. - Armenews.com - https://www.armenews.com
25. Hopkins, I. W. J. (19 July 2013). The four quarters of Jerusalem. Palestine Exploration Quarterly, 103(2), 68–85. https://www.tandfonline.com/doi/epdf/10.1179/peq.1971.103.2.68?needAccess=true
26. Institute for Palestine Studies. (n.d.). Armenians of Jerusalem - https://www.palestine-studies.org/en/node/78237
27. The Armenian Weekly. (1992). A publication of the A.R.F. Central Committee. Eastern USA - https://tert.nla.am/archive/NLA%20TERT/Armenian%20weekly/1992/6.pdf
28. John A. Shoup, The history of Syria. California, 2018 - https://search.worldcat.org/title/history-of-syria/oclc/1033552656
29. بورنزسيان، س. (1970). ارمن دمشق - ("Dəməşq erməniləri) (1st ed.). Noor Library.
30. كتاب النواب الأرمن في المجلس النيابية Sita Institute. (2017, November 9). ("Suriya parlamentinin erməni millət vəkilləri: 1928–2011-ci illər" kitabı).
31. Central Intelligence Agency (CIA). (29 November 2022). Explore all countries – Syria. - https://www.cia.gov/the-world-factbook/countries/syria/
32. GOV.UK. (21 January 2015). Syria – Country of concern. - https://www.gov.uk/government/publications/syria-country-of-concern
33. Institute for the Study of War. (December 2011). The struggle for Syria in 2011.- https://web.archive.org/web/20190430184640/http://www.understandingwar.org/sites/default/files/Struggle_For_Syria.pdf
34. Encyclopædia Britannica. (n.d.). Finance of Syria. - https://www.britannica.com/place/Syria/Finance
35. Nalçı, T., & Dağlıoğlu, E. C. (n.d.). 'Farklı bir mebus': Artin Boşgezenyan (s. 15).
36. U.S. Department of the Treasury, Office of Public Affairs. (18 July 2012). Fact sheet. - https://home.treasury.gov/system/files/136/archive-documents/Fact-Sheet.pdf
37. United Armenian Council for the Commemoration of the Armenian Genocide. (n.d.). Armenian Genocide Monument in Aleppo, Syria. Armenian Genocide Memorial Monuments.

38. President of Armenia. (17 June 2009). Пресс-конференция Президента Сержа Саргсяна и Президента Сирии Башара Аль-Асада

39. France 24. (13 February 2020). Syria parliament recognises Armenian genocide. - https://www.france24.com/en/20200213-syria-parliament-recognises-armenian-genocide

40. russia-armenia.info. (23 October 2014). Арабский писатель издал книгу «2015: 100-летие Геноцида армян». Центр поддержки русско-армянских стратегических и общественных инициатив - https://russia-armenia.info

41. أرمينيا ماضياً وحاضراً… كتاب يؤرخ للعلاقات العربية الأرمنية لأرشاك بولاديان – S A N A, (03 october 2016). - (“Keçmiş və indiki Ermənistan”. Arşak Poladyanın ərəb-erməni münasibətlərini əks etdirən kitabı)

42. کوردیپێدیا - کوردیپیدیا بەرفرەهترین ژێدەری زانیاریێن کوردییە! (kurdipedia.org) - “VII əsrdən X əsrə kimi kürdlər” kitabı (nəşr ili - 2013)

43. Middle East Eye. (6 March 2023). How Armenians in Egypt are preserving their heritage - https://www.middleeasteye.net/discover/how-armenians-egypt-are-preserving-their-heritage

44. Encyclopædia Britannica. (n.d.). Government and society – Egypt - https://www.britannica.com/place/Egypt/Government-and-society

45. Egyptian Streets. (8 August 2022). How the Armenian community made Egypt a home - https://egyptianstreets.com/2022/06/08/how-the-armenian-community-made-egypt-a-home/

46. جامعة الأزهر تستقبل الدكتور سلامة داود القائم بأعمال رئيس الجامعة - (Əl-Əzhər Universiteti yeni prezident vəzifəsini icra edən Dr.Salama Davudu salamlayır), (11 August 2022)

47. “نوبار باشا :الترجمان الذي أفلس الخديو إسماعيل و شوّه القائد إبراهيم” - (Xədiv İsmayılı müflis edən və komandir İbrahimə ləkə yaxan tərcüməçi) 22 sentyabr 2019(نوبار باشا : الترجمان الذي أفلس الخديو إسماعيل و شوّه القائد إبراهيم – موقع الدكتور محمد الجوادي | أبو التاريخ,)

48. “من بينهم أول رئيس وزراء مصري، حكاية الجالية الأرمنية في مصر” - (Onların arasında Misirin ilk baş naziri də var. Misirin erməni icmasının hekayəsi) 27 sentyabr 2018 https://www.bbc.com/arabic/middleeast-45533589

49. سفيرة مصر بأرمينيا ل(أ ش أ): تصويت الجالية في الانتخابات عكس وعيًا بأهمية المشاركة الإيجابية لصالح الوطن - (Misirin Ermənistandakı səfiri: Erməni icmasının seçkilərdə səs verməsi millətin rifahı üçün müsbət və vacib addımdır) 03 dekabr 2023

50. الرئيس السيسي يعقد مباحثات مع رئيس وزراء أرمينيا – (Prezident Sisi Ermənistanın Baş naziri ilə danışıqlar aparır) 29 yanvar 2023 - https://www.mena.org.eg/ar/news/dbcall/table/webnews/id/9991914

51. وزيرة الهجرة تلتقي نخبة من أبناء الجالية الأرمينية من المستثمرين ذوي الأصول المصرية - (İmmiqrasiya naziri erməni icmasının bir qrup üzvü, o cümlədən Misir əsilli investorlarla görüşdü), 23 mart 2023 (وزيرة الهجرة تلتقي نخبة من أبناء الجالية الأرمينية من المستثمرين ذوي الأصول المصرية-الهيئة العامة للإستعلامات (sis.gov.eg)

52. World Data ethnic composition pie chart, Egypt [Photo by Encyclopaedia Britannica/ Universal Images Group via Getty Images] - https://www.gettyimages.com/detail/news-photo/world-data-ethnic-composition-pie-chart-egypt-news-photo/835255690

53. Кривец, Е. А. (n.d.). Исторические реалии и перспективы взаимоотношения церкви и государства в Египте, с. 61.

54. نظّمت رابطة الكتّاب والدائرة الثقافية في البنك الأهلي حفلاً لإصدار ثلاثة كتب -(Yazıçlıar Birliyi və Milli Bankın Mədəniyyət Departamenti üç kitabın nəşri ilə bağlı mərasim təşkil edib), (12 iyul 2005), رابطة الكتاب والدائرة الثقافية في البنك الاهلي تنظمان حفلا باصدار ثلاثة كتب

55. Ноев Ковчег. (2010, май). Армянский облик Египта [Misirin erməni siması], No. 05 (152) - https://noev-kovcheg.ru/mag/2010-05/2054.html

56. Azad-Hye. (2006, May 12). Sona Zeitlian’s new book: Armenians in Egypt - https://www.azad-hye.com/news/sona-zeitlians-new-book-armenians-in-egypt/

57. Bibliotheca Alexandrina. (2014, March 16). Boghos Bek Yousefian through historical writings - https://www.bibalex.org/en/events/eventdetails?id=20593
58. Journal of Studies in History and Archeology. (2022). Boghos Bey Youssefian and his impact on Egyptian politics (1775–1844), No. 83. - https://jcoart.uobaghdad.edu.iq/index.php/2075-3047/article/view/286
59. تراجم مشاهير الشرق في القرن التاسع عشر (الجزء الأول)، الفصل السادس والعشرون. (XIX əsrdə yaşamış Şərqin məşhur şəxslərinin tərcümeyi-halı, 1-ci hissə, 26-cı fəsil) - https://www.hindawi.org/books/49464279/26/
60. Encyclopædia Britannica. (n.d.). Nūbār Pasha – prime minister of Egypt - https://www.britannica.com/biography/Nubar-Pasha
61. Heyking, E. V. (n.d.). Ägypten (Kairo). Wir hatten ganz früh die Visite von Tigrane Pasha. Projekt Gutenberg. https://www.projekt-gutenberg.org/heyking/tagebuec/chap006.html
62. Cartwright, M. (2 March 2018). Movses Khorenatsi. World History Encyclopedia - https://www.worldhistory.org/Movses_Khorenatsi/
63. مشروع "حكاية شارع" شخصية نوبار باشا، أول رئيس وزراء لمصر, - (Küçə Hekayəsi layihəsində Nübar Paşa... Misirin ilk Baş naziri) 4 April 2024 - https://www.youm7.com/story/2024/1/4/نوبار-باشا-فى-مشروع-حكاية-شارع-أول-رئيس-وزراء-لمصر/6435653
64. Carnegie Endowment for International Peace. (n.d.). مقال مصوّر: الأرمن في مصر [Foto məqalə: Misirdə ermənilər) - https://carnegieendowment.org/sada/6140
65. Serag, Y. M. (28 July 2019). Impacts of the internal and external displacement waves on the Egyptian cities. Global Security & Defense Affairs (IGSDA) - https://igsda.org/waves-of-displacement-in-egypt/
66. Armenian Museum of Moscow and the Culture of Nations. (17 August 2022). Армянская община в Египте. Часть 2 [Misirdə erməni icması. 2-ci hissə] - https://www.armmuseum.ru/news-blog/2024/egyptian-schools
67. Cairo University. (2014, October 30). Cairo University establishes a center for Armenian studies - https://cu.edu.eg/Home/news_detail/1263
68. Армяне в арабских странах. Вторая жизнь изгнанных - (2025, September 19)
69. مع الباحثة الأردنية الأرمنية الأستاذة مارال نرسيسيان – (İordaniyalı erməni tədqiqatçı, professor Maral Nersesyanla) 03 mart 2022 - https://www.ahewar.org/debat/show.art.asp?aid=748756
70. انعقاد منتدى الأعمال الأردني الأرميني – هلا اخبار (hala.jo) - İordaniya-Ermənistan Biznes Forumu 11 fevral 2020
71. Aleteia. (10 July 2022). Jerusalem's Christian leaders laud Jordan's king for defending them - https://aleteia.org/2022/07/10/jerusalems-christian-leaders-laud-jordans-king-for-defending-them/
72. LookLex Encyclopaedia. (n.d.). Jordan / Religions. Archived at - https://web.archive.org/web/20200423001350/http://looklex.com/e.o/jordan.religions.htm
73. PBS. (2000). Global connections: The Middle East - https://www.pbs.org/wgbh/globalconnections/mideast/maps/demotext.html
74. U.S. Department of State. (2023). 2023 report on international religious freedom: Jordan - https://www.state.gov/reports/2023-report-on-international-religious-freedom/jordan/
75. Sputnik Armenia. (2 февраля 2022). Армения не получила у Иордании заказанное оружие и требует штраф - https://ru.armeniasputnik.am/20221102/armeniya-ne-poluchila-u-iordanii-zakazannoe-oruzhie-i-trebuet-shtraf-50781063.html

BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# YAXIN ŞƏRQDƏ ERMƏNİ DİASPORU

## Tarixi, dini, siyasi, mədəni, media, təhsil və sosial fəaliyyətləri

Müəllif: Lalə Xəlilzadə

Bakı-2025

BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# YAXIN ŞƏRQDƏ ERMƏNİ DİASPORU

Tarixi, dini, siyasi, mədəni,
media, təhsil və sosial fəaliyyətləri